

# TÖVHİDİN FƏZİLƏTLƏRİ

Abdurrəhman ibn Muhəmməd ibn Abdullah
Əl-Umeysan

# TÖVHİDİN FƏZİLƏTLƏRİ

✦

## TÖVHİDİN ƏHƏMİYYƏTİ HAQQINDA FAYDALI MƏCMUƏ (TOPLU)

Birinci nəşr

Bakı 2023

Abdurrəhman ibn Muhəmməd ibn Abdullah **Əl-Umeysan**

Tövhidin əhəmiyyəti haqqında faydalı məcmuə (toplu)/ Abdurrəhman Əl-Umeysan. 1-ci nəşr. Nəşrin redaksiya və nəşriyyat dizaynı, Bakı 2023. — 272 səh.

Elmin, hər hansı bir sahəsinin faydalarını, bəhrələrini və əhəmiyyətini bilmək — elmin öyrənilməsinə maraq oyatmaq üçün zəruri vasitədir, bəhrəsi isə onu öyrənməkdə səy və cəhddir. Bu, çox vaxt Peyğəmbərimizin ﷺ yolu olub — bəzən, bəzi fəzilətləri qeyd etməklə, bəzən sual verməklə bunu edər, bəzən də bunun bəhrələrini qeyd edərdi.

Dərrakəli insan, şübhə etməz ki, tövhidi öyrənməyin ən böyük faydalarından biri odur ki, bu elm — tövhidi batil edən və ya əksildən şeylərdən qulu çəkindirir, uzaq edir. Quran və Sünnə mətnləri bir birini tamamlayaraq, bu böyük suala aydınlıq gətirir və buna təşviq edir, tövhidlə ziddiyyət təşkil edən şeyi, müxtəlif yollarla qadağan edir, və onlardan bəziləri haqqında, kitabda bəhs ediləcəkdir.

Kitab, islam dini ilə maraqlanan, geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

# Ön söz

Həmd ancaq Allaha məxsusdur! Ona həmd edir, Ondan yardım istəyir və məğfirətini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəltsə, onu heç kəs azdıra bilməz, kimi də azdırsa, onu heç kəs doğru yola yönəldə bilməz. Biz şəhadət edirik ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və Şəriksizdir. Yenə şəhadət edirik ki, Muhəmməd ﷺ Allahın qulu və son elçisidir.

**«Ey iman edənlər! Allahdan, Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!»**[1]

**«Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan, Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən həzər edin! Həqiqətən, Allah sizə nəzarət edir»**[2].

**«Ey iman edənlər! Allahdan qorxun və doğru söz söyləyin ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun elçisinə itaət etsə, böyük bir uğur əldə edər»**[3].

Şübhəsiz ki, sözlərin ən doğrusu — Allahın kəlamı, yolların ən gözəli isə — Muhəmmədin ﷺ yoludur. Əməllərin ən pisi — dində sonradan ortaya çıxan yeniliklərdir. Sonradan dinə salınan hər bir əməl — bidətdir, hər bir bidət — zəlalətdir. Hər zəlalət — Cəhənnəm odundadır.

---

1 “Ali-İmran” surəsi, 102 ayə.
2 “ən-Nisa” surəsi, 1 ayə.
3 “əl-Əhzab” surəsi, 70-71 ayələr.

Daha sonra:

İnsanlar, tək-ilahlığdan (*tövhiddən*) başqa heç bir şey bilmədən və heç nəyə etiqad etmədən, qısa müddət ərzində tək-ilahlığa sadiq qaldılar. Hər tərəfdən fitnələr və şər gəlib, Allahın rəhm etdiyi kimsələrdən başqa, insanları yoldan çıxarana qədər bu cür davam etdi.

Uca Allah buyurdu, O Pakdır: **«İnsanlar, tək bir ümmət idilər. Allah, müjdə verən və xəbərdarlıq edən peyğəmbərlər göndərdi»**[1].

Həmçinin, Uca Allah buyurdu: **«İnsanlar, vahid bir ümmət idilər, sonra ixtilaflara düşdülər. Əgər, Rəbbin tərəfindən, əzəldən bir Söz verilməsəydi, ixtilafa düşdükləri şey barəsində aralarında dərhal hökm verilərdi»**[2].

Qatadə demişdir ki: «Onlar, hamısı birgə, düz yolu tuturdular, lakin sonra ixtilaf etməyə başladılar və onlara ilk göndərilən peyğəmbər, Nuh[3] oldu»[4].

Allah, tövhid ilə peyğəmbərlər göndərdi ki, onlar insanlar üçün, Onun seçib razı qaldığı dini təzələyib, yadlarına salsınlar. Uca Allah buyurdu: **«Biz hər bir ümmətə: "Allaha ibadət edin və Tağutdan (bütlərdən) uzaq durun!" — deyə (əmr etmələri üçün) peyğəmbər göndərdik»**[5]. Həmçinin tövhid — cinlərin və insanların yaradılış məqsədidir. Uca Allah buyurdu: **«Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım»**[6].

Adəm peyğəmbərdən başlayaraq, peyğəmbərimiz Muhəmmədə ﷺ qədər, peyğəmbərlər və elçilər, *tövhidin* sərhədlərini müdafiə etməkdən əl çəkməmişlər, insanlar isə dəstələrlə Allahın dininə daxil oldular, hər tərəfdən gələrək, haqq nuru ilə nurlandılar, pak şəriəti öyrəndilər, qəlblərini şirk və günah çirkabından təmizlədilər. O vaxta qədər ki, peyğəmbərimiz Muhəmməd ﷺ öz risalətini çatdırdıqdan və tapşırılanı yerinə yetirdikdən, ümmətini

---

[1] "Bəqərə" surəsi, 213-cü ayə.
[2] "Yunus" surəsi, 19-cu ayə.
[3] Əl-Buxari "Əs-Səhih"də şəfaət haqqında bir hədis nəql etmişdir ki, Adəmin belə dediyi deyilir: ***"Gedin Nuhun yanına, həqiqətən o, — Allahın yer üzünə göndərdiyi bir peyğəmbərdir..."*** (Təfsir kitabı, Bəqərə surəsi haqqında fəsil 4476).
[4] Cami' əl-bəyan, 2/334–335.
[5] "Nəhl" surəsi, 36-cı ayə.
[6] "əz-Zəriyət" surəsi, 56-cı ayə.

***«açıq aydın, gecəsi gündüz kimi olan, həlak olanlardan başqa heç kimin azmayacağı bir yolun üzərində»***[1] qoyduqdan sonra, ən yüksək məclislə qarşılaşdı (yəni, vəfat etdi).

Sonra, alim-maarifçilər (*rabbanilər*) addım-addım peyğəmbərin ﷺ yolu ilə getdilər, ona ən gözəl şəkildə riayət edərək, Allah yolunda həqiqi cihad edərək, ölüm onları bu yolda yaxalayana qədər. Və bu alimlərin ilkləri, seçilmiş səhabələr olublar, Allah onlardan olan mühacir  və ənsarlardan razı olsun.

Bu ümmətin əməlisalehlərindən (*əs-siddiq*) — Əbu Bəkrdən (Allah ondan razı olsun) nəql olunur ki, o demişdir: *«Mən Rəsulullahın ﷺ etdiyi heç bir şeyi tərk etmirəm, çünki onun əmrindən bir şey tərk etsəm, qorxuram ki, azacağam»*[2].

Həmçinin, Ömər ibn əl-Xəttabdan (Allah ondan razı olsun) rəvayət olunur ki, o, "Qara daşı" öpmək üçün, ona yaxınlaşdıqda, etdiyi hərəkətin mənasını aydınlaşdırmaq üçün, ucadan bu sözləri söylədi: *«Həqiqətən, mən bilirəm ki, sən (sadəcə) bir daşsan (özlüyündə), nə bir zərər, nə də bir xeyir verə bilərsən, və əgər mən Rəsulullahın ﷺ səni necə öpdüyünü görməsəydim, səni öpməzdim!»*[3].

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) demişdir: «Həqiqətən, Ömər bunu ona görə söylədi ki, insanlar bir az bundan əvvəl bütlərə sitayiş edirdilər və o qorxurdu ki, cahillər daş öpməyi, ərəblərin cahiliyyət dövründə etdikləri kimi, bəzi daşların ucaldılması ayinləri ilə bağlı olduğunu düşünərlər. Ömər, insanlara öyrətmək istəyirdi ki, daşı öpmək ayini, onların bütlərə olan inancları

---

[1] İrbad ibn Səriyyədən (Allah ondan razı olsun) səhih bir hədisdə belə nəql olunur: "Allahın Peyğəmbəri ﷺ demişdir: "***Mən sizi açıq-aydın bir yolda qoyub getdim ki, onun gecəsi gündüz kimidir, həlak olandan başqa heç kəs ondan azmaz".*** İbn Əbu Asim hədisi nəql etmişdir 48 nömrə altında. Şeyx əl-Albani hədisin səhih olduğunu söyləmişdir.

[2] Hədisi, əl-Buxari qənimətin beşdə birinin vacibliyi, 3093 nömrəli kitabında, həmçinin İmam Müslim "Cihad" kitabının Peyğəmbərin sözləri ilə bağlı 4582 nömrəli fəslində nəql etmişdir: « ال نورث ما تركناه فهو صدقة ».

[3] Əl-Buxari 1597, Müslim 1670.

kimi, daşın öz-özlüyündə xeyir və ya zərər gətirdiyi üçün deyil, Rəsulullahın ﷺ əməllərinə tabe olmaq üçün edilir»[1].

Həmçinin, Əbu əl-Həyyac əl-Əsədinin hədisində, belə dediyi rəvayət edilir: «Əli ibn Abu Talib (Allah ondan razı olsun) mənə dedi: *"Allah Rəsulunun ﷺ, mənə əmr edərək göndərdiyi kimi sənə də bir şeyi əmr edərək göndərməyimi istəyirsənmi? Dağıtmadığın heç bir heykəl və yerlə bir səviyyədə etmədiyin heç bir yüksək qəbir qoyma"»*[2].

Onlar, tövhidə ən yaxşı şəkildə əməl edirdilər və başqa cür necə ola bilərdi? Çünki tövhid — onların həyatıdır, imam-muhəddis Yəhya ibn Ammar əs-Sicistani [3] (Allah ona rəhmət etsin) qeyd etdiyi kimi: «Bilik beş növdür: dinin canı olan bilik — bu da tövhid haqqında bilikdir; dinin qidası olan bilik, bu da öyüd-nəsihət və zikrdir; dinin dərmanı olan bilik, bu da fiqhdir; dinin xəstəliyi olan bilik, bu da saleh *sələflər* arasında baş verənlərdir; və dinin həlakı olan bilik, bu da fəlsəfədir»[4].

Tövhidi batil edən şey — fitnə-fəsadın ən böyüyüdür. Şeyxul İslam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Tövhid — nemətlərin ən böyüyü olduğu kimi, şirk də — fitnə-fəsadın ən böyüyüdür. Ona görə Uca Allah buyurmuşdur: **«Həqiqətən, Firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölmüşdü. (Firon) onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi»** [5], və sonra bu surəni belə yekunlaşdırdı: **«Biz o Axirət**

---

[1] Bax: Şərh Səhih əl-Buxari, İbn Battal, 4/278. Həmçinin onu Hafiz İbn Həcər "əl-Fəth" 3/541-də gətirmişdir, lakin mən bu hədisi ət-Təbərinin kitabında tapmadım.
[2] Muslim 969.
[3] O, imam-mühəddis Əbu Zəkəriyya, Yəhya ibn Əmmar ibn əl-Ənsabdır, o hicri təqvimlə 482-ci ilin Zilqədə ayında vəfat etmiş və onun dəfn mərasimi (cənazəsi) çox idi ("Siyar ələm ən-nubələ") 17/481).
[4] Siyar ələm ən-nubələ, 17/482.
[5] "əl-Qasas" surəsi, 4-cü ayə.

**yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. (Gözəl) aqibət müttəqilərindir»**[1].[2]

Həmçinin alim İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) demişdir: “Hər kim dünyanın vəziyyəti haqqında düşünərsə, anlayar ki, yer üzündəki bütün xeyirlərin səbəbi — Allahı təkləşdirmək və yalnız Ona ibadət etmək, və Peyğəmbərinə ﷺ tabe olmaqdır; və dünyadakı bütün pisliklərin, qarışıqlıqların, bəlaların, quraqlıqların, düşmən qələbələrinin və bu kimi şeylərin səbəbi isə — Rəsulullaha ﷺ tabe olmamaq, eləcə də Allaha və Rəsuluna ﷺ tərəf dəvət etməməkdir”[3].

Necə ki, İmam Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) qəlbləri islah etməyin yeganə yolunu açıqlayaraq təsdiqlədi: “Qəlblər Allahı tanımayınca, qəlblərdə Onun ucalığı, sevgisi və qorxusu, Ona təqva və təvəkkül güclənməyincə və qəlblər bununla dolmayınca islah olmazlar. Tövhidin əsl mahiyyəti budur və *“Lə iləhə illəllah”* [4] şəhadətinin mənası da budur. Qəlblər Tək, şəriki olmayan, Allahı tanıyıb, sevib və ondan qorxub ibadət obyekti (*ilah*) etməyənə qədər islah olmazlar”.[5]

Həmçinin Şeyx əs-Sidi (Allah ona rəhmət etsin) demişdir: «Gözəl təsirində və müxtəlif fəzilətlərində, tövhid kimi bir şey yoxdur. Çünki dünya və axirət xeyiri — tövhid və onun fəzilətlərinin meyvələrindəndir».[6]

Amma təəssüflər olsun ki, insanların bəziləri, Allahdan başqasına qul olmağı üstün tutaraq, şəriki olmayan, yalnız Allahın ibadətə layiq olduğunu göstərən, şəriət mətnlərinə etinasızlıq göstərmişlər. İbn əl-Qəyyim “Nuniyyə” şeirində dediyi kimi:

*Onlar xəlq olunduqları qulluqdan qaçdılar,*

---

[1] "əl-Qasas" surəsi, 83-cü ayə.
[2] “Məcmul-fətava” (18/162) və ondan sonrakılar.
[3] “Bədaiul-fəvaid” İbn əl-Qəyyim, 3/857.
[4] Tərcüməsi: “Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur”.
[5] “Camiul-ulum və əl-hikəm”, 95.
[6] “Əl-kaul əs-sədid fi məkasidi ət-tövhid”, 23.

*Və nəfsin və şeytanın əsarətinə düşdülər.*

*Əslində isə, necə ki, bir deyimdə deyilmişdi:*

*Ola bilsin ki, gözlər günəşin işığını hiss etmir göz xəstəliyi səbəbiylə,*

*Ağız isə ağız xəstəliyi səbəbiylə suyun dadını hiss etmir.*

Buna görə də, Şeyxul-islam Muhəmməd ibn Əbdülvəhhab (Allah ona rəhmət etsin) belə izah edir: «Həqiqətən, cahillərin "biz tövhidi başa düşdük" sözləri, şeytanın ən böyük nadanlığının və hiyləgərliyinin göstəricisidir».

Şeyx Muhəmməd ibn İbrahim Əli-Şeyx (Allah ona rəhmət etsin) bunu təsdiq edərək, demişdir: «İnsan, *tövhiddən* çəkinməli deyil, çünki, həqiqətən, tövhiddən çəkinməklə, insanlar onun əksinə düşürlər. İslamı bəyan edənlər isə, sırf tövhid haqqını lazımınca yerinə yetirmədikləri və düzgün öyrənmədikləri üçün, həlak oldular. Onlar hesab edirdilər ki, onlara sadəcə olaraq, özlərini müsəlman adlandırıb, iki şəhadət vermək kifayətdir, amma tövhidi batil edən şeyə, tövhidin tamlığına zidd olan şeyə baxmadılar — onlarda bu varmı, ya yox? Bütün bunlar, ehtiyatsızlıqdan və tövhid kəlmələrini sözbəsöz başa düşməkdən irəli gəlir. Tövhidi tam bilən kimdir? Həmd olsun Allaha, Tövhidin əsası məlumdur, lakin onun dərəcələri və şaxələri var, və tövhidin əksinin də şaxələri var— bu da *şirkdir*»[1].

Tövhidin vacibliyinə dair, bu qısa müqəddimədən sonra, mən bu xeyirdə iştirak etmək istəyirəm ki, bu, mənim və qardaşlarım üçün bir öyüd-nəsihət və tövhidin əhəmiyyətini və mövqeyini aşağılayanlar üçün təkzib olsun. Mən, bu kitabı «Tövhidin əhəmiyyətini açıqlayan, faydalı toplu» adlandırdım. Diqqətinizi ona çəkirəm ki, bütün faydaları haqqında danışmamışam, amma bunu etməyə çalışmışam. Və heç bir şübhə yoxdur ki, çatışmazlıqlar və zəifliklər, mənim özümdəndir. Həmçinin mən, bu kitabda, yalnız səhih hədislərdən sitat gətirmişəm, etibarsız hədislərə istinad etməmişəm [2].

---

[1] Şərh kəşf əş-şubuxat, 108-109.

[2] İbn əl-Qəyyim bu bölmədə gözəl sözlər demişdir: "Əgər biz yalan dəlil gətirsəydik, o zaman özümüzə uydurma hədislər yaymağa icazə verərdik. Biz, Əbdüssəlamı tərif edənlərdən, bəzilərini qeyd etdik, lakin səhih hədisləri, zəif adlandırmaqdan və ya hər hansı bir imamın

Həmçinin, Uca Allaha şükürdən sonra, bu kitaba verdiyi rəylə, mənə hörmət edən möhtərəm şeyximiz, atamız, alimimiz Abdullah ibn Əbdüləziz əl-Aqilə (Allah onu qorusun) təşəkkür etməyi unutmadım. Allahdan bunun onun tərəzisində bir xeyir əməl olmasını diləyirəm.

Həmçinin, elm tələb etməkdə, Uca Allahdan sonra, mənə yardımçı olan, şeyximi və mürşidimi — möhtərəm şeyximiz, mühəddis Əbdülmuhsin ibn Həmd əl-Abbad əl-Bədr (Allah onu qorusun) və onun oğlu, mürşid, elmlər doktoru Əbdürrəzzaq ibn Əbdülmuhsin əl-Bədr (Allah onu qorusun) unutmadım, eləcə də digər möhtərəm şeyxlərim (Allah onların hamısını qorusun). Həmçinin, möhtərəm valideyinlərimi da unutmadım, düz yola hidayət olmaları, sözdə və əməldə islah olmaları üçün, daima dua edərək: **"Allahım! Onlara rəhm et, çünki onlar məni uşaqlıqda böyüdüblər".** Və Allah, mənə kömək edən hər kəsə, ən gözəl mükafat versin.

Həmçinin mən Pak, Böyük və Qüdrətli olan Allahdan istəyirəm ki, hamımızı tövhidi həyata keçirməyə yönləndirsin: bizi, ailəmizi, valideynlərimizi və nəslimizi, eləcə də bütün müsəlmanları bilərək şirk etməkdən uzaqlaşdırsın, və biz bilmədiklərimizə görə bağışlanma diləyirik, həqiqətən, O, Bağışlayandır, Rəhmlidir: **«...Mən ancaq bacardığım qədər sizi islah etmək istəyirəm. Mən ancaq Allahın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam»** [1].

Əbdürrəhman ibn Muhəmməd ibn Abdullah əl-Umeysanı tərəfindən yazılmışdır, Allah onu, valideynlərini, ailə üzvlərini, şeyxlərini və bütün müsəlmanları bağışlasın!

Bu kitabın yazılması, 1429-cu hicri ilin, Cəmadiyuləvvəl ayının, iyirmi doqquzuna düşən, bazar ertəsi gecəsi tamamlandı.

---

sözü ilə, ziddiyyət təşkil edərsə, onlarda bir xəstəlik olduğunu düşünməkdən, Allaha sığındığımız kimi, bu yoldan da Allaha sığınırıq" («Təhzib əs-Sünnə», 12/ 451).

[1] "Hud" surəsi, 88-ci ayə.

# Giriş

## Tövhidin vacib olduğunu bilməyin faydaları

Elmin, hər hansı bir sahəsinin faydalarını, bəhrələrini və əhəmiyyətini bilmək — elmin öyrənilməsinə maraq oyatmaq üçün zəruri vasitədir, bəhrəsi isə onu öyrənməkdə səy və cəhddir. Bu, çox vaxt Peyğəmbərimizin ﷺ yolu idi — bəzən, bəzi fəzilətləri qeyd etməklə bunu edirdi, məsələn o demişdir ki: ***«Dilə yüngül gələn, çəkidə ağır gələn, Rəhmana əziz olan, iki kəlmə — "Allah Pak və Müqəddəsdir! Allaha həmd olsun! Böyük Allah Pak və Müqəddəsdir!"»*** Bəzən isə, o bunu sual verərək edirdi, məsələn Peyğəmbərin ﷺ bu sözləri kimi: ***«Ey Muaz! Sən Allahın qulları üzərindəki haqqını bilirsənmi?...».*** Bəzən, bunun bəhrələrini qeyd edirdi, məsələn, onun bu sözləri ilə: «***Üç xüsusiyyət var ki, onun sahibi imanın şirinliyini hiss edər...».*** Həmçinin, Peyğəmbər ﷺ digər faydalı, tərbiyə üsullarından istifadə etmişdir. Bu səbəbdən, İmam Muhəmməd ibn Əbdülvəhhab (Allah ona rəhmət etsin) özünün "Kitab ət-tövhid" əsərini, Peyğəmbərdən ﷺ nümunə götürərək "Tövhidin fəziləti və onun günahlara kəffarə olması haqqında fəsil" adlı fəsili ilə başlamışdır. Alimlər

arasında məlumdur ki, “elmin şərəfi — öyrənilənin şərəfinə uyğundur, və Yaradan da — öyrənilənlərin ən şərəflisidir”[1].

İbn əl-Qəyyim demişdir: «Tövhid və ixlas — qəlbdə olan bir ağacdır ki, onun budaqları əməllərdirlər, meyvələri isə — bu dünyada gözəl həyat, axirətdə isə əbədi ləzzətdir. Necə ki, cənnətdə, meyvələr bitməyən və əlçatandırlar, eyni o cür də bu dünyada da tövhid və ixlas meyvələri bitmirlər və əlçatandırlar»[2].

Bu barədə “əd-Durar əs-saniyyə” kitabında deyilir: «*Lə iləhə illəllah* — səadət ağacıdır və əgər o, iman torpağında əkilsə, ixlas suyu ilə suvarlanarsa və saleh əməllərlə onun qayğısına qalarlarsa, o zaman onun kökləri və gövdəsi möhkəm olarlar, yarpaqları yaşıl olarlar, meyvələri yetişər və çoxalarlar: **“O (ağac), Rəbbinin izni ilə, hər zaman bar verər”** [3]. Əgər o yalan və şübhə torpağına əkilsə, göstəriş və riyanın suyu ilə suvarlanarsa, pis işlər və sözlərlə əlaqələndirilsə; və əgər bu ağac pis su ilə dolsa, günorta istisindən yanarsa, meyvələri və yarpaqları tökülər, gövdəsi toza çevrilər, budaqları qırılar, ona qarşı torpaq tufanı qalxar və o tamamilə çökər: **"Biz onların etdikləri əməllərə baxdıqdan sonra onları sovrulmuş toz dənəciklərinə çevirərik"** [4]»[5].

Uca Allah buyurur: **«Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (lə ilahə illəllah) kökü (yerdə) möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir»** [6].

Dərrakəli insan, şübhə etməz ki, tövhidi öyrənməyin ən böyük faydalarından biri odur ki, bu elm — tövhidi batil edən və ya əksildən şeylərdən qulu çəkindirir, uzaq edir. Quran və Sünnə mətnləri, bir birini tamamlayaraq bu böyük suala aydınlıq gətirir və buna təşviq edir, tövhidlə ziddiyyət təşkil edən şeyi, müxtəlif yollarla qadağan edir — və əgər Ondan kömək dilədiyimiz,

---

[1] "Əhkəm əl-Quran" İbn əl-Ərəbi, 2/993.
[2] "Əl-Fəvaid" İbn əl-Qəyyim, 240.
[3] "İbrahim" surəsi, 25-ci ayə.
[4] "Furqan" surəsi, 23-cü ayə.
[5] "Əd-Durar əs-saniyyə", 2/115.
[6] "İbrahim" surəsi, 24-cü ayə.

Tək və Pak olan Allahın izni olarsa, onların bəziləri haqqında daha ətraflı danışacağam.

# Ərəb dilində və şəriətdə «tövhid» sözünün tərifi

## Ərəb dilində təkallahlılıq (tövhid)

İbn əl-Faris (Allah ona rəhmət etsin) demişdir: « وحد » (*vəhəda*) kəlməsi təkliyə dəlalət edir,« الوحدة » (*əl-vəhdətu*) kəlməsi də həmçinin” [1].

Əl-Leys (Allah ona rəhmət etsin) demişdir: «الواحد» (*əl-Vahid*) – tək olandır”. Sonra, əl-Fərrdən onun sözlərini nəql etdi: «التوحيد» (*ət-tövhid*) — şəriki olmayan tək Allaha imandır. Allah — Təkdir, Təkliyə sahib olan yalnız Odur [2].

Həmçinin, əl-Əzhəri (Allah ona rəhmət etsin) demişdir: “Həmd-səna edilən, Allahın «أحد» (*Əhəd*) adına gəldikdə isə, Ondan başqa, heç kəs, təkliyi ilə vəsf edilməmişdir. “İnsan təkdir — رجل أحد (*rəcul-əhəd*) və ya “Dirhəm təkdir — درهم أحد (*dirhəm əhəd*)” deyilmir, lakin: “Bir insan” — رجل واحد (*rəcul-vahid*) deyilir, çünki təklik, Allahın sifətlərindəndir ki, onunla yalnız, O vəsf edilir və bu işdə heç kim Onun şəriki deyildir.

[1] Mücəm məqayis əl-lüğə, 6/90.
[2] “Təhzib əl-lüğə” əz-Zuhri, 5/192.

Allahın vəsfindəki «واحد» (*vahid*) kəlməsi, Onun ikincisinin olmadığına dəlalət edir.

Bir şey haqqında واحد (*vahid*) demək olar, lakin «أحد» (*əhəd*) sözü Allahu Təalədan başqa, heç kəsi vəsf etmir və bu adla yalnız O, Tərifə layiq olan vəsf edilir[1].

İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: «Uca Allahın «الواحد» (*əl-Vahid*) adı "Tək (Bir) olmaqdan vaz keçməyən və Onun yanında başqası olmayan Tək olan" - deməkdir"»[2].

Bütün bunlardan, belə başa düşülür ki, dildəki «*tövhid*» kəlməsi Uca Allahın şəriki olmadığını, Ondan başqa Rəbbin olmadığını, başqa məbud olmayan, Tək varlıq hesab etməkdir.

# Şəriətdə təkallahlılıq (tövhid)

Şübhə yoxdur ki, bir sözün şəriət mənası, çox vaxt linqvistik mənaya bənzəyir.

Alimlər "*tövhid*" sözünə belə tərif vermişlər: "Bu — şəriki olmayan, yalnız Allahın ibadətə layiq olduğuna dair, qəti əminlikdir. Və qorxu, ümid, dua, qurban, nəzir və təvəkkül kimi heç bir ibadət və ya onun bir hissəsi Ondan başqasına, həsr edilməməlidir[3].

İbadət (العبادة — 'ibədə) – batini və zahiri (gizli və aşkar) söz və əməllərdən, Allahın sevdiyi və razı qaldığı hər şeyi bildirən bir addır: namaz, zəkat, oruc,

---

[1] Təhzibul-lüğə əz-Zuhri, 5/197-198.
[2] Ən-Nihayə fi ğəribul-hədis, 5/159.
[3] Bax "Minhəc əs-Sünnə" 3/289, "İctima'ul-cuyuşi əl-İslamiyyə" 93, "Şərh ət-təhaviyyə" (1/24).

həcc, sözdə doğruluq, əmanətin yerinə yetirilməsi, ata-anaya yaxşılıq, qohumluq əlaqələrinin saxlanması, əhd-peymanların yerinə yetirilməsi, bəyənilənin əmr edilməsi, məzəmmət edilənin qadağan edilməsi, kafir və münafiqlərlə cihad, qonşulara, yetimlərə, kasıblara, müsafirlərə, kölələrə, mal-qaraya yaxşılıq, dua, zikr, Quran oxumaq — bütün bunlar *ibadətdir*. Həmçinin buna aiddir Allaha və Rəsuluna ﷺ məhəbbət, Allah qorxusu, Ona qayıdış, dinin yalnız Ona məxsus edilməsi, Onun əmrlərinə səbir, nemətlərə şükür, təqdirə razılıq, Ona təvəkkül, Onun rəhmətinə ümid, Onun əzabından qorxmaq və buna bənzər — bunların hamısı Allaha *ibadətdir*[1].

# Tövhidin növləri

Quran və Sünnə mətnlərini, diqqətlə öyrəndikdən sonra, başa düşülür ki, Quranda, Sünnədə və saleh sələflərin sözləri ilə qeyd olunan *tövhid*, üç növdür[2].

Həmçinin buna misal olaraq, ilk surəsi «Fatihə» olan Qurani-Kərimdir. Uca Allah orada buyurur:

ٱلۡحَمۡدُ لِلَّهِ رَبِّ ٱلۡعَٰلَمِينَ

**Həmd olsun aləmlərin Rəbbi olan Allaha.**

«**Həmd olsun Allaha**» **—** kəlmələri qulun istək və səylərində Allahı təkləşdirməkdir. «الحمد» (*əl-həmdu*) kəlməsi — *tövhidul-uluhiyyənin* (ibadətdə tövhidin) göstəricisidir. Uca Allahın — «ﷲ» (*Allah*) adının zikr edilməsi — onu ad və sifətlərində təkləşdirməkdir (*tövhid əl-əsmai və əs-sıfat*), bu da həmçinin Onun «ﷲ» Allah adına işarə edir. «رب» (*Rəbb*) kəlməsi – Rəbb – hökmranlıqda, Allahın təkliyinə inanmağa dəlalət edir və bu, *tövhid ər-rububiyyədir* (Allahı hökmündə təkləşdirmək), çünki Allah hər şeyin Rəbbidir və onların sahibidir.

---

[1] “Məcmu‘ul-fətava” 10/1490, “əl-‘Ubudiyyə” İbn Teymiyyə 19.

[2] *Qeyd*. Allahın haqqları bölünmürlər, amma bölünən odur ki — hansı tərəfdən yerinə yetirilməlidirlər bu haqqlar.

O, həm də Uca Allahın, O Pak və Müqəddəsdir – «رب» (*Rəbb*) – Rəbbin adına işarə edən *tövhidul-əsmai və əs-sifətdəndir*. Həmçinin «الرّحْمَنِ الرّحِيمِ **Rəhman və Rəhim**» ayəsi Uca Allahın rəhmət kimi, bir sifətinə dəlalət edən, iki adıdır və bu kimi Qurani-Kərimin bütün ayələri də həmçinin.

Tövhidin hər üç növü birlikdə, Uca Allahın kəlamında qeyd edilmişdir:

رَّبُّ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ وَمَا بَيۡنَهُمَا فَٱعۡبُدۡهُ وَٱصۡطَبِرۡ لِعِبَٰدَتِهِۦۚ هَلۡ تَعۡلَمُ لَهُۥ سَمِيّٗا

**"O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbrli ol! Heç Ona oxşarını tanıyırsanmı?!"**[1]

Peyğəmbərlik sünnətinə gəlincə, rəvayət olunur ki, Abdullah (ibn Məsud) (Allah ondan razı olsun) Peyğəmbərdən ﷺ soruşduqda: *"Allah yanında ən böyük günah nədir?"*, o cavab verdi: ***"Hər hansı bir kimsəni, səni yaradan Allahla bərabər tutmaq"*** [2]. Həzrəti Peyğəmbər ﷺ izah etmişdir ki, Allahın rəbblik tövhidindən, (*tövhid ər-rububiyyə*), ibadətdə tövhid (*tövhidul-uluhiyyə*) əmələ gəlir.

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunan hədis də, buna dəlalət edir ki, Peyğəmbər ﷺ belə buyurdu: ***«Həqiqətən, Allahın doxsan doqquz ismi vardır, yüzdən biri əskik. Kim onları sayarsa, Cənnətə daxil olar»***. Həmçinin başqa bir rəvayətdə, Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ belə buyurdu: ***«Həqiqətən, O təkdir və tək olanı sevir»***[3]. Allaha aid olan, gözəl isimlər vardır, və onlar Onun hökmranlığına və yalnız Ona ibadət etmək haqqına dəlalət edən, uca sifətləri ehtiva edirlər.[4]

Həmçinin, saleh sələflərdən, belə bir tövhid bölgüsünün səbəbi nəql edilmişdir. İmam Əbu Hənifə ən-Numandan (Allah ona rəhmət etsin) rəvayət olunur ki, o demişdir: "Allahu Təalə aşağıdan deyil, yuxarıdan çağırır, çünki aşağılıq heç bir halda hökmranlığın və ilahiliyin təsviri ola bilməz".[5] O (Allah ona rəhmət etsin) *tövhid-rububiyyəni* və *tövhid-uluhiyyəni* izah etmişdir.

İmam İbn Hibban (Allah ona rəhmət etsin) demişdir (vəfat tarixi hicri təqvimlə 354-cü ildə): "*Tövhid-uluhiyyədə*, tək olan, hökmranlığı ilə uca olan,

---

[1] "Məryəm" surəsi 65-ci ayə.
[2] Əl-Buxari 4477, Muslim 141.
[3] Muslim 6809.
[4] Bax, "Bədai əl-Fəvaid" 1/30, "Madaric əs-Salikin" 1/719.
[5] Əl-Fiqhul-Əkbər İmam Əbu Hənifə, səh.51.

bu dünyanın nəfslərinin aqibətini idarə edən, onların necə dəyişildiyini və vəziyyətlərini bilən, davamlı və qeyri-məhdud nemətlər bəxş edən, məxluqatı yardımçısı və məsləhətçisi olmadan yaradan, insanları istədiyi kimi, bənzərsiz və nümunəsiz yaradan, Allaha həmd olsun" [1].

İmam İbn Bətta (Allah ona rəhmət etsin), sünnə və onun ətrafında toplaşan (*Əhli-sünnə vəl-cəmaə*), əqidələrini açıqlayaraq, belə demişdir (vəfatı hicri təqvimlə 387-ci ildə): “Peyğəmbər ﷺ, insanları Böyük və Qüdrətli Allahın tövhidinə, Onun hökmranlığını təsdiqləməyə və əmrinə tabe olmağa dəvət etdi və Allah Öz məxluqlarına qarşı, açıq-aydın bir dəlil verənə qədər, onlar tövhidi təmizə çıxarana qədər və Allahın dini, bütün dinlərdən üstün olana qədər, onların çətinliklərinə səbir etdi" və onun bu kəlamına qədər: “Quran —Uca Allahın elmindəndir, onda Onun uca sifətləri və gözəl adları vardır” [2].

Sonra İmam İbn Bətta (Allah ona rəhmət etsin), tövhidin hər üç növünü, ətraflı şəkildə izah edərək, buyurdu: “Bu ona görədir ki, məxluqlara vacib olan — *imanın* əsası — onların üç şeyə inanması və etiqadıdır:

Bunlardan birincisi: Yaradanı inkar edən, ateistlərdən fərqlənmək üçün, qulun Allahın hökmranlığına inanması.

İkincisi: Yaradanı tanıyan, lakin ibadətdə Ona şərik qoşan, şirk tərəfdarlarından fərqlənmək üçün, Allahın təkliyinə inanmaq.

Üçüncüsü: Allahın, Öz Kitabında, Özünü vəsf etdiyi kimi — elm, qüdrət, hikmət və başqa sifətlər ilə, yalnız Onun vəsf edildiyinə əminlik. Və biz öyrəndik ki, Ona iman gətirənlərin və Onu ümumi sözlərlə təkləşdirənlərin çoxu, Onun sifətlərini təhrif edirlər və Allahın sifətlərinin, bu şəkildə təhrif edilməsi, Allahın tövhidinə küfürdür. [3]

---

[1] “Ra’dətul-‘ukalə”, səh.14.
[2] Əl-ibana əl-kubra, Cəhmitlərə təkzibə dair hissə, 1/210-213, İbn Bəttanın əl-İbanə əs-suğra, səh. 117.
[3] Əl-ibənə əl-kubra, cəhmitlərin təkzibinə dair hissə, 2/172-173.

İmam İbnMəndəh (Allah ona rəhmət etsin) (vəfatı hicri təqvimlə 395-ci ildə) "Tövhid kitabı" adlanan kitabının, fəsillərindən birini, belə adlandırmışdır: «Uca və Qüdrətli Allahın, Özünü vəsf etməsi və Onun təkliyinə dəlalət haqqında zikr edilməsi fəsli. Allah Möhtac (صمد) deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur"»[1].

İmam əl-Ləlaqayi (Allah ona rəhmət etsin) demişdir (vəfatı hicri təqvimlə 418-ci ildə): "Və biz şəhadət edirik ki, Allahdan başqa, ibadətə layiq haqq məbud yoxdur, Allah Təkdir, şəriki yoxdur, O dirildir və öldürür, yaradır və ruzi verir, yaratmağa başlayır və onu yenidən yaradır, hökmranlığını təsdiq edən və ilahiliyinə itaət edən bir şəhadətlə şəhadət veririk... Daha sonra, həqiqətən də insanın ən mühüm vəzifəsi, dini etiqadını yəqinlik və dəlilləri ilə bilməsidir və həmçinin Allahın qullarına vacib etdiyi bu kimi şeyləri bilməsidir: tövhid anlayışını, Allahın sifətlərini, Onun peyğəmbərlərinə imanı".[2]

Həmçinin, İmam Əbu 'Amr 'Osman əd-Daninin (Allah ona rəhmət etsin) kəlamında da gəlib (vəfatı hicri təqvimlə 444-cü ildə): "Allahu Təaləya iman, Onu tək hesab etmək və Allahı Onun sifətləri ilə vəsf etməkdən ibarətdir. Allahın tövhidi — Onun varlığının və ibadətə layiq olan, tək varlığının təsdiqidir ki, Uca Allahın kəlamı buna dəlalət edir: **"Sizin ilahınız tək olan ilahdır. Ondan başqa heç bir ilah yoxdur. O, Rəhmandır, Rəhimdir!"** [3]»[4]

İslam imamlarının sözlərindən, yuxarıda qeyd olunanların hamısı onu göstərir ki, saleh sələflər (Allah onlardan razı olsun) hələ Şeyxülislam İbn Teymiyyə və onun tələbəsi İbn əl-Qəyyimdən (Allah onlara rəhmət etsin) əvvəl də tövhidi bu üç növə bölmüşlər, ya birbaşa mətndə, ya da onların sözlərindən başa düşülürdü.

---

[1] "Kitab ət-tövhid" İbn Məndəh 1/61. Bax: Şeyximiz doktor Əli ibn Nasir Fəqihinin (Allah onu qorusun) qeydi.
[2] "Şərh üsul etiqad əhli-sünnə", 1/6–7.
[3] "Bəqərə" surəsi, 163-ci ayə.
[4] "Risalətul-vafiyə ibn 'Əmra əd-Dani", səh. 120

# Tövhidin "Lə iləhə illəllah" sözlərinin mənası

Onların mənası — «Allahdan başqa, ibadətə layiq olan, ilah yoxdur». Uca Allah buyurur:

ذَٰلِكَ بِأَنَّ ٱللَّهَ هُوَ ٱلۡحَقُّ وَأَنَّ مَا يَدۡعُونَ مِن دُونِهِۦ هُوَ ٱلۡبَٰطِلُ وَأَنَّ ٱللَّهَ هُوَ ٱلۡعَلِيُّ ٱلۡكَبِيرُ

**Bu ona görədir ki, Allah haqdır. Ondan başqa dua etdikləri (bütlər, tanrılar) isə batildir, Həqiqətən, Allah Ucadır, Böyükdür.** [1]

Həmçinin Uca Allah buyurur:

فَٱعۡلَمۡ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا ٱللَّهُ وَٱسۡتَغۡفِرۡ لِذَنۢبِكَ

**Bil ki, Allahdan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. Həm öz günahlarının, həm də mömin kişi və qadınların günahlarının bağışlanmasını dilə.**[2]

İmam İbn Cərir ət-Təbəri, bu ayələrin şərhi *(təfsiri)* haqqında, belə demişdir: «Bil ki, ey Muhəmməd, ilahiləşdirilməyə layiq olan, ilahiləşdirməsi icazəli olan, ilahiləşdirilməyə uyğun gələn, həmçinin sənin və digər məxluqların, həmin o varlığa ibadət etməyiniz icazəli olan Allahdan başqa varlıq yoxdur — Allah, məxluqların Xaliqidir, hər şeyin Hökmdarıdır və hökmranlıqda yalnız Ona itaət olunur».[3] Həmçinin, İmam İbn Cərir ət-Təbəri, Uca Allahın kəlamları haqqında demişdir:

فَإِلَّمۡ يَسۡتَجِيبُواْ لَكُمۡ فَٱعۡلَمُوٓاْ أَنَّمَآ أُنزِلَ بِعِلۡمِ ٱللَّهِ وَأَن لَّآ إِلَٰهَ إِلَّا هُوَۖ فَهَلۡ أَنتُم مُّسۡلِمُونَ

**Əgər (köməyə çağırdıqlarınız) sizə cavab vermirlərsə, bilin ki, Quran ancaq Allahın elmi ilə nazil olmuşdur və Ondan başqa heç bir ilah yoxdur! Elə isə, müsəlman olmayacaqsınızmı?** [4]

---

[1] "Həcc" surəsi, 62-ci ayə, "Loğman" surəsi 30-cu ayə.
[2] "Muhəmməd" surəsi 19-cu ayə.
[3] Cami əl-bəyan, 26/53.
[4] "Hud" surəsi, 14-cü ayə.

Və Ondan başqa ibadətə layiq olan, heç bir haqq məbud yoxdur və həmçinin əmin olun ki, yaradılış və əmr sahibi olan, Allahdan başqa, məxluqlar tərəfindən, ilahiləşdirilməyə layiq, heç bir ibadətə layiq, obyekt yoxdur. Başqa ibadət obyektlərini və Ona şərik qoşulanları tərk edin və yalnız Ona ibadət edin. [1]

Böyük alim, hafiz əl-Hakimi (Allah ona rəhmət etsin) şəhadətin mənasını açıqlayarkən, belə demişdir: "Bu sözlərdə, inkar və təsdiq var: "*Lə iləhə*" kəlməsi, Allahdan başqa, ibadət edilən hər şeyin — inkarıdır, ibadət olunmağa, layiq olan yoxdur; "*illə-llah*" — Allahdan başqa, və bu, yalnız Allahın, ibadətə layiq olduğunun təsdiqidir. Allah həqiqi məbuddur, buna layiq olandır. Quran və Sünnə mətnlərində isə لا (lə) hissəciki — gizli xəbərə (*xəbəri məhzuf*) işarə olunur.[2]

Ərəblərin dilində «إله (iləh)» sözü ibadət obyekti deməkdir. Uca Allahın kəlamları isə «إله (iləh)» sözünün, ibadət obyekti kimi təfsirinə dəlalət edir:

وَهُوَ ٱلَّذِى فِى ٱلسَّمَآءِ إِلَٰهٌ وَفِى ٱلْأَرْضِ إِلَٰهٌ ۚ وَهُوَ ٱلْحَكِيمُ ٱلْعَلِيمُ

**Göydə də məbud, yerdə də məbud (yalnız) Odur. O, Müdrikdir, Biləndir.[3]**

Yəni göydə və yerdə, Ona ibadət edilir [4], və bu ayənin mənası Allahın yaradan, ruzi verən, hakim və ya ölüləri diriləndən olması deyildir — və əgər belə olsaydı, Qureyşdən olan kafirlər Peyğəmbərə ﷺ belə deyərək qarşı çıxmazdırlar:

أَجَعَلَ ٱلْءَالِهَةَ إِلَٰهًا وَٰحِدًا ۖ إِنَّ هَٰذَا لَشَىْءٌ عُجَابٌ

**O, bütün məbudları bir məbudmu etdi? Həqiqətən, bu, əcaib bir şeydir.[5]**

---

[1] "Cami əl-bəyan", 10/11

[2] "Məaric əl-kabul", əl-Hakimi 2/516, və bu "Həcc" surəsinin 62-ci, "Loğman" surəsinin 30-cu ayəsinə işarə edir.

[3] "Zuxruf" surəsi, 84-cü ayə.

[4] Bax: "Cami əl-Bəyan" 25/104, Təfsir əl-Quran əl-Əzım 4/116, Fəthul-Qədir əş-Şövkani 4/740.

[5] "Sad" surəsi, 5-ci ayə.

Kafirlər təsdiq edirdilər ki, yaradıcı və hakim — Allahdır lakin onlar ayədən « إله (iləh) » sözünün məbud olduğunu başa düşdülər və buna görə də dedilər:

مَا نَعۡبُدُهُمۡ إِلَّا لِيُقَرِّبُونَآ إِلَى ٱللَّهِ زُلۡفَىٰٓ

**Biz onlara yalnız bizi Allaha yaxınlaşdırsınlar deyə ibadət edirik.** [1]

# «Lə iləhə illəllah» şəhadətinin şərtləri

Alimlər "*Lə iləhə illəllah*" kəlməsinin (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) Quran və Sünnədə açıqlanmış şərtlərinin var olması barədə və şəhadət verənin bu şərtləri, yerinə yetirməyincə, ondan heç bir fayda görməyəcəyi barədə yekdil fikirdədirlər. Onlar cəmi səkkizdirlər və onlar bu iki misrada toplanıblar:

*Elm, yəqinlik, ixlas və sadiqlik məhəbbətlə, təslimiyyətlə və qəbul ilə birlikdə.*

*Və səkkizincisi — məbud olaraq qəbul etdiklərini inkar etməyindir, haqq məbuddan başqa.*

Böyük alim, hafiz əl-Həkəmi (Allah ona rəhmət etsin) demişdir[2]:

*"Yeddi şərtlə qeyd olunmuşdur,*

*Vəhyin mətnlərində, haqqı ilə hamısı varid olmuşdur.*

*Bu şərtlər deyən adamda kamil olmazsa, şəhadət kəliməsindən faydalanmaz.*

*Bunlar: elm, yəqinlik, qəbul etməkdir.*

*Həmçinin boyun əyməkdir, bu dediklərimi başa düş.*

*Sadiqlik, ixlas və məhəbbətdir. Allah səni sevdiyi şeylərə müvəffəq etsin".*

[1] "Zumər" surəsi 3-cü ayə.
[2] Bu sətirlərin təfsiri böyük alim Hafiz əl-Həkəminin "Məaric əl-qəbul" kitabında verilmişdir, 2/518.

# Birincisi: inkar və təsdiqi, ehtiva edən, şəhadətin mənasını bilmək

Uca Allah buyurdu:

إِلَّا مَن شَهِدَ بِٱلْحَقِّ وَهُمْ يَعْلَمُونَ

**...ancaq haqqa şəhadət verənlər (dildə və ürəkdə “lə iləhə illəllah” deyənlər) müstəsnadır. Onlar (dediklərinin haqq olduğunu) bilirlər. (Məhz beləlәri Allahın izni ilə şəfaət edə bilmək şərəfinə nail olacaqlar).**[1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin), bu sözlərin təfsirini, bəzi alimlərdən nəql edir: «Və Uca Allahın təkliyinə iman gətirdi, və Ondan gələn elm ilə, və elçilərinin gətirdiyi səhih elm əsasında Ona itaət etdi».

İmam Təbəri həmçinin, **“haqqa şəhadət verənlər”** ifadəsi haqqında, Mücahidin sözlərini nəql etmişdir: “Yəni ixlas kəlmələrini, və onlar bilirdilər ki, Allah — Haqqdır” [2].

Həmçinin, Osman ibn Əffandan (Allah ondan razı olsun), rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: **«Kim Allahdan başqa, ibadətə layiq haqq ilah, olmadığını bilərək ölərsə, Cənnətə daxil olar»**[3]**.** Bu şərt, bu şəhadəti deyənə aiddir, yəni onu deyən onun məna və mahiyyətini bilir.

# İkincisi: şübhəyə zidd olan — yəqinlik

Bu isə, Allahdan başqa ibadətə layiq olan məbud olmadığına dair möhkəm və qəti əminlikdir, və bunu deyən, buna şübhə etməməlidir. Uca Allah buyurur:

---

[1] "Zuxruf" surəsi 86-cı ayə.
[2] Cami əl-bəyan, 25/105.
[3] Muslim 136.

إِنَّمَا ٱلْمُؤْمِنُونَ ٱلَّذِينَ ءَامَنُواْ بِٱللَّهِ وَرَسُولِهِۦ ثُمَّ لَمْ يَرْتَابُواْ وَجَٰهَدُواْ بِأَمْوَٰلِهِمْ وَأَنفُسِهِمْ فِى سَبِيلِ ٱللَّهِ ۚ أُوْلَٰٓئِكَ هُمُ ٱلصَّٰدِقُونَ

**Möminlər o kəslərdir ki, Allaha və Peyğəmbərinə iman gətirər, sonra da bundan əsla şübhəyə düşməz və Allah yolunda malları və canları ilə cihad edərlər. Məhz onlar sadiq olanlardır.**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin), Uca Allahın "**sonra da bundan əsla şübhəyə düşməz**" sözləri haqqında belə demişdir: «Yəni, şübhə etmədilər və tərəddüd etmədilər, ancaq bir vəziyyətdə sabit qaldılar»[2].

Həmçinin, Əbu Hureyrənin (Allah ondan razı olsun), hədisində Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: **"Qəlbi ilə yəqin olduğu halda, «Allahdan başqa ibadətə layiq, haqq ilah yoxdur" deyən kəsi cənnət ilə müjdələ»**[3]**.** Həmçinin ondan (Allah ondan razı olsun), rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: **«Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur və mən Allahın elçisiyəm, və qullardan kim bu iki şəhadətlə şübhə etmədən Allaha qovuşarsa, şübhəsiz ki, Cənnətə daxil olar»**[4]**.** Allah, Öz dininə, qəlbində şübhə olanları məzəmmət edər.

Uca Allah buyurur:

إِنَّمَا يَسْتَـْٔذِنُكَ ٱلَّذِينَ لَا يُؤْمِنُونَ بِٱللَّهِ وَٱلْيَوْمِ ٱلْءَاخِرِ وَٱرْتَابَتْ قُلُوبُهُمْ فَهُمْ فِى رَيْبِهِمْ يَتَرَدَّدُونَ

**Yalnız Allaha və axirət gününə iman gətirməyən və qəlbləri şübhəyə düşüb, öz şübhələri içində tərəddüd edənlər səndən izin istəyərlər.**[5]

---

[1] "Hucurat" surəsi 15-ci ayə.
[2] Təfsir əl-Quran əl-Əzım, 4/186.
[3] Muslim 31.
[4] Muslim 138.
[5] "Tövbə" surəsi 45-ci ayə.

# Üçüncüsü: ixlas — şirk və riyanın ziddi

Bu, ondan ibarətdir ki, bəndənin əməlində və sözündə, Böyük və Qüdrətli olan, Allah qarşısında *ixlaslı* olmasıdır. İxlas — "əməllərinə, nəfsin istəklərini qatmamaqdır"[1].

Allah, bir çox ayəsində ixlası əmr edərək, belə buyurmuşdur:

قُلْ أَمَرَ رَبِّي بِٱلْقِسْطِ ۖ وَأَقِيمُوا۟ وُجُوهَكُمْ عِندَ كُلِّ مَسْجِدٍ وَٱدْعُوهُ مُخْلِصِينَ لَهُ ٱلدِّينَ ۚ كَمَا بَدَأَكُمْ تَعُودُونَ

**De: «Rəbbim ədaləti əmr etdi. Hər səcdənizdə üzünüzü (Allaha) çevirin və dini yalnız Ona məxsus edərək dua edin! Sizi yoxdan yaratdığı kimi, yenə (Onun hüzuruna) qayıdacaqsınız».**[2]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin), bu ayənin təfsirində belə demişdir: "Yəni, Allah sizə əmr etdi ki, Ona ibadətdə sabit (düz, doğru) olasınız — bu peyğəmbərlərə tabe olmaqdır, hansılar ki, möcüzələrlə dəstəkləniblər, Allahdan bildirdiklərinə, şəriətdən gətirdiklərinə və ixlasla Allaha ibadət etdiklərinə görə. Həqiqətən, Uca Allah heç bir əməli qəbul etməz, yalnız bu iki şərt yerinə yetirildikdən sonra qəbul edər — əməlin düzgün, şəriətə uyğun olması və *şirkdən* uzaq olması ilə" [3].

Pak və Müqəddəs olan Allah buyurdu:

إِنَّآ أَنزَلْنَآ إِلَيْكَ ٱلْكِتَٰبَ بِٱلْحَقِّ فَٱعْبُدِ ٱللَّهَ مُخْلِصًا لَّهُ ٱلدِّينَ

**Biz Kitabı sənə haqq olaraq nazil etdik. Buna görə də sən dini Allaha məxsus edərək ixlasla Ona ibadət et!** [4]

---

[1] Bu, İbn əl-Qəyyimin (Allah ona rəhmət etsin) "İlam əl-muəqqiin" kitabında, 2/171, 2/315-də verdiyi tərifdir.

[2] "Əraf" surəsi 29-cu ayə.

[3] Təfsir əl-Quran əl-Əzım, 2/185.

[4] "Zumər" surəsi 2-ci ayə.

Yəni, şəriki olmayan, tək Allaha ibadət edin və insanları buna dəvət edin. Onlara öyrədin ki, ibadət yalnız Ona aid olmadıqda düzgün olmaz. Onun şəriki və bənzəri yoxdur. Və buna görə də, Uca Allah buyurur:

أَلَا لِلَّهِ ٱلدِّينُ ٱلْخَالِصُ ۚ

**Doğrusu, əsl din ancaq Allaha məxsusdur.**[1]

Yəni, şəriki olmayan, Tək olan Allah qarşısında, əməl edən, ixlaslı olmazsa, Allah onun əməllərini qəbul etməz.[2]

Həmçinin, İtbənə ibn Malikdən (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə, Allahın rəsulu ﷺ belə deyib: ***«Həqiqətən də, Allah, Onun üzünü diləyərək (ixlasla) "lə iləhə illallah" kəlməsini deyən kəsə, Cəhənnəm odunun toxunmasını qadağan edib»***.[3]

# Dördüncüsü: yalana zidd olan — doğruluq

Bu, o deməkdir ki, bəndə tövhid kəlamlarını söyləyərək, Rəbbi yanında doğru olmalıdır, əqidə və sözlərində yalançı olmamalıdır, çünki bu, münafiqlərin xüsusiyyətlərindəndir. Uca Allah buyurur:

الٓمٓ ﴿١﴾ أَحَسِبَ ٱلنَّاسُ أَن يُتْرَكُوٓا۟ أَن يَقُولُوٓا۟ ءَامَنَّا وَهُمْ لَا يُفْتَنُونَ ﴿٢﴾ وَلَقَدْ فَتَنَّا ٱلَّذِينَ
مِن قَبْلِهِمْ ۖ فَلَيَعْلَمَنَّ ٱللَّهُ ٱلَّذِينَ صَدَقُوا۟ وَلَيَعْلَمَنَّ ٱلْكَـٰذِبِينَ ﴿٣﴾

**Əlif. Ləm. Mim. İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!" - demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır.** [4]

Həmçinin Muazdan (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ belə buyurdu: ***«Hansı bəndə, Allahdan başqa, ibadətə layiq, haqq ilah olmadığına və Muhəmmədin ﷺ Onun qulu və Rəsulu olduğuna şəhadət***

---

[1] "Zumər" surəsi 3-cü ayə.
[2] Təfsir əl-Quran əl-Əzım, 7/84.
[3] Əl-Buxari 425, Muslim 33.
[4] "Ənkəbut" surəsi 1-3-cü ayələr.

***edərsə, səmimi qəlbdən (buna inanaraq), Allah onu cəhənnəm oduna haram edər»*** [1].

Əbu Musa əl-Əşaridən (Allah ondan razı olsun), Peyğəmbərin ﷺ belə dediyi rəvayət edilir: ***"Sevinin və insanlara müjdə verin. "Lə iləhə illallah"a sədaqət ilə (doğru) şəhadət edən, Cənnətə girəcək"*** [2].

# Beşincisi: təslim — itaətsizliyin ziddi

Əgər kimsə "*Lə iləhə illəllah*" desə, o zaman, bu şəhadət onu özündə ehtiva edən mənalara, — yəni insanın özünü Allaha təslim etməsi, Onun əmrlərinə itaət etməsi, qadağalarını tərk etməsi, Uca və Qüdrətli olan Allaha, və Onun Elçisinə itaətsizliyi tərk etməsi kimi, mənalara əməl etməyə məcbur edir.

Uca Allah buyurur:

بَلَىٰ مَنْ أَسْلَمَ وَجْهَهُۥ لِلَّهِ وَهُوَ مُحْسِنٌ فَلَهُۥٓ أَجْرُهُۥ عِندَ رَبِّهِۦ وَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

**Xeyr (elə deyil)! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, onun Rəbbi yanında mükafatı vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməyəcəklər.** [3]

Həmçinin Uca Allah buyurur:

وَمَنْ أَحْسَنُ دِينًا مِّمَّنْ أَسْلَمَ وَجْهَهُۥ لِلَّهِ وَهُوَ مُحْسِنٌ وَٱتَّبَعَ مِلَّةَ إِبْرَٰهِيمَ حَنِيفًا ۗ وَٱتَّخَذَ ٱللَّهُ إِبْرَٰهِيمَ خَلِيلًا

**Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən və İbrahimin hənif dininə tabe olan kimsədən din baxımından daha gözəl kim ola bilər. Allah İbrahimi Özünə dost tutmuşdur.** [4]

---

[1] Əl-Buxari 128, Muslim 148.
[2] Əhməd 32/465 19689 nömrəli, əs-Səhihə 1314.
[3] "Bəqərə" surəsi 112-ci ayə.
[4] "Nisa" surəsi 125-ci ayə.

Həmçinin, uca Allah buyurur:

قُلْ أَغَيْرَ ٱللَّهِ أَتَّخِذُ وَلِيًّا فَاطِرِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ وَهُوَ يُطْعِمُ وَلَا يُطْعَمُ ۗ قُلْ إِنِّىٓ أُمِرْتُ أَنْ أَكُونَ أَوَّلَ مَنْ أَسْلَمَ ۖ وَلَا تَكُونَنَّ مِنَ ٱلْمُشْرِكِينَ

**De: "Göyləri və yeri yaradan, (yaratdıqlarını) bəslədiyi halda Özü bəslənməyən Allahdan başqasınımı özümə dost tutacağam?!" De: "Mənə ilk müsəlman olmağım əmr edildi və: "Əsla müşriklərdən olma!" (- deyə buyuruldu).** [1]

Həmçinin, uca Allah buyurur:

وَمَن يُسْلِمْ وَجْهَهُۥٓ إِلَى ٱللَّهِ وَهُوَ مُحْسِنٌ فَقَدِ ٱسْتَمْسَكَ بِٱلْعُرْوَةِ ٱلْوُثْقَىٰ ۗ وَإِلَى ٱللَّهِ عَٰقِبَةُ ٱلْأُمُورِ

**Kim yaxşı əməl sahibi olaraq özünü Allaha təslim edərsə, həqiqətən, o, ən möhkəm qulpa yapışmış olar. Bütün işlərin axırı Allaha qayıdar.** [2]

İslam — Böyük və Qüdrətli olan Allaha təslim olmaqdır. İbn Kəsir (Allah ona rəhmət etsin) **"özünü Allaha təslim etdi"** sözünün mənası haqqında belə demişdir: "Yəni, əməllərini Onun rizası üçün təmizlədi (ixlaslı etdi), əmrlərinə və şəriətinə tabe oldu" [3].

# Altıncısı: məhəbbət — nifrət və düşmənçiliyin ziddi

Yəni şəhadət edən şəxs, Allahı və Onun Rəsulunu, möminləri, İslam dinini sevməli və heç kəsi, Allah və Rəsulunun sevgisindən üstün tutmamalıdır, istər valideyn, istərsə də övlad. Uca Allah, öz məbudlarını Allahı sevdikləri kimi sevən müşrikləri qınayaraq buyurur:

---

[1] "Ənam" surəsi 14-cü ayə.
[2] "Loğman" surəsi 22-ci ayə.
[3] Təfsirül-Quran əl-Azim, 3/395.

وَمِنَ ٱلنَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ ٱللَّهِ أَندَادًا يُحِبُّونَهُمْ كَحُبِّ ٱللَّهِ ۖ وَٱلَّذِينَ ءَامَنُوٓا۟ أَشَدُّ حُبًّا لِّلَّهِ ۗ

**İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür.**[1]

Həmçinin, Uca Allah buyurur:

قُلْ إِن كَانَ ءَابَآؤُكُمْ وَأَبْنَآؤُكُمْ وَإِخْوَٰنُكُمْ وَأَزْوَٰجُكُمْ وَعَشِيرَتُكُمْ وَأَمْوَٰلٌ ٱقْتَرَفْتُمُوهَا وَتِجَٰرَةٌ تَخْشَوْنَ كَسَادَهَا وَمَسَٰكِنُ تَرْضَوْنَهَآ أَحَبَّ إِلَيْكُم مِّنَ ٱللَّهِ وَرَسُولِهِۦ وَجِهَادٍ فِى سَبِيلِهِۦ فَتَرَبَّصُوا۟ حَتَّىٰ يَأْتِىَ ٱللَّهُ بِأَمْرِهِۦ ۗ وَٱللَّهُ لَا يَهْدِى ٱلْقَوْمَ ٱلْفَٰسِقِينَ

**De: «Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz».**[2]

Həmçinin, Ənəs ibn Malikdən (Allah ondan razı olsun), rəvayət olunur ki, Peyğəmbər ﷺ belə demişdir: «***Sizdən heç biriniz, mən ona ata-anasından, övladlarından və bütün insanlardan daha sevimli olmadıqca iman gətirməz***»[3].

Həmçinin, əl-Bəra ibn Azibin (Allah ondan razı olsun), hədisində rəvayət olunur ki, Peyğəmbər ﷺ belə buyurdu: «***İmanın ən yüksək göstəricisi, Allah üçün dostluq, Allah üçün düşmənçilik, Allah üçün məhəbbət və Allah üçün nifrətdir***»[4].

# Yeddinci: qəbul — inkarın ziddi

Kim, Allahdan başqa, ibadətə layiq, haqq məbud olmadığına, şəhadət verərsə, Allahdan gələn hər şeyi, Onun istədiyi kimi qəbul edər; və həmçinin, Allah

---

[1] "Bəqərə" surəsi 165-ci ayə.
[2] "Tövbə" surəsi 24-cü ayə.
[3] Əl-Buxari 15, Muslim 168.
[4] Əhməd 30/487 18524 nömrəli, "əs-Səhihə" 1728.

Rəsulundan ﷺ gələni, onun istədiyi kimi. Onu qəlblə, dil ilə, lazımi qaydada qəbul etmək lazımdır. Allaha qarşı gələn və Onun hökmünü qəbul etməyən şəxsə, təhdid gəlmişdir. Uca Allah buyurur:

وَمَن يُشَاقِقِ ٱلرَّسُولَ مِنۢ بَعۡدِ مَا تَبَيَّنَ لَهُ ٱلۡهُدَىٰ وَيَتَّبِعۡ غَيۡرَ سَبِيلِ ٱلۡمُؤۡمِنِينَ نُوَلِّهِۦ مَا تَوَلَّىٰ وَنُصۡلِهِۦ جَهَنَّمَۖ وَسَآءَتۡ مَصِيرًا

**Hər kəs, doğru yol ona bəlli olduqdan sonra, Peyğəmbərə ﷺ qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir.**[1]

Həmçinin, Uca Allah buyurur:

وَمَا كَانَ لِمُؤۡمِنٖ وَلَا مُؤۡمِنَةٍ إِذَا قَضَى ٱللَّهُ وَرَسُولُهُۥٓ أَمۡرًا أَن يَكُونَ لَهُمُ ٱلۡخِيَرَةُ مِنۡ أَمۡرِهِمۡۗ وَمَن يَعۡصِ ٱللَّهَ وَرَسُولَهُۥ فَقَدۡ ضَلَّ ضَلَٰلٗا مُّبِينٗا

**Allah və Onun Elçisi bir işə hökm verdiyi zaman, heç bir mömin kişi və mömin qadın, öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür.**[2]

Həmçinin, Uca Allah buyurur:

إِنَّمَا كَانَ قَوۡلَ ٱلۡمُؤۡمِنِينَ إِذَا دُعُوٓاْ إِلَى ٱللَّهِ وَرَسُولِهِۦ لِيَحۡكُمَ بَيۡنَهُمۡ أَن يَقُولُواْ سَمِعۡنَا وَأَطَعۡنَاۚ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡمُفۡلِحُونَ

**Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqda möminlərin sözü ancaq: "Eşidirik və itaət edirik!"– deməleridir. Nicat tapanlar da məhz onlardır.** [3]

Həmçinin Əbu Musa əl-Əşari (Allah ondan razı olsun), Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: *"Həqiqətən, Allahın mənimlə insanlara göndərdiyi hidayət və elm, torpağa yağan yağış kimidir. Bu torpağın bir hissəsi münbit idi, ona görə də suyu özünə çəkdi və orada hər cür bitkilər və otlar bitdilər. Torpağın digər hissəsi, bərk idi, ona görə də suyu öz üzərində saxladı və Allah bu suyu, içməyə başlayan insanlar üçün xeyrə çevirdi, onunla mal-qaranı suladılar və suvarmada istifadə etdilər. Yağış, yerin başqa bir hissəsinə də yağdı, o da*

---

[1] "Nisa" surəsi 115-ci ayə.
[2] "Əhzab" surəsi 36-cı ayə.
[3] "Nur" surəsi 51-ci ayə.

***düzənlik olan yer idi, hansı ki, özündə su saxlamadı və o torpağın üzərində heç nə bitmədi. (Torpağın bu hissələri) Allahın dinini dərk edən, Allahın mənimlə göndərdiklərindən bəhrələnən, özləri elm əldə edib (başqalarına) ötürən kimidir, və həmçinin Allahın, mənimlə insanlara göndərdiyi hidayəti qəbul etməyən və özləri də buna üz tutmayan kəslər kimidir".*** [1]

# Səkkizinci: Uca Allahdan başqa, ibadət olunanlara küfr

Necə ki, Uca Allah buyurur:

فَمَن يَكۡفُرۡ بِٱلطَّٰغُوتِ وَيُؤۡمِنۢ بِٱللَّهِ فَقَدِ ٱسۡتَمۡسَكَ بِٱلۡعُرۡوَةِ ٱلۡوُثۡقَىٰ لَا ٱنفِصَامَ لَهَاۗ

**Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar.**[2]

Həmçinin, Əbu Malik əl-Əşcaidən və atası Tariq ibn Uşimin (Allah ondan razı olsun) sözlərindən rəvayət edilmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: ***"Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur /Lə iləhə illəllah/" deyənin və Allahdan başqa, ibadət edilən, hər bir şeyə, küfr edənin malı və qanı haram olar və bu zaman, ondan haqq-hesab tələb etməyə, ancaq Allah qadirdir.*** [3]

Buna görə də, Vəhb ibn Münəbbih (Allah ona rəhmət etsin), ondan: «Məgər "*Lə iləhə illəllah*" Cənnətin açarı deyilmi?" deyə soruşanda», o, belə cavab verdi*: "Bəli, amma hər açarın dişləri var və əgər dişləri olan açarla gəlsən, sənə açılacaq, əks halda sənə açılmayacaq".*[4]

Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) "*Lə iləhə illəllah"*ın fəzilətinə, dəlalət edən hədisləri, nəql etdikdən sonra, belə demişdir: "Bu hədislər *"Lə iləhə illəllah"*-ın, Cənnətə daxil olma və Cəhənnəmdən xilas olma, səbəbi olduğuna dəlalət edir. Ancaq bu, yalnız bütün şərtlər, yerinə yetirildikdə və şəhadətə zidd olan, heç bir şey olmadığı təqdirdə, baş verəcəkdir. Və bəzən

[1] Əl-Buxari 79, Muslim 2282.
[2] "Bəqərə" surəsi 256-cı ayə.
[3] Muslim 130.
[4] Əl-Buxari dəfn mərasimi kitabında "müəlləq" şəklində. Bax Təhqiq Kəlimətul-İxlas, İbn Rəcəb, 3/47.

bu, bəzi şərtlər, yerinə yetirilmədikdə və ya şəhadətə zidd olan, bir şey olduqda, baş vermir. Bu, Həsən Vəhbə ibn Münəbbihin rəyidir və bu rəy ən aydın olandır.[1]

Və “xeyirli sözün” mahiyyətini aydınlaşdıran, onun mənasını və şərtlərini aydınlaşdıran, bu qısa müqəddimədən sonra, mən Allahdan kömək istəməklə, bu müraciətnamədə, tövhidin vacibliyinə və onun fəzilətinə, dəlalət edən şeyləri izah etməyə başlayacağam.

[1] “Təhqiq kəlimətul-ixlas”, 3/47.

# Tövhidin fəzilətləri

## 1. Tövhid — Allahın, Adəm (aleyhi salləm) övladlarını yaratmazdan əvvəl, onlardan aldığı ilk əhddir

Uca Allah buyurur:

وَإِذۡ أَخَذَ رَبُّكَ مِنۢ بَنِيٓ ءَادَمَ مِن ظُهُورِهِمۡ ذُرِّيَّتَهُمۡ وَأَشۡهَدَهُمۡ عَلَىٰٓ أَنفُسِهِمۡ أَلَسۡتُ بِرَبِّكُمۡۖ
قَالُواْ بَلَىٰ شَهِدۡنَآۚ أَن تَقُولُواْ يَوۡمَ ٱلۡقِيَٰمَةِ إِنَّا كُنَّا عَنۡ هَٰذَا غَٰفِلِينَ ١٧٢ أَوۡ تَقُولُوٓاْ إِنَّمَآ أَشۡرَكَ
ءَابَآؤُنَا مِن قَبۡلُ وَكُنَّا ذُرِّيَّةٗ مِّنۢ بَعۡدِهِمۡۖ أَفَتُهۡلِكُنَا بِمَا فَعَلَ ٱلۡمُبۡطِلُونَ ١٧٣

Bir zaman Rəbbin Adəm oğullarının bellərindən onların törəmələrini çıxarmış və: “Mən sizin Rəbbiniz deyiləmmi?” (– deyə) onları özlərinin əleyhinə şahid tutmuşdu. Onlar: “Bəli, biz şahid olduq!”– demişdilər. (Bu ona görədir) ki, siz Qiyamət günü: “Biz bundan xəbərsiz idik!”– deməyəsiniz. Yaxud: “Atalarımız bizdən əvvəl (Allaha) şərik qoşmuş, biz də onlardan sonra gələn bir

**nəsil olmuşuq. Məgər Sən bizi batilə uyanların etdikləri əməllərə görə məhv edəcəksən?"– deməyəsiniz.**[1]

Həmçinin İbn Abbasdan (Allah ondan razı olsun) Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: ***"Allahu Təalə Nə'manda (yəni Ərəfatda) Adəmin belindən əhd-peyman aldı və onun nəslindən olan hər birini belindən çıxarıb kiçik qarışqalar kimi Öz hüzurunda səpələdi",*** sonra Rəsulullah ﷺ "Əl-Əraf" surəsindən bu ayəni oxudu.[2]

Həmçinin, bunun izahı, Ənəs ibn Malikin (Allah ondan razı olsun) hədisində var, Peyğəmbərin ﷺ belə dediyi: «***Allah cəhənnəm oduna düşənlərdən, ən yüngül əzaba düçar olacaq, birindən soruşacaq: "Yer üzündə olan hər şeyə sahib olsaydın, əzabdan qurtulmaq üçün onu verərdinmi?" O, deyəcək: "Bəli!" O zaman Allah buyuracaq: "Sən hələ Adəmin belində ikən, Mən səndən bundan qat-qat az olanı istədim – Mənə ibadətdə heç kəsi şərik qoşma, amma sən rədd etdin və şirkdə israr etdin!"*** »[3]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Uca Allah onların Rəbbi və hökmdarı olduğuna və Ondan başqa ibadətə layiq haqq ilah olmadığına, öz əleyhinə şəhadət verən bütün Adəm övladlarını, onların belindən çıxartdığını xəbər verdi".[4]

---

[1] "Əraf" surəsi 172-173-cü ayələr.

[2] İmam Əhməd "Müsnəd"ində, 2455, İbn Əbu Asim "Sünnə"də, 208, əl-Hakim "İman" kitabında, 82-də rəvayət etmişdir.

[3] Əl-Buxari 3334, Muslim 7083.

[4] Təfsir əl-Quran əl-Əzım, 3/500.

## 2. Tövhid — yeni doğulan uşağın, fitrətində olan ilk şeydir və o, şirkdən əvvəl gəlir

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: ***"Hər bir körpə islam üzrə doğulur, lakin sonradan valideyinləri onu ya nəsrani, ya məcusi (atəşpərəst), ya da yahudi edirlər. Dəvələrin bütöv doğulduğu kimi, onların arasında, ayaqları-qolları kəsilmiş halda, doğulan bir dəvə görmüsənmi?"*** Sonra, Əbu Hureyrə (Allah ondan razı olsun) dedi: «İstəsəniz oxuyun: ***"Bu, Allahın insanları yaratdığı, fitri xüsusiyyətdir. Allahın yaratdığını dəyişdirmək olmaz"***». [1]

Böyük alim, İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) demişdir: «Peyğəmbər ﷺ iki şeyi birləşdirdi — yəhudiliyi və ya xristianlığı qəbul edərək fitrəti dəyişdirmək ilə, bir şeyi kəsməklə, yaradılışı dəyişməyi. Bu, İblisin onları mütləq dəyişdirəcəyini dediyi iki şeydir. Beləliklə, o, Allahın fitrətini, küfrlə dəyişdirdi — bu, insanların yaradıldığı fitrətdə bir dəyişiklikdir. Həmçinin o, nəyisə kəsməklə, yaradılışın görünüşünü də dəyişdi. Beləliklə o, fitrəti şirkə, təbii görünüşü isə — kəsilmiş və çapılmışa dəyişdi. Birincisi — qəlbin dəyişməsi, ikincisi isə — yaradılışın zahiri dəyişikliyidir».[2]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Həqiqətən fitrət, Allahın varlığına şəhadət edir və fitrət Allaha iman üzərində yaradılmışdır, çünki Allahı tanımaq, sağlam fitrətdə mütləq zərurətdir".[3]

---

[1] Əl-Buxari 4775, Muslim 2658.
[2] "İqasətül-lyəhfan", 1/205.
[3] Təfsir əl-Quran əl-Əzım, 2/451.

Həmçinin, İyad ibn Himar əl-Mucaşiidən (Allah ona rəhmət etsin) rəvayət olunur ki, Allah Rəsulu ﷺ xütbələrinin birində belə demişdir: ***«Həqiqətən, Rəbbim bu gün mənə öyrətdiyindən, bilmədiklərinizi sizə öyrətməyi mənə əmr etmişdir. (O buyurdu): "Bəndəmə verdiyim, hər bir mülk, (ona) halaldır. Həqiqətən Mən, bütün qullarımı, həniflər kimi yaratdım, lakin şeytanlar, onların yanına gəlib, onları dinlərindən döndərdilər, Mən onlara icazəli etdiyimi, haram etdilər, və onlara Mənimlə yanaşı, haqqında heç bir dəlil, nazil etmədiyim şeylərə, ibadət etməyi əmr etdilər. Uca və Böyük Allah, yer üzündə yaşayanlara (insanlara) baxdı, kitab əhli olanlardan başqa, ərəb və ərəb olmayanlara (hamısına) nifrət etdi»***.[1]

Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) demişdir: "Həqiqətən, bəndələr, fitrətə uyğun olaraq, Allahı tanımaq, Onu sevmək və Onu ilahiləşdirmək əsasında yaradılmışlar. Çünki hər bir uşaq fitrət üzrə doğulur. Və bu fitrət — sağlam bir qəlb, həqiqəti qəbul etmək və onu arzu etməkdir ki, o da İslam deməkdir və insanın onu qəbul etməyə hazır olmasıdır. Lakin insanların, bilik və əməl potensialını üzə çıxaracaq şeylərə, böyük ehtiyacları var və bu, faydalı elm və saleh əməllərdə özünü göstərir. Beləliklə, onlar fitrətlərinə görə, potensial müsəlman olduqdan sonra, əməli cəhətdən, (praktik) müsəlman olurlar. Və buna görə də, Allah elçiləri göndərdi və onlarla birlikdə, kitablar nazil etdi ki, insanları dünya və axirətdə xoşbəxtlik və uğur qazandıran şeylərə yönəltsinlər və O, peyğəmbərləri ilə göndərdiyi, hidayətə tabe olan kəsin, zəlalətə düşməyəcəyinə və kədərlənməyəcəyinə zəmanət verdi.[2]

Əl-Bəra ibn əl-Azibdən (Allah ona rəhmət etsin) rəvayət olunur ki, Allah Rəsulu ﷺ ənsardan olan, bir nəfərə yuxuya gedəndə, belə deməyi əmr etdi: ***«Allahım! Sənə ümid edərək və Səndən qorxaraq, canımı Sənə təslim etdim, işimi Sənə həvalə etdim, üzümü Sənə çevirdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Səndən (əzabından) xilas olmaq üçün, nicat yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!»***

[1] Muslim 2865.
[2] Girişdə deyilir ki, bütün elçilərin dini İslam olmuşdur. "Məcmu' rəsail əl-hafiz İbn Rəcəb", 2/555. Və bu kimi Zadul-miad, 1/15.

Rəsulullah ﷺ həmçinin buyurdu: ***«Hər kim bu sözləri söyləyib, sonra həmin gecə ölərsə, fitrət üzərində ölər».***[1]

«Allahın *fitrəti*» (فطرة الله) ifadəsinin mənası: «Allahın dini deməkdir — bu isə tövhiddir və həqiqətən də Allah, insanları bunun üzərində yaratmışdır»[2].

Buna görə də, Ömər ibn Əbdüləziz (Allah ona rəhm etsin) dedi: «Sən, təzə öyrənməyə başlayan uşağın dininin və bir də, bədəvinin dininin tərəfdarı ol və bundan başqa hər şeyi tərk et»[3].

Yəzid ibn Harun əl-Vasitıy (Allah ona rəhmət etsin) demişdir: «Kim zənn edərsə ki, Rəhman ərşin üzərində, sadə (adi) insanların qəlbində yerləşdiyindən, fərqli şəkildə yüksəlmişdir, o — cəhmiyyədir»[4].

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: «Sadə insanların qəlbində, sabit olan şey — Allah məxluqlarının təbiətini belə yaratmışdır. Buna görə — insanlar müsibətlərdə, çətinliklərdə, eləcə də dualarda, Rəbbinə üz tutduqda, Ona müraciət edərkən, sağa-sola deyil, yuxarı baxırlar, baxmayaraq ki, onlara bunu heç kim öyrətməyib. Halbuki, Allahın yaratdığı insanların, fitrəti belədir və bu fitrətdə doğulmayan, heç bir uşaq yoxdur, ta ki, kimsə onu dəyişdirib, cəhmiyyə və ya inkar edən (Allahın sifətlərini) bir şəxs edənə qədər»[5].

Əl-Alusi (Allah ona rəhmət etsin) deyir: «Bədəvilərdən biri, Cəhm ibn Safvanın yanından keçdi, o, insanları öz azğın yoluna (*məzhəbinə*), yəni Allahın sifətlərini inkar etməyə və məhrum etməyə çağırırdı və belə şeylər bəyan edirdi:

*Həqiqətən, Cəhm kafirdir və küfrü aşkardır.*

---

[1] Əl-Buxari 6315, Muslim 2715.

[2] “Əl-lubab fi ‘ulum əl-kitab” Əbu Həfsə Ömər ibn ‘Əli ibn ‘Adil əd-Diməşki əl-Hənbəli, səh.409.

[3] "Şərh üsul əl-etiqad əhlis-sünnə və əl-cəmaə" əl-Ləlaqai (1/153) və əd-Darimi, "Elm Allah qorxusudur" deyən haqqında fəsil, 314.

[4] Abdullah ibn əl-İmam Əhməd Əs-Sünnədə (1/123), 54 gözəl isnadla rəvayət etmişdir. Şeyx əl-Albani “Muxtasar əl-‘ulu”-da (168) bunu yaxşı isnad adlandırmışdır.

[5] Əl-İctima‘ əl-cuyuşi əl-islamiy, səh.214.

*Və hər kim, nə vaxtsa Cəhmin sözlərini deyibsə, o kafir oldu.*

*Cəhm dəli oldu, öz İlahını,*

*Eşitmə qabiliyyəti olmadan eşidən,*

*Və görmə qabiliyyəti olmadan görən,*

*Və biliyi olmadan bilən,*

*Razılığı olmadan razı olan adlandıraraq.*

*Xeyirxahlığı olmadan xeyirxah olan, xəbəri olmadan xəbərdar olan.*

*Razısanmı, ey Cəhm, kimsə desin ki,*

*Sənin atan — azaddır, ləyaqəti olmadan ləyaqətli,*

*Gözəliyi olmadan gözəl, əzəməti olmadan əzəmətli.*

*Qısalıqla ziddiyyət təşkil edən — hündürlüyü olmadan hündür.*

*Mülayimliyi olmadan mülayim, sədaqətsiz sadiq,*

*Ağılla təsvir edilən və cahil kimi tanınan.*

*Səxavəti olmadan səxavətli, gücü olmadan güclü,*

*Böyük amma böyük deyil, kiçik, lakin kiçik deyil.*

*Bunu tərif hesab edirsənmi? Və ya istehza və təhqir, və söyüş?*

*Allah səni çəkindirsin, ey insanların ən axmağı.*

*Həqiqətən, sən camaata göndərilmiş şeytansan.*

*Sən, onları Cəhənnəmə yaxın olana, meyilləndirirsən.*

İmam Abdullah ibn əl-Mübarək (Allah ona rəhmət etsin) Cəhm ibn Səfvanın yanından keçən, bu bədəvi haqqında dedi ki, Böyük və Qüdrətli Allah, bu bədəviyə sünnə tərəfdarlarının (*əhli-sünnə məzhəbi*), doğru yolunu təlqin etdi və onun şeirlərinin faydası (*bərəkəti)* sayəsində bir çox insanlar, azğınlıqdan döndülər.

İbn əl-Mübarək dedi: “Həqiqətən, Allah bunlara rəhmət olaraq, bir bədəvi göndərdi" [1].

[1] “Cəla əl-əynəyn fi mühəkəmətul-Əhmədin” əl-Əlusi, səh. 151.

Həmçinin, başqa bir bədəvi dedi: "Ey Pak və Müqəddəs Allah! Doğrudan da peyin dəvəyə işarə edir, ayaq izləri yeriyən kimsəyə işarə edir, bürclərin olduğu göylər, dərələrin olduğu yer, dalğaların olduğu dənizlər — bu, Xeyirxahın, Xəbərdar olanın varlığına dəlalət etmirmi? [1]

Tövhid, şirkdən əvvəldir, çünki tövhid — əsasdır. İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: "Adəm ilə Nuh arasında, on nəsil olmuşdur ki, onların hər biri, haqq olan həqiqi şəriət üzərində idilər. Sonra onlar, ziddiyyətə düşməyə başladılar və Allah sevindirən və öyüd-nəsihət verən peyğəmbərlər göndərdi"[2].

Şeyxülislam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Həqiqətən insanlar, Adəmdən sonra və Nuhdan (aleyhi salləm) qabaq, ta ki, *şirk* qoşmağa və bütlərə sitayiş etməyə başlayana qədər, *tövhid* və *ixlas* üzərində idilər, bütün insanların atası olan Adəm (aleyhi salləm) kimi.

*Şirk* — bu onların özlərindən olan bidətdir ki, Allah onun haqqında kitab nazil etməmişdir və onunla peyğəmbərlər göndərməmişdir. Bu, şeytanın onlar üçün bəzədiyi şəkk-şübhələr, pozulmuş, səhv yozulmuş bənzətmələr və azmış fəlsəfə səbəbi ilə baş verdi. [3]

---

[1] Təfsir əl-Quran əl-Əzım, 1/68. "Məaric əl-kobul" əl-Hakimi, 1/136.

[2] 3) Cami əl-bəyan, 1/194. Əl-Hakim "Müstədriqə"də, 2/546 və o dedi: "Səhihdir, əl-Buxarinin şərtlərinə uyğun olaraq, lakin onu nəql etmədi". Və əz-Zəhəbi onunla razılaşdı.

[3] Məcmu əl-fətava, 28/603.

## 3. Tövhid, Allahın "ən-Ni'am" surəsində, rəhmətlər sırasında qeyd etdiyi, ilk rəhmətdir və bu, ən böyük rəhmətlərdən biridir

Uca Allah buyurur:

أَتَىٰٓ أَمۡرُ ٱللَّهِ فَلَا تَسۡتَعۡجِلُوهُۚ سُبۡحَٰنَهُۥ وَتَعَٰلَىٰ عَمَّا يُشۡرِكُونَ ١ يُنَزِّلُ ٱلۡمَلَٰٓئِكَةَ بِٱلرُّوحِ
مِنۡ أَمۡرِهِۦ عَلَىٰ مَن يَشَآءُ مِنۡ عِبَادِهِۦٓ أَنۡ أَنذِرُوٓاْ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّآ أَنَا۠ فَٱتَّقُونِ ٢ خَلَقَ
ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَ بِٱلۡحَقِّۚ تَعَٰلَىٰ عَمَّا يُشۡرِكُونَ ٣

**Allahın əmri gələcəkdir. Odur ki, onun tez gəlməsini istəməyin. (Allah) müşriklərin (Ona) qoşduqları şəriklərdən uzaqdır və ucadır. (Allah) Öz hökmü ilə qullarından istədiyi kimsəyə mələkləri vəhylə göndərib buyurur: “(Qullarımı) qorxudub xəbərdar edin ki, Məndən başqa ilah yoxdur. Məndən qorxun!” (Allah,) göyləri və yeri gerçək yaratmışdır. O, müşriklərin qoşduqları şəriklərdən ucadır.**[1]

Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) demişdir: “Və bu ayədə, Allahın “ən-Nəhl” adlanan “Rəhmət” (*ən-Ni’am*) surəsində, qullarına rəhmətlərdən, ilk olaraq sadaladığı şeydir. Buna görə də, İbn Uyeynə (Allah ona rəhmət etsin) demişdir: “Allah bəndələrinə “*Lə iləhə illəllah*”-ı öyrətməsindən daha böyük, bir rəhmət bəxş etməmişdir və cənnət əhli üçün “*Lə iləhə illəllah*” dünyadakı, insanlar üçün, sərin su kimidir. Buna görə də, Allah sonda mükafat və əzab yurdunu xatırlatdı”[2].

Həmçinin Şeyxul-islam Muhəmməd ibn Əbdülvəhhabın (Allah ona rəhmət etsin) dediyi bir şey də budur ki: “Onuncu sual: “İsra” surəsində, on səkkiz sualın qeyd olunduğu, açıq-aydın ayələrdir ki, Allah bu sözlərlə başlayır:

---

[1] "Nəhl" surəsi, 1-3-cü ayələr.
[2] Kəlimətul-İxlas, 3/74–75.

لَّا تَجْعَلْ مَعَ ٱللَّهِ إِلَٰهًا ءَاخَرَ فَتَقْعُدَ مَذْمُومًا مَّخْذُولًا

**Allahla yanaşı, başqa tanrıya ibadət etmə, yoxsa zəlil və tənha qalarsan.**[1]

Allah, bu dediklərini, bu sözlərlə bitirdi:

ذَٰلِكَ مِمَّآ أَوْحَىٰٓ إِلَيْكَ رَبُّكَ مِنَ ٱلْحِكْمَةِ ۗ وَلَا تَجْعَلْ مَعَ ٱللَّهِ إِلَٰهًا ءَاخَرَ فَتُلْقَىٰ فِى جَهَنَّمَ مَلُومًا مَّدْحُورًا

**Bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətdəndir. Allahla yanaşı başqa tanrıya ibadət etmə, yoxsa qınanmış və qovulmuş halda Cəhənnəmə atılarsan.**[2]

Həmçinin Uca Allah, bu məsələnin böyüklüyünü açıqlayaraq buyurur:

ذَٰلِكَ مِمَّآ أَوْحَىٰٓ إِلَيْكَ رَبُّكَ مِنَ ٱلْحِكْمَةِ ۗ

**Bu, Rəbbindən vəhy ilə, sənə vəhy olunan hikmətin bir hissəsidir.**

Onbirinci sual: "Nisa" surəsinin on haqq ayəsi adlanan ayəsidir ki, Allah bu ayəyə belə başlamışdır:

وَٱعْبُدُوا۟ ٱللَّهَ وَلَا تُشْرِكُوا۟ بِهِۦ شَيْـًٔا ۖ

**Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın**[3]**!** [4]

[1] "İsra" surəsi 22-ci ayə.
[2] "İsra" surəsi 39-cu ayə.
[3] "Nisa" surəsi 36-cı ayə.
[4] Kitab ət-Tövhid, səh. 9-10, birinci fəsil.

## 4. Tövhid — islamın birinci sütunu və ən böyük dayağıdır

İbn Ömərdən (Allah ondan razı olsun) rəvayət olunur ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) demişdir: «***İslam beş əsas üzərində qurulmuşdur: Allahdan başqa, haqq ilah olmadığına və Muhəmmədin Allahın elçisi olmasına şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və ramazan ayında oruc tutmaq***». [1]

Bu onu göstərir ki, tövhid — islamın əsaslarından birincisi və onun ən böyük dayağıdır. Bunun, islamın rüknlərindən birincisi olması, Quran və Sünnənin dəlillərindən aydın olur, çünki tövhid, bütün yaxşılıqların əsasını təşkil edir və onunla əməllər ölçülür, qəbul və ya rədd edilirlər. Bu — islamın qapısıdır və kim onun qulpundan yapışarsa, əbədiyyət və əmin-amanlıq yurduna çatar.

---

[1] Əl-Buxari 8, Muslim 16.

# 5. Tövhid, Rəsulullahın ﷺ və ondan əvvəlki bütün digər elçilərin, başladıqları ilk əmr olub və onların risalətində məqsəd də bu idi

Mübarək əl-Mili: “Həqiqətən, Qurani-Kərim, bizə açıq-aydın xəbər verir ki, peyğəmbərlərin və elçilərin, onlara Allahın salavatı və salamı olsun, dəvət etdikləri ilk şey — Allahın tövhididir. Və onların, öz qövmlərinə qadağan etdikləri ilk şey — şirk və onun təzahürü idi. Və bu, düzgün yol əsasında, tövhidə dəvət edən və şirkdən çəkindirməklə məşğul olan, son Peyğəmbər də göndərilmişdir. Və o, bunu ancaq, öyrənilməsinə güclü ehtiyac olduğundan edirdi və siz bu açıq-aşkar qayğını Quranda, dəvətinin mərhələlərində və dinin sütunlarında görəcəksiniz”.[1]

Uca Allah buyurur:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولًا أَنِ ٱعْبُدُوا۟ ٱللَّهَ وَٱجْتَنِبُوا۟ ٱلطَّٰغُوتَ ۖ فَمِنْهُم مَّنْ هَدَى ٱللَّهُ وَمِنْهُم مَّنْ حَقَّتْ عَلَيْهِ ٱلضَّلَٰلَةُ ۚ

**Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”— (deyə), elçi göndərdik. Onlardan kimisini Allah hidayət yoluna yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir**.[2]

Uca Allah buyurur:

وَسْـَٔلْ مَنْ أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رُّسُلِنَآ أَجَعَلْنَا مِن دُونِ ٱلرَّحْمَٰنِ ءَالِهَةً يُعْبَدُونَ

---

[1] Əş-şirk və məzahiruhu böyük alim Mübarək əl-Mili, səh. 44.
[2] "Nəhl" surəsi 36-cı ayə.

**Səndən əvvəl göndərdiyimiz elçilərdən (onların davamçılarından) soruş; Biz Mərhəmətli (Allahdan) başqa ibadət ediləsi məbudlarmı icad etmişik?** [1]

Uca Allah buyurur:

وَأَنَّهُۥ لَمَّا قَامَ عَبۡدُ ٱللَّهِ يَدۡعُوهُ كَادُواْ يَكُونُونَ عَلَيۡهِ لِبَدٗا ﴿١٩﴾ قُلۡ إِنَّمَآ أَدۡعُواْ رَبِّي وَلَآ
أُشۡرِكُ بِهِۦٓ أَحَدٗا ﴿٢٠﴾

**Allahın qulu qalxıb Allaha dua etdikdə (cinlər) az qala onun dövrəsində bir-birinə keçib çəpər yaradırdılar. De: “Mən yalnız öz Rəbbimə dua edirəm və kimisə Ona şərik qoşmuram!”** [2]

Həsən əl-Bəsri (Allah ona rəhmət etsin) “Allahın qulu, qalxıb Ona dua etdiyi zaman” ayəsi haqqında belə demişdir: *“Lə ilahə illəllah”* deyə dua edərək, Allaha dua edirdi”.[3]

Uca Allah buyurur:

قُلۡ إِنِّيٓ أُمِرۡتُ أَنۡ أَعۡبُدَ ٱللَّهَ مُخۡلِصٗا لَّهُ ٱلدِّينَ

**De: «Mənə, dini yalnız Allaha məxsus edərək, Ona ibadət etmək əmr olunmuşdur».**[4]

Səhih bir hədisdə rəvayət olunur ki, Rəsulullah ﷺ əl-Məcaz bazarında camaatı toplayıb, onlara buyurdu: ***“Ey insanlar, “Lə iləhə illəllah” deyin, o zaman nicat taparsınız”***.[5]

Əbu Süfyanın (Allah ona rəhmət etsin) hədisində, Hirakl ilə bağlı hekayətindən, belə deyilir: "Hirakl dedi: "O sizə nə əmr edir?" Mən cavab verdim: ***“O deyir: “Bir olan Allaha ibadət edin, Ona heç bir şeyi şərik qoşmayın və atalarınızın dediyini tərk edin”.*** [6]

Şeyxül-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: “Peyğəmbərlər öz çağırışlarına, Nuh, Hud, Saleh, Şüeyb haqqında Allahın dediyi kimi, Ondan başqa hər şeyi tərk edərək, yalnız Allaha ibadət etmək əmri

---

[1] "Zuxruf" surəsi 45-ci ayə.
[2] "Cinn" surəsi 19-20-ci ayələr.
[3] Cami əl-bəyan, 29/117.
[4] "Zumər" surəsi 11-ci ayə.
[5] Əhməd Müsnəddə, 16023
[6] Əl-Buxari 7, Muslim 4607.

ilə başladılar. Onların xalqları, Yaradanı qəbul edirdilər, lakin müşrik idilər, çünki onlar da Muhəmmədin (sallallahu aleyhi vas səlləm) göndərildiyi ərəblər kimi, başqasına ibadət edirdilər".[1]

Allahu Təalə, zindandakı iki məhbusa xitab edən, Yusif haqqında belə buyurur:

وَٱتَّبَعۡتُ مِلَّةَ ءَابَآءِيٓ إِبۡرَٰهِيمَ وَإِسۡحَٰقَ وَيَعۡقُوبَۚ مَا كَانَ لَنَآ أَن نُّشۡرِكَ بِٱللَّهِ مِن شَيۡءٖۚ
ذَٰلِكَ مِن فَضۡلِ ٱللَّهِ عَلَيۡنَا وَعَلَى ٱلنَّاسِ وَلَٰكِنَّ أَكۡثَرَ ٱلنَّاسِ لَا يَشۡكُرُونَ ٣٨ يَٰصَٰحِبَيِ
ٱلسِّجۡنِ ءَأَرۡبَابٞ مُّتَفَرِّقُونَ خَيۡرٌ أَمِ ٱللَّهُ ٱلۡوَٰحِدُ ٱلۡقَهَّارُ ٣٩ مَا تَعۡبُدُونَ مِن دُونِهِۦٓ إِلَّآ
أَسۡمَآءٗ سَمَّيۡتُمُوهَآ أَنتُمۡ وَءَابَآؤُكُم مَّآ أَنزَلَ ٱللَّهُ بِهَا مِن سُلۡطَٰنٍۚ إِنِ ٱلۡحُكۡمُ إِلَّا لِلَّهِ أَمَرَ
أَلَّا تَعۡبُدُوٓاْ إِلَّآ إِيَّاهُۚ ذَٰلِكَ ٱلدِّينُ ٱلۡقَيِّمُ وَلَٰكِنَّ أَكۡثَرَ ٱلنَّاسِ لَا يَعۡلَمُونَ ٤٠

**Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və (bütün) insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir. Ey mənim zindan yoldaşlarım! Ayrı-ayrı tanrılar yaxşıdır, yoxsa Tək olan, (hər şeyə) Qalib gələn Allah? Ondan başqa ibadət etdikləriniz, sizin və atalarınızın adlandırdığınız adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. O əmr etmişdir ki, yalnız Ona ibadət edəsiniz. Doğru din budur, lakin insanların çoxu (bunu) bilmir.**[2]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) Yusif (əleyhissalam) haqqında demişdir: "O, bu iki nəfərə ehtiram və hörmətlə sual verdi və bunu onları tövhid və islama dəvət etmək üçün, bir yol və səbəb etdi, çünki o gördü ki, onlar yaxşılığı qəbul edirlər, ona doğru gedirlər və qulaq asırlar.[3]

Şeyxul-islam Muhəmməd ibn Əbdülvəhhab (Allah ona rəhm etsin) demişdir: "Yusif (əleyhissalam) müxtəlif dəlillərdən istifadə edərək, onları tövhidə dəvət etdi. Dəlillərdən biri də odur ki, Yusif (əleyhissəlam) həmin iki nəfərdən və başqa insanlardan fərqləndiyi və Rəbbinin ona öyrətdiyi elmi zikr etməsidir. İkincisi, Allahın hikmət sahibi olması və mükafatları öz yerinə

---

1 "Məcmu' əl-fətava" 16/332, "İqtida əs-siratul-müstəqim" 2/329; bax "Məaric əl-kabul" 2/501 və ondan sonra.

2 "Yusuf" surəsi 38-40-cı ayələr.

3 Təfsirül-Quran əl-Azim, 4/390.

qoyması, "O şirki tərk edib, tövhidi qəbul etdiyim üçün məni şərəfləndirdi". Üçüncüsü budur ki, bu tərk və əməl etmə, peyğəmbərlərin dinidir.[1]

Səmimi bir dəvətçi, şübhəsiz ki, Allah və Rəsulu ﷺ nədən başladısa, ondan başlamalıdır və bu, *tövhidi* tamamilə Allaha həsr etmək və Ona dəvət etmək əmridir, həmçinin hikmət və gözəl öyüd-nəsihətlə *şirk* və onun tərəfdarlarından çəkinməkdir. Dəvətin və dəvət edənlərin uğurunun sirri — budur və əgər bu, bütün peyğəmbərlərin və möminlərdən onların yolunu gedənlərin yoludursa, başqa cür necə ola bilər?

Bu, haqq dində və doğru yolda möhkəmlənməyin yeganə yoludur ki, kim ondan uzaqlaşarsa, bir-birindən ayrılan azğınlardan olar, hətta düz yolda getdiyini və yaxşılıq etdiyini zənn etsə də belə.

[1] "Əd-Durar əs-saniyyə", 13/252-253.

# 6. Tövhid — mükəlləflərin[1] birinci vəzifəsidir

İbn Abbasın (Allah ondan razı olsun) belə dediyi rəvayət olunur: "Peyğəmbər ﷺ Muazı (Allah ondan razı olsun) Yəmən sakinlərinə göndərərkən, ona dedi: ***"Həqiqətən, sən kitab əhlindən olan insanların yanına gələcəksən və onları ilk dəvət etdiyin şey, ibadətdə Allahu Təalənın təkliyi olsun. Əgər onlar bunu qəbul etsələr..."*** və hədisin sonuna qədər.[2]

Buna görə də, Hafiz İbn Məndəh (Allah ona rəhmət etsin) bu hədislə olan fəsli, belə adlandırdı: "Qulun dəvət olunacağı ilk şey, məhz tövhiddir".[3]

Şeyxülislam Muhəmməd ibn İbrahim Əli əş-Şeyx (Allah ona rəhmət etsin) demişdir: "Tək tövhid, bəndənin islamının səhih olması və cənnətə daxil olması üçün kifayətdir. Əgər bəndə, tövhid kəlmələrini desə və sonra şəriətin qollarından hər hansı birinə, mükəlləf olmadan vəfat etsə, ona təkcə tövhid kifayət edər. Tövhidin bu qollara ehtiyacı yoxdur, lakin onların səhih olması üçün tövhid lazımdır. [4]

Əbu əl-Həyyac əs-Əsədinin hədisində o, belə demişdir: «Bir dəfə Əli ibn Əbu Talib (Allah ondan razı olsun) mənə dedi: "*Peyğəmbərin ﷺ öz zamanında, məni göndərdiyi tapşırıq ilə, məndə səni göndərimmi? Dağıtmadığın heç bir heykəl və yerlə bir səviyyədə etmədiyin heç bir yüksək qəbir qoyma*"».[5]

Bu, Allahu Təaləya çağırış zamanı, tövhidlə başlamağın zərurəti, təkcə Peyğəmbərə ﷺ aid olmadığını, onun və onun ardınca gedən və onun yoluna sadiq qalan, ardıcıllarına aid olduğunun, açıq izahıdır, necə ki, Uca Allah Öz müqəddəs kitabında buyurur:

---

[1] Ağıllı, yetkin müsəlman, etdiyi əməllərə görə, Allah qarşısında məsuliyyət daşıyan.

[2] Əl-Buxari 7371, Muslim 121.

[3] Kitabul-iman, 1/379.

[4] "Şərh kəşf əş-şubuhat", Muhəmməd ibn İbrahim Əli əş-Şeyx, səh. 95.

[5] Muslim 969.

قُلْ هَٰذِهِۦ سَبِيلِيٓ أَدْعُوٓاْ إِلَى ٱللَّهِۚ عَلَىٰ بَصِيرَةٍ أَنَا۠ وَمَنِ ٱتَّبَعَنِيۖ وَسُبْحَٰنَ ٱللَّهِ وَمَآ أَنَا۠ مِنَ ٱلْمُشْرِكِينَ

De: “Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, (insanları) Allaha tərəf çağırırıq. Allah Pakdır, Müqəddəsdir. Mən də müşriklərdən deyiləm”.[1]

[1] "Yusuf" surəsi 108-ci ayə.

# 7. Tövhid — qulun mütləq öyrənməli olduğu, biliklərin birincisidir və onun haqqında cahil olmağa icazə verilmir

Uca Allah buyurur:

فَٱعۡلَمۡ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا ٱللَّهُ وَٱسۡتَغۡفِرۡ لِذَنۢبِكَ

**Bil ki, Allahdan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. Sən, həm öz günahlarının, həm də mömin kişilərlə, mömin qadınların bağışlanmasını dilə.**[1]

İmam İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) tövhid kəlmələrinin sirrini və onların mahiyyətini, açıqlayaraq buyurur: "Bu sözlərin ruhu və sirri — Böyük Rəbbin (Ona həmd olsun, Onun adı müqəddəsdir və pakdır, Onun əzəməti Ucadır və Ondan başqa ibadətə layiq, haqq məbud yoxdur) məhəbbətdə, ucalıqda, qorxuda, ümiddə təkləşdirilməsidir və bunun nəticəsi təvəkkül, Allaha qayıdış (*inəbə*) və qorxudur və buna görə də, insan Allahı sevdiyi kimi, heç kəsi sevməz. Əgər insan birini sevsə belə, bu sevgi onun Allaha olan sevgisinin nəticəsi olar, Allahın sevgisini bu quluna artırmağa vəsilə olacaqdır. Və insan, Allahdan başqa heç kəsdən qorxmaz, Ondan başqasına təvəkkül etməz, yalnız Ona təvəkkül edir, yalnız Onun üçün səy edir, yalnız Ondan qorxur, yalnız Onun adlarına and içir, yalnız Ona nəzir edir, yalnız Ona tövbə edir, yalnız Onun əmrlərinə itaət edir, Allahdan başqasının onu haqq-hesab etməsini gözləməz, müsibətlərdə Ondan başqasına sığınmaz və Ondan başqa sığınacaq yer axtarmaz, yalnız Ona səcdə edər, yalnız Ona qurban kəsər, və bütün bunları bir cümlədə cəmləşdirmək olar və bu, heç bir ibadətdə, Ondan başqasına ibadət etməməkdir, və "*Lə iləhə illəllah*" şəhadətinin mahiyyəti də budur".[2]

Böyük alim əs-Sidi (Allah ona rəhmət etsin) bu ayənin təfsirində belə demişdir: "Allahın bizə əmr etdiyi elm — yəni bu Allahın tövhidi haqqında bilikdir, və bunu bilmək hər bir insana vacibdir və bu vacibat, kim olursa olsun,

---

[1] "Muhəmməd" surəsi 19-cu ayə.
[2] Əl-Cəvab əl-Kafi, səh. 205.

heç kimdən düşmür və hər kəsin buna ehtiyacı var. “Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur” elmi bu cür əldə edilir:

Birincisi və ən vacibi: Onun kamilliyinə və böyüklüyünə işarə edən, adları və sifətləri, və əməlləri üzərində düşünmək, bu da bizi hər cür həmd, tərif, ucalıq və gözəllik sahibi olan Kamil Rəbbə ibadət etməkdə və Onu ilahiləşdirməkdə səy göstərməyə məcbur edir.

İkincisi: Onun Uca olduğunu, Yaradan və idarə edən olduğunu bilmək, və bundan belə nəticə çıxır ki, tək O ibadətə layiqdir.

Üçüncüsü: aşkar və gizli, dini və dünyəvi lütfləri bəxş edənin, təkliyinə inanmaq, və qəlbi Ona bağlamaq, Onu sevmək və şəriki olmayan, Tək olanı ilahiləşdirmək zərurətindən irəli gəlir.

Dördüncüsü: tövhidin tərəfdarlarının (*övliyaların*) mükafatlarından gördüklərimiz və eşitdiklərimiz, istər qələbələri və ya nemətləri olsun, həmçinin də onların müşriklərdən olan, düşmənlərinin cəzaları. Həqiqətən, bu hər cür ibadətə layiq olan, Uca,Tək Allah haqqında biliyə tərəf aparır.

Beşincisi: bütlərin və Allaha şərik qoşulanların, yəni Allahla yanaşı ibadət edilənin və ilahlaşdırılanların vəsflərini bilmək və hərtərəfli nöqsanlarını bilmək. Onlar mahiyyət etibarilə yoxsul və möhtacdırlar, həm özləri üçün, həm də onlara ibadət edənlər üçün, heç bir zərər və ya fayda verə bilməzlər, diriltməklə, əzab verməklə və ya qəbirdən çıxartmaqla, onlara ibadət edənlərə, kiçik bir qarışqa çəkisi qədər belə kömək etməzlər, istər yaxşılıq etmək, istərsə də zərərin uzaqlaşdırılması məsələsində. Bunu bilmək, Ondan başqa ibadətə layiq məbud olmadığına və Allahdan başqa, bütün məbudların batil olduğunu bilməyə səbəb olur.

Altıncısı: bunda, Allahın kitablarının birliyi və uyğunluğu.

Yeddincisi: xüsusi insanlar, hansılar ki, ədəb-əxlaq, ağıl, fikir, kamal və bilik baxımından, məxluqların ən yaxşılarıdırlar — bunlar elçilər, peyğəmbərlər və tərbiyə edən alimlərdir — və onlar, bu barədə Allaha şəhadət vermişlər.

Səkkizinci: Allahın kainatdakı və onların özlərindəki dəlillərdən, irəli sürdüyü şeylər, ən böyük dəlillə, Allahın tövhidinə işarə edir və ona dəvət edir. Və onların yaradılışındakı hikmət, heyrətamizlik və gözəllik, qullarının ibadət etmələrinə, yalnız Allahın layiq olduğuna şəhadət, dəlalət edir. Və bu yollar, "Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına", Allahın öz məxluqlarını ən çox çağırdığı yollardırlar.

İnsanın, bu yollardan heç olmasa, biri üzərində düşünməsi kifayətdir ki, həqiqət ona aydın olsun və ondan xəbəri olsun. Tövhidin dəlilləri isə çoxdur. Onlar bir-birini gücləndirir və müxtəlif yollarla sübut edir ki, Rəbb olan Allah birdir. Onların sayəsində, Allahın bəndələrinin imanı və elmi öz qəlblərində, qüdrətli dağlar kimi möhkəm olur və onları nə şübhələr, nə də kafirlərin uydurmaları sarsıda bilməz. Allahın düşmənləri, onların nəfslərinə şübhə toxumu səpməyə və onları inandırmağa çalışdıqca, onların imanı və elmi daha da güclənir və kamilləşir. Tövhidin daha bir böyük dəlili də var və bu Qurani-Kərimdir. Bu kitab üzərində düşünüb, onun ayələri üzərində düşünən kimi, tövhid elminin ən böyük qapısı qarşımızda açılır. Bu cür, hər birimiz tövhidin əsaslarını və təfərrüatlarını, başqa yollardan daha çox öyrənə bilərik.

## 8. Tövhid — Allahu Təalənın kitabında — ilk əmrdir, şirkin qadağan edilməsi isə — ilk qadağadır

Uca Allah buyurur:

يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱعۡبُدُواْ رَبَّكُمُ ٱلَّذِي خَلَقَكُمۡ وَٱلَّذِينَ مِن قَبۡلِكُمۡ لَعَلَّكُمۡ تَتَّقُونَ ﴿٢١﴾
ٱلَّذِي جَعَلَ لَكُمُ ٱلۡأَرۡضَ فِرَٰشٗا وَٱلسَّمَآءَ بِنَآءٗ وَأَنزَلَ مِنَ ٱلسَّمَآءِ مَآءٗ فَأَخۡرَجَ بِهِۦ مِنَ
ٱلثَّمَرَٰتِ رِزۡقٗا لَّكُمۡۖ فَلَا تَجۡعَلُواْ لِلَّهِ أَندَادٗا وَأَنتُمۡ تَعۡلَمُونَ ﴿٢٢﴾

**Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə (Allahdan) qorxasınız. O, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün (növbənöv) məhsullardan ruzi yetişdirdi. Siz də (bunu) bildiyiniz halda (heç kəsi) Allaha tay tutmayın.**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) dedi: **“Ey insanlar! Rəbbinizə ibadət edin”**, yəni sizi yaradan Rəbbinizi təkləşdirin”.[2]

İmam Bəğavi (Allah ona rəhmət etsin) İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edir ki, o demişdir ki: «Quranda “ibadət” (العبادة) sözündən bəhs edilən, hər bir şey tövhidi nəzərdə tutur».[3]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) demişdir: «İbn Abbas (Allah ondan razı olsun) **“Rəbbinizə ibadət edin”** kəlməsinin təfsiri haqqında danışarkən, nəzərdə tuturdu ki, “Onu təkləşdirin”, yəni Rəbbinizi itaətdə və ibadətdə təkləşdirin, başqa məxluqatları deyil – Allahın izni ilə (əgər Allah istəsə).[4]

İbn Abbasın (Allah ondan razı olsun) hədisində Muazın (Allah ondan razı olsun) belə dediyi rəvayət olunur: “Allahın Rəsulu ﷺ məni göndərdi və dedi: ***“Həqiqətən sən, kitab əhlindən olan, insanların yanına gedəcəksən, onları ilk***

[1] "Bəqərə" surəsi, 21-22-ci ayələr.
[2] Təfsir əl-Quran əl-Əzım, 1/195.
[3] “Məalim ət-tənzil”, 1/25.
[4] “Cami əl-bəyan”, 1/160.

***dəvət etdiyin şey, Böyük və Qüdrətli olan Allaha ibadət olsun. Əgər onlar, Allahı tanısalar, onlara bildir ki, Allah onlara beş vaxt namazı vacib etmişdir..."*** ».[1]

Başqa bir rəvayətdə (versiyada) buyurulur: «...Allahı təkləşdirsinlər və əgər bunu etsələr, onlara xəbər ver...»[2].

Hafiz İbn Həcər (Allah ona rəhmət etsin) demişdir: «Və bu iki *rəvayət* arasında, Allaha ibadət etməyin, Onun tövhidi, nəzərdə tutulur, və tövhidlə isə yalnız Onun ibadətə layiq olduğuna və Onun elçisinin peyğəmbərliyinə şəhadəti birləşir. Və hədis ibadət və tövhiddən başlayır, çünki dinin əsası budur, hansı ki, bunsuz qalan hər şey doğru olmaz».[3]

Şeyxul-islam Muhəmməd ibn Əbdülvəhhab (Allah ona rəhmət etsin) demişdir: «Həqiqətən, ibadət — tövhiddir, çünki qövmlərlə elçilər arasında məhz bu məsələdə mübahisə (ixtilaf) olub».[4]

---

[1] Əl-Buxari 7371, Muslim 121.
[2] Əl-Buxari 7372.
[3] Fəth əll-Bari, 3/420.
[4] Kitab ət-Tövhid, səh. 9.

## 9. Quranın ilk və ən əzəmətli surəsi, üç növ tövhidi özündə ehtiva edir

Böyük alim, İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) demişdir: “Bilin ki, bu surə (yəni «əl-Fatihə») əsas, yüksək tələbləri və ibadət olunan Uca və nöqsansız Allahın, elmini tam ehtiva edir. Və bunu üç ad vasitəsilə ehtiva edir. Və bütün, başqa, gözəl ad və sifətlər bu üç ada qayıdırlar və onların ətrafında toplanırlar. Bu üç ad — Allah (الله), Rəbb (الرب) və Rəhimli (الرحمن), surə isə ilahiləşdirmə, rəbbləşdirmə və mərhəmətlilik üzərində qurulmuşdur”.[1]

Böyük alim, İbn Əbu əl-İzzul-Hənəfi (Allah ona rəhmət etsin) demişdir: “Bütün Quran tövhid, onun haqqları və onun mükafatları, həmçinin şirk, onun tərəfdarları və onlara verilən cəza haqqındadır. “**Həmd olsun aləmlərin Rəbbi olan Allaha**” kəlməsi tövhiddir. “**Mərhəmətli və Rəhim olana**” – bu tövhiddir. "**Haqq-hesab gününün Hökmdarına**" – bu tövhiddir. "**Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik**" – bu tövhiddir. "**Bizi doğru yola yönəlt**" – bu, Allahın nemət verdiyi tövhid tərəfdarlarının yolunda, hidayət tələbini ehtiva edən, tövhiddir. **"Tövhidi tərk edib, əzaba düçar olanların və yolunu azanların yoluna yox"**.[2]

---

[1] “Madaric əs-salikin”, 1/48.
[2] Şərh əl-əqidə ət-təhaviyyə, 1/43.

# 10. Tövhid — qulun günü başlayarkən ilk etdiyi və günü bitərkən son etdiyi şeydir

Əbu Hureyrənin (Allah ondan razı olsun) Rəsulullahın ﷺ sübh (Fəcr) namazının, iki rükətində oxuduğu haqqında hədisi buna dəlalət edir: **«De: "Ey kafirlər"»** və **«De: "O Allah Təkdir!"»**.[1]

Həmçinin, Ubey ibn Kəbədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ *vitr* namazında **"Ən Uca Rəbbinin adına təriflər de!"**, **«De: "Ey kafirlər"»** və **«De: "O Allah Təkdir!"»** surələrini oxuyardı.[2]

Həmçinin, əl-Əşcaidən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ Nöfələ dedi: **«Oxu: "De: "Ey kafirlər…", sonra yat, həqiqətən, o, şirkdən uzaqlaşdırar (qoruyar)».**[3]

Böyük alim, İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) **«De: "O Allah Təkdir!"»** surəsi haqqında demişdir: "O, Allahın kamil sifətləri ilə bağlı, vacib olanların izahını və Allahı nöqsan və bənzətmələrdən təmizləmək üçün nəyin vacib olduğunun, izahını ehtiva edir. **«De: "Ey kafirlər"»** surəsi isə, şəriki olmayan, tək Ona ibadət etməyin vacibliyinə dəlalət edir, Ondan başqa ibadət olunanlarla isə heç bir əlaqəsi olmamanın göstəricisidir. Və tövhid növlərindən biri, digəri olmadan (Allahın ad və sifətlərində tövhid və ibadətdə tövhid) tam olmaz və buna görə də, Peyğəmbər ﷺ *sübh* namazının sünnəsində və *vitr* namazında əməlləri açan və onları bitirən, bu iki surəni oxuyurdu ki, gün tövhidlə başlasın və onunla da bitsin. [4]

---

[1] Muslim 727.
[2] Əbu Davud 1423, ət-Tirmizi 463, ən-Nəsai 1730, İbn Macə 1171, əl-Hakim 1185.
[3] Əbu Davud 5055, ət-Tirmizi 3403.
[4] "Əl-ictimaʻ əl-cüyüş əl-islamiyyə", səh.94.

Peyğəmbərimizin ﷺ daima, gecə vaxtı etdiyi işlərdən biri, "Bəqərə" surəsinin axırını oxuması idi. Əbu Məsud əl-Bədridən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ demişdir: ***«"Bəqərə" surəsinin son iki ayəsi, onları gecə oxuyan üçün kifayətdir"***.[1]

Həmçinin Peyğəmbərdən ﷺ rəvayət olunur ki, o, gecə vaxtı, çevrilərkən deyərdi: ***«(Hər şeyə) Qalib gələn, Tək Allahdan başqa, ibadətə layiq olan, haqq məbud yoxdur. O, göylərin, yerin və onların arasında olanların Rəbbidir, Qüdrətlidir, Bağışlayandır»***.[2]

Səhər, axşam zikrləri və həmçinin digər zikrlər haqqında, Peyğəmbərdən ﷺ gələn səhih hədislərdən başqa, daha əhəmiyyətli elə bir şey yoxdur ki, orada Allahu Təalənın tövhidini zikr edən və bu zikrin hər an təkrarlanması ilə bağlı müxtəlif mətnlər olsun.

---

[1] Əl-Buxari 4008, Muslim 808.
[2] Əl-Həkim 2024, İbn Hibban 5530. Əs-Səhihə, 2066.

# 11. Quldan qəbrində soruşulacaq ilk şey — tövhiddir

Əl-Bəra ibn əl-Azib (Allah ondan razı olsun), uzun bir hədisdə, Rəsulullahın ﷺ belə dediyini rəvayət edir: ***«Onun ruhu bədəninə qaytarılacaq (yəni möminin) və onun yanına, iki mələk gələcək və onu otuzdurub, soruşacaqlar: "Rəbbin kimdir?" O cavab verəcək: "Rəbbim — Allahdır". Sonra soruşacaqlar: "Dinin nədir?" O cavab verəcək: "Mənim dinim — İslamdır". Sonra soruşacaqlar: "Sizə göndərilən o adam kimdir?" O cavab verəcək: "O, Allahın Rəsuludur". Onlar soruşacaqlar: "Bunu hardan bilirsən?" O cavab verəcək: "Mən, Allahın kitabını oxudum, ona iman gətirdim və ona sadiq qaldım". Və Carçı, göydən deyəcək: "Qulum doğru danışdı! Onun üçün, cənnətdə bir çarpayı düzəldin, qarşısında cənnət qapılarını açın və ona cənnət paltarı geyindirin!" Cənnətin gözəlliyi və onun ətri ona gələcək və Allah həmin ruhun gözü görə bildiyi qədər, qarşısında geniş yer açacaq».*** Daha sonra o dedi: ***«...və onun yanına gözəl üzlü, gözəl paltarlı bir nəfər gələcək...»*** [1].

Və bu hədis əsasında, Şeyxülislam Muhəmməd ibn Əbdülvəhhab «Üç əsas» adlı, böyük, faydalı əsərini yazdı.

---

[1] Əbu Davud 4753, İbn Macə 4262, Əhməd 30/499 (18534), əl-Beyhəqi 2/316 (390).

# 12. Tövhid — insanların yaranma qayəsidir

Uca Allah buyurur:

وَمَا خَلَقْتُ ٱلْجِنَّ وَٱلْإِنسَ إِلَّا لِيَعْبُدُونِ ﴿٥٦﴾
مَآ أُرِيدُ مِنْهُم مِّن رِّزْقٍ وَمَآ أُرِيدُ أَن يُطْعِمُونِ ﴿٥٧﴾

**Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan, Məni yedirtmələrini də istəmirəm.**[1]

**«Mənə ibadət etsinlər»** kəlməsi "Məni ibadətdə təkləşdirsinlər" mənasını verir.

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) isnadında, İbn Abbasdan (Allah ondan razı olsun) Uca Allahın kəlamının təfsiri haqqında belə dediyini nəql etmişdir: **«Ey insanlar! Sizi və sizdən öncəkiləri yaradan, Rəbbinizə ibadət edin»**[2]: "Yəni, sizi və sizdən öncəkiləri yaradan Rəbbinizi təkləşdirin (yəni ibadətdə təkləşdirin)".[3]

Məxluqların yaradılmasında məqsəd — Pak olan Allahın tövhididir. Və qulun haqqı varmı ki, bu böyük məqsədi nəzərə almadan vaxtını və günlərini keçirsin? Şübhə yoxdur ki, bu, ən böyük itkidir. Bu məqsədin lazımi qaydada qayğısına qalmaq lazımdır, onu həyata keçirmək, ona çatmaq üçün əməllər etmək lazımdır. Qulun uğuru və nicatı bu məqsədlə bağlıdır, köməksiz qalmağı və ziyana uğraması isə, bu məqsəddən imtinası ilə əlaqəlidir.

[1] "Zəriyət" surəsi, 56-57-ci ayələr.
[2] "Bəqərə" surəsi, 21-ci ayə.
[3] "Cami əl-bəyan", 1/160.

# 13. Tövhid - Allahın bəndələri üzərində  haqqıdır

Uca Allah buyurur:

وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعْبُدُوٓا۟ إِلَّآ إِيَّاهُ وَبِٱلْوَٰلِدَيْنِ إِحْسَٰنًا ۚ

**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur.**[1]

Həmçinin, Muazın (Allah ondan razı olsun) hədisində, Peyğəmbərdən ﷺ belə rəvayət olunur: ***"Ey Muaz, bilirsənmi Allahın qulları üzərində haqqı nədir?"*** Muaz dedi: *"Allah və Rəsulu bunu daha yaxşı bilir"*. O zaman o buyurdu: ***"Allahın bəndələri üzərində olan haqqı odur ki, onlar Ona ibadət etsinlər və Ona heç nəyi şərik qoşmasınlar." Onların Ondan nəyi gözləməyə haqqı olduğunu bilirsənmi?"*** (Muaz) dedi: "Allah və Rəsulu bunu daha yaxşı bilir". Və o dedi: ***«O onlara əzab verməz»***.[2]

Bu hədisdə «Allahın bizim üzərimizdəki haqqını bilmək»[3] vacibliyinə işarə var və bu, heç şübhəsiz, ümumilikdə ən böyük haqqdır. Buna görə də, bu haqqa nöqsansız və həddi aşmadan riayət edilməlidir.

---

[1] "İsra" surəsi, 23-cü ayə.

[2] Əl-Buxari 7374, Muslim 30.

[3] Bu, Şeyxülislam Muhəmməd ibn Əbdül-Vəhhabın (Allah ona rəhmət etsin) Kitab ət-Tövhidin müqəddiməsindəki on üçüncü sualdır.

## 14. Tövhid — ümumiyyətlə elmin ən şərəflisidir

Uca Allah buyurur:

شَهِدَ ٱللَّهُ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا هُوَ وَٱلْمَلَٰٓئِكَةُ وَأُو۟لُوا۟ ٱلْعِلْمِ قَآئِمًۢا بِٱلْقِسْطِ ۚ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلْعَزِيزُ ٱلْحَكِيمُ

**Allah Özündən başqa, tanrının olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də (şahidlik etdilər). (Allah əbədi olaraq) ədalətli olmaqdadır. Ondan başqa ilah yoxdur, Qüdrətlidir, Müdrikdir.**[1]

Böyük alim, İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) demişdir: «Ən yaxşı elm — Allah haqqında elmdir, ən böyük sevgi — Allah rizası üçün olan sevgidir və ən kamil ləzzət də buna görədir».[2]

Həmçinin, İbn əl-Qəyyimdən bu ayə haqqında gəlmişdir ki: "Onları, şəhadət verdikləri ən şərəfli, ən böyük və ən əzəmətli şeyə şahid gətirdi və bu, Ondan başqa ibadətə layiq haqq məbud olmadığına şəhadətdir. Və öz məqamında böyük olan, böyük şeyə görə, məxluqların ən hörmətlisini və ən əhəmiyyətlisini şahid tutur.[3]

Həmçinin İbn əl Qəyyim (Allah ona rəhmət etsin) buyurur ki: "Bu nəcib ayə, tövhidin mahiyyətinin, təsdiqinə işarə və bütün bu qrupların təkzibini ehtiva edir. Və o, özündə ən şərəfli və əzəmətli şəhadətləri, eləcə də ən böyük şahidlərin şəhadət verdikləri ən böyük şey haqqında ən ədalətli və ən doğrularını ehtiva edir".[4]

Həmçinin, böyük alim Əs-Sidi (Allah ona rəhmət etsin) demişdir: «Bu elmin ən şərəflisinin, tövhid olduğuna dəlalət edir, çünki Allah Özü haqqında şəhadət vermiş və hörmətli yaratdıqları da buna şahidlik etdilər (şəhadət verdilər)».[5]

---

[1] "Ali-İmran" surəsi, 18-ci ayə.
[2] Əl-Fəvaid İbn əl-Qəyyim, səh. 83.
[3] Miftəh dar əs-səadət, 1/220.
[4] "Madaric əs-salikin", 4/443, kiçik dəyişikliklərlə.
[5] Təysir əl-Kərim ər-Rəhman, səh. 125.

## 15. Tövhid əhlindən yetmiş min nəfər, sorğu-sualsız və cəzalanmadan Cənnətə daxil olacaqlar

İbn Abbasın (Allah ondan razı olsun) hədisində rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: ***«Bütün ümmətlər mənə göstərildi və mən elə peyğəmbər gördüm ki, yanında bir qrup insan var idi, və elə peyğəmbər ki, yanında on nəfər var idi, və yanında beş nəfərin olduğu bir peyğəmbər, və yanında bir nəfər olan peyğəmbər, və elə bir peyğəmbər var idi ki, onun yanında heç kim yox idi. Birdən qarşımda çoxlu insan göründü və mən soruşdum: "Ey Cəbrail, bu mənim ümmətimdir?" Dedi: "Yox, oradakı üfüqə bax". Oraya baxdım, məlum oldu ki, orada çoxlu insanlar var. Mənə dedi: "Bu, sənin ümmətindir və onlardan yetmiş min nəfər sorğu-sualsız Cənnətə daxil olacaqlar". Mən də: "Nəyə görə?" soruşdum. O cavab verdi: "(Bunlar) o kəslərdir ki, (heç kəsdən) ofsun (rüqyə) oxumağı tələb etməzlər, dağlanma etdirməzlər, əlamətləri uğursuzluğa yozmazlar və yalnız Allaha təvəkkül edərlər"».***[1]

Və heç bir şübhə yoxdur ki, onların qazandıqları fəzilət, alimlərin qeyd etdiyi kimi, aləmlərin Rəbbinin tövhidinin həyata keçməsi sayəsindədir. [2]

---

[1] Əl-Buxari 6541, Muslim 520.
[2] Bax, Taysir əl-Əziz əl-Həmid, 1/227.

# 16. Tövhid — cənnətə daxil olmaq üçün əsasdır

Buna, Əbu Hureyrənin (Allah ondan razı olsun) hədisi dəlalət edir ki, bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib ona dedi: "Ey Allahın Rəsulu, mənə elə bir əməl göstər ki, onu yerinə yetirməklə, Cənnətə daxil olum". Buna cavab olaraq, Allah Rəsulu ﷺ buyurdu: "***Allaha heç nəyi şərik qoşmadan ibadət et, namaz qıl, zəkat ver və Ramazan ayında oruc tut***". Bədəvi dedi: "Qəlbim əlində olana and olsun ki, mən buna heç bir şey əlavə etməyəcəyəm!" – və o dönüb gedəndə, Peyğəmbər ﷺ dedi: "***Cənnət əhlindən bir insanı görmək, kimə sevinc gətirirsə, bu bədəviyə baxsın***".[1]

Həmçinin, ondan (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: ***«Kim səmimi qəlbdən "Lə iləhə illəllah" (Allahdan başqa, ibadətə layiq, haqq məbud yoxdur) deyərsə, Cənnətə daxil olar»***.[2]

Cabir ibn Abdullahdan (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: "Allahın Elçisinin ﷺ belə dediyini eşitdim: ***"Kim, Allaha heç nəyi şərik qoşmadan ölərsə, Cənnətə daxil olar"***.[3]

Ubadə ibn əs-Samitin (Allah ondan razı olsun) hədisində Rəsulullahın ﷺ belə dediyi rəvayət olunur: ***"Hər kim, şəriki olmayan, tək Allahdan başqa, ibadətə layiq, haqq ilah olmadığına, Muhəmmədin Allahın qulu və Rəsulu olduğuna, İsanın Allahın qulu və Rəsulu və Allahın Məryəmə xitab etdiyi kəlamı və Allahın yaratdığı ruh olduğuna, və Cənnət və cəhənnəmin haqq olduğuna şəhadət edərsə, əməlləri nə olursa olsun, Allah onu Cənnətə daxil edər"***.[4]

Həmçinin, Əbu Hureyrənin (Allah ondan razı olsun) hədisində, Allah Rəsulunun ﷺ belə dediyi rəvayət edilir: ***"Şəhadət edirəm ki, Allahdan başqa, ibadətə layiq, haqq məbud yoxdur və mən Allahın Rəsuluyam və əgər Allahın qullarından biri, bu iki şəhadəti öz ehtiyatında saxlayaraq və onların***

---

[1] Əl-Buxari 1397, Muslim 14.
[2] Əl-Buxari 99.
[3] Muslim 270.
[4] Əl-Buxari 3435, Muslim 29.

***doğruluğuna şəkk-şübhə etmədən, Allaha qovuşarsa, şübhəsiz ki, Cənnətə daxil olar!"*** [1]

Həmçinin, dəlillərdəndir ki, Əbu Musa əl-Əşaridən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: **«*Sevinin və sevindirin: Kim "Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur" (Lə iləhə illəllah) desə və bunda ixlaslı olsa, cənnətə daxil olar*"».**[2]

[1] Muslim 138.
[2] Əhməd 32/465 (19789), əs-Səhihə 1314.

# 17. Tövhid əhli cəhənnəm üçün haramdır

İtban ibn Malikdən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: “Həqiqətən, “*Lə iləhə illəllah*” (Allahdan başqa, ibadətə layiq, haqq məbud yoxdur) deyəni və bununla Allahın Üzünü arzulayanı, Allah cəhənnəm oduna haram etmişdir”.[1]

Həmçinin, Ənəsin (Allah ondan razı olsun) hədisində rəvayət olunur ki, Allah Rəsulu ﷺ at üzərində gedirdi və onun arxasında, yəhərdə Muaz oturmuşdu, Peyğəmbər ﷺ dedi: ***"Ey Muaz!"*** Muaz dedi: “Mən sənin qarşındayam, ey Allahın Rəsulu və sənə xidmət etməkdən xoşbəxtəm!” Peyğəmbər ﷺ yenə dedi: ***"Ey Muaz!",*** — və Muaz yenə dedi: "Mən sənin qarşındayam, ey Allahın Rəsulu və sənə xidmət etməkdən xoşbəxtəm!" — və bu üç dəfə təkrarlandı. Sonra Peyğəmbər ﷺ buyurdu: ***«Allahın hər hansı bir qulu, Allahdan başqa ibadətə layiq, haqq ilah olmadığına, Muhəmmədin, Onun qulu və Rəsulu olduğuna şəhadət edərsə, buna səmimi qəlbdən iman gətirsə, Allah onu cəhənnəm oduna haram edər».*** Muaz soruşdu: “Ey Allahın Rəsulu, bunu insanlara xəbər edimmi ki, sevinsinlər?” O dedi: ***“Onda onlar ancaq buna ümid bəsləyərlər”*** — və Muaz Peyğəmbərin ﷺ bu sözlərini, vəfatından bir qədər əvvəl insanlara söylədi, çünki bundan sonra susmağı günah saydı. [2]

Böyük alim Süleyman ibn Abdullah Əli əş-Şeyx (Allah ona rəhmət etsin) tövhid vasitəsilə, günahların kəffarə olunma səbəbi haqqında belə demişdir: «Bu ona görədir ki, onunla – yəni tam tövhidlə gələn şəxs tam əmin-amanlıq və doğru yolun hidayəti ilə təmin olunacaq və o, cəzasız olaraq, Cənnətə daxil olacaqdır.

---

[1] Əl-Buxari 425, Muslim 33.
[2] Əl-Buxari 128, Muslim 144.

Amma tövbə etmədiyi günahlara görə, natamam, naqis tövhidlə gələn şəxs isə, «Nisa» və «Nəcm»[1] surələrinin ayələrində də bildirildiyi kimi, böyük günahları tərk etdiyi üçün, onun kiçik günahları da bağışlanar; əgər bunlar, böyük günahlar olarlarsa, Allah istəsə insanı bağışlayar, istəsə cəzalandırar. Lakin sonra o, Cənnətdə olacaqdır və Allah daha yaxşı bilir».[2]

Səhl ibn Muhəmməd ən-Neysəburi demişdir ki: "Əgər Allah, tövhid əhlindən olan bir günahkarı, cəzalandırmaq istəsə, o zaman o, günahkar, kafirlərin atıldığı kimi, Cəhənnəmə atılmayacaq və kafirlərin qaldığı kimi, orada qalmayacaqdır, və orada olan kafirlərin bədbəxtliyi kimi, bədbəxt olmayacaqdır".[3] Yəni kafirlər, üzüstə Cəhənnəmə sürüklənəcəklər və zəncirli, dəmir yaxalıqlarda, ağır qandallı halda ora atılacaqlar. Möminlərdən olan günahkar şəxs isə, cəhənnəmlə imtahan ediləcək və o insan, dünyada bir cinayətkarın, ayaq üstə, zindana girdiyi kimi, Cəhənnəmə girəcək və oraya atılmayacaq və sürüklənməyəcək".[4]

Huzeyfə ibn əl-Yəmanın, belə dediyi rəvayət olunur: «Allah Rəsulu ﷺ buyurmuşdur: ***"İslam, təzə paltardan tüklər (xov) yox olduğu kimi, yox olacaqdır və insanların orucdan, namazdan, həccdən və sədəqədən məlumatları kəsilənə qədər bu davam edəcək. Böyük və Qüdrətli Allahın kitabı, bir gecədə (götürüləcək), yox olacaq və ondan, yer üzündə bir ayə belə qalmayacaq. Və müxtəlif qrup insanlar qalacaq ki, onların arasında, bir qoca və qarı deyəcəklər ki: "Biz atalarımızı "Lə iləhə illəllah" (Allahdan başqa, ibadətə layiq, haqq məbud yoxdur) kəlmələrini dediklərini gördük, biz də bunu deyirik".*** Sılə (ibn Züfər) ondan soruşdu: "Əgər onların namazdan, orucdan, həccdən və sədəqədən xəbərləri olmasa, bu "*Lə iləhə illəllah*" onlara necə kömək edəcək?" Lakin Huzeyfə ondan üz çevirdi. Sonra o sualını üç dəfə təkrarladı, lakin Huzeyfə hər dəfə ondan üz çevirirdi, sonra üçüncü dəfə ona tərəf dönüb üç dəfə dedi: "Ey Sılə, bu onları Cəhənnəmdən xilas edəcək!"»[5]

Həmçinin Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: ***"Hər kim "Lə iləhə illəllah" (Allahdan başqa, ibadətə***

[1] "Nisa" surəsinin 31-ci ayəsi və "Nəcm" surəsinin 32-ci ayəsi.
[2] Təysir əl-Əziz əl-Həmid, 1/175.
[3] Bunlar Səhl ibn Muhəmməd ən-Neysəburinin (Allah ona rəhmət etsin) sözləridir, necə ki, onun şagirdi İmam əs-Səbuni "Əqidə", səh. 276-da nəql etmişdir.
[4] "Əqidə əs-sələf və əshəb əl-hədis" əs-Səbuni, səh. 276–277.
[5] İbn Macə 4049, əs-Səhihə 87.

*layiq, haqq ilah yoxdur) desə, bu ona, axirət günlərinin birində, kömək edər, hətta daha əvvəllər (əzab) başına gəlmiş olsa belə”* [1]

Allah, qullar üçün, tövhidin nicat olduğunu bildirərək, Firon ailəsindən olan, möminlərin dili ilə, belə buyurmuşdur:

وَيَٰقَوۡمِ مَا لِيٓ أَدۡعُوكُمۡ إِلَى ٱلنَّجَوٰةِ وَتَدۡعُونَنِيٓ إِلَى ٱلنَّارِ ﴿٤١﴾ تَدۡعُونَنِي لِأَكۡفُرَ بِٱللَّهِ وَأُشۡرِكَ بِهِۦ مَا لَيۡسَ لِي بِهِۦ عِلۡمٞ وَأَنَا۠ أَدۡعُوكُمۡ إِلَى ٱلۡعَزِيزِ ٱلۡغَفَّٰرِ ﴿٤٢﴾

Ey qövmüm! Nə üçün mən sizi qurtuluşa çağırdığım halda siz məni cəhənnəmə çağırırsınız?! Siz məni Allahı inkar etməyə və barəsində heç nə bilmədiyim şeyləri Ona şərik qoşmağa çağırırsınız. Halbuki mən sizi yenilməz qüvvət sahibi və çox bağışlayan Allaha çağırıram.[2]

---

[1] Əl-Bəzzar 8292, ət-Təbərani 393, “Səhihul-Cami əs-Səğir” 6434.
[2] “Ğafir” surəsi, 41-42-ci ayələr.

## 18. Tövhid vasitəsilə günahlar bağışlanır

Uca Allah, bir qüdsi hədisdə buyurur: ***"Ey Adəm oğlu, əgər sən Mənə, bütün yer üzünü dolduracaq qədər günahla gəlsən, amma Mənimlə yanaşı başqa heç bir şeyə ibadət etmədən Mənə qovuşsan, Mən mütləq Sənə, bütün bu günahları örtəcək bir bağışlanma bəxş edərəm!"*** [1]

Həmçinin, məşhur hədisdə "*Lə iləhə illəllah*" yazılmış vərəq haqqında Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: ***«Həqiqətən, Allah Qiyamət günü, ümmətimdən bir nəfəri, bütün məxluqatın qarşısına çıxaracaq və onun qarşısında, üzərində qeydlər olan, doxsan doqquz vərəq açılacaq, hansı ki, onların hər biri, insan gözünün görə biləcəyi qədər böyük olacaq. Daha sonra, Allah soruşacaq: "Sən bunlardan birini inkar edirsən mi? (Əməlləri) yazan, gözətçi mələklərim, sənə qarşı haqsızlıq ediblərmi?" O cavab verəcək: "Xeyr, ya Rəbb!" Allah: "Bəs üzrün varmı?" — deyə soruşacaq. O deyəcək: "Xeyr, ya Rəbb!" Sonra Allah belə buyuracaq: "Var! Şübhəsiz ki, sənin bizdə bir dənə savabın var və həqiqətən, bu gün sənə haqsızlıq olunmayacaq!" O zaman, bir vərəq çıxaracaqlar, onun üzərində bu yazı olacaq: "Şəhadət edirəm ki, Allahdan başqa, ibadətə layiq, haqq məbud yoxdur və şəhadət edirəm ki, Muhəmməd Onun qulu və elçisidir". Allah deyəcək: "Tərəziyə çəkiləcək yükü gətirin!" O zaman adam deyəcək: "Ey Rəbbim! Bu kitablarla müqayisədə, bu vərəqin çəkisi nə qədərdir?!" Allah buyuracaq: «Həqiqətən, sənə zülm olunmayacaq!» Sonra, kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından, o kitablar havaya qalxacaqlar"»*** .[2]

Böyük alim, əs-Sidi (Allah ona rəhmət etsin) demişdir: "Əgər tövhid, qəlbdə kamil və tam şəkildə olarsa və kamil surətdə, tam ixlasla əks olunarsa, bu halda az sayda olan əməllər çoxalar, onun əməl və sözünün savabı hədsiz və saysız artar. Qulun ixlaslı sözləri, tərəzidə ağır gələr, çünki göylər, yer və onları canlandıran bütün Allahın yaratdıqları, o ixlaslı sözlərlə bərabər deyillər. Bu, onları söyləyənin tam ixlasındandır. Amma onları tələffüz edənlərdən, nə qədər bu dərəcəyə çatmayanlar da var, çünki onların qəlbində, tövhiddən və

---

[1] ət-Tirmizi 3540, əs-Səhihə 127, 128.
[2] Əhməd 6994, ət-Tirmizi 2539, İbn Macə 4300, Səhih əl-Cami' 8095.

tam ixlasdan, obiri qulun qəlbində olanın bənzəri yoxdur və hətta ona yaxın belə heç nə yoxdur". [1]

İbn Məsudun (Allah ondan razı olsun) hədisində, Allah Rəsulunun ﷺ belə dediyi nəql edilir: «***Kim: "Ondan başqa, ibadətə layiq, haqq məbud olmayan, Diri, Əbədi olan, Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm" deyərsə, günahları bağışlanar, hətta hücum zamanı, döyüş meydanından qaçsa belə"***». [2]

Həmçinin, İbn Məsuddan (Allah ondan razı olsun) rəvayət olunur ki, Rəsulullah ﷺ buyurdu: ***«Sizdən əvvəl yaşamış insanlardan, bir nəfər var idi ki, və o, tövhiddən (riayət etməkdən) başqa, heç bir xeyir əməl etməmişdi. Ölüm ona yaxınlaşdıqda, o, ailəsinə dedi: "Qulaq asın! Öləndən sonra, məni kömürə dönənə qədər yandırın. Daha sonra, onu üyüdüb küləkli gündə dənizə səpin". O öldüyü zaman, onun vəsiyyətini yerinə yetirdilər. Beləliklə, o, Allahın hüzuruna çıxanda, Uca və Böyük Allah ondan soruşdu: "Etdiyin bu əmələ səni nə vadar etdi? O şəxs dedi: "Sənin qorxundan". Və Allah onu bağışladı».*** [3]

Böyük alim, İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) Adəmin (əleyhissəlam) tövbəsi haqqında belə demişdir: "Tövhid zirehi şükür bədəninə taxıldıqda, düşmən oxu ölümcül olmayan yara vurarsa və insan o yaraya itaət sarğısı bağlayarsa, yaralanmadan əvvəl olduğu kimi olar və yaralı insan, ona heçnə olmamış kimi ayağa qalxar".[4]

---

[1] "Əl-kaul əs-sədid fi məkasid ət-tövhid", səh. 24-25, qısaldılmış.
[2] Əbu Davud 1517, ət-Tirmizi 3577, "əl-Muqni" 1/269 (1031), əl-Hakim 1927, əl-Münzir "ət-Tərğib"də 1622.
[3] Əhməd 3785, əs-Səhih 3048, Səhih əl-Buxari 3481, Səhih Muslim 2756-da oxşar hədislər.
[4] Əl-Fəvaid, səh. 52.

Həmçinin o (Allah ona rəhm etsin) başqa yerdə buyurur ki: “Adəmin (əleyhissəlam) ibadətinin əsası (*übudiyyə*), korlanmadığı (salamat qaldığı) üçün, günah onun fəzilətinə xələl gətirmədi”.[1]

Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) demişdir: “Bağışlanmanın üçüncü səbəbi, tövhiddir və o ən böyük səbəbdir. Kim onu itirərsə, bağışlanmanı itirər. Onunla gələn isə, bağışlanma üçün ən böyük səbəblə gəlmiş olar. Qəlbində, tövhid kəlməsini təcəssüm edən şəxsin qəlbində, sevgi, ucalıq, ehtiram, hörmət, qorxu, ümid və təvəkkül məsələlərində, Allahdan başqa hər şey ondan çıxarılar – və o zaman onun bütün günahları və səhvləri yandırılacaq, hətta onların sayı dəniz köpüyü qədər çox olsa belə. Və ola bilsin ki, onların yerini yaxşı əməllər tutsun. Və həqiqətən də, bu tövhid böyük bir məlhəmdir, çünki əgər onun ən kiçik zərrəsi günah və xətalar dağına düşərsə, onları yaxşı əməllərlə əvəz edər".[2]

Və heç bir şübhə yoxdur ki, əgər bağışlanma diləməsi, Böyük və Qüdrətli olan Allahın tövhidi ilə birlikdə olarsa, günahlar buna görə bağışlanar və yox olar. Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: “Ona görə də, Pak və Uca Allah bir neçə ayədə, tövhid ilə bağışlanma diləməyi birlikdə qeyd etmişdir. Uca Allah buyurur: **«Bil ki, Allahdan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə»**[3] ”[4]

Həmçinin, tövhidin günahların bağışlanmasını diləməyin, ən üstün olduğuna dəlalət edən dəlillərdən, hansı ki, Peyğəmbərdən ﷺ nəql olunur: «***Bağışlanma duaları ilə, Allaha müraciət etmənin ən üstünü, qulun bu sözləridir: “Allahım, Sən mənim Rəbbimsən və Səndən başqa ibadətə layiq məbud yoxdur. Məni Sən yaratdın, mən də Sənin qulunam. Sənə verdiyim vədi və əhdi bacardıqca yerinə yetirəcəyəm. Etdiklərimin şərindən Sənə sığınıram, mənə verdiyin nemətləri etiraf edirəm və günahımı boynuma alıram, məni bağışla, çünki Səndən başqa heç kim günahları bağışlamaz!”***» [5]

[1] Əl-Fəvaid, səh. 93.
[2] “Camiul-ulum və əl-hikəm”, 1/22.
[3] "Muhamməd" surəsi, 19-cu ayə.
[4] Ad-Damriyah, səh. 226.
[5] Əl-Buxari 6306.

Böyük alim əs-Səfərini (Allah ona rəhmət etsin) bu *duanın* digər bağışlanma dualarından üstün olmasının səbəbini açıqlayaraq belə demişdir: “O, aləmlərin yaranma qayəsi olan tövhidi ehtiva edir – hökmranlıqda tövhid (*tövhid ər-rububiyyə*) və ibadətdə tövhid (*tövhidul-uluhiyyə*)”.[1]

O, həmçinin, məsələn, “Allah” və “Rəbb”(الرب) adlarında olduğu kimi, ad və sifətlərdə də (*tövhid əl-əsmai və əs-sifat*) tövhidi ehtiva edir.

[1] “Nətaic əl-əfkir fi şərh hədis seyyid əl-istiqfar”, səh. 199.

## 19. “Lə iləhə illəllah”[1] tövhid kəlmələri, Allahdan başqasına and içən şəxs üçün kəffarədirlər

Əbu Hureyrədən rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurmuşdur ki: ***“Kim and içmək istəsə və unutqanlıqdan: “əl-Lət və əl-Uzzaya and olsun” desə, dərhal: “Lə iləhə illəllah” desin. Və dostuna: “gəl səninlə (qumar) oynayım” deyən isə, sədəqə versin”***.[2]

Hafiz İbn Həcər (Allah ona rəhmət etsin) “Fəthul-Bari” kitabında, əl-Xəttabidən (Allah ona rəhmət etsin) belə rəvayət etmişdir: “And içərkən, yalnız ibadət olunana, müqəddəs sayılana and içilməlidir. Əgər kimsə, Lət və ya buna bənzər başqa bir şeyə and içərsə, kafirlər kimi olar və ona tövhid kəlmələri ilə, bunu islah etmək, düzəltmək əmr edilmişdir".[3]

İbn Məsuddan (Allah ondan razı olsun), gələn belə bir hədisdə, Allah Rəsulu ﷺ buyurmuşdu ki: ***“Pis əlamətlərə (bədbinliyə) görə hərəkət etmək, Allaha şərik qoşmaq sayılar. Bizim aramızda (eləsi yoxdur ki, onun ağlına belə bir şey gəlməsin), lakin Allah, Özünə təvəkkül sayəsində, bizi bundan xilas edir”.***[4]

Abdullah ibn Amr (Allah ondan razı olsun) hədisində rəvayət olunur ki, Rəsulullah ﷺ belə buyurmuşdu: “***Kim pis əlamətə görə, ehtiyacı olan şeydən üz döndərərsə, Allaha şərik qoşmuşdur***”. Ondan soruşdular: “Ey Allahın Rəsulu ﷺ! Bunun kəffarəsi nədir?” O cavab verdi: ***«Sizdən birinizin: “Allahım, Sənin xeyirindən başqa heç bir xeyir yoxdur, Sənin quşlarından başqa heç bir quş yoxdur və Səndən başqa, ibadətə layiq, haqq məbud yoxdur” deməsi».***[5]

---

[1] Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.
[2] Əl-Buxari 4860, Muslim 4260.
[3] Fəth əl-Bari, 8/479.
[4] Əl-ədəb əl-müfrəd, 909; Əbu Davud 3910; ət-Tirmizi 1614.
[5] Əhməd 7045; əs-Səhihə, 1065

Şeyxül-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) bu hədis haqqında demişdir: "*Şirkin* kəffarəsi tövhiddir, yaxşı əməllər isə pis əməlləri aradan qaldırırlar".[1]

Böyük alim əl-Mula Əli əl-Qari (Allah ona rəhmət etsin) hədisdəki ***"Xurafatla hərəkət etmək, Allaha şərik qoşmaqdır. Bizim aramızda eləsi yoxdur k, (onun ağlına belə bir şey gəlməsin), lakin Allah, Ona təvəkkül sayəsində, ondan xilas edir"*** sözləri haqqında demişdir: "Yəni, pis əlamətlər, insanların ürəklərinə gələ bilərlər. Bu təsəvvür, onların könüllərində peyda olur, lakin fayda almaq və ya zərəri aradan qaldırmaq üçün heç bir şəkildə təsir etmir. Bu sadəcə şeytanın vəsvəsəsi və bəzədilməsidir ki, insanları Allahdan başqa, təsir edən şeylər olduğuna inandırmaq və batil inanclara uyğun olaraq hərəkət etdirmək üçün. Bu, alimlərin yekdil rəyinə görə, açıq-aydın bir küfrdür. Pis əlamətlər, zərər və fayda vermədikləri üçün insanları çəkindirib, məqsədlərinə mane olmamalıdırlar". Və ət-Tıbi (Allah ona rəhmət etsin) demişdir: "Yəni insanların ürəklərinə gələn təsəvvürlər, onların məqsədlərinə və getdikləri yollara mane olmamalıdır. Qadağa isə, insanların zahirdə təsəvvür etdiyi (dilə gətirdiyi) şeylərə gəlib. Əslində, əgər yaranan fikirlər, nəzərdə tutulan işlərdən insanı döndərirlərsə, o zaman onları həyata keçirmək insanlara qadağandır".[2]

Böyük alim Süleyman ibn Abdullah Əli əş-Şeyx (Allah ona rəhmət etsin) demişdir: "Kim tövhidin, möhkəm qulpundan yapışsa, Allahın möhkəm ipindən yapışarsa və Allaha təvəkkül edərsə, pis əlamətlərlə əlaqəli düşüncələrdən uzaqlaşar, onlar güclənib-möhkəmlənməyənə qədər və insanı məşğul etməzdən öncə, insan onları qabaqlamış olar".[3]

Bütün yuxarıda deyilənlərin nəticəsi: kim xurafatlara görə, bəzi əməllərdən dönərsə, Allahu Təalədən başqa, xeyir və ya zərər verə bilən hər hansısa bir şeyin mövcud olmasına əmin olduğu üçün, Allaha şərik qoşmuş olur. Əgər bunlardan bir şey, nəfsdə görünsə və insanı nəzərdə tutulan əməldən döndərməzsə, o zaman bu, *şirk* (Allaha şərik qoşmaq) deyildir, lakin onun üçün bir qorxu var və Allahu Təalənin tövhidinin *bərəkəti* (lütfü) ilə, nəfsində olandan qurtulmaq üçün, bu faydalı duanı deməlidir.

---

[1] "Əl-müstədrək 'ala məcmu'ul-fətava", 1/133.
[2] Əl-mirkət əl-məfatih şərh mişkat əl-məsabih, 4/71.
[3] Təysir əl-Əziz əl-Həmid, 2/758.

## 20. Tövhid kəlmələri «Lə iləhə illəllah»[1] — yaxşı əməllərin ən üstünüdür, necə ki, şirk pis əməllərin ən pisi olduğu kimi

Uca Allah buyurur:

مَن جَآءَ بِٱلۡحَسَنَةِ فَلَهُۥ خَيۡرٞ مِّنۡهَا وَهُم مِّن فَزَعٖ يَوۡمَئِذٍ ءَامِنُونَ ﴿٨٩﴾ وَمَن جَآءَ بِٱلسَّيِّئَةِ فَكُبَّتۡ وُجُوهُهُمۡ فِي ٱلنَّارِ هَلۡ تُجۡزَوۡنَ إِلَّا مَا كُنتُمۡ تَعۡمَلُونَ ﴿٩٠﴾

**Hər kim, yaxşı əməllə gəlsə, ona daha yaxşısı (Cənnət) verilər. Onlar o gün dəhşətli qorxu hissindən uzaq olarlar. Pis əməllə gələnlər isə üzüstə oda atılarlar. (Onlara deyilər) : "Məgər siz ancaq etdiyiniz əməllərə görə cəzalandırılmırsınızmı?** [2]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) öz isnadında, Əbu Hureyrə və İbn Abbasdan (Allah onlardan razı olsun) belə dediyini nəql etmişdir: **"Yaxşı əməllərlə gələnlər** – bu "*Lə iləhə illəllah*"-dır. **Pis əməllərlə gələnlər isə** – bu *şirkdir*". [3]

Əbu Zərdən (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: Mən dedim: "Ey Allahın Rəsulu! Mənə elə bir şey öyrət ki, məni Cənnətə yaxınlaşdırsın və Cəhənnəmdən uzaqlaşdırsın. O dedi: ***"Əgər pis bir əməl etsən, yaxşılıq et, çünki hər bir yaxşılığa on qat savab verilir".*** Mən soruşdum: "Ey Allahın Rəsulu, "*Lə iləhə illəllah*" kəlməsi yaxşı əməllərə aiddirmi?" O cavab verdi: ***"Bəli və bu, yaxşı əməllərin ən üstündür"***.[4]

---

[1] Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.
[2] "Nəml" surəsi, 89-90-cı ayələr.
[3] "Cami' əl-bəyan" 20/22-23, ət-Təbərani "əd-Dua"da 3/1414.
[4] Əhməd 35/367 (21487), "Səhih ət-tərğib və ət-tərhib" 3162.

Uca Allah buyurur:

وَمَنْ أَحْسَنُ قَوْلًا مِّمَّن دَعَآ إِلَى ٱللَّهِ وَعَمِلَ صَٰلِحًا وَقَالَ إِنَّنِى مِنَ ٱلْمُسْلِمِينَ ﴿٣٣﴾ وَلَا
تَسْتَوِى ٱلْحَسَنَةُ وَلَا ٱلسَّيِّئَةُ ۚ ٱدْفَعْ بِٱلَّتِى هِىَ أَحْسَنُ فَإِذَا ٱلَّذِى بَيْنَكَ وَبَيْنَهُۥ عَدَٰوَةٌ كَأَنَّهُۥ
وَلِىٌّ حَمِيمٌ ﴿٣٤﴾

**(İnsanları) Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən mən müsəlmanlardanam!" - deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?! Yaxşılıq ilə pislik eyni ola bilməz. Sən pisliyi, yaxşılıqla dəf et! O zaman, səninlə ədavət aparan kimsə, sanki yaxın bir dost olar.**[1]

Yaxşılıq «الْحَسَنَةُ» kəlməsi tövhid, pislik «السَّيِّئَةُ» isə Allaha şərik qoşmaq kimi, şərh edilmişdir, İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edildiyi kimi.[2]

Digər tərəfdən, Allaha şərik qoşmaq (*şirk*) günahların ən böyüyüdür. Peyğəmbər ﷺ haqqında səhih olaraq, rəvayət olunur ki, İbn Məsud (Allah ondan razı olsun) Peyğəmbərdən ﷺ soruşur ki, Allah yanında ən böyük günah hansıdır, peyğəmbər ﷺ, belə cavab verir: ***"Allah sizi yaratdığı halda, Ona şərik qoşmaqdır".*** [3]

Həmçinin, Əbu Bəkrətə Nufeyyə ibn əl-Harisin (Allah ondan razı olsun) hədisində rəvayət olunur ki, Rəsulullah ﷺ buyurdu: ***«Sizə hansı günahların ən ağır olduğunu deyimmi?»*** Onlar dedilər: "Əlbəttə, ey Allahın Rəsulu ﷺ!" O zaman o dedi: ***"Allaha ortaq qoşmaq və valideynlərə qarşı itaətsizlikdir"***. Peyğəmbər ﷺ bunu deyəndə, qoluna söykənib, böyrü üstə uzanmışdı, sonra oturub dedi: ***"Həqiqətən bu, yalan sözlərdir"*** – və o, bu sonuncu sözləri o qədər təkrar etdi ki, biz: « – kaş ki, o susaydı – dedik». [4]

Əbu Hureyrə (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ bir gün dedi: ***"Həlakedici, yeddi günahdan çəkinin!"*** Soruşdular: ***"Ya Rəsulullah, nədir onlar?"*** Peyğəmbər ﷺ buyurdu: ***"Allaha şərik qoşmaq, cadugərlik***

---

[1] "Fussilət" surəsi, 33-34-cü ayələr.
[2] Cami' əl-bəyan 24/119, Zad əl-məsir 7/257.
[3] Əl-Buxari 4477, Muslim 141.
[4] Əl-Buxari 2654, Muslim 87.

*etmək, Allahın haram buyurduğu cana, nahaq yerə qəsd etmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və zinadan xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham etmək”*.[1]

[1] Əl-Buxari 2766, Muslim 145.

# 21. Tövhid kəlmələri «Lə iləhə illəllah»[1] göylərdən və yerdən ağırdırlar

Abdullah ibn Amr ibn əl-Asdan (Allah ondan razı olsun) rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir ki: ***"Həqiqətən, Allahın peyğəmbəri Nuha (əleyhissalam), ölüm gəldiyi zaman o, oğluna dedi: "Sənə bunları vəsiyyət edirəm. Mən sənə iki şeyi əmr edirəm və iki şeyi qadağan edirəm. Mən sənə "Lə iləhə illəllah" kəlmələrinə əməl etməyi əmr edirəm, çünki, həqiqətən, yeddi göy və yeddi yer tərəzinin bir gözünə, "Lə iləhə illəllah" tərəzinin ikinci gözünə qoyularsa, "Lə iləhə illəllah" ağır gələr. Əgər yeddi göy və yeddi yer qapalı bir halqa olsaydı, "Allahdan başqa, ibadətə layiq olan, haqq ilah yoxdur və həmd Ona məxsusdur" kəlməsi onu qırardı. Bu sözlər, hər bir məxluqun duasıdır və onun vasitəsilə, məxluqlara ruzi verilir. Və mən sənə, Allaha şərik qoşmağı və təkəbbür göstərməyi qadağan edirəm".*** [2]

«Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur» kəlməsi necə də göylərdən və yerdən ağır gəlməsin, əgər onları *həniflərin imamı* (tövhidçilərin başçısı) qiyamətə qədər, tərəfdarlarına vəsiyyət edib? Bu, göylərin və yerin qaldırılmasına səbəb olan sözlərdir, Allah bütün məxluqatı onların üzərində yaratmış, din və *qiblə* onların üzərində qurulmuş, *cihadın* qılıncları sıyrılıblar, və bu — Allahın bütün bəndələr üzərində tam haqqıdır. Bu, qanın, mülkün və bu məskəndə olan nəsillərin, haram olmasına səbəb olan sözlərdirlər, onlar qəbir əzabından və cəhənnəm əzabından xilas edərlər. Bu o kəlmədir ki, onsuz cənnətə girilməz, bir ipdir ki, ona yapışmadan, Allah dərgahına heç kim gələ bilməz, bunlar İslamın sözləridirlər, əmin-amanlıq yurdunun açarlarıdırlar ki, insanlar onun vasitəsilə bədbəxtlərə və xoşbəxtlərə, qəbul edilənlərə və qovulanlara ayrılırlar. Onların vasitəsilə, küfr yurdu İslam yurdundan, rəhmət yurdu bədbəxtlik və zillət yurdundan seçilir. Bu, vacib və arzu olunan hökmləri

[1] Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.
[2] Əhməd 6583, əl-Buxari "əl-Ədəbu əl-mufrad"da 548, ən-Nəsai "Əmalu əl-yəum və əl-leyl"də 832, əl-Hakim 1/49, əs-Səhihə 134.

daşıyan, bir sütundur və o kəs ki, son sözü ***“Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur” olarsa, Cənnətə daxil olar”*** [1].[2]

[1] Əbu Davud 1316.
[2] Əl-Cəvab əl-Kafi, səh. 204–205.

## 22. Tövhid vasitəsilə bu dünyada və əbədi dünyada tam əmin-amanlıq əldə edilir

Uca Allah buyurur:

ٱلَّذِينَ ءَامَنُواْ وَلَمْ يَلْبِسُوٓاْ إِيمَٰنَهُم بِظُلْمٍ أُوْلَٰٓئِكَ لَهُمُ ٱلْأَمْنُ وَهُم مُّهْتَدُونَ ﴿٨٢﴾

**İman gətirib imanlarına heç bir zülm (şirk) qatmayanlar üçün əminlik vardır və onlar haqq yoldadırlar.**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin), bu ayənin təfsirində belə demişdir: "O kəslər ki, öz ibadətlərini yalnız Allaha həsr edərlər, Ona heç bir şərik qoşmadan ibadət edərlər, Qiyamət günü əmin-amanlıq içində olacaqlar, bu dünyada və axirətdə də doğru yolda olacaqlar".[2]

Və heç bir şübhə yoxdur ki, əmin-amanlıq və doğru yol, insan və cəmiyyət üçün ən vacib şeydir. Bu iki xislət kimdə cəmlənərsə, o böyük firavanlıq qazanmışdır.

Həmçinin, Abdullah ibn Məsuddan (Allah ondan razı olsun) rəvayət olunan hədisdəki **"zülm"** (بِظُلْمٍ) kəlməsini Peyğəmbər ﷺ belə açıqlamışdır: **"İman gətirib, imanlarına heç bir zülm qatmayanlar..."** ayəsi nazil edildikdə, Allah Rəsulunun ﷺ səhabələri, bu sözlərə görə kədərləndilər və dedilər: "Bizdən kim, öz imanına zülm etməmişdirki?" Allah Rəsulu ﷺ cavab verdi: ***"Sizin dediyiniz şey bu deyil. Məgər Loğmanın oğluna dediyi sözləri eşitmədiniz mi: "... şirk böyük zülmdür"***[3].[4]

Böyük alim, İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) demişdir: "Peyğəmbər ﷺ onlara dedi ki, əmin-amanlıqdan və düz yoldan, tamamilə məhrum edən zülm — *şirkdir*. Allaha and olsun ki, xəstələrə şəfa verən, susuzları doyuran cavab məhz budur. Ən böyük və mütləq zülm — *şirk* sayılır və bu, ibadəti ona layiq olmayanlara həsr etməkdir. Tam əmin-amanlıq və

---

[1] "Ənam" surəsi, 82-ci ayə.
[2] Təfsir əl-Quran əl-Əzım, 2/136.
[3] "Muxtasar əs-səvaik əl-mürsəlah", 2/408.
[4] Əl-Buxari 4776.

mütləq hidayət isə, dünya və axirətdə əmin-amanlıq və düz yola doğru hidayətdir”.

Tövhidin, qorxulardan qurtuluş səbəbi olmasına və həmçinin Yer üzündə varisliyin ən böyük səbəbi olmasına, Uca Allahın bu sözləri dəlalət edir:

وَعَدَ ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُواْ مِنكُمْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ لَيَسْتَخْلِفَنَّهُمْ فِى ٱلْأَرْضِ كَمَا
ٱسْتَخْلَفَ ٱلَّذِينَ مِن قَبْلِهِمْ وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ ٱلَّذِى ٱرْتَضَىٰ لَهُمْ وَلَيُبَدِّلَنَّهُم مِّنۢ بَعْدِ
خَوْفِهِمْ أَمْنًا ۚ يَعْبُدُونَنِى لَا يُشْرِكُونَ بِى شَيْـًٔا ۚ وَمَن كَفَرَ بَعْدَ ذَٰلِكَ فَأُوْلَٰٓئِكَ هُمُ
ٱلْفَٰسِقُونَ ﴿٥٥﴾

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə, özlərindən əvvəlkiləri hakim etdiyi kimi onları da mütləq yer üzünə hakim edəcəyini, onlar üçün bəyəndiyi dini (İslamı) mütləq yerləşdirib möhkəmləndirəcəyini və (keçirtdikləri) qorxudan sonra onlara əmin-amanlıq verəcəyini vəd etmişdir. (Çünki) onlar Mənə ibadət edirlər və heç nəyi Mənə ortaq qoşmurlar. Artıq bundan sonra kim inkar edərsə, onlar əsil fasiqlərdir.**[1]

Həmçinin, Uca Allah buyurur:

لِإِيلَٰفِ قُرَيْشٍ ﴿١﴾ إِۦلَٰفِهِمْ رِحْلَةَ ٱلشِّتَآءِ وَٱلصَّيْفِ ﴿٢﴾ فَلْيَعْبُدُواْ رَبَّ هَٰذَا ٱلْبَيْتِ ﴿٣﴾
ٱلَّذِىٓ أَطْعَمَهُم مِّن جُوعٍ وَءَامَنَهُم مِّنْ خَوْفٍۭ ﴿٤﴾

**Qüreyşə asanlaşdırıldığı üçün, onların qış və yay səyahətləri asanlaşdırıldığı üçün. Onlar bu evin Rəbbinə ibadət etsinlər! O Rəbb ki, onlara aclıqdan sonra yemək, qorxudan sonra əmin-amanlıq verdi.** [2]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: **“Onlar bu, Kəbə evinin Rəbbinə ibadət etsinlər”** – haram ərazisini onlar üçün təhlükəsiz etdiyi və Kəbə

---

[1] "Nur" surəsi, 55-ci ayə.
[2] "Qureyş" surəsi, 1-4-cü ayələr.

evini haram etdiyi kimi, Onu ibadətdə təkləşdirsinlər, necə ki, uca Allah buyurur:

إِنَّمَآ أُمِرۡتُ أَنۡ أَعۡبُدَ رَبَّ هَٰذِهِ ٱلۡبَلۡدَةِ ٱلَّذِي حَرَّمَهَا وَلَهُۥ كُلُّ شَيۡءٖۖ وَأُمِرۡتُ أَنۡ أَكُونَ مِنَ
ٱلۡمُسۡلِمِينَ

**Şübhəsiz, mənə bu şəhərin (Məkkənin) Rəbbi olan və oranı müqəddəs edən Allaha ibadət etməyim əmr olunmuşdur. Hər şey Onundur. Mənə, (Allaha) təslim olanlardan olmağım əmr olunmuşdur.**[1]

Yəni, şəriki olmayan, Tək olan Allaha ibadət edin və Ondan başqa, Allaha bərabər tutduqları bütlərə, ibadət etməyin.

Allah Onun əmrinə cavab verənə, dünya və axirətdə əmin-amanlıq bəxş edər. Kim Onun əmrini yerinə yetirməsə, Allah onu hər iki həyatında əmin-amanlıqdan məhrum edər, necə ki, Uca Allah buyurur:

وَضَرَبَ ٱللَّهُ مَثَلٗا قَرۡيَةٗ كَانَتۡ ءَامِنَةٗ مُّطۡمَئِنَّةٗ يَأۡتِيهَا رِزۡقُهَا رَغَدٗا مِّن كُلِّ مَكَانٖ فَكَفَرَتۡ
بِأَنۡعُمِ ٱللَّهِ فَأَذَٰقَهَا ٱللَّهُ لِبَاسَ ٱلۡجُوعِ وَٱلۡخَوۡفِ بِمَا كَانُواْ يَصۡنَعُونَ ١١٢ وَلَقَدۡ جَآءَهُمۡ رَسُولٞ
مِّنۡهُمۡ فَكَذَّبُوهُ فَأَخَذَهُمُ ٱلۡعَذَابُ وَهُمۡ ظَٰلِمُونَ ١١٣

**Allah (əhalisi) əmin-amanlıq içində olan və ruzisi hər yerdən bol-bol gələn bir şəhəri (Məkkəni) misal çəkir. Ancaq (oranın əhalisi) Allahın nemətlərini inkar etdi. Allah da onlara, etdikləri əməllərə görə aclıq və qorxu sıxıntısını daddırdı[2].[3]**

Burada Şeyx, böyük alim Muhəmməd Təqiyuddin əl-Hilali əl-Hüseyni əl-Məğribinin (Allah ona rəhmət etsin) “Kral Əbdül'əziz ali Səud əl-Müəzzəmin islahatlarının nəticələrindən” adlı məqaləsində dediklərini xatırlatmaq yaxşı olardı. O, burada islahatçı kral Əbdüləziz ibn Əbdürrəhman Əli Səudun (Uca Allah ona rəhmət etsin) sayəsində bu bərəkətli ölkədə tövhid təcəssümünün bərəkəti haqqında çox yazmışdır: “Kral Əbdüləzizin dövründən əvvəl Ərəbistan yarımadasında geriləmə demək olar ki, bütün sahələrdə var idi. Bəli! Ərəbistan

[1] "Nəml" surəsi, 91-ci ayə.
[2] "ən-Nəhl" surəsi, 112-113-cü ayələr.
[3] Təfsir əl-Quran əl-Əzım, 4/492.

yarımadası feodal idarəçiliyin, cəhalətin, yoxsulluğun və bədbəxtliyin hökm sürdüyü, talan edilmiş bir ölkə idi. Onun ərazilərində, uzun müddət xəstəliklər yayılırdı. Şəhər sakinlərinə və müqəddəs İslam şəhərlərini ziyarət edənlərə, zəvvarlara və başqalarına hücumlar olurdu. Və bu Səudiyyə kralının dövründə, çox vaxt keçmədi ki, vəziyyət yaxşılaşmağa, şər və fəsad aradan qalxmağa başladı. Ərəbistan yarımadası tədricən inkişaf etməyə başladı, ta ki Allah oranı həmin kralın hakimiyyəti altında, böyük bir əmin-amanlıq məkanına çevirənə qədər, və bu məkanda, vəhylərin nazil edildiyi və İslamın yarandığı iki ziyarətgah var, bu yerlər ədalət və xeyirxahlıq işığının çıxdığı yerlərdirlər. Şəhərlər təhlükəsiz oldu, insanlar Ömər ibn əl-Xəttabın (Allah ondan razı olsun) zamanından bəri, belə bir əmin-amanlığı görmürdülər. Bu o qədər qeyri-adi oldu ki, Muhəmmədin ﷺ sünnətinə uyğun əməllərin bəhrəsi və tövhidin təcəssümü olan həqiqi möcüzə hesab olundu. Bu əmin-amanlıq, istər böyük olsun və ya kiçik ölkə olsun, heç bir Avropa ölkəsində, heç vaxt olmayan bir əmin-amanlıqdır. Əgər biz bunu, Avropanın paytaxtlarında insanlara deməyə başlasaq, o zaman heç kim bizə inanmayacaq — və onların, inanmamaq üçün üzürləri də var, çünki öz ölkələrində minlərlə polis və mühafizəçi görürlər, lakin Allahın bu iki ərəb şəhərinə bəxş etdiyi, Kral Əbdüləzizin yaratdığı əmin-amanlığı və firəvanlığı yarada bilmirlər.

Ümumiyyətlə bu, bizim dövrümüzdə, ancaq Allahın elm sahiblərinin, dərk edə biləcəyi nişanələrindəndir. Bu, dinin və ona uyğun edilən əməllərin möcüzələrindən ən böyük möcüzəsidir, lakin bu, qeybə inamı tələb etməyən, açıq bir əlamətdir və hər kim bunu, öz gözü ilə görmək istəsə, Səudiyyə Ərəbistana səfər etməsi kifayət edər və qulaqları ilə eşitdiklərindən çoxunu öz gözləri ilə görəcəkdir.

Dövrümüzün ən mühüm məsələsi olan, siyasət tərəfdən isə, uzun müddətdir ki, bu torpaqlarda heç bir tanınmış, hörmətli, azad dövlətlər meydana çıxmırdılar, elə dövlət ki, başqa dövlətlər onlara layiqincə hörmətlə yanaşsınlar, müstəqilliklərini, mövqelərini tanısınlar. Ta ki, Əbdül'əzizin idarəçilik dövrü gələnə qədər. Və təəccüblü deyil ki, Şərq ölkələri, eləcə də Şərqlə bağlı Avropa ölkələrində onun ölkəsinin şöhrəti və öz yeri var. Ancaq böyük əlamət isə budur ki, Avropada heç kəsi tapa bilmərsən, istər maarifli adam olsun, istərsə də ümumi kütlədən bir insan olsun, şəhər və ya kənd sakinlərindən olsun ki, İbn Səudun və onun böyük əməlləri haqqında, xəbərlərdən bir şey oxuyub bilsin. Bu, onun böyüklüyünün, ərəblərin şöhrətini təzələdiyinin, ərəb ölkələrinin adlarının tanınmış olmadığı halda, onları

yenidən ucaltdığının, və bəşəriyyətin düşmənlərinin torlarına düşməyə iki ox məsafəsi və ya daha da yaxın olduqdan sonra, onları lənətlənmiş müstəmləkəçilik ləkəsindən qoruduğunun aydın sübutudur.

Dinə gəlincə isə, bu şəhərlər (Məkkə və Mədinə) arasında bizim dövrümüzlə, keçmişdə olanlar arasında böyük fərq var. Bu günə qədər, dünyanın qərbindən və şərqindən, on minlərlə insan, Allahın evinə həcc edirlər, hətta müharibə alovunun alovlandığı və Yer üzündəki ən böyük ölkənin, öz ölkə daxilində özünü və *rızqini* [1] artıq təhlükəsiz hiss etmədiyi bu günlərdə də belə. Həqiqətən, Allahın Müqəddəs Evi və Peyğəmbərinin məscidi ziyarət edilir, ayinləri yerinə yetirilir, ən uzaq ölkələrdən gələn zəvvar karvanları, Allahdan başqa heç kimdən qorxmadan o tərəfə-bu tərəfə hərəkət edirlər, Allahın məscidləri isə, elm və ibadətlə canlanır.

Mədəniyyət baxımından, bugünkü halı ilə dünənki halı arasındakı fərqi görmək üçün, Səudiyyə Ərəbistanın tarixinə baxmaq və bu gün orada olanlara baxmaq kifayətdir. Bu ölkədə, tələbələrin sayı, Kral Əbdüləziz, Səudiyyə Ərəbistanın taxtına oturana qədər, olduğu saydan dəfələrlə çoxdur və üstəlik də, onun hakimiyyətinə qədər, burada ümumiyyətlə sistemli təhsil olmayıb.

İqtisadiyyata gəlincə, Allahın lütfü ilə, sonra isə kral Əbdül'Əzizin hakimiyyəti sayəsində, uzun bir yol keçmişdir. Ticarət, əkinçilik canlandı. Şəhərlər Allahın onlara verdiyi faydalı qazıntılardan gəlir əldə etməyə başladılar. Ümumiyyətlə, Əbdüləzizin hakimiyyəti və onun islahatları, xüsusilə Səudiyyə Ərəbistanın şəhərləri və ümumilikdə də müsəlmanlar üçün, Allahın ən böyük nemətlərindən biridir. Allahdan, onun həyatında *bərəkət* (lütf) verməsini və doğru yola olan bağlılığını artırmasını diləyirik...”.

[1] Quranda Allahın insana verdiyi dolanışıq vasitələrinə “*rizk*” deyilir. Burada onun vəsflərindən biri – *ər-Razzaq* (“ruzi verən”, “ruzini yaradan”).

# 23. Tövhid, qorxu və qəm-qüssədən qurtulmağa səbəbdir

Allahu Təalə, Öz peyğəmbəri Yunus (əleyhissəlam) haqqında belə buyurmuşdur:

فَنَادَىٰ فِي ٱلظُّلُمَٰتِ أَن لَّآ إِلَٰهَ إِلَّآ أَنتَ سُبۡحَٰنَكَ إِنِّي كُنتُ مِنَ ٱلظَّٰلِمِينَ

**Nəhayət, (balığın qarnında) qaranlıqda ikən o, belə səslənmişdi: «(Ey Rəbbim!) Səndən başqa heç bir ilah yoxdur. Sən pak və müqəddəssən! Həqiqətən, mən zalımlardan olmuşam»[1].**

Həmçinin, Səd ibn Əbu Vəqqasdan (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: ***"Zu-Nunun (Yunusun) balinanın qarnında ikən dediyi duası: "Lə ilahə illə əntə, subhanakə, inni kuntu mina-zzali-min". Hansı müsəlman bu dua ilə nə istəsə, mütləq ona cavab veriləcəkdir!"*** [2]

Böyük alim İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) bu dua haqqında belə demişdir: "O, tam tövhidi, Uca Rəbbinə ixlası, bəndə tərəfindən öz haqsızlığını və günahlarını etiraf etməsini ehtiva edir ki, bu, qorxu və qəm-qüssə üçün ən yaxşı müalicədir və ehtiyacların ödənilməsi məsələsində, Pak olan Allaha aparan ən əhəmiyyətli yoldur. Həqiqətən də tövhid və ixlas Allahın bütün kamilliyinin təsdiqini ehtiva edir və bütün nöqsanları, qüsurları və Onun kiməsə və ya hər hansı bir şeyə bənzədilməsini inkar edir. Zülmün tanınması, qulun şəriətə, mükafata və cəzaya inanmasını ehtiva edir, və tabe olmasına və səhvlərinin bağışlanmasını diləyərək, Allaha dönməsinə və Rəbbinə qulluğunun və ehtiyacını, etiraf etməsinə səbəb olur. Allaha yaxınlaşmağın dörd yolu vardır ki, bunlar: tövhid, ixlas, qulluq və qəbul".[3]

İbn Abbasın (Allah ondan və atasından razı olsun) sözlərindən rəvayət olunur ki, Rəsulullah ﷺ qəm-qüssəyə qərq olanda belə deyərdi: ***«Əzəmətli,***

---

[1] "əl-Ənbiyə" surəsi, 87-ci ayə.
[2] Tirmizi 3505, Cami'ət-Tirmizi, səh. 795.
[3] Zad əl-mi'ad, 2/208.

***Həlim olan Allahdan başqa məbud yoxdur! Ərşin Əzəmətli Rəbbi olan, Allahdan başqa məbud yoxdur! Göylərin, Rəbbi, yerin Rəbbi və Ərşin Səxavətli Rəbbi olan Allahdan başqa məbud yoxdur! (Lə ilahə illəllahul-azimul-həlim lə ilahə illəllahu Rabbularşilazim, lə ilahə illəllahu Rabbus-səməvati bə Rab-bul-ardı və Rabbul-arşil-kərim)»*** [1].

Əsma binti Umeysadan (Allah ondan razı olsun) rəvayət edilir: «Allahın Rəsulu ﷺ mənə dedi: ***"Mən, sənə çətin vəziyyətdə deyiləcək dua öyrədəcəyəm: Allah, Allah mənim Rəbbim! İbadətimdə və itaətimdə Ona heç nəyi şərik qoşmuram (Allahu, Allahu rabbi, va lə uşriku bihi şey'ən)"*** »[2].

Əbu Bəkrətdən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ belə buyurdu: «***Müsibətə düçar olmuş birinin duası: "Allahım! Sənin mərhəmətini diləyirəm! Məni bir göz qırpımı belə başlı-başına buraxma! Bütün işlərimi yoluna qoy! Səndən başqa məbud yoxdur! (Allahummə rahmətəkə ərcu, fələ təkilniy ilə nəfsiy tarfətə aynin, və əslih liy şə'niy kulləhu, lə ilahə illə ənt)"»***[3].

Böyük alim, İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) tövhidi qəbul edən insanların, çətinliklər zamanı, dərdlərinin Allah tərəfindən sovuşdurduğunu iddia edərək belə demişdir: "Bu — Allahın bəndələri barəsində əmridir. Və heç bir şey, dünyəvi çətinliklərdən, tövhid xilas etdiyi kimi xilas edə bilməz və buna görə də, çətinliklər zamanı edilən dua, tövhidi ehtiva edir, müsibətə düçar olanın, çətinlik anında çağırdığı tövhid yolu ilə Zu-Nunun duası, onu çətinliklərdən xilas edir. Böyük dərdlər, ancaq Allaha şərik qoşmaq (*şirk*) səbəbi ilə insana gələrlər və onlardan qurtuluş yoxdur, ancaq tövhiddən başqa, yalnız tövhidlə qurtuluş tapmaq olar. Bu — məxluqların sığınacağı, onların qalası və xilasıdır" [4].

Həmçinin, İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) demişdir: "Tövhid (təkAllahlılıq) — axtaranlar üçün sığınacaq, qaçanlar üçün sığınacaq, kədərli olanlar üçün nicat, həsrət çəkənlər üçün köməkdir. Tövhidin mahiyyəti – Pak və Müqəddəs olan Rəbbi, təsdiq etmək, məhəbbətdə, ucalıqda və itaətdə Onun qarşısında təvazökarlıqda onu təkləşdirməkdir".[5]

---

[1] əl-Buxari 6346, Muslim 6921
[2] Əbu Davud 1525, Təlikatuhu 'ala Sünən Əbu Davud, səh. 234.
[3] Əbu Davud 5090, Səhih əl-Cami 3388.
[4] Əl-Fəvaid, səh. 45.
[5] "İqasət əl-lyaxfan fi məsiid əş-şeytan", 2/844.

Allahu Təalə, bəndələrinə izah edərək, qəm-qüssədən xilas edənin, yalnız Onun olduğunu, bu işdə şəriki olmadığını və Ondan başqa Rəbbin olmadığını bildirmişdir:

أَمَّن يُجِيبُ ٱلْمُضْطَرَّ إِذَا دَعَاهُ وَيَكْشِفُ ٱلسُّوٓءَ وَيَجْعَلُكُمْ خُلَفَآءَ ٱلْأَرْضِ ۗ أَءِلَٰهٌ مَّعَ ٱللَّهِ ۚ قَلِيلًا مَّا تَذَكَّرُونَ

**Darda qalan biri dua etdiyi zaman duasını qəbul edib, sıxıntısını aradan qaldıran və sizi yer üzünün varisləri edən kimdir?! Allahla yanaşı başqa bir ilah varmı?! Nə qədər də az düşünürsünüz!** [1]

[1] "Nəml" surəsi, 62-ci ayə.

## 24. Tövhid əhli, Peyğəmbərin ﷺ şəfaəti sayəsində, ən xoşbəxtlərdən olacaq

Əbu Hureyrənin (Allah ondan razı olsun), belə dediyi rəvayət edilir: «Bir dəfə soruşdum: "Ey Allahın Rəsulu ﷺ, Qiyamət günü sənin şəfaətin sayəsində, insanlardan hansı, ən yüksək səadətə nail olar?" Cavabında, Allah Rəsulu ﷺ mənə dedi: "***Ey Əbu Hureyra! Mən, sənin hədis öyrənməyə olan, hərisliyini görüb, düşünürdüm ki, səndən əvvəl, heç kəs bu hədis barəsində, məndən soruşmayacaq. Qiyamət günü, mənim şəfaətim sayəsində, ən böyük səadətə çatanlar, səmimi-qəlblə "Allahdan başqa, ibadətə layiq olan, haqq məbud yoxdur"– deyən kimsələr olacaq***"».[1]

Həmçinin, Əbu Hureyradan (Allah ondan razı olsun), bir hədisdə Peyğəmbərimizin ﷺ belə dediyi nəql olunur: ***"Hər bir peyğəmbərə, qəbul olunan bir dua verilmişdir. Bütün peyğəmbərlər dualarında tələsdilər, mən isə ümmətimə şəfaət etmək üçün, onu Qiyamət gününə təxirə saldım və o dua, Allahın izni ilə, mənim ümmətimdən, Allaha heç kəsi və heç nəyi şərik qoşmadan, vəfat edənlərin hamısını əhatə edir"***.[2]

Peyğəmbərlərin (onlara Allahın salavatı və salamı olsun) dəvətində əsas olan "*Lə iləhə illəllah*" tövhid kəlimələrini, səmimi söyləmələrinə görə, dünyanın ən xoşbəxt insanları olduqları halda, qiyamət günü də Peyğəmbərin ﷺ şəfaəti sayəsində, ən xoşbəxtlərdən olacaqlar, çünki cəza (mükafat) əmələ görədir.

---

[1] əl-Buxari 99.
[2] Muslim 199.

## 25. «Lə iləhə illəllah»[1] tövhid kəlməsi — «gözəl sözdür» və firavan həyatın səbəbidir

Uca Allah buyurur:

أَلَمْ تَرَ كَيْفَ ضَرَبَ ٱللَّهُ مَثَلًا كَلِمَةً طَيِّبَةً كَشَجَرَةٍ طَيِّبَةٍ أَصْلُهَا ثَابِتٌ وَفَرْعُهَا فِى ٱلسَّمَآءِ
﴿٢٤﴾ تُؤْتِىٓ أُكُلَهَا كُلَّ حِينٍۭ بِإِذْنِ رَبِّهَا ۗ وَيَضْرِبُ ٱللَّهُ ٱلْأَمْثَالَ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ ﴿٢٥﴾
وَمَثَلُ كَلِمَةٍ خَبِيثَةٍ كَشَجَرَةٍ خَبِيثَةٍ ٱجْتُثَّتْ مِن فَوْقِ ٱلْأَرْضِ مَا لَهَا مِن قَرَارٍ ﴿٢٦﴾ يُثَبِّتُ
ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُوا۟ بِٱلْقَوْلِ ٱلثَّابِتِ فِى ٱلْحَيَوٰةِ ٱلدُّنْيَا وَفِى ٱلْءَاخِرَةِ ۖ وَيُضِلُّ ٱللَّهُ ٱلظَّـٰلِمِينَ ۚ
وَيَفْعَلُ ٱللَّهُ مَا يَشَآءُ ﴿٢٧﴾

Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (la ilahə illəllah) kökü (yerdə) möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar. Pis söz isə yerdən qoparılmış və artıq kökü üstə dura bilməyən pis bir ağaca bənzəyir. Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər[2].

Gözəl söz, İbn Abbasın (Allah ona rəhmət etsin) dediyi kimi, “*Lə iləhə illəllah*” şəhadətidir, və o həmçinin pis sözün — şirk olduğunu demişdir[3].

Uca Allah buyurur:

مَنْ عَمِلَ صَـٰلِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَىٰ وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُۥ حَيَوٰةً طَيِّبَةً ۖ وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُم
بِأَحْسَنِ مَا كَانُوا۟ يَعْمَلُونَ

---

[1] Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur.
[2] "İbrahim" surəsi, 24-27-ci ayələr.
[3] Zad əl-məsir 4/358, Təfsir əl-Quran əl-Əzım 4/491.

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.**[1]

Fudeyl ibn İ'yad (Allah ona rəhmət etsin) **"Yaxşı iş görən"** ayəsinin mənası haqqında belə demişdir: "Ən ixlaslı və düzgün olanlar. Əgər əməllər ixlaslı olsalar, amma düzgün olmasalar, qəbul olunmaz. Əgər əməllər düzgün olsalar, lakin ixlaslı olmasalar, ixlaslı olmadıqca qəbul olunmazlar. İxlaslı əməllər, Allah rizası üçün edilənlərdirlər, düzgün əməllər — sünnəyə uyğun olanlardırlar.[2]

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Bütün din — Allahdan başqasına, ibadət etməmək, Allahın icazə verdiyi tərzdə ibadət etmək və bidətlərlə ibadət etməməkdən ibarətdir".[3]

İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) demişdir: "*İxlas* (səmimiyyət) — insanın tələb etdiyinin (istəklərini yönəltdiyi Allahın) bölünməməsi və təkləşdirilməsidir (əməlləri Allahdan başqa heç kəs üçün etməmək). *Sidq* (sadiqlik) isə — insanın tələbinin, istəyinin bölünməməsi və təkləşdirilməsidir (istəyi Allahdan başqa heç kəsdən istəməmək). Həqiqi ixlas — insanın tələb etdiyinin (Allahın) bölünməməsi və təkləşdirilməsidir (Rububiyyə tövhididir). Həqiqi sidq isə — insanın istəyinin bölünməməsi və təkləşdirilməsidir (Uluhiyyə tövhididir). (Yəni ixlas odur ki, kimə ibadət edirsən onu təkləşdirirsən, yalnız tək ona ibadət edirsən, sidq isə odur ki, istəyi təkləşdirirsən, yalnız Allahdan istəyirsən). Amma bunlar öz bəhrəsini verməz, tam təslimiyyət  və tabeçilik olmadıqca. Əgər insandan ixlas və tabeçilik gedərlərsə, yəni Allaha ixlas və Peyğəmbərə itaət olmazsa, o şəxs mütləq geri gedər, onun gedişi geri çevrilər. Əgər o adam sidqində və tələbində, tövhid etməzsə, yəni istəyini təkləşdirməzsə, o zaman o adamın hərəkəti məhdud olar. Əgər insan cəhd edərsə və o insanda, bu üç şey (ixlas, doğruluq və itaət) cəm olarsa, o zaman o adam doğru yol üzərində addımlayar və öz sahəsində yarışmaq qeyri-mümkün olan birisi olar, və bu, Allahın rəhmətidir ki, onu istədiyinə bəxş edir. Allah bəxş edəndir, Böyükdür".[4]

---

[1] "ən-Nəhl" surəsi, 97-ci ayə.

[2] Əbu Nuaym tərəfindən əl-Hilyada  8/95 nəql edilmişdir.

[3] Məcmuʻ əl-fətava 11/585, həmçinin bax 27/148.

[4] Mədaric əs-salikin, 2/324.

# 26. Tövhid səbəbiylə, qan və namus haram olur və Tövhid vasitəsilə insan islamı qəbul edir

Uca Allah buyurur:

وَقَٰتِلُوهُمْ حَتَّىٰ لَا تَكُونَ فِتْنَةٌ وَيَكُونَ ٱلدِّينُ لِلَّهِ ۖ فَإِنِ ٱنتَهَوْا۟ فَلَا عُدْوَٰنَ إِلَّا عَلَى ٱلظَّٰلِمِينَ

**Fitnə aradan qalxana və din sırf Allaha məxsus olanadək onlarla vuruşun! Əgər onlar buna son qoysalar, (bilsinlər ki,) zülm edənlərdən başqasına düşmənçilik edilməyəcəkdir.**[1]

İmam İbn əl-Cərir (Allah ona rəhmət etsin) buyurur: «**"Fitnə aradan qalxana qədər"**, yəni Allaha şərik qoşmaq aradan qalxana qədər. Uca Allahın **"Əgər onlar buna son qoysalar, bilsinlər ki, zülm edənlərdən başqasına düşmənçilik edilməyəcəkdir"** kəlamı, yəni Allahu Təalədən başqasına ibadət etməkdən əl çəksələr, o zaman zülm edənlərdən başqa heç kimə zülm etmək olmaz, onlar isə Allaha şərik qoşan və *"Lə iləhə illəllah"*-dan imtina edənlərdir"». [2]

Buna həmçinin Ənəs ibn Malikin (Allah ona rəhmət etsin) hədisi də dəlalət edir ki, Rəsulullah ﷺ buyurdu: ***"Mənə bu insanlarla, onlar "Lə iləhə illəllah" söyləyənə qədər döyüşmək əmr olundu. Əgər onlar bunu desələr, bizim etdiyimiz kimi namaz qılıb, qibləmizə tərəf dönüb və bizim etdiyimiz kimi qurban kəssələr, onların qanı və malı bizə haramdır, ancaq (islam) haqqı istisna və bu zaman onlardan haqq-hesab tələb etmək yalnız Allaha məxsusdur"***. [3]

---

[1] "əl-Bəqərə" surəsi, 193-cü ayə.
[2] Cami əl-bəyan, 2/194-195.
[3] Əl-Buxari 392, Muslim 21.

Həmçinin Usamə ibn Zeydin (Allah ona rəhmət etsin) hədisində belə dediyi nəql edilir: "Bir vaxt Allah Rəsulu ﷺ bizi, Cuheynə tayfasından olan, Huraka qəbiləsinə qarşı səfərə göndərdi və biz də səhər tezdən, su mənbələrinin yaxınlığında onlara hücum etdik. Mən bir ənsar ilə, onlardan birini təqib etməyə başladıq və biz onun üzərinə getdiyimiz zaman, kişi dedi: "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur). Bunu eşidən ənsar çəkildi, mən isə nizəmlə onu vurub öldürdüm. Biz Mədinəyə qayıtdığımız zaman Peyğəmbər ﷺ bundan xəbər tutdu və soruşdu: ***"Ey Usamə, "Lə iləhə illəllah!" dedikdən sonra həqiqətənmi onu öldürdün?*** Mən dedim: "Ey Allahın Rəsulu, o ancaq canını qurtarmaq üçün bunu dedi!", lakin Peyğəmbər ﷺ yenə dedi: ***"Lə iləhə illəllah" dedikdən sonra onu həqiqətənmi öldürdün?!"*** və bu sözləri o qədər təkrar etdi ki, hətta mən peşman oldum ki, (kaş bu günü görənə qədər) müsəlman olmayaydım!"[1]

Həmçinin, hədisin başqa bir versiyasında Peyğəmbərin ﷺ belə dediyi deyilir: ***"Qiyamət günü o "Lə iləhə illəllah" kəlməsi ilə gəldikdə, nə edəcəksən***?"[2]

---

[1] Əl-Buxari, 46.
[2] Muslim 97.

# 27. Peyğəmbərin ﷺ hicrətdən on üç il əvvəl Məkkədə və Allahu Təalə onun canını alana qədər Mədinədə tövhid dəvəti

Peyğəmbər ﷺ dəvətin əvvəlində qohumlarına və ailəsinə belə deyərək dəvət edirdi: ***«Ey Bəni Əbd Manaf, özünüzü Allahdan satın alın. Ey Bəni Əbdül-Müttəlib, canınızı Allahdan satın alın! Ey Allah Rəsulunun bibisi əz-Zübeyr ibn əl-Avvamın anası! Ey Muhəmmədin qızı Fatimə, nəfsinizi Allahdan satın alın, mən sizi heç cür Allahın əzabından xilas edə bilməyəcəyəm! Mənim mülkümdən istədiyinizi istəyin!»***[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Buna görə də, Allahın Rəsulu ﷺ, peyğəmbərlik başlayandan sonra on üç il Məkkədə qaldı və ona hər biri müşriklərlə ziddiyyət təşkil edən Məkkə surələri nazil edildi, hansılar ki, tövhidi izah edir və aydınlaşdırır və hökmlərini açıqlayır"[2].

Həmçinin, Allah Rəsulu ﷺ bir dəfə Zül-Məcaz bazarında, bir qrup adamın yanından keçərkən, onlara belə buyurdu: ***«Deyin: "Lə iləhə illəllah" (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur)»*** [3].

Tövhidin bərqərar olmasına dair, Peyğəmbərin ﷺ, istəyinə və qayğısına dələlət edən — Aişənin (Allah ondan razı olsun) hədisidir və orada deyilmişdir ki: "Allah Rəsulu ﷺ vəfat etməmişdən əvvəl, üzünə örtü örtməyə başladı və nəfəs almaqda çətinlik çəkəndə onu üzündən götürüb dedi: ***"Peyğəmbərlərinin qəbirlərini ibadət yerinə çevirən yəhudi və nəsranilərə Allah lənət etsin!"*** — müsəlmanları, bu insanların etdiklərini təkrarlamamaqdan çəkindirmək üçün belə dedi.

---

[1] Əl-Buxari, 3527, Muslim 503.
[2] Təfsir əl-Quran əl-Əzım, 8/27.
[3] Faydalara baxın: "Tövhid Allah Rəsulunun (salləllahu aleyhi vas salləm) başladığı ilk şeydir".

Aişə (Allah ondan razı olsun) dedi: "Əgər belə olmasaydı, onun qəbri açıq bir yerdə olardı, lakin səhabələr oranın məscid (ibadət yeri) ediləcəyindən qorxurdular".[1]

Cundub ibn Abdullahın (Allah ona rəhmət etsin) hədisində belə deyilir: «Mən Peyğəmbərin ﷺ ölümündən beş gün əvvəl, onun belə dediyini eşitdim: ***"Həqiqətən, mən Allah qarşısında sizlərdən özümə bir xəlil*** [ən yaxın, seçilmiş, sevimli dost] ***olmasından imtina edirəm, çünki, həqiqətən, Allah İbrahimi Özünə xəlil etdiyi kimi, məni də Özünə xəlil etdi. Və əgər ümmətimdən bir xəlil seçə bilsəydim, Əbu Bəkri özümə xəlil seçərdim. Həqiqətən, sizdən əvvəlkilər öz peyğəmbərlərinin qəbirlərini ibadət yerlərinə çevirirdilər, lakin siz qəbirləri məscidə çevirməyin, çünki mən sizə bunu qadağan edirəm"***»[2].

---

[1] Əl-Buxari 4441, Muslim 1187.
[2] Muslim 1188.

# 28. Allah tövhid səbəbiylə insanı şeytandan qoruyur

Uca Allah buyurur:

إِنَّهُۥ لَيْسَ لَهُۥ سُلْطَٰنٌ عَلَى ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَلَىٰ رَبِّهِمْ يَتَوَكَّلُونَ ﴿٩٩﴾ إِنَّمَا سُلْطَٰنُهُۥ عَلَى ٱلَّذِينَ يَتَوَلَّوْنَهُۥ وَٱلَّذِينَ هُم بِهِۦ مُشْرِكُونَ ﴿١٠٠﴾

**Əlbəttə, iman gətirib, Rəbbinə təvəkkül edənlərin üzərində, onun (şeytanın) heç bir hökmranlığı yoxdur.Onun (şeytanın) hökmranlığı, yalnız onu dost tutanların və Allaha şərik qoşanların üzərindədir.**[1]

Əbu Hureyrənin (Allah ondan razı olsun) hədisində, şeytanla hekayətində belə nəql olunur: «O (yəni şeytan) dedi: "Yatağa girəndə "Ərş" ayəsini oxu: **"Allahdan başqa ilah yoxdur! O diridir, bütün məxluqatı idarə edir"** – əvvəldən axıra qədər oxu, (və əgər bunu etsən) sənin həmişə, Allah tərəfindən bir mühafizəçin olacaq və şeytan səhərə qədər sənə yaxınlaşa bilməyəcək!"»[2]

Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) demişdir: «O kəs ki, Rəhmanın qarşısında ibadətini (*übudiyyə*) və Ona təslim olmağı həyata keçirmirsə, o kəs şeytana itaət edərək, ona ibadət etmiş olar. Rəhmana ixlasla ibadət edənlərdən başqa, heç kəs şeytana ibadət etməkdən qurtula bilməz və bunlar o kəslərdirlər ki, Allah onlar haqqında demişdir: **"Şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur..."**» [3]

Allah, Tək Himayədardır və kim Allaha sığınarsa, ona möhkəm dayaq olar və buna görə də Allahu Təalə buyurdu: **«Allah ən yaxşı mühafizə edəndir və O, mərhəmətlilərin ən mərhəmətlisidir!»**[4]

---

[1] "Nəhl" surəsi, 99-100-cü ayələr.
[2] Əl-Buxari 2311.
[3] "əl-Hicr" surəsi, 42-ci ayə və "əl-İsra" surəsi, 65-ci ayə.
[4] "Yusif" surəsi, 64-cü ayə.

## 29. Tövhid məsələlərində, şeytanın vəsvəsələri haqqında danışmamaq — iman saflığındandır

Əbu Hureyrə (Allah ondan razı olsun) rəvayət edir ki: «Bir dəfə, bir dəstə səhabə Peyğəmbərin ﷺ yanına gəlib, soruşdular: "Həqiqətən, qəlbimizdən elə (pis) fikirlər keçir ki, (hər) birimiz onu dilə gətirməyi belə (böyük günah hesab edib) cürət etmirik". Peyğəmbər soruşdu: ***"Doğrudanmı siz bunu hiss edirsiniz (günah sayırsınız)?"*** Onlar: "Bəli!"— deyə cavab verdikdə, o buyurdu: ***"Bu, imanın saflığıdır"***».[1]

İmam ən-Nəvəvi (Allah ona rəhmət etsin) buyurur: ***"Bu, imanın saflığıdır***, ixlaslı imana dəlalət edir, yəni siz bunu deməyi böyük günah hesab edirsiniz və deməyə cəsarət etmirsiniz — bu, saf imandır. Həqiqətən də, buna çox böyük bir iş kimi münasibət göstərən və ondan böyük qorxu duyan və onu söyləməzdən əvvəl olan güclü bir qorxu hiss edən, və buna iman edən — yalnız tam iman gətirən və şübhələri özündən uzaqlaşdıran kəslərdə olacaqlar".[2]

---

[1] Muslim 209.
[2] Şərh Səhih Muslim, İmam ən-Nəvəvi, 2/512-513.

# 30. Tövhid, insanı şeytanın vəsvəsələrindən uzaqlaşdırır

Ənəs ibn Malik (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: ***«İnsanlar, biri-birinə o qədər sual verəcəklər ki, “Baxın, Allah hər şeyi yaratmışdır, bəs Allahı kim yaratmışdır?” Kim belə bir şeyə rast gəlsə: “Mən, Allaha iman gətirdim” — desin»*** [1].

Həmçinin, başqa bir rəvayətdə (hədisin versiyasında) belə gəlmişdir: «**De: “O – Allah Təkdir, Allah heç bir şeyə möhtac deyildir. O nə doğmuş, nə də doğulmamışdır və Onun tayı-bərabəri yoxdur”. *Sonra insan, üç dəfə sola tüpürsün və şeytandan Allaha sığınsın***»[2].

Əbul-Abbas əl-Qurtubi (Allah ona rəhmət etsin) demişdir: “Peyğəmbərin ﷺ «De: “Mən Allaha iman gətirdim” kəlamı — şəriət imanını xatırlamağa bir əmrdir, qəlbləri Allahla məşğul etmək üçün, şübhələri aradan qaldırmaq üçün və mənasız sözün aradan qalxması üçün, və bütün bunlar doğru və saleh qəlblər üçün dərmandır, o qəlblərə ki, mənasız sözdən döndülər və o mənasız söz qəlblərdə məskunlaşmadı»[3].

---

[1] Əl-Buxari 7296, Muslim 134.
[2] Əbu Davud 4722.
[3] “Əl-Mufhim Lima Əşqələ Min Təhlis Kitab Muslim” əl-Qurtubi, 1/345.

## 31. Allahın kitabındakı hər bir ayə, tövhidə dəlalət edir

Uca Allah buyurur:

سَنُرِيهِمْ ءَايَٰتِنَا فِى ٱلْـَٔافَاقِ وَفِىٓ أَنفُسِهِمْ حَتَّىٰ يَتَبَيَّنَ لَهُمْ أَنَّهُ ٱلْحَقُّ

**Biz (varlığımızı və qüdrətimizi göstərən) dəlillərimizi, onlara həm kainatda, həm də onların özlərində göstərəcəyik ki, onun (Quranın) haqq olduğu onlara aydın olsun.[1]**

İmam İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) buyurur: «Qurandakı hər bir ayədə tövhid var və ona dəlalət edir və ona dəvət edir. Quran ya Allah, ya Onun adları, yaxud sifətləri və əməlləri haqqında bir xəbərdir — və bu, "*ət-tövhid əl-‘ilmi və əl-xəbəri*" (hökmranlıqda, ad və sifətlərdə tövhiddir). Yada ki, şəriki olmayan, Tək olan Allaha ibadət etməyə, eləcə də Ondan başqa ibadət edilən, hər şeyi tərk etməyə dəvətdir — və bu, *ət-tövhid əl-iradi ət-taləbidir* (ibadətdə və duada tövhiddir)»[2].

Buna görə də deyilmişdir:

— Hər bir şeydə Onun Tək olduğuna dəlalət edən bir əlamət vardır.[3]

[1] "Fussilət" surəsi 53-cü ayə.
[2] “Mədəric əs-salikin” İbn əl-Qəyyim, 4/442.
[3] “Divan Əbil-‘Atahiyyə”, səh. 122.

# 32. Allaha edilən ən yaxşı zikr və dua — tövhiddir

Abdullah ibn Amrın sözlərindən rəvayət olunur ki, Rəsulullah ﷺ buyurdu: ***«Ən yaxşı dua — Ərəfə günü edilən duadır, mənim və məndən əvvəlki peyğəmbərlərin dediklərindən ən yaxşısı isə bu sözlərdir: "Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır. O hər şeyə Qadirdir!"»***[1]

Həmçinin, Cabirdən (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: ***«Ən yaxşı zikr "Lə iləhə illəllah" (Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur), ən yaxşı dua isə "əl-Həmdu li-llah"dır (Allaha həmd olsun)»***[2].

Bu dua — tövhid və Uca Allaha həmd duasıdır və bu dua — ibadətdir (*dua əl-ibadə*). Əbu İshaq əz-Zəcac (Allah ona rəhmət etsin) demişdir: «Uca və Qüdrətli olan Allaha edilən duanın əhəmiyyəti, üç cürdür və onlardan biri tövhid və Ona həmd-sənadır, məsələn: "Allahım! Səndən başqa ibadətə layiq haqq məbud yoxdur" və həmçinin "Ey Rəbbimiz, Sənə həmd olsun" kəlmələri". Əgər bunu desən, "Ey Rəbbimiz" kəlməsi ilə Ona müraciət etmiş olarsan, sonra isə həmd və tövhidlə Ona dua etmiş olarsan. Buna misal olaraq, Uca Allahın kəlamıdır: **"Rəbbiniz belə buyurdu: "Mənə dua edin ki, dualarınızı qəbul edim! Şübhəsiz ki, Mənə ibadət etməyi tərk edib, təkəbbürlənənlər, zəlil bir halda, cəhənnəmə girəcəklər"**[3]»[4]

---

[1] Ət-Tirmizi 3585, "Sünən ət-Tirmizi" Şeyx əl-Albaninin təhqiqi ilə səh. 815, "əs-Səhihə" 1503.

[2] Ət-Tirmizi 3383, Şeyx əl-Albani hədisi yaxşı adlandırmışdır.

[3] "Ğafir" surəsi, 60-cı ayə.

[4] Məani əl-Quran, 1/255, bir qədər ixtisarla.

Böyük alim, İbn əl-Qəyyim (Allah ona rəhmət etsin) demişdir: “Bunun vasitəsilə edilən dua, bağışlanma duasını (*dua əl-məs’ala*), həmd duasını (*dua əs-səna*) və ibadət duasını (*dua əl-‘ibadə*) ehtiva edir”.[1]

[1] “Madaric əs-salikin”, 1/420.

## 33. Tövhid vasitəsilə təvəssül[1] — Allahu Təaləya yaxınlaşmağın ən böyük yollarından biridir

*Təvəssül* — ən əzəmətli ibadətlərdən biridir. Uca, Böyük və Qüdrətli Allah buyurmuşdur:

أُوْلَٰٓئِكَ ٱلَّذِينَ يَدۡعُونَ يَبۡتَغُونَ إِلَىٰ رَبِّهِمُ ٱلۡوَسِيلَةَ أَيُّهُمۡ أَقۡرَبُ وَيَرۡجُونَ رَحۡمَتَهُۥ وَيَخَافُونَ عَذَابَهُۥٓۚ إِنَّ عَذَابَ رَبِّكَ كَانَ مَحۡذُورٗا

**Onların sitayiş etdikləri (mələklər) də, Rəbbinə, hansı daha yaxın olacaq deyə vəsilə axtarır, Onun rəhmətini umur və əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından həzər etmək lazımdır.**[2]

*Vəsilə* — rabitə və yaxınlıqdır, cəm halda — الوسئل [3]

Allaha yaxınlaşmaq, Onun halal buyurduğundan başqa, heç bir şeylə həyata keçirilmir — Pak və Müqəddəs Uca Allah buyurur:

أَمۡ لَهُمۡ شُرَكَٰٓؤُاْ شَرَعُواْ لَهُم مِّنَ ٱلدِّينِ مَا لَمۡ يَأۡذَنۢ بِهِ ٱللَّهُۚ

**Yoxsa onların, Allahın izin vermədiyi şeyləri, onlar üçün dini hökmlər olaraq təyin edən şəriklərimi var?!**[4]

Buna görə də "*ibadət*" sözünün tərifi — "Allahın sevdiyi və razı qaldığı, açıq-aşkar və gizli hər bir söz və əməldir". [5]

---

[1] Şəriətdə, Allaha yaxın olmağın axtarışı "*təvəssül*" ifadəsi ilə ifadə edilir və "*vəsilə*" sözündən törəmə sözdür və ərəb dilində, lüğəti mənada "istəyə çatmaq", "məqsədə çatmaq" - dır. "*Təvəssül*" ifadəsinin şəriət mənası, əmr olunan əməlləri etmək və haram işlərdən çəkinmək yolu ilə, Allahın rizasını və cənnəti əldə etməkdir. – *Redaktorun qeydi*.

[2] "əl-İsra" surəsi, 57-ci ayə.

[3] "Lisan əl-ərəb" İbn Mənzur, 15/301.

[4] "əş-Şura" surəsi, 21-ci ayə.

[5] Məcmu əl-Fətava, 10/149; "əl-Ubudiyyə", İbn Teymiyyə, səh. 19.

*Təvəssülün* ən böyük növlərindən — Allaha, Onun gözəl adları və əzəmətli sifətləri ilə *təvəssül* etməkdir (yaxınlaşmaqdır). Bununla, Pak və Müqəddəs Allaha həmd və təsbih edilir, necə ki, Peyğəmbərin ﷺ sözlərindən rəvayət olunur ki, Allah buyurdu: **«Allahın qulu: "Aləmlərin Rəbbi olan Allaha həmd olsun!" - dedikdə, Allahu Təalə buyurur: "Bəndəm mənə həmd-səna etdi". Allahın qulu: "Mərhəmətli və Rəhimliyə!" - dedikdə, Allahu Təalə buyurur: "Bəndəm Mənə şükr etdi". Allahın qulu: "Haqq-hesab gününün Hökmdarına" - dedikdə, Allahu Təalə buyurur: "Qulum Mənim şənimə tәriflər söylədi"».** [1]

Bu ibadət növü üçün dəlillər çox saydadır, və sən peyğəmbərdən nəql olunmuş hədislərin içində, Böyük və Qüdrətli Allahdan, Onun adları və sifətləri ilə istənilməyən bir dua tapa bilməzsən və bu məsələ — duada giriş (başlanğıc) yerini tutur.

Rəsulullahdan ﷺ nəql olunur ki, üzüntü və kədər anında o belə deyərdi: ***«Allahım! Mən Sənin qulunam, qulunun oğluyam, kənizinin oğluyam! Kəkilim (məni idarə etmək) Sənin əlindədir. Barəmdə verdiyin hökm yerinə yetəndir. Mənə yazdığın tale ədalətlidir. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın, Özünə aid olan hər bir adla yalvarıram ki, Quranı qəlbimin baharı və köksümün nuru et, üzüntümün aradan qalxması və kədərimin getməsi üçün səbəb et!»***[2]

Bu hədisdən, dəlil olaraq bu sözlər gətirilirlər: ***"Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın, Özünə aid olan hər bir adla yalvarıram"***.

Həmçinin, bu ibadət növünün tam izahı, səhih bir hədisdə də nəql olunur və bu da odur ki, Allahın Rəsulu ﷺ bir nəfərin, namazı əsnasında Allaha dua etməyə başladığını eşitdi, amma duadan əvvəl Allahu Təaləya həmd səna etmədən və Peyğəmbərə ﷺ dua etmədən başladı, və Rəsulullah ﷺ dedi: ***"Bu adam tələsdi!"***, sonra onu yanına çağırıb dedi (yaxud başqa birinə):

[1] Muslim 395.
[2] Əhməd 3712, əl-Hakim 1369, əs-Səhihə 199.

***"Sizdən biriniz dua ilə Allaha üz tutmaq istəsə, Uca Rəbbinə həmd-səna ilə başlasın və Onu təsbih etsin, sonra Peyğəmbərə ﷺ salavat gətirsin", "Yalnız bundan sonra istədiyini Allahdan istəsin"***.[1] Bu, duanın əvvəlində Allahın ad və sifətləri ilə, *təvəssülün* müstəhəb olmasına dəlalət edir, Allahın dərgahında olanı istəmək və Allahın izni ilə duanın qəbul edilməsinin səbəblərindən biri də budur.

[1] Əbu Davud 1481, ət-Tirmizi 3477.

## 34. Bütün peyğəmbərlər tövhidə dəvət ediblər

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunan səhih hədisdə, Allah Rəsulu ﷺ demişdir: ***«Dünyada və axirətdə bütün insanlardan, Məryəm oğlu İsaya ən yaxını mənəm. (Əslində) Peyğəmbərlər, ata bir (qardaşdırlar), anaları ayrı olsa da, dinləri birdir»***.[1]

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Allahu Təalə, elçilərə dinlərinin bir olmasını və parçalanmamağı əmr etmişdir".[2]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: «İslam, bütün peyğəmbərlərin dinidir, baxmayaraq ki, şəriətləri (dindəki qanunları) və *mənhəcləri* fərqlidirlər»[3].[4]

Ona görə də, onlardan birinə küfr etmək, onların hamısına küfr etmək sayılır və buna, Uca Allahın bu kəlamı dəlalət edir: **"Nuh qövmü də, peyğəmbərləri təkzib etdi"**[5], və həmçinin Allahın bu kəlamı: **"Ad qövmü də, peyğəmbərləri təkzib etdi"**[6], və həmçinin Onun bu kəlamı: **"Səmud qövmü də, peyğəmbərləri təkzib etdi"**[7], və həmçinin Onun bu kəlamı: **"Lut qövmü də, peyğəmbərləri təkzib etdi"**[8].

Məlumdur ki, Nuh əleyhissəlamdan əvvəl, elçilər olmayıblar və o, Allahu Təalənın göndərdiyi ilk elçidir. Lakin Allah, onlara xitab edərək buyurdu ki, onların Nuh əleyhissaləma olan küfrləri, ondan sonra gələn elçilərin hamısına küfrdür.

---

[1] Əl-Buxari 3443, Muslim 6132.
[2] Məcmu əl-fətava, 8/220.
[3] "Mənhəc" - müsəlmanın bütün həyat tərzidir. Buraya əqidə, fiqh, əxlaq və insanlarla münasibət daxildir. Həmçinin, mənhəc Allahın yer üzündəki əmrlərinin həyata keçməsi üçün yol, üsul deməkdir. Bax, Məalim Fil-Mənhəc, 3-4.
[4] Təfsir əl-Quran əl-Əzım, 1/447.
[5] "Şuəra" surəsi, 105-ci ayə.
[6] "Şuəra" surəsi, 123-cü ayə.
[7] "Şuəra" surəsi, 141-ci ayə.
[8] "Şuəra" surəsi, 160-cı ayə.

# 35. Tövhid — peyğəmbərlərin (aleyhimusəlləm) öz nəsillərinə olan vəsiyyətidir

Allahu Təalə, İbrahim və Yəqub (əleyhissələm) haqqında belə buyurmuşdur:

وَوَصَّىٰ بِهَآ إِبۡرَٰهِـۧمُ بَنِيهِ وَيَعۡقُوبُ يَٰبَنِيَّ إِنَّ ٱللَّهَ ٱصۡطَفَىٰ لَكُمُ ٱلدِّينَ فَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم
مُّسۡلِمُونَ ١٣٢ أَمۡ كُنتُمۡ شُهَدَآءَ إِذۡ حَضَرَ يَعۡقُوبَ ٱلۡمَوۡتُ إِذۡ قَالَ لِبَنِيهِ مَا تَعۡبُدُونَ مِنۢ
بَعۡدِيۖ قَالُواْ نَعۡبُدُ إِلَٰهَكَ وَإِلَٰهَ ءَابَآئِكَ إِبۡرَٰهِـۧمَ وَإِسۡمَٰعِيلَ وَإِسۡحَٰقَ إِلَٰهٗا وَٰحِدٗا وَنَحۡنُ لَهُۥ
مُسۡلِمُونَ ١٣٣

**İbrahim və (sonra da) Yəqub bunu (müsəlman olmağı) öz oğlanlarına vəsiyyət edib (hər biri dedi) : “Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün (belə bir) din (islam dini) seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz!” (Ey yəhudilər!) Yoxsa Yəqubun ölümü yetişdikdə siz onun yanında idiniz?! O: “Məndən sonra nəyə ibadət edəcəksiniz?” – deyə oğlanlarından soruşduğu zaman, onlar: “Sənin Allahına və ataların – İbrahimin, İsmailin və İshaqın Allahı olan Tək Allaha təslim olacağıq (Ona ibadət edəcəyik)!”- dedilər.**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: “Uca Allah İsmayılın nəslindən olan, ərəblərdən olan müşriklərə və bəni-İsraildən olan kafirlərə qarşı dəlil gətirir ki, Yəqub (əleyhissələmın) ölümü yaxınlaşdıqda o, oğullarına vəsiyyət etdi ki, Tək olan, heç bir şəriki olmayan Allaha ibadət etsinlər. Uca Allahın **“Tək Allaha”** kəlamı, yəni: biz, Onun (ibadətə layiq) tək ilah olmasına əminik və ibadətdə heç kəsi Ona şərik qoşmuruq”[2].

Həmçinin, bu yaxınlarda biz qeyd etdik ki, Nuh (əleyhissələm) oğluna tövhidi əmr etmiş və *şirki* tərk etməsi haqqında vəsiyyət etmişdi.[3]

---

[1] "Bəqərə" surəsi, 132-133-cü ayələr.
[2] Təfsir əl-Quran əl-Əzım, 1/447.
[3] “Tövhid kəlmələri yerdən və göydən üstündür” fəslinə baxın.

# 36. Allah əvvəlki ümmətləri tövhiddən uzaqlaşdıqları üçün həlak etdi[1]

Uca Allah buyurur:

قُلْ سِيرُوا۟ فِى ٱلْأَرْضِ فَٱنظُرُوا۟ كَيْفَ كَانَ عَـٰقِبَةُ ٱلَّذِينَ مِن قَبْلُ ۚ كَانَ أَكْثَرُهُم مُّشْرِكِينَ

**De: "Yer üzündə gəzib dolaşın və əvvəlkilərin aqibətinin necə olduğuna baxın! Onların çoxu müşrik idi".**[2]

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Elçilərin çoxunun dəvəti, tək olan Allaha və Ondan başqasına ibadət etməməyi əmr etməklə başlamışdı, Nuh, Hud, Saleh, Şueyb haqqında Allahın xəbər verdiyi kimi. Onların qövmləri, Yaradanın varlığını təsdiq edirdilər, lakin Ona şərik qoşurdular, Ondan başqalarına ibadət edirdilər. Eyni ərəblərin etdikləri kimi, hansılara ki, Muhəmməd ﷺ göndərilmişdir".[3]

Həmçinin Şeyxul-islam, (Allah ona rəhmət etsin), Lutun qövmü haqqında belə demişdir: "Lut qövmü arasında şirklə yanaşı, əvvəllər olmayan iyrənc əməllər də yayıldı".[4]

Həmçinin o (Allah ona rəhmət etsin) demişdir: "Mədyən sakinlərinə gəldikdə isə, onların *şirklə* yanaşı malda da haqsızlıq etdikləri qeyd olundu".[5]

---

[1] Əlavə fayda üçün, Səid Muhəmməd Baab Silin "Keçmiş ümmətlərin həlak səbəbləri" xəbərinə baxın.
[2] "Rum" surəsi, 42-ci ayə.
[3] "Məcmu' əl-fətava" (15/332), "İqtida əs-siratul-müstəqim" (2/369). "Məaric əl-kabul" 2/501 və sonrakılara baxın.
[4] Məcmu əl-fətava, 16/249.
[5] Ən-Nübüvvət, 1/212.

## 37. «əl-Kursi» ayəsi, Qurandakı ayələrin ən yaxşısıdır o, tövhidin müxtəlif növlərinə işarə edir

Ubey ibn Kəb (Allah ondan razı olsun) demişdir: “Bir dəfə Allah Rəsulu ﷺ məndən soruşdu: ***“Ey Əbu əl-Munzir, bilirsənmi, Allahın kitabında hansı ayə ən əzəmətlidir?”*** Cavab verdim: “Allah və Rəsulu daha yaxşı bilir”. Allah Rəsulu ﷺ soruşdu: ***“Ey Əbu əl-Munzir, bilirsənmi, Allahın kitabında hansı ayə ən əzəmətlidir?”*** Mən dedim: "Bu o ayədir ki, orada deyilir: **"Allah! Ondan başqa [ibadətə layiq olan] İlah yoxdur, [əbədi] Yaşayandır, Qəyyumdur [kainatı yaradan və onu idarə edəndir, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyandır]".** Bundan sonra Peyğəmbər ﷺ əlini sinəmə vurdu və dedi: ***“Elmlə xoşbəxt olasan, ey Əbu əl-Munzir!”*** [1]

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: “Buna görə də «*Lə iləhə illəllah*» sözlərin ən yaxşısı və ən əzəmətlisidir, Quranda ən əzəmətli ayə isə "əl-Kursi” ayəsidir”[2].

Həmçinin  hər bir vacib namazdan sonra bu ayəni davamlı olaraq oxumağa Peyğəmbərdən ﷺ təşviq gəlmişdir: ***“Hər namazdan sonra “əl-Kürsi” ayəsini oxuyanı, cənnətə daxil olmasına yalnız ölüm mane olur".***[3]

Buna görə də İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: “Mənə Şeyximiz Əbul-Abbas İbn Teymiyyədən gəlmişdir ki, o belə dedi: “Mən hər namazın sonunda “əl-Kürsi” ayəsini oxumağı tərk etmədim”.[4]

---

[1] Muslim 1885.

[2] “Məcmu əl-fətava”, 3/400.

[3] Ən-Nəsai “Əməl əl-yəum və əl-ləyliyə” 100, İbn Hibban “ət-Tərğib və ət-tərhib” əl-Münziri 2/258, İbn Kəsir 1/677 (1595), “əs-Səhihə” 972-də səhih adlandırmışdır.

[4] Zad əl-mi’ad, 1/294.

Əbu Hureyrənin (Allah ondan razı olsun) hədisində belə deyilir: “Bir dəfə Allah Rəsulu ﷺ mənə Ramazan ayında yığılan zəkatı saxlamağı tapşırdı, bir müddət sonra isə yanıma bir adam gəldi, özü üçün ovuc-ovuc yemək yığmağa başladı. Mən onu tutdum və dedim: “Vallahi, səni mütləq Rəsulullahın ﷺ yanına aparacağam!", - sonra hədisi söylədi və dedi: “... Yatanda “əl-Kürsi” ayəsini oxu, və o zaman Allah tərəfindən bir himayədar həmişə səninlə olacaq və səhər oyanana qədər şeytan sənə yaxınlaşa bilməyəcək!" – hədisin sonuna qədər. [1]

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) şeytanın bir neçə halını qeyd etmişdir: "... və eynilə, şeytanın hallarından birində olanlar, məsələn, “əl-Kursi” ayəsi kimi şeytanı uzaqlaşdıran şeyləri xatırladıqda, şeytanları onlardan uzaqlaşar".[2]

O, (Allah ona rəhmət etsin) həmçinin demişdir: “Əgər orada “əl-Kürsi” ayəsi doğru oxunsa, şeytanın təlqin etdiyi şey batil olar. Həqiqətən, tövhid şeytanı uzaqlaşdırır, buna görə də, bir nəfəri şeytanlar havada apardığı zaman, adam “*Lə iləhə illəllah*” dedi və yerə yıxıldı".[3]

---

[1] Əl-Buxari 5010.
[2] Əl-Furqan bəynə övliya ər-Rəhman və övliya əş-şeytan, səh. 325.
[3] Əvvəlki mənbə, səh. 339.

## 38. Tövhid — Böyük və Qüdrətli olan Allahın, sevgisinə ən böyük səbəbdir

Aişənin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunur ki, bir dəfə Allah Rəsulu ﷺ namazda, yoldaşlarına imamlıq edən bir nəfərin, komandanlığı ilə bir hərbi dəstəni səfərə göndərdi və o şəxs namazları həmişə bu sözlərlə bitirirdi: **«De: "O, Allah, Təkdir..."»** Onlar qayıdanda Rəsulullaha ﷺ xəbər verildi və Peyğəmbər ﷺ buyurdu: ***"Ondan soruşun ki, o niyə belə edir?"*** Bu sualı ona verdilər və o dedi: "Bu, Rəhmanın xüsusiyyətlərindən bəhs edir və ona görə də onu oxumağı sevirəm". Onun dediklərindən xəbər tutan Allah Rəsulu ﷺ onlara buyurdu: ***"Ona deyin ki, Uca Allah onu sevir".***[1]

Həmçinin Ənəsin (Allah ondan razı olsun) hədisində Rəsulullahın ﷺ belə dediyi nəql olunur: ***"Həqiqətən, ona ("İxlas" surəsinə) olan sevgin səni Cənnətə daxil edəcəkdir".***[2]

Qul daim öz Pak və Müqəddəs Hökmdarının, məhəbbətini qazanmağa çalışır, çünki əsas məsələ — *sən sevilməsən, sənin sevgin deyil*. Allahu Təalənın, qulundan razı qaldığı ən böyük şey isə, vəd etdiyi kimi tövhiddir, O Pak və Müqəddəsdir.

---

[1] Əl-Buxari 7375, Muslim 1890.
[2] Əl-Buxari 774.

## 39. Əməllər yalnız Allahın tövhidi ilə qəbul olunurlar

Uca Allah buyurur:

بَلَىٰۚ مَنۡ أَسۡلَمَ وَجۡهَهُۥ لِلَّهِ وَهُوَ مُحۡسِنٞ فَلَهُۥٓ أَجۡرُهُۥ عِندَ رَبِّهِۦ وَلَا خَوۡفٌ عَلَيۡهِمۡ وَلَا هُمۡ يَحۡزَنُونَ

Xeyr (elə deyil)! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, onun Rəbbi yanında mükafatı vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməyəcəklər.[1]

Alimlər bu ayəni belə təfsir etmişlər: "Təslim — Allahu Təalənın tövhidi və Ona qarşı ixlasdır, yaxşılıq etmək isə Peyğəmbərə ﷺ tabe olmaqdır".[2]

Uca Allah həmçinin buyurur:

وَقَدِمۡنَآ إِلَىٰ مَا عَمِلُواْ مِنۡ عَمَلٖ فَجَعَلۡنَٰهُ هَبَآءٗ مَّنثُورًا

Biz onların etdiyi hər bir (yaxşı) əmələ nəzər salar və onu səpələnmiş zərrələrə çevirərik (puç edərik).[3]

O həmçinin buyurur:

وَلَوۡ أَشۡرَكُواْ لَحَبِطَ عَنۡهُم مَّا كَانُواْ يَعۡمَلُونَ

Əgər onlar (Allaha) şərik qoşsaydılar, şübhəsiz, onların etdikləri əməllər də puça çıxardı.[4]

---

[1] "Bəqərə" surəsi, 112-ci ayə.
[2] "Məalim ət-tənzil" 1/93, Təfsir əl-Quran əl-Əzım 1/385.
[3] "Furqan" surəsi, 23-cü ayə.
[4] "Ənam" surəsi, 88-ci ayə.

O, Pak və Müqəddəs, həmçinin buyurur:

قُلْ أَفَغَيْرَ ٱللَّهِ تَأْمُرُوٓنِّيٓ أَعْبُدُ أَيُّهَا ٱلْجَٰهِلُونَ ﴿٦٤﴾ وَلَقَدْ أُوحِىَ إِلَيْكَ وَإِلَى ٱلَّذِينَ مِن قَبْلِكَ لَئِنْ أَشْرَكْتَ لَيَحْبَطَنَّ عَمَلُكَ وَلَتَكُونَنَّ مِنَ ٱلْخَٰسِرِينَ ﴿٦٥﴾ بَلِ ٱللَّهَ فَٱعْبُدْ وَكُن مِّنَ ٱلشَّٰكِرِينَ ﴿٦٦﴾

**De: "Ey cahillər! Mənə Allahdan başqasına ibadət etməyimi əmr edirsiniz?"(Ey Peyğəmbər!) Həqiqətən, sənə də, səndən əvvəlkilərə də: "Əgər Allaha şərik qoşsan, sənin əməlin puça çıxar və ziyana uğrayanlardan olarsan!" - deyə vəhy olunmuşdur. Xeyr! Allaha ibadət et və şükür edənlərdən ol!** [1]

Böyük alim əş-Şövkani (Allah ona rəhmət etsin) Uca Allahın **"Əgər Allaha şərik qoşsan, sənin əməlin puça çıxar və ziyana uğrayanlardan olarsan"** kəlamı haqqında belə demişdir: "Bu sözlər peyğəmbərlərə aid olmayan qınaq bölməsindəndir, çünki Allahu Təalə onları *şirkdən* qorumuşdur, lakin Pak və Müqəddəs Allah bu ayədə bəndələri *şirkdən* xəbərdar etmək üçün bu formada müraciət etmişdir. Əgər peyğəmbərlərin əməllərinin puça çıxa biləcəyini təsəvvür etmək mümkün olsaydı, onların ümmətlərinin əməlləri xüsusilə puç olardı". [2]

Aişənin (Allah ondan razı olsun) hədisində onun belə dediyi nəql olunur: «Mən dedim: "Ey Allahın Rəsulu ﷺ! İbn Cudan cahiliyyət dövründə qohumluq əlaqələri saxlayıb, yoxsulları yedizdirirdi — bu ona kömək edəcəkmi? O, Allahın ona salavatı və salamı olsun, dedi: ***"Bu ona heç bir fayda verməz, çünki o, heç vaxt: "Ey Rəbbim, Qiyamət günü mənim günahlarımı bağışla" demirdi"».*** [3]

---

[1] "əz-Zumər" surəsi, 64-66-cı ayələr.
[2] Fəth əl-Qədir, 4/623.
[3] Muslim 518.

# 40. Allah tövhid əhlinin qəlbini açır və onu Öz düz yoluna yönəldir, müşrikin halı isə bunun əksinədir

Uca Allah buyurur:

فَمَن يُرِدِ ٱللَّهُ أَن يَهْدِيَهُۥ يَشْرَحْ صَدْرَهُۥ لِلْإِسْلَٰمِ ۖ وَمَن يُرِدْ أَن يُضِلَّهُۥ يَجْعَلْ صَدْرَهُۥ
ضَيِّقًا حَرَجًا كَأَنَّمَا يَصَّعَّدُ فِى ٱلسَّمَآءِ ۚ كَذَٰلِكَ يَجْعَلُ ٱللَّهُ ٱلرِّجْسَ عَلَى ٱلَّذِينَ لَا يُؤْمِنُونَ

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə rəzalətə salar.**[1]

İbn Abbas (Allah ona rəhmət etsin) demişdir: «**“Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar”**, yəni qəlbini tövhid və Ona iman üçün geniş edər».[2]

Allah onun köksünü necə açmasın ki, «əgər tövhid kimi, bu qədər gözəl izləri və müxtəlif fəzilətləri olan başqa bir şey yoxdur. Həqiqətən, bu dünyanın və əbədi həyatın bütün xeyirləri tövhid və onun fəzilətlərinin bəhrəsidir».[3]

---

[1] "əl-Ənam" surəsi, 125-ci ayə.
[2] Təfsir əl-Quran əl-Əzım, 3/336.
[3] “Əl-qavl əs-sədid fi məkasid ət-tövhid”, səh. 23.

# 41. Tövhid — Peyğəmbərin ﷺ vəsiyyətidir

Abdullah ibn Əmirdən rəvayət olunur ki, bir gün Muaz ibn Cəbəl bir yerə getməyə hazırlaşdı və dedi: "Ey Allahın Rəsulu ﷺ, mənə nəsihət et". Allahın Rəsulu ﷺ buyurdu: ***"Allaha ibadət et və heç kəsi və heç nəyi Ona şərik qoşma".*** Muaz dedi: "Ey Allahın Peyğəmbəri, mənə əlavə et". Allahın Rəsulu ﷺ buyurdu: ***"Əgər bir günah və ya pis bir iş görmüsənsə, dərhal bir yaxşılıq et".*** Muaz dedi: "Ey Allahın Peyğəmbəri, mənə əlavə et". Allah Rəsulu ﷺ buyurdu: ***"Düz ol və əxlaqın gözəl olsun".*** [1]

Süleyman ibn Bureydə rəvayət edir ki, atası Bureydə (Allah ondan razı olsun) demişdir: "Allahın Rəsulu ﷺ bir nəfəri orduya və ya hərbi dəstəyə komandanlığa təyin edərkən ona Allahdan qorxmağı və onunla birlikdə səfərə çıxan müsəlmanlarla yaxşı rəftar etməyi əmr edirdi və sonra deyirdi***: "Allahın adı ilə və Allah yolunda döyüşə çıxın və Allaha iman gətirməyənlərlə vuruşun. Səfərə çıxın və aldatmayın, xainlik etməyin, öldürülən düşmənlərin cəsədlərini eybəcər hala salmayın və uşaqları öldürməyin. Müşriklərdən olan düşmənlərlə qarşılaşdığınız zaman onları üç şeyə dəvət edin, əgər onlar bir şeylə razılaşsalar, onlardan onu qəbul edin və onları buraxın. Sonra onları İslama dəvət et, əgər onlar səninlə razılaşsalar, onlardan bunu qəbul et və onları burax..."*** hədisin sonuna qədər.[2]

Hafiz İbn Məndəh (Allah ona rəhmət etsin) bu hədisi nəql etdiyi fəslin adını "Peyğəmbərin ﷺ hərbi dəstəyə, tövhidə dəvət etmək və onun uğrunda mübarizə aparmaq əmri haqqında fəsil" qoymuşdur.[3]

Əbu Bəşir əl-Ənsarinin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunur ki, o, səfərlərinin birində Allah Rəsulunu ﷺ müşayiət edəndə və camaat artıq gecələmək üçün hazırlaşarkən, Allah Rəsulu ﷺ (öz) nümayəndəsini onların yanına göndərdi ki, (o onlara çatdırsın ki): ***«Heç bir dəvənin boynunda kirişdən (ox yayının iki ucuna tarım bağlanan ip) düzəldilmiş***

---

[1] Əl-Həkim 1/54, İbn Hibban 524.
[2] Muslim 1731.
[3] Kitab əl-iman, 1/261.

*boyunbağı qalmasın və ya kəsilib atılmamış bir (dənə də olsun) boyunbağı qalmasın.»*[1]

Əbu əd-Dərda (Allah ondan razı olsun) demişdir: "Allahın Rəsulu ﷺ mənə vəsiyyət etdi: ***«Allaha şərik qoşma, hətta səni kəssələr də, yandırsalar da, bilə-bilə vacib namazı tərk etmə, çünki namazı qəsdən tərk edən Allahın himayəsindən ayrılmışdır, şərab içmə, çünki o, bütün pisliklərin açarıdır».***[2]

Həmçinin Peyğəmbər ﷺ Ruveyfiyə (Allah ondan razı olsun) demişdir: ***«Ey Ruveyfi! Ola bilsin ki, sən məndən sonra çox yaşayasan, ona görə də insanlara xəbər ver ki, əgər kimsə bəd nəzərdən qorunmaq üçün saqqalını burarsa və yaxud boynuna (köhnəlmiş kiriş) ip taxarsa, yaxud heyvan peyini və ya sümükləri ilə təmizlənərsə, Muhəmmədin ﷺ onunla heç bir əlaqəsi yoxdur».***[3]

Əbul-Həyyac əl-Əsədinin belə dediyi rəvayət olunur: «Bir dəfə Əli ibn Əbu Talib (Allah ondan razı olsun) mənə dedi: "Peyğəmbərin ﷺ vaxtında məni göndərdiyi əmri ilə, səni də göndərimmi? Bir dənə də olsun heykəli məhv etmədən və yerin üstündə olan bir qəbri də yerlə bərabər etmədən qoyma"».[4]

---

[1] Əl-Buxari 3005, Muslim 5549.
[2] İbn Macə 4034, Şeyx əl-Albani hədisi yaxşı adlandırmışdır.
[3] Əhməd 16995, Əbu Davud 36, Şeyx əl-Albani hədisi səhih adlandırmışdır.
[4] Muslim 969.

## 42. Tövhid kəlmələri İbrahim əleyhissələmın özündən sonrakı nəsli arasında qalan kəlmələrdir

Necə ki, Uca Allah İbrahim (əleyhissalam) haqqında buyurmuşdur:

وَجَعَلَهَا كَلِمَةًۢ بَاقِيَةً فِى عَقِبِهِۦ لَعَلَّهُمْ يَرْجِعُونَ

**İbrahim bu sözü özündən sonrakı nəslinə miras qoydu ki, bəlkə onlar (haqq yola) qayıdalar.**[1]

Əl-Bəğavi (Allah ona rəhmət etsin) demişdir: **"bu sözü özündən sonrakı nəslinə"**, bu isə tövhid kəlmələridir, "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur) şəhadətidir". [2]

İbn əl-Cövzi (Allah ona rəhmət etsin) demişdir: **"miras qoydu"**, yəni tövhid kəlmələri, bu isə "*Lə iləhə illəllah*"-dır, "bu sözü özündən sonrakı nəslinə", yəni ondan sonra nəslindən gələnlər arasında, və onların arasında həmişə tövhid əhli olacaq ki, ataları bütləri tərk edib, Böyük və Qüdrətli Allahı, təkləşdirdiyini eşidəndə, bəlkə onlar tövhidə qayıdalar".[3]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "İkrimə, Mücahid, əd-Dəhhak, Qatadə, əs-Suddi və başqaları dedilər: **"bu sözü özündən sonrakı nəslinə miras qoydu"**, yəni "*Lə iləhə illəllah*" və onun nəsli arasında həmişə bu sözləri deyənlər olacaq. Həmçinin bunun bənzəri, İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edilir". [4]

---

[1] "Zuxruf" surəsi, 28-ci ayə.
[2] "Məalim ət-tənzil" 4/96, Təfsir əl-Quran əl-Əzım 7/225.
[3] Zad əl-məsir, 7/310.
[4] Təfsir əl-Quran əl-Əzım, 7/225.

# 43. Peyğəmbərlərin və salehlərin şirkə düşmək qorxusu, tövhidin vacibliyinə və bu qorxunun başqaları üçün vacib olduğuna dəlildir

Allahu Təalə, öz sevimlisi İbrahim (əleyhissaləm) haqqında belə buyurmuşdur:

وَإِذْ قَالَ إِبْرَٰهِيمُ رَبِّ ٱجْعَلْ هَٰذَا ٱلْبَلَدَ ءَامِنًا وَٱجْنُبْنِى وَبَنِىَّ أَن نَّعْبُدَ ٱلْأَصْنَامَ ﴿٣٥﴾ رَبِّ
إِنَّهُنَّ أَضْلَلْنَ كَثِيرًا مِّنَ ٱلنَّاسِ ۖ فَمَن تَبِعَنِى فَإِنَّهُۥ مِنِّى ۖ وَمَنْ عَصَانِى فَإِنَّكَ غَفُورٌ رَّحِيمٌ ﴿٣٦﴾

**Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Bu şəhəri (Məkkəni) təhlükəsiz bir yer et! Məni və oğullarımı da bütlərə ibadət etməkdən uzaq tut! Ey Rəbbim! Həqiqətən, (bütlər) insanlardan bir çoxunu azdırdı. Ona görə də kim mənə tabe olarsa, şübhəsiz ki, o məndəndir. Kim mənə qarşı çıxarsa, əlbəttə, Sən bağışlayansan, rəhmlisən!"[1]**

İbrahim ət-Taimi (Allah ona rəhmət etsin) demişdir: «İbrahim peyğəmbərdən sonra kim salamatdır?»[2]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) bu ayəni zikr etdikdən sonra demişdir: «Hər kim Allaha dua edərsə, özü, övladları və nəsli üçün dua etməlidir»[3]

Böyük alim Muhəmməd Təqiyuddin əl-Hilali əl-Məğribi əl-Hüseyni (Allah ona rəhmət etsin) demişdir: "Bu İmam (İbn Kəsir) nə qədər heyrətamizdir, onun tədqiqatları nə qədər böyükdür və elmi nə qədər genişdir... Əgər bu gün adi müsəlmanlardan birinə və ya özünü alim zənn edənlərin əksəriyyətinə: "Allahdan səni, övladlarını və nəslini bütlərə ibadət etməkdən qorumasını istəyirəm" desən, o, çox qəzəblənəcək və elə düşünəcək ki, sən onu söyürsən! Əgər mehribanlıq göstərsə və səni təhqir etməsə və ya döyməsə, deyəcək: "Sən həqiqətən mənim islamıma, valideynlərimin və nəslimin islamına şübhə

[1] "İbrahim" surəsi, 35-36-cı ayələr.
[2] Cami əl-bəyan, 13/122.
[3] Təfsir əl-Quran əl-Əzım, 4/513.

edirsənmi? Quran oxuduğumuz, namaz qıldığımız, həcc etdiyimiz, *zəkat* verdiyimiz, Ramazan ayında oruc tutduğumuz, Allahdan başqa, ibadətə heç bir şeyin layiq olmadığına, Muhəmmədin Onun qulu və elçisi olduğuna şahidlik etdiyimiz halda? Allahdan qorx və müsəlmanları *təkfir*[1] etmə, vəhhabi *əqidəsini* [2] tərk et!"

Beləsinə demək lazımdır ki: “Məgər İbrahim bu duanı edəndə vəhhabi idi? Məgər İbrahim, Yaqub vəhhabi idilər, Allah onlar haqqında və onların vəsiyyətlərini Kitabda bildirərkən? Ey düz yolda olan tövhid əhli səbr et, şübhəsiz ki, Allahın vədi haqdır”. [3]

Uca Allah, İbrahim və İsmayılın (əleyhissalləm) əməllərinin qəbul olunmayacağı qorxusu haqqında buyurdu:

وَإِذْ يَرْفَعُ إِبْرَٰهِـۧمُ ٱلْقَوَاعِدَ مِنَ ٱلْبَيْتِ وَإِسْمَـٰعِيلُ رَبَّنَا تَقَبَّلْ مِنَّآ ۖ إِنَّكَ أَنتَ ٱلسَّمِيعُ ٱلْعَلِيمُ

**Bir zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini ucaldırdılar (və belə dua edirdilər:) “Ey Rəbbimiz, bizdən (bunu) qəbul et! Şübhəsiz ki, Sən hər şeyi eşidənsən, biləns‌ən... [4]**

Uheyb ibn Varad bu ayəni oxuyub, ağlayardı və deyərdi: “Ey Rəhmanın sevimlisi, sən Rəhmanın evinin divarlarını ucaldırdın və onun səndən qəbul olunmayacağından qorxurdun”. [5]

Makul ibn Yəsarın belə dediyi rəvayət olunur: “Bir dəfə mən Əbu Bəkr əs-Siddiqlə (Allah ondan razı olsun) Peyğəmbərin ﷺ yanına getdim və Peyğəmbər ﷺ dedi: ***“Ey Əbu Bəkr, həqiqətən, sizdə gizlənən şirk, yerdə sürünən qarışqadan daha görünməzdir”.*** O zaman Əbu Bəkr dedi: “Bir kimsənin Allahla yanaşı başqa bir tanrı tanımasından başqa bir şirk varmı?” Və Peyğəmbər ﷺ buyurdu: “***Nəfsim əlində olana and olsun ki, şirk yerdə sürünən qarışqadan da görünməzdir! Elə isə sənə elə bir şey deyimmi ki, bunun***

[1] Təkfir (ərəb. تكفري - ) İslamda küfrdə ittiham.
[2] Əqidə (ərəb. عقيدة - ) inam, baxış, əqidə.
[3] Səbil ər-Rəşid fi hədi xair əl-abid, 1/340–341.
[4] "Bəqərə" surəsi, 127-ci ayə.
[5] Təfsir əl-Quran əl-Əzım, 1/427.

***sayəsində, bunu desən, şirkin həm kiçik, həm də böyük növündən qurtula bilərsən?*** Peyğəmbər ﷺ buyurdu: ***De: "Allahım! Bilə-bilə Sənə şərik qoşmaqdan Sənə sığınıram və bilmədiklərimə görə də Səndən bağışlanma diləyirəm!"*** [1]

Həmçinin rəvayət olunur ki, Peyğəmbər ﷺ ən çox belə dua edərdi: ***"Ey qəlbləri çevirən! Mənim qəlbimi öz dinində sabit et!"*** [2]

Əbu Səidin belə dediyi rəvayət olunur: "Bir dəfə, biz Məsih Dəccalı yada saldığımız zaman, Allahın Rəsulu ﷺ yanımıza gəlib dedi: ***"Sizə xəbər verimmi ki, Məsih Dəccaldan daha çox sizin üçün qorxduğum şey nədir?"*** Biz dedik: "Əlbəttə!" O zaman o buyurdu: ***"Bu gizli şirkdir ki, bir şəxs namaza qalxıb, kiminsə ona baxdığını görüb, onu bəzəyir".***[3]

Peyğəmbər ﷺ hətta nəyisə rəvayət edərkən, özünə *şirk* (Allaha şəriklər qoşmaq) aid etməkdən qorxurdu. Məşhur hədisdə deyilir ki, Əbu Talib artıq ölümə yaxın olanda, Allah Rəsulu ﷺ onun yanına gəldi və Əbu Cəhl ibn Hişam və Abdullah ibn Əbu Üməyyə ibn əl-Muğirənin də onun yanında olduğunu gördü. Allah Rəsulu ﷺ Əbu Talibə dedi: ***"Ey əmi, "Lə iləhə illəllah" (Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur) kəlməsini söylə ki, mən də sənin üçün Allah qarşısında şəhadət edə bilim"***. Bunu eşidən Əbu Cəhl və Abdullah ibn Əbu Üməyyə bir ağızdan dedilər: "Ey Əbu Talib, doğrudanmı Əbdülmuttalibin dinini tərk edəcəksən?!" Bundan sonra Allah Rəsulu ﷺ onu bu sözləri söyləməyə dəvət etməyə davam etdi və onlar öz sözlərini təkrarladılar ta ki, Əbu Talib Əbdül-Müttəlibin dinində olduğunu, son sözü ilə deyənə qədər.[4]

Həmçinin Ömərdən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ onun belə dediyini eşitdi: "Atama and olsun ki," Allah Rəsulu ﷺ buna cavab olaraq dedi***: "Həqiqətən, Allah sizə atalarınıza and içməyi qadağan edir. Əgər sizdən biriniz and içərsə, ya Allaha and içsin, ya da sussun".***

[1] Əl-Buxari "əl-Ədəb əl-müfrəd"-də 716, "Səhih əl-cami' əs-sağir" 3731.
[2] ət-Tirmizi 3522, İbn Hibban 943.
[3] Əhməd 11252, İbn Macə 4204, Şeyx əl-Albani hədisi səhih adlandırmışdır.
[4] Əl-Buxari 1360, Muslim 132.

Ömər dedi: «Bundan sonra nə özüm belə and içmədim, nə də ki, başqasının dediklərini danışarkən onun andını təkrar etmədim».[1]

Həmçinin İmam əl-Buxari *ta'lik*[2] hədisini Ömərdən nəql etdiyi kimi, Ömər (Allah ondan razı olsun) rəvayət edir ki, o, Ənəs ibn Malikin, qəbrin yanında namaz qıldığını görüb dedi: "Qəbir, qəbir". Hafiz İbn Həcər (Allah ona rəhmət etsin) demişdir: "[Burada qəbir kəlməsi *nasb* halında hallanmış olaraq qeyd edilmişdir, yəni bundan çəkindirmə kimi]".[3]

Böyük alim Mübarək əl-Mili əl-Cəzairi (Allah ona rəhmət etsin) demişdir: "Əgər ağlında heç bir problem yoxdursa, mənimlə birlikdə peyğəmbərlərin *şirki* izah etməkdə böyük qayğı göstərmələrini və onların ancaq tək ilahlığı (*tövhidi*) izah etməklə məhdudlaşmadıqlarını qəbul edəcəksən. Daha sonra, bizim alimlərin buna nə qədər az diqqət yetirdiyinə heyrət et! Sanki müsəlmanların buna ehtiyacı yoxmuş kimi. Onların sözlərindən görəcəksən ki, onlar müxtəlif və nadir məsələlərdə şəriətin qanunlarını şərh etməklə və ya həyatda, adətən baş verməyən vəziyyətləri araşdırmaqla məşğuldurlar, amma adi insanların qəlblərində şirkə qarşı bir çəkinmə və ona aparan yollardan uzaqlıq möhkəmlənsin deyə, şirkdən çəkindirdiklərini, onun növlərini izah etdiklərini, təzahürlərini sadaladıqlarını, dinin əsasları ilə məşğul olduqlarını heç görmərsən.[4]

---

[1] Əhməd 4523, İbn Macə 2094.
[2] Yəni isnadı (ravilərin zəncirini) qeyd etmədən.
[3] Fəth əl-Bari, 2/625.
[4] Əş-şirk və məzahiruhu, Mübarək əl-Mili, səh. 46–47.

## 44. İnsanların əksəriyyətinin, tövhidlə bağlı yanlış anlayışı və ona riayət etməmələri, onun qayğısına qalmağın vacibliyinə dəlalət edir

Uca Allah buyurur:

وَإِن تُطِعۡ أَكۡثَرَ مَن فِي ٱلۡأَرۡضِ يُضِلُّوكَ عَن سَبِيلِ ٱللَّهِۚ إِن يَتَّبِعُونَ إِلَّا ٱلظَّنَّ وَإِنۡ هُمۡ إِلَّا
يَخۡرُصُونَ

Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar.[1]

Həmçinin Uca Allah buyurur:

وَلَقَدۡ صَرَّفۡنَا لِلنَّاسِ فِي هَٰذَا ٱلۡقُرۡءَانِ مِن كُلِّ مَثَلٖ فَأَبَىٰٓ أَكۡثَرُ ٱلنَّاسِ إِلَّا كُفُورٗا

Biz bu Quranda insanlar üçün hər cür məsəli müfəssəl izah etdik. Lakin insanların çoxu yalnız küfrü seçdi.[2]

Həmçinin Uca Allah buyurur:

وَلَقَدۡ صَرَّفۡنَٰهُ بَيۡنَهُمۡ لِيَذَّكَّرُواْ فَأَبَىٰٓ أَكۡثَرُ ٱلنَّاسِ إِلَّا كُفُورٗا

Biz düşünüb ibrət alsınlar deyə (o suyu) onların arasında paylaşdırdıq. Lakin insanların çoxu küfrdən başqa bir şey qəbul etmədilər.[3]

Həmçinin Uca Allah buyurur:

أَفَمَن كَانَ ۦ إِنَّهُ ٱلۡحَقُّ مِن رَّبِّكَ وَلَٰكِنَّ أَكۡثَرَ ٱلنَّاسِ لَا يُؤۡمِنُونَ إِمَامٗا وَرَحۡمَةًۚ
أُوْلَٰٓئِكَ يُؤۡمِنُونَ بِهِۦۚ وَمَن يَكۡفُرۡ بِهِۦ مِنَ ٱلۡأَحۡزَابِ فَٱلنَّارُ مَوۡعِدُهُۥۚ فَلَا تَكُ فِي مِرۡيَةٖ مِّنۡهُۚ

---

[1] "əl-Ənam" surəsi, 116-cı ayə.
[2] "əl-İsra" surəsi, 89-cu ayə.
[3] "əl-Furqan" surəsi, 50-ci ayə.

**Məgər Rəbbindən açıq-aydın bir dəlilə istinad edən, ardınca Ondan bir şahid (Cəbrail) gələn, ondan da əvvəl rəhbər və mərhəmət olmuş Musanın Kitabının (təsdiqlədiyi) kimsə (kafirə tay ola bilərmi)? (Müsəlmanlar) ona (Qurana) iman gətirirlər. Onu inkar edən firqələrin, vəd olunduğu yer oddur. Sənin isə ona (Qurana) heç bir şübhən olmasın. Çünki bu, sənin Rəbbindən (gələn) haqdır, lakin insanların çoxu (buna) inanmır.**[1]

Həmçinin Uca Allah buyurur:

حَتَّىٰٓ إِذَا جَآءَ أَمْرُنَا وَفَارَ ٱلتَّنُّورُ قُلْنَا ٱحْمِلْ فِيهَا مِن كُلٍّ زَوْجَيْنِ ٱثْنَيْنِ وَأَهْلَكَ إِلَّا مَن سَبَقَ عَلَيْهِ ٱلْقَوْلُ وَمَنْ ءَامَنَ ۚ وَمَآ ءَامَنَ مَعَهُۥٓ إِلَّا قَلِيلٌ

**Nəhayət, əmrimiz gəldiyi və təndir qaynadığı zaman Biz (Nuha) dedik: "(Heyvanların) hər növündən bir cüt, barələrində söz keçmiş kəslər istisna olmaqla, öz ailəni və bir də iman gətirənləri gəmiyə mindir". (Əslində), onunla birlikdə az adam iman gətirmişdi.**[2]

Həmçinin Uca Allah buyurur:

وَمَا يُؤْمِنُ أَكْثَرُهُم بِٱللَّهِ إِلَّا وَهُم مُّشْرِكُونَ

**Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir.**[3]

Həmçinin Uca Allah buyurur:

وَمَآ أَكْثَرُ ٱلنَّاسِ وَلَوْ حَرَصْتَ بِمُؤْمِنِينَ

**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir.**[4]

Həmçinin Uca Allah buyurur:

وَلَقَدْ ضَلَّ قَبْلَهُمْ أَكْثَرُ ٱلْأَوَّلِينَ

**Həqiqətən, onlardan öncə əvvəlki nəsillərin çoxu zəlalətə düşmüşdü.**[5]

Bureydə ibn əl-Hüseybin (Allah ondan razı olsun) hədisində nəql olunur ki, Allah Rəsulu ﷺ demişdir: ***«Bütün ümmətlər mənə göstərildi və mən bir***

---

[1] "Hud" surəsi, 17-cı ayə.
[2] "Hud" surəsi, 40-cı ayə.
[3] "Yusuf" surəsi, 106-cı ayə.
[4] "Yusuf" surəsi, 103-cü ayə.
[5] "əs-Saffat" surəsi, 71-ci ayə.

***peyğəmbər gördüm ki, onunla bir neçə nəfər var idi və başqa bir peyğəmbər gördüm, onunla yalnız bir və ya iki nəfər var idi və elə bir peyğəmbər var idi ki, onun yanında heç kim yox idi»***[1].

Həmçinin Ənəsdən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: ***"Mənə iman gətirmiş qədər insan, heç bir peyğəmbərə iman gətirməmişdir. Həqiqətən, elə bir peyğəmbər də var idi ki, ümmətindən bir nəfərdən başqa, hamı onu inkar etdi"*** [2].

Əbu Hureyrədən rəvayət olunur ki, Rəsulullah ﷺ buyurdu: ***"Həqiqətən, yəhudilər yetmiş bir dəstəyə, xaçpərəstlər yetmiş iki dəstəyə, mənim ümmətim isə yetmiş üç dəstəyə bölünəcək ki, onlardan biri istisna olmaqla, hər biri cəhənnəm odunda olacaq".*** Ondan soruşdular: "Onlar kimdir, ey Allahın Rəsulu?" O cavab verdi: ***"Bu, əl-cəmaədir"*** (camaat).[3]

Həmçinin başqa bir *rivayətdə* (versiyada) gəlmişdir ki: ***«Bunlar mənim və səhabələrimin ardınca gedənlərdirlər»***[4].

Bu və digər çoxsaylı dəlillər, açıq şəkildə göstərirlər ki, həqiqət çoxluq ilə olmur və insan çoxluğa aldanmamalı, onunla bərabər olmamalıdır. Əli (Allah ondan razı olsun) demişdir ki: «Həqiqət insanlarla ölçülmür, öncə haqqı bil, sonra kimin haqlı olduğunu (sahiblərini də) biləcəksən»[5].

Süfyan əs-Səvri (Allah ona rəhmət etsin) demişdir: «Haqq yolu ilə gedin və onun tərəfdarlarının azlığına görə özünüzü tək hiss etməyin»[6].

Böyük alim, Əbdürrəhman ibn Həsən Əli əş-Şeyx, öz dövrünün insanlarına kədərlənərək, demişdir: "Tövhidin həqiqətini bilənlər nə qədər də nadirdirlər. Və həmçinin o qədər də nadirdirlər o kəslər ki, kimlər ki, tövhidi anlaya biliblər, ona dəvət edirlər və dəvət etdikləri üçün, insanlar onunla düşmənçilik edirlər. Lakin tövhid haqqında cəhalət o qədər yayıldı ki, onun tərəfdarları, bidətçilərə nisbət edildilər".[7]

---

[1] Muslim 527.
[2] İbn Hibban 2305, əs-Səhihə 397.
[3] Əhməd Müsnəddə 3/145, Əbu Davud 4596, 4597, İbn Macə 3991-3993.
[4] ət-Tirmizi 2640–2641.
[5] "Təlbis İblis" İbn Cövzi, səh. 80
[6] Əl-i'tisam, 1/39.
[7] "Əl-mətləb əl-həmid fi bəyan məkasid ət-tövhid", səh. 121.

Və bu, həqiqətən kədərləndirən bir şeydir! Peyğəmbərin ﷺ ***"Həqiqətən, şeytan Ərəbistan yarımadasındakı ibadət edənlərin, ona ibadət edəcəklərindən ümidini kəsmişdi"*** [1] kəlamından başa düşənlər var ki, heç bir halda Ərəbistan yarımadasında *şirk* yaranmayacaq. Lakin bu bədbəxtlər Peyğəmbərin ﷺ, şirkin mütləq baş verəcəyinə işarə edən başqa bir hədisindən xəbərsizdirlər. Və bu hədislərin birləşməsindən, ümumi nəticə, alimlərin aşağıdakılardan dedikləridir:

❶ **Birincisi:** Peyğəmbərin ﷺ vəfatından sonra, mürtədlik.

Çoxlu sayda ərəb, Peyğəmbərin ﷺ vəfatından sonra dindən çıxdı, yenidən küfrə və bütpərəstliyə qayıtdı. Onların bir çoxu Müseyləm və başqaları kimi peyğəmbərliklərini bəyan edənlərə inanırdılar. Kim küfrün hər hansı bir növündə, şeytana təslim olarsa, ona ibadət etməyə başlayar, şeytana ibadət, Uca Allahın kəlamının işarə etdiyi kimi, şirk növlərindən biri ilə məhdudlaşmır: **"Ey Adəm oğulları! Mən sizə: "Şeytana ibadət etməyin! O, sizin açıq-aşkar düşməninizdir", - deyə əmr etmədimmi?!"** [2] — ayənin sonuna qədər, yəni ona itaət etməyin, çünki ona ibadət, ona itaət etməkdir. Bu, Peyğəmbərin ﷺ izahından, Uca Allahın **"Onlar (yəhudilər) Allahı qoyub xaxamlarını, (xristianlar da) rahiblərini və Məryəm oğlu Məsihi özlərinə ilah qəbul etdilər"**[3], kəlamından aydın olur ki, onların icazəli olanı (halalı) qadağan etmələrinə və qadağan olanı (haramı) icazəli etmələrinə itaət edərək. Allah bunu *şirk*, xaxamlara və rahiblərə ibadət adlandırmışdır.

---

[1] Muslim 7103.
[2] "Yasin" surəsi, 60-cı ayə.
[3] "ət-Tövbə" surəsi, 31-ci ayə.

❷ **İkincisi:** Peyğəmbər ﷺ bu ümmətin sonunda bütpərəstlik kimi, *şirkin* olacağını bildirmişdir.

Həmçinin, Peyğəmbərdən ﷺ səhih olaraq nəql olunur ki, o demişdir: ***"İnsanlar Lət və Uzzaya yenidən ibadət etməyincə, Qiyamət qopmaz"*** [1].

O həmçinin buyurur: ***«Daus qəbiləsinin qadınları, Zil-Xələsənin ətrafında dolanarkən ombalarını silkələməyənə qədər Qiyamət qopmaz*** [2]***»***.[3] Bu, onların cəhalət dövründə, Peyğəmbərin ﷺ peyğəmbərliyindən əvvəl olan bütləridir, hansı ki, Cərir İbn Abdullah tərəfindən dağıdılmışdır. Və məlum oldu ki, şeytana ibadət, Peyğəmbərin ﷺ vəfatından sonra da Ərəbistan yarımadasında olacaqdır və bu, səhih dəlillərin də göstərdiyi kimi, axır zamana qədər də mövcud olacaqdır.

Peyğəmbər ﷺ buyurur: ***"Sizlər, sizdən əvvəlkilərin adət-ənənələrinə qarış-qarışına, qulac-qulacına, eynilə əməl edəcəksiniz. Onlar kərtənkələnin dəliyinə girsələr belə, siz də onların arxasınca düşəcəksiniz".*** Biz soruşduq: Ya Rəsulallah ﷺ onlar yəhudi və xristiandırlar? Peyğəmbər: ***"Bəs başqa kim?"*** – deyə cavab verdi".[4]

Həmçinin Peyğəmbər ﷺ buyurur: ***"Mənim ümmətim özlərindən əvvəlkilərin izi ilə qarış-qarışına, qulac-qulacına getmədikcə, bu saat qopmayacaq".*** (İnsanlar) soruşdular: "Ya Rəsulullah ﷺ, farsları və bizanslıları nəzərdə tutursan?" — Peyğəmbər ﷺ dedi: ***"Başqa kim ola bilər?"*** [5] Peyğəmbər ﷺ dedi ki, bu ümmət özündən əvvəlki ümmətlər — yəhudilər, xristianlar, romalılar və farslar kimi edəcəklər və bu ümmətin, özündən əvvəlki ümmətlərin etdiklərindən geri qalmayacağını dedi: ***"Ümmətimdən bir dəstə, Allahın əmrini yerinə yetirməkdən əl çəkməz, onları köməksiz qoyanlar və onlara***

---

[1] Muslim 7299, bu hədisi İbn Ədiy əl-Kamil 7/2517-də çox zəif isnadla nəql etmişdir.

[2] İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Bu o deməkdir ki, Dauslar İslamı tərk etmədikcə, qadınları isə cahiliyyət dövründə olduğu kimi Zil-Xələsənin ətrafında dövrə vurmayana və eyni vaxtda ombalarını silkələməyənə qədər Qiyamət qopmayacaq" (ən-Nihayətu fi qaribi əl-hədis, 1/64).

[3] əl-Buxari 7116, Muslim 7298.

[4] əl-Buxari 3450, Muslim 6781.

[5] əl-Buxari 7320.

*qarşı çıxanlar onlara zərər verməzlər. Allahın əmri gələnə qədər belə olacaq və onlar hələ də haqq üzərində dayanacaqlar"* [1].

❸ **Üçüncüsü:** Ərəbistan yarımadasında *şirkin* baş verməsi.

Məlumdur ki, Ərəbistan yarımadasında həm Yəməndə, həm də Hicazda abidə və qəbirlərin yanında ölüyə və qeybdə olana dua edərək, onlara nicat üçün müraciət edərək və müxtəlif ehtiyacların ödənilməsini, kədərlərdən qurtulmağı istəyərək və onlara nəzir və qurbanlarla yaxınlaşaraq, həmçinin cinlərə qurban kəsərək və qurtuluş üçün onlara sığınaraq çoxlu sayda *şirk* edilirdi.

Və peyğəmbərin ﷺ vədi gerçəkləşdi: bu camaatdan olan qruplar bütlərə sitayiş edir, Tabələ ərazisinə yaxın Başyada, Zil-Xələsə bütlərinə sitayiş edir, qadınları isə başqa bütlərə sitayiş etdikləri kimi, onun ətrafında ombalarını silkələyirdilər, Ərəbistan yarımadasını məqbərələrə, bütlərə və şirk edilən müxtəlif ziyarət yerlərinə çevirərək. Allah, islahatçı-imam Əbdüləziz ibn Muhəmmədi (Allah ona rəhmət etsin) gətirənə qədər. O, Məkkədə bütləri, Kərbəlada Hüseynin qəbri üstündə məqbərələri, Omanda və başqa ölkələrdə olan məqbərələri dağıdıb, ta ki Allah onu götürənə qədər. Və bir müddət sonra imam-islahatçı kral Əbdüləziz ibn Əbdürrəhman əs-Səud onun yerinə keçdi və o, peyğəmbərin ﷺ şəhəri Mədinənin Bəqi qəbiristanlığında, eləcə də Ciddə, Nəcran və qalan digər şirk edilən yerlərdə məqbərələri dağıtdı.[2] Bunu görən və oxuyanlar arasında bu məsələ hamıya məlumdur. Və əgər buna əmin olsan, anlayacaqsan ki, Peyğəmbərin ﷺ: ***"Həqiqətən, şeytan Ərəbistan yarımadasındakı ibadət edənlərin, ona ibadət edəcəklərindən ümidini kəsmişdi"*** kəlamında heç bir ziddiyyət yoxdur və hədisdə Ərəbistan yarımadası torpaqlarında, şirk olmasının qeyri-mümkün olmasına işarə yoxdur. Və hər kim bu hədisi, Ərəbistan yarımadası torpaqlarında şirkin olmasının qeyri-mümkünlüyünə dəlil gətirsə, ona demək lazımdır: Allahın qadağan etdiyi və onu bağışlamayacağını dediyi şirki bizə izah et. Və əgər o bunu, *rububiyyə tövhidində şirk* kimi izah edərsə, Quran mətnləri onun sözlərini batil edər, çünki Allah Özü müşriklər haqqında onların*, tövhid ər-rububiyyəni* təsdiq etdiklərini xəbər vermişdir, Uca Allahın kəlamında olduğu kimi: **"Əgər onlara,**

---

[1] əl-Buxari 3641, Muslim 4950.

[2] "Ələm Hicaz" Muhəmməd Əli əl-Məğribi, 1-ci cild, səh. 104–105.

**özlərini kim yaratdı deyə sual versən, əlbəttə: “Allah!” - deyəcəklər. Bəs necə olub (haqq yoldan) döndərilirlər?!"** [1], və buna bənzər ayələr çoxdur. Və əgər şirki, ancaq müəyyən ibadət növləri ilə izah edərsə, bu şəxs inadkardır və onun üçün qorxu vardır ki, o, qəlbində ixtilaf olan, açıq-aydın olanı qoyub, qərəzli olanın ardınca gedən insanlardandır, baxmayaraq ki, hədisdə bunun üçün heç bir dəlil yoxdur və heç bir müəmma yoxdur.

❹ **Dördüncüsü:** Şeytan, qeybi bilmir və buna görə də, ümidini kəsmişdir.

Və əgər fərz etsək ki, şeytan ərəblərin ölkəsində, ona ibadət ediləcəyindən ümidini kəsdi və bu ümidsizlik uzunçəkən idi, onda həqiqətən, bu, yalnız onun bir fərziyyəsi və təxminidir[2]. Lakin bu, elm deyil, çünki şeytan qeybi bilmir. Bu qeybi, Allahdan başqa heç kəs bilməz:

عَٰلِمُ ٱلْغَيْبِ فَلَا يُظْهِرُ عَلَىٰ غَيْبِهِۦٓ أَحَدًا ﴿٢٦﴾ إِلَّا مَنِ ٱرْتَضَىٰ مِن رَّسُولٍ

**O, qeybi Biləndir və Öz qeybini heç kəsə açmaz, razı qaldığı elçidən başqa.**[3]

Çünki Allah qeybi dilədiyinə aşkar edər. Uca Allah buyurur:

وَمَا تَدْرِى نَفْسٌ مَّاذَا تَكْسِبُ غَدًا ۖ

**"Heç kəs sabah nə qazanacağını bilə bilməz"** [4], — yəni xeyirdən və şərdən. Bu, Allahdan başqa heç kimin bilmədiyi qeybin açarlarındandır.

Peyğəmbərdən ﷺ nəql edilir: ***“Qeybin açarları beş şeydir ki, onları ancaq Allah bilir. Bətnlərdə olanı Allahdan başqa heç kim bilməz və sabah nə***

---

[1] "əz-Zuxruf" surəsi, 87-ci ayə.

[2] Necə ki, Uca Rəbb Öz Müqəddəs Kitablarında elçilər haqqında demişdir: **"Elçilər (hər dəfə) ümidlərini itirdikdə və özlərinin yalançı hesab edildiklərini güman etdikdə köməyimiz onlara gəlir və dilədiyimiz kəs də nicat tapırdı. Günahkar tayfadan əzabımız əsla dəf olunmaz!"** ("Yusuf" surəsi, 110-cu ayə).

[3] "əl-Cinn" surəsi, 26-27-ci ayələr.

[4] "Loğman" surəsi, 34-cü ayə.

*olacağını Allahdan başqa heç kim bilməz..."* [1] Süleyman və Davud əleyhissəlamın dövründə, şeytan və cinlər qeybi bildiklərini bəyan etdilər, lakin Süleyman vəfat edəndə, onlar onun ölümündən yalnız bir ildən sonra xəbər tutdular və bu bir il ərzində ona itaət etməyi və ağır işlər görməyi buraxmadılar. Onun vəfatından xəbər tutduqda, onlara məlum oldu ki, onlar qeybi bilmirlər.

Uca Allah buyurur:

فَلَمَّا قَضَيْنَا عَلَيْهِ ٱلْمَوْتَ مَا دَلَّهُمْ عَلَىٰ مَوْتِهِۦٓ إِلَّا دَآبَّةُ ٱلْأَرْضِ تَأْكُلُ مِنسَأَتَهُۥ ۖ فَلَمَّا خَرَّ تَبَيَّنَتِ ٱلْجِنُّ أَن لَّوْ كَانُوا۟ يَعْلَمُونَ ٱلْغَيْبَ مَا لَبِثُوا۟ فِى ٱلْعَذَابِ ٱلْمُهِينِ

**(Süleymanın) ölümünə hökm verdiyimiz zaman, onun öldüyünü (cinlərə) ancaq onun əsasını yeyən, bir ağac qurdu göstərdi. (Süleyman) yerə yıxıldıqda, cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzaba məruz qalmazdılar.**[2]

Peyğəmbər ﷺ buyurdu: ***"Ümmətimdən bir neçə adam gətiriləcək və onları sola çəkəcəklər, sonra mən deyəcəyəm: "Ey Rəbbim, bunlar mənim səhabələrimdir!" – və mənə deyiləcək: " Həqiqətən, sən onların səndən sonra hansı bidətlər gətirdiklərini bilmirsən!"*** [3]

Necə demək olar ki, xeyir və ya şər, küfr və ya İslam ümmətinin nəyin üzərində olacağını şeytan bilir, əgər bu qeybdirsə, hansı ki, onu Allahdan başqa və Onun xəbər verdiyi elçilərindən başqa heç kəs bilmir.

❺**Beşincisi:** Hədisin mənası budur ki, şeytan, bundan əvvəl olduğu kimi də, bütün insanların ona ibadət edəcəyindən ümidini kəsdi, az bir qisminin yox.

Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) bu hədis haqqında belə demişdir: "Bu o deməkdir ki, bütün camaatın böyük şirkə düşəcəyindən şeytan ümidini kəsmişdir."

İbn Kəsir (Allah ona rəhmət etsin) Uca Allahın **«Bu gün kafirlər (sizi) dininizdən (döndərməkdən) əllərini üzdülər»**[4] kəlamını təfsir edərək, bu

[1] əl-Buxari 4627.
[2] "Səba" surəsi, 14-cü ayə.
[3] əl-Buxari 3349, Muslim 5978.
[4] "əl-Maidə" surəsi, 3-cü ayə.

mənaya işarə etmişdir: “İbn Abbas (Allah ondan razı olsun) deyib ki: “Yəni onlar sizin, onların dinlərinə qayıtmağınızdan ümidlərini kəsdilər”. A'ta əs-Suddi və Muqatil də belə deyiblər. Rəsulullahın ﷺ belə dediyi etibarlı bir hədis də eyni mənada gəlir: ***“Həqiqətən, şeytan Ərəbistan yarımadasında ibadət edənlərin ona ibadət edəcəyindən ümidini kəsdi”.***[1]

İbn Kəsir (Allah ona rəhmət etsin) bu hədisin mənasının, quranda bir ayənin mənasına uyğun olduğuna işarə etmişdir. Həqiqətən də hədisin mənası budur ki, şeytan, müsəlmanları dinlərindən küfrə döndərməkdən ümidini kəsdi, amma hədis, şeytanın Ərəbistan yarımadasında şirkin yaranmasından həmişəlik ümidini kəsdiyinə dəlalət etmir. Və bəlkə də bunu aydınlaşdıran şeylərdən biri də, Peyğəmbərin ﷺ ***“ibadət edənlərin”*** sözləridir. Bu söz, ibadət edənlərin hamısını əhatə edir və bilindiyi kimi, bu heç vaxt baş verməyəcək və İslamdan sonra tam cahilliyə dönüş olmayacaq.

İmam Əhmədin İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət etdiyi də yuxarıdakılara dəlalət edir: “Allahın Rəsulu ﷺ Məkkəni fəth edəndə, İblis çığırdı, ordusu toplandı və İblis dedi: “Muhəmmədin ümmətini bu gündən sonra *şirkə* qaytarmaqdan ümidinizi kəsin! Lakin onları vəsvəsələrə düçar edin və onların arasına matəm (yas) yayın”[2].

Həmçinin Amr ibn əl-Əhuas əl-Caşiminin (Allah ondan razı olsun) hədisində belə dediyi deyilir: “Eşitdim ki, Peyğəmbər ﷺ vida həccində insanlara dedi: ***“Bu hansı gündür?”*** Onlar dedilər: “Böyük Həcc günüdür”. O buyurdu: ***“Həqiqətən, canınız, malınız və namusunuz sizə haram edilmişdir, necə ki, bu şəhərinizdəki bu gününüz sizə haram edilmişdir. Cinayətkar özü törətdiyi cinayətə görə cavabdehdir, atası da oğlunun cinayətinə görə məsuliyyət daşımır, necə ki, oğul atasının cinayətinə görə məsuliyyət daşımır. Həqiqətən, şeytan bu şəhərdə nə vaxtsa ona ibadət olunacağından ümidini kəsdi, lakin siz kiçik hesab etdiyiniz işlərdə ona itaət edəcəksiniz və o, bundan razı qalacaq”.*** [3]

Bütün bunlardan belə məlum olur ki, hədisdə *şirkin* yaranmasının, Ərəbistan yarımadasında qeyri-mümkün olduğuna dair, heç bir işarə yoxdur,

---

[1] Təfsir əl-Quran əl-Əzım, 3/25.
[2] ət-Təbərani əl-Kəbirdə, 12/12318.
[3] ət-Tirmizi 2159, İbn Macə 3055.

lakin dəlillər göstərir ki, *şirkin*, bütün insanlar tərəfindən, həyata keçirilməsi mümkün deyil, sadəcə insanların bir hissəsi tərəfindən olur.

Allahım, bilərəkdən Sənə şərik qoşmaqdan Sənə sığınırıq və bilmədiklərimizə görə də bağışlanma diləyirik.

## 45. Peyğəmbərimiz ﷺ tövhidə əməl etməyə beyət etdi

Uca Allah buyurur:

يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ إِذَا جَآءَكَ ٱلْمُؤْمِنَٰتُ يُبَايِعْنَكَ عَلَىٰٓ أَن لَّا يُشْرِكْنَ بِٱللَّهِ شَيْـًٔا وَلَا يَسْرِقْنَ وَلَا
يَزْنِينَ وَلَا يَقْتُلْنَ أَوْلَٰدَهُنَّ وَلَا يَأْتِينَ بِبُهْتَٰنٍ يَفْتَرِينَهُۥ بَيْنَ أَيْدِيهِنَّ وَأَرْجُلِهِنَّ وَلَا
يَعْصِينَكَ فِى مَعْرُوفٍ فَبَايِعْهُنَّ وَٱسْتَغْفِرْ لَهُنَّ ٱللَّهَ ۖ إِنَّ ٱللَّهَ غَفُورٌ رَّحِيمٌ

Ey Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqlarına, oğurluq və zina etməyəcəklərinə, uşaqlarını öldürməyəcəklərinə, əlləri ilə ayaqları arasından olanı yalanla ört-basdır etməyəcəklərinə (ərlərindən olmayan uşaqlarını onlara isnad etməyəcəklərinə) və heç bir yaxşı işdə sənə qarşı çıxmayacaqlarına dair sənə beyət etmək üçün yanına gəldikləri zaman, onların beyətini qəbul et və Allahdan onlar üçün bağışlanma dilə. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.[1]

Rəvayət olunur ki, Bədr döyüşündə iştirak edən və Əqəbə gecəsinin böyüklərindən olan Ubadə ibn əs-Samit (Allah ondan razı olsun) belə demişdir: "Bir dəfə Rəsulullahın ﷺ bir qrup səhabəsi onun ətrafına toplaşdıqda, onlara dedi: ***"Mənə and için ki, Allaha heç bir şeyi şərik qoşmayacaqsınız..."*** Ubadə dedi: "Biz ona and içdik".[2]

Hafiz İbnMəndəh (Allah ona rəhmət etsin) iman kitabında fəsillərin birini belə adlandırmışdır: «Peyğəmbərin *"Lə iləhə illəllah"* dəvətini qəbul edənlərin, Allaha heç bir şeyi şərik qoşmayacaqlarına dair beyət etmələrinin dəlilinin qeyd edilməsi».[3]

---

[1] "Mumtəhənə" surəsi 12-ci ayə.
[2] Əl-Buxari 18, Müslim 1709.
[3] Kitab əl-iman, 1/194.

'Auf ibn Malik əl-Əşcai (Allah ondan razı olsun) buyurmuşdur: “Bir dəfə biz doqquz (və ya: ... səkkiz; və ya: ... yeddi) nəfər, Allah Rəsulu ﷺ ilə birlikdə əyləşdiyimiz zaman, o bizə bu sözlərlə üz tutdu: ***"Allahın Rəsuluna ﷺ and içməyəcəksinizmi?"*** Biz isə bu yaxınlarda ona and içdik və buna görə də dedik: “Biz artıq sənə beyət etmişik, ya Rəsulallah!” Sonra o dedi: ***“Allahın Rəsuluna and içməyəcəksinizmi?”*** Biz dedik: “Artıq sənə beyət etmişik, ya Rəsulallah!” Lakin o, yenə soruşdu: ***“Rəsulullaha and içməyəcəksinizmi?”*** O zaman biz əllərimizi ona uzadaraq dedik: “Biz artıq sənə beyət etmişik, ey Allahın Rəsulu ﷺ, başqa nəyə and içək?” Peyğəmbər ﷺ buyurdu: ***“Yalnız Allaha ibadət edəcəyinizə və Ona heç bir şeyi şərik qoşmayacağınıza, beş vaxt namaz qılacağınıza, Allaha tabe olub və itaət edəcəyinizə”,*** – bundan sonra o, pıçıltı ilə əlavə etdi: ***"və həmçinin insanlardan heç bir şey istəməyəcəyinizə!"***, – sonra bu sözləri eşidənlərin bəzilərinin qamçılarını yerə  saldıqlarını gördüm, lakin heç kimdən, qamçını yerdən götürüb onlara verilməsini istəmirdilər".[1]

[1] Muslim 1043.

# 46. Şirk kiçik olsa da, onu Allah bağışlamır

Uca Allah buyurur:

إِنَّ ٱللَّهَ لَا يَغۡفِرُ أَن يُشۡرَكَ بِهِۦ وَيَغۡفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَن يَشَآءُۚ وَمَن يُشۡرِكۡ بِٱللَّهِ فَقَدِ ٱفۡتَرَىٰٓ إِثۡمًا عَظِيمًا

**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa (günahları) isə dilədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs, iftira atmaqla böyük bir günah etmiş olur.**[1]

Uca Allah buyurur:

إِنَّ ٱللَّهَ لَا يَغۡفِرُ أَن يُشۡرَكَ بِهِۦ وَيَغۡفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَن يَشَآءُۚ وَمَن يُشۡرِكۡ بِٱللَّهِ فَقَدۡ ضَلَّ ضَلَٰلَۢا بَعِيدًا

**Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan (günahları) isə istədiyi kimsəyə bağışlayacaqdır. Allaha şərik qoşan şəxs əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür.**[2]

Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Allah Elçisi ﷺ demişdir: ***«Uca Allah buyurdu: "Mən şərik olmağa möhtac deyiləm. Kim bir əməl edər və əməlində bir kəsi Mənə şərik qoşarsa, onu da, onun şirkini də tərk edərəm"».***[3]

Allahu Təalənın ***"bir əməl"*** kəlməsi şərti kontekstdə qeyri-müəyyən formada zikr edilir və buna görə də istər kiçik, istərsə də böyük hər bir əməli ümumi şəkildə əhatə edir.

---

[1] "ən-Nisa" surəsi, 48-ci ayə.
[2] "ən-Nisa" surəsi, 116-cı ayə.
[3] Muslim 2985.

# 47. Şirki qadağan edən, ona gedən yolları və vasitələri bağlayan bütün ayələr və hədislər, tövhidin vacibliyinə dəlalət edirlər

*Şirkin* haram olmasına dəlalət edən şey, onun ziddi olan — tövhid əmridir, deyildiyi kimi:

*Zidd ona ziddi olanın gözəlliyini göstərir,*

*Və çox şey ziddiyyətda (müqayisədə) tanınır*.[1]

Amr ibn Murra, Abdullah ibn əl-Haris ən-Nəcranidən rəvayət edir ki, o demişdir: "Cundub (Allah ondan razı olsun) mənə Peyğəmbərin ﷺ ölümündən beş gün əvvəl belə dediyini söylədi: ***«Həqiqətən, mən sizin aranızdan bir xəlilimin*** [ən yaxın, seçilmiş, sevimli dostum] ***olmasından Allah qarşısında imtina edirəm, çünki, həqiqətən, Allah İbrahimi Özünə xəlil etdiyi kimi, məni də Özünə xəlili etdi. Və əgər ümmətimdən bir xəlil seçə bilsəydim, Əbu Bəkri özümə xəlil seçərdim. Həqiqətən, sizdən əvvəlkilər, öz peyğəmbərlərinin qəbirlərini ibadətgahlara çevirdilər, lakin siz qəbirləri məscidə çevirməyin, çünki mən sizə bunu qadağan edirəm»***[2].

Həmçinin, xeyirxah Peyğəmbər ﷺ can verərkən, üzünə bir parça çəkdi. Və bu ona əziyyət verməyə başlayanda onu götürüb dedi: ***"Mənim qəbrimi, daim məclis yerinə ('id) çevirməyin və evlərinizi qəbirə çevirməyin. Peyğəmbərlərinin qəbirlərini ibadət yerinə çevirən, yəhudilərə Allah lənət etdi!***

---

[1] Şərh əl-Əkbəridən bir şeir parçası (1/22).
[2] Muslim 532.

***Mənə salavat deyin, çünkü harada olursunuzsa olun, salavatınız mənə çatacaqdır. Siz və Əndəlüsda olan — birsiz”***. [1]

Həmçinin qəbirlərin ibadət yeri kimi götürülməməsi ilə bağlı çəkindirmələrə işarə edən hədislərdən biri də — Peyğəmbərdən ﷺ belə nəql olunur: ***“Evlərinizi qəbirlərə çevirməyin və mənim qəbrimi ziyarət etməyi ‘id (insanların mütəmadi olaraq geri qayıtdıqları yer) etməyin, və mənə salavat deyin, çünki harda olursunuzsa olun, salavatınız mənə çatacaqdır”.*** [2]

Xeyirxah səhabələr (Allah onlardan razı olsun) bu məsələdə — şirkə aparan yolları bağlamaq məsələsində, itaət etdilər. Süheyl ibn Əbu Suheyldən rəvayət olunur ki, o belə demişdir: “Məni Peyğəmbərin ﷺ qəbrinin yanında görən, Həsən ibn əl-Həsən ibn Əli ibn Əbu Talib (Allah ondan razı olsun) mənə müraciət etdi, o isə Fatimənin evində şam yeməyi yeyirdi: "Gəl şam yeməyi edək." Mən isə “Mən istəmirəm” dedim. O dedi: "Mən səni niyə qəbrin yanında görürəm?" Mən cavab verdim: “Peyğəmbərə ﷺ salam verirdim”. O dedi: “Məscidə girən zaman ona salam ver”, daha sonra isə dedi: «Həqiqətən, Allah Rəsulu ﷺ buyurmuşdur***: “Mənim qəbrimi ziyarət etməyi 'id (insanların mütəmadi olaraq qayıtdıqları yer) etməyin və evlərinizi qəbirlərə çevirməyin. Peyğəmbərlərinin qəbirlərini ibadət yerinə çevirən, yəhudilərə Allah lənət etdi! Və mənə salavat deyin, çünkü harada olursunuzsa olun, salavatınız mənə çatacaqdır. Sizlər və həmçinin Əndəlüsda olan da —eynisiniz”».***

Əli ibn əl-Hüseyndən (Allah ona rəhmət etsin) rəvayət olunur ki, o, Peyğəmbərin ﷺ qəbrinin yaxınlığındakı, çuxura yaxınlaşan, bir adamı gördü, hansı ki, onun içinə girib, orada dua edirdi. Əli ibn əl-Hüseyn onu yanına çağırıb dedi: “Sənə atamdan eşitdiyimi xəbər verimmi ki, babam (Əli ibn Əbu Talib) Rəsulullahın ﷺ belə dediyini eşitdi: ***“Mənim qəbrimi ziyarət etməyi 'id (insanların mütəmadi olaraq qayıtdıqları yer) etməyin və evlərinizi qəbirlərə***

---

[1] Əbu Yəla Müsnəddə 1/361-362, Əbu Davud 2042.
[2] Əbu Davud 2042.

*çevirməyin. Şübhəsiz ki, harada olursanız olun, sizin salamınız mənə çatacaqdır”*. [1]

Hafiz İbn Əbdülhədi (Allah ona rəhmət etsin), yuxarıda qeyd olunan Əli və Həsənin hədisi haqqında, belə demişdir: "Baxın! Bu, Mədinə əhlindən, Peyğəmbərin ﷺ əhlindən gələn, Əli ibn Əbu Talibdən (Allah ondan razı olsun) və onun oğlu Həsəndən (Allah ondan razı olsun) və onun oğlunun iki oğlundan — Əli ibn əl-Hüseyn Zeyn əl-Abidindən və zamanında şeyx Bənu Haşim əl-Həsən ibn əl-Həsəndən nəql edilmiş sünnədir, hansı ki, qohumluq baxımından Peyğəmbərə ﷺ ən yaxın olanlar və evlərinə görə də ona ən yaxın olanlar idi".[2]

Hafiz İbn Əbdülhədi nəzərdə tuturdu ki, bunlar qohumluq əlaqələri və evlərinin yaxınlığına görə, qəlbləri Allah Rəsulunu ﷺ ən çox sevən insanlar idilər, və onlar Peyğəmbərin ﷺ yoluna zidd olan, başqalarının etdiklərini etmirdilər. Əksinə, onlar, bunu Peyğəmbərə ﷺ münasibətdə, hədsizlik hesab edirdilər və bunun xeyir əməl olmadığını düşünürdülər. Halbuki Peyğəmbərə ﷺ qarşı məhəbbətə dəlalət edən şey, Uca Allahın buyurduğu kimi, ona tabe olmaqdır:

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ ٱللَّهَ فَٱتَّبِعُونِى يُحْبِبْكُمُ ٱللَّهُ

**De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin”.**[3]

Böyük alim, Təqiyuddin əl-Hilali əl-Hüseyni (Allah ona rəhmət etsin) demişdir: “Peyğəmbərin evinin sakinlərinə baxın (Allah onlardan razı olsun), babalarına (Allahın ona salavat və salamı olsun) riayət edərək, tövhid sərhədlərini necə qorudular".[4]

Ən-Nəvəvi (Allah ona rəhmət etsin) demişdir: “Onun (sallallahu aleyhi va səlləm) qəbrinin ətrafında dolanmaq caiz deyil", — və başqa şeyləri qeyd etdi və sonra dedi: “Və nəzərə almırlar ki, bir çox insan kütləsi, bununla ziddiyyət təşkil edir və bunu edir”.

---

[1] Kitab əl-Qədə, İbn Teymiyyə, 2/661-663.
[2] “Əs-Sarim əl-mənki fi ər-rəddi ‘ala əs-Subki” İbn ‘Abdulhadi, səh. 322.
[3] “Ali-İmran” surəsi, 31-ci ayə.
[4] Əl-qədi əl-ədl fi hökm əl-bin'ala əl-kubur" əl-Hilali, səh. 46.

Tabeçilik və əməllər hədis və alimlərin sözlərinə əsaslanır, ümumi xalq kütlələrinin və başqalarının bidət və cahilliyinə əsaslanmır. İki "Səhihdə" Aişədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Rəsulullah ﷺ belə buyurdu: "***Kim bizim əməlimizə uyğun olmayan bir yenilik gətirərsə, o şey rədd olunar***".[1]

Muslimin *rəvayətində*: ***"Kim bizim əməlimizə uyğun olmayan əməli edərsə o şey rədd olunar"***.[2] Həmçinin Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: ***"Mənim qəbrimi ziyarət etməyi 'id (insanların mütəmadi olaraq qayıtdıqları yer) etməyin və mənə salavat deyin, çünki sizin salavatınız harda olsanız mənə çatar".*** Əbu Davud səhih *isnadla* rəvayət etmişdir.

Əl-Fudeyl ibn İyad (Allah ona rəhmət etsin) hədisin mənasını belə demişdir: düz yolla get və orada gedənlərin azlığı sənə heç bir zərər yetirə bilməz, azğınlıq yolundan çəkin və azmışların çoxluğuna aldanma.[3] Və o kəs ki, *bərəkət* (lütf) əldə etmək üçün qəbrə əli ilə toxunmaq və ya buna bənzər bir şey ağlına gəlirsə, bu, onun cahilliyi və səhlənkarlığındandır, çünki *bərəkət* şəriətə uyğun olan şeydir və həqiqətə zidd olan bir şeyə görə necə xeyir gözləmək olar?!"[4]

Burada şeytanın Adəm övladlarını tədricən necə *şirkə* saldığını izah edərkən İbn əl-Qeyyimin (Allah ona rəhmət etsin) sözlərini qeyd etməliyik: "Şeytan qəbirlərə ibadət edənləri təhrik etməkdən əl çəkmir və ***qəbirlər üzərindəki tikinti və onların yanında etikafın***[5] peyğəmbərlərdən və salehlərdən olan qəbir əhlinə məhəbbətin göstəricisi olduğunu və qəbirlərin yanında edilən duaların qəbul olunacağını onlara təhrik edir.

Sonra onları bu mərhələdən ***onların vasitəsilə dua etməyə*** və onlarla yanaşı Allaha and içməyə aparır. Həqiqətən, Allahın dərəcəsi — Ona məxluqlarından biri ilə and verilməkdən ya da adları naminə istənilməsindən — yüksəkdir.

---

[1] Muslim 1718.
[2] Muslim 1718.
[3] "Əl-i'tisam" əş-Şatibi, 1/135.
[4] Əl-məcmu'şərhul-məzhəb, 8/206-207.
[5] E'tikaf (ərəb. اعتكاف — qalmaq, tənhalıq) — məsciddə təqvalı tənhalıq.

Əgər onlar, bu işdə sabit qalsalar, şeytan onları daha da irəli aparacaq ki, — ***onlar məxluqlara dua edib, onlara ibadət etsinlər***, Allahdan qeyrisindən şəfaət diləsinlər, qəbirlərini ibadətgah olaraq seçsinlər, üzərlərinə çıraqlar və parçalar asaraq, onların ətrafında dolansınlar, onlara məsh çəksinlər, öpsünlər, onların ətrafında həcc etsinlər və qurban kəssinlər.

Əgər onlar, bunun üzərində sabit qalsalar, şeytan bunu, onların dünya və axirət həyatları üçün, daha faydalı olduğunu düşündürərək***, insanları qəbirlərə ibadət etməyə çağırmağa, onları daim ziyarət etməyə və onları dini ayinlər yerinə çevirməyə sövq edəcək.***

İslam dinində məlumdur ki, bütün bunlar Allahın Öz rəsuluna göndərdiyi ilə ziddiyyət təşkil edir — haqq isə, *tövhidi* tamamilə Allaha həsr etmək və Allahdan başqasına ibadət etməməkdir. İnsanlar qəbirlərə ibadət etməyi qəbul etdikdən sonra, şeytan onları elə bir fikrə salacaq ki, guya ***bunu etməyi qadağan edən insanlar — "hörmətli" insanların dərəcəsini alçaldırlar, onları gözdən salırlar*** və onların toxunulmazlığının və hörmətinin olmadığını iddia edənlərdirlər". Müşriklər qəzəblənir, qəlbləri nifrət edir, necə ki, Uca Allah buyurur:

وَإِذَا ذُكِرَ ٱللَّهُ وَحۡدَهُ ٱشۡمَأَزَّتۡ قُلُوبُ ٱلَّذِينَ لَا يُؤۡمِنُونَ بِٱلۡأٓخِرَةِۖ وَإِذَا ذُكِرَ ٱلَّذِينَ مِن دُونِهِۦٓ إِذَا هُمۡ يَسۡتَبۡشِرُونَ

**Allah tək olaraq xatırlandığı zaman, Axirətə inanmayanların qəlbini nifrət bürüyür. Ondan qeyriləri yad edildiyi zaman isə onlar sevinirlər.**[1]

Bu, bir çox cahillərin, sadə insanların və özlərini elmə, dinə aid edənlərin, qəlbində gizlənir, tövhid tərəfdarları ilə düşmənçilik edib, onları ağır hərəkətlərdə ittiham edirlər, insanları onlardan uzaqlaşdırırlar və şirk tərəfdarları ilə dostluq edirlər və onları ucaldırlar. Onlar elə zənn edirdilər ki, Allaha yaxındırlar və Onun dininin və Rəsulununköməkçiləridirlər. Lakin Allah bunu inkar edərək belə buyurur:

وَمَا لَهُمۡ أَلَّا يُعَذِّبَهُمُ ٱللَّهُ وَهُمۡ يَصُدُّونَ عَنِ ٱلۡمَسۡجِدِ ٱلۡحَرَامِ وَمَا كَانُوٓاْ أَوۡلِيَآءَهُۥٓۚ إِنۡ أَوۡلِيَآؤُهُۥٓ إِلَّا ٱلۡمُتَّقُونَ وَلَٰكِنَّ أَكۡثَرَهُمۡ لَا يَعۡلَمُونَ

---

[1] "əz-Zumər" surəsi 45-ci ayə.

**Onlar Məscidi-haramın sahibləri olmadıqları halda (Peyğəmbərin və möminlərin ora daxil olmalarına) mane olduqlarına görə, Allah onlara nə üçün əzab verməsin?! Onun sahibləri yalnız Allahdan qorxanlardır. Lakin onların çoxu bunu bilmir.**[1]

[İbn əl-Qeyyimin sözlərinin sonu][2].

Peyğəmbərin ﷺ *şirkə* gedən yolları bağladığına dair dəlillərdən — əl-Muğirə ibn Şub və Aişədən (Allah onlardan razı olsun) və başqalarından nəql olunur: «Rəsulullahın ﷺ kiçik oğlu İbrahimin vəfat etdiyi gün günəş tutulması baş verdi və insanlar: "Tutulma, İbrahimin vəfatına görə baş verdi" deməyə başladılar. (Bunu eşidən) Allah Rəsulu ﷺ buyurdu: ***"Həqiqətən, Günəş və Ay tutulmaları nə insanlardan birinin ölümünə, nə də həyatına görə baş vermirlər, əgər bunu görsəniz, namaz qılın və Allaha dua edin"».***[3]

Həmçinin, möminlərin xəlifəsi, Ömər ibn Xəttabın (Allah ondan razı olsun) belə dediyi nəql olunur: "İslamda, *cahillikdən* xəbərləri olmayan insanlar böyüdükcə, İslamın təməlləri bir-bir çökəcək".[4]

Allah rəhmət eləsin böyük alim Süleyman ibn Abdullah ibn Muhəmməd ibn Əbdülvəhhaba hansı ki, demişdir: "*Şirki* bilməyən — *tövhidi* bilməz — və həmçinin də əksinə".[5]

---

[1] "əl-Ənfal" surəsi 34-cü ayə.
[2] Fəth əl-Məcid, səh. 251–252.
[3] Əl-Buxari 1043.
[4] Bax "Dar-ət-tə'arud" 5/259, "Məfatih dar əs-sə'dat" 2/289.
[5] Təysir əl-Əziz əl-Həmid, 1/300.

## 48. Bir quşun, tövhidin qeydinə qalması, tövhidin vacibliyinə və onun qayğısını çəkməyin vacibliyinə dəlalət edir

Və Hüdhüd quşu, Süleyman əleyhissalamın zamanında, Allahdan qeyrisinə ibadət edən Səba əhlini görüb, fikir çəkdi.

Uca Allah buyurur:

وَتَفَقَّدَ ٱلطَّيْرَ فَقَالَ مَالِيَ لَآ أَرَى ٱلْهُدْهُدَ أَمْ كَانَ مِنَ ٱلْغَآئِبِينَ ﴿٢٠﴾ لَأُعَذِّبَنَّهُۥ عَذَابًا شَدِيدًا
أَوْ لَأَاْذْبَحَنَّهُۥٓ أَوْ لَيَأْتِيَنِّى بِسُلْطَٰنٍ مُّبِينٍ ﴿٢١﴾ فَمَكَثَ غَيْرَ بَعِيدٍ فَقَالَ أَحَطتُ بِمَا لَمْ تُحِطْ
بِهِۦ وَجِئْتُكَ مِن سَبَإٍۭ بِنَبَإٍ يَقِينٍ ﴿٢٢﴾ إِنِّى وَجَدتُّ ٱمْرَأَةً تَمْلِكُهُمْ وَأُوتِيَتْ مِن كُلِّ شَىْءٍ وَلَهَا
عَرْشٌ عَظِيمٌ ﴿٢٣﴾ وَجَدتُّهَا وَقَوْمَهَا يَسْجُدُونَ لِلشَّمْسِ مِن دُونِ ٱللَّهِ وَزَيَّنَ لَهُمُ ٱلشَّيْطَٰنُ
أَعْمَٰلَهُمْ فَصَدَّهُمْ عَنِ ٱلسَّبِيلِ فَهُمْ لَا يَهْتَدُونَ ﴿٢٤﴾ أَلَّا يَسْجُدُوا۟ لِلَّهِ ٱلَّذِى يُخْرِجُ ٱلْخَبْءَ
فِى ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ وَيَعْلَمُ مَا تُخْفُونَ وَمَا تُعْلِنُونَ ﴿٢٥﴾ ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ رَبُّ ٱلْعَرْشِ
ٱلْعَظِيمِ ۩ ﴿٢٦﴾

(Süleyman) quşları nəzərdən keçirib dedi: “Hüdhüdü nə üçün görmürəm? Yoxsa o burada yoxdur? O, ya mənə aşkar bir dəlil gətirməlidir, ya da mən ona şiddətli bir əzab verməliyəm və yaxud da, tutub boğazını üzməliyəm”. Çox keçmədən (hüdhüd) gəlib dedi: “Mən, sənin bilmədiyin bir şeyi öyrəndim. Sənə, Səbadan doğru bir xəbər gətirmişəm. Mən onlara padşahlıq edən, özünə hər şey verilmiş və çox böyük bir taxtı olan bir qadın gördüm. Mən onun və tayfasının, Allahı qoyub, günəşə səcdə etdiklərinin şahidi oldum. Şeytan onların əməllərini, özlərinə gözəl göstərmiş və onları (haqq) yoldan çıxartdığına görə, haqqın yolunu tapa bilmirlər. (Şeytan ona görə belə etmişdir) ki, göylərdə və yerdə gizli olanı aşkara çıxardan, sizin gizlətdiklərinizi

**də, üzə çıxartdıqlarınızı da Bilən Allaha səcdə etməsinlər. Böyük Ərşin Rəbbi olan Allahdan başqa ilah yoxdur.**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: «Və Hüdhüd xeyirə, yəni Tək Allaha ibadət etməyə və Ona səcdə etməyə çağıranlardan olduğu üçün onu öldürmək qadağan edildi [2]»[3].

Şeyx Əbdürrəhman ibn Həsən Əli əş-Şeyx (Allah ona rəhmət etsin) demişdir: «Hüdhüd Süleymana (əleyhissalam) onların əməllərindən gördüklərini söylədi — bunlar isə Allaha edilməyən səcdələr idilər. Səcdə — ibadət növlərindən biridir, ah, əgər insanların çoxu, şirk haqqında Hüdhüdün bildiyini bilsəydilər, şirki pisləyib, ixlası tanıyar və ona əməl edərdilər. Öz Elmi, Hikməti və Ədaləti ilə istədiyi məxluqların qəlbinə tövhidi bəxş edən, onlardan istədiyini də azdıran, Allah Pak və Müqəddəsdir».[4]

Səhl ibn Abdullah ət-Tüstüri (Allah ona rəhmət etsin) doğru deyirdi: “Siz hədislərdə gələn sünnəyə əməl etməlisiz. Həqiqətən, mən qorxuram ki, bir vaxt gələcək ki, bir insan Peyğəmbəri ﷺ və ona hər vəziyyətdə tabe olmağı xatırladacaq, ancaq onu qınayıb ondan qaçacaqlar, ondan üz döndərib, onu alçaldacaqlar”.[5]

Süleyman ibn Əbdülvəhhab (Allah ona rəhmət etsin) Səhl hədisi haqqında belə demişdir: “Allah Səhlə rəhmət etsin və onun uzaqgörənliyi nə qədər doğrudur. Bu, və bundan da artığı, artıq baş verib — və bu, tövhidi təmizləyib, ona tabe olanların, ibadəti Allah rizası üçün pak etməyi, Ondan başqa hər şeyə ibadəti tərk etməyi əmr edənlərin və Rəsulullaha ﷺ itaət etməyi, həm kiçik həm də böyük işlərdə ona müraciət etməyi əmr edənlərin küfrdə ittihamıdır”.[6]

---

[1] "ən-Nəml" surəsi 20-26-cı ayələr.

[2] Hədis nəyə dəlalət edir: “Allahın Rəsulu ﷺ hörümçək quşunu (sərçə fəsiləsindən bir quş), qurbağanı, qarışqanı və hüdhüdün öldürülməsini qadağan etmişdir”. Əhməd 1/332, İbn Macə 3224.

[3] Təfsir əl-Quran əl-Əzım, 2/188.

[4] Əd-durar əs-səniyyə, 2/277.

[5] Əl-Cami'li-əhkam əl-Quran, əl-Qurtubi, 7/124.

[6] Təysir əl-Əziz əl-Həmid, 1/157.

# 49. Mövcud olan hər şey, Uca Allahı təkləşdirir, şəriki olmayan Tək olan Allahı təsbih edir

Uca Allah buyurur:

تُسَبِّحُ لَهُ ٱلسَّمَٰوَٰتُ ٱلسَّبۡعُ وَٱلۡأَرۡضُ وَمَن فِيهِنَّۚ وَإِن مِّن شَيۡءٍ إِلَّا يُسَبِّحُ بِحَمۡدِهِۦ وَلَٰكِن
لَّا تَفۡقَهُونَ تَسۡبِيحَهُمۡۚ إِنَّهُۥ كَانَ حَلِيمًا غَفُورًا

**Yeddi göy, yer və onlarda olanlar, Ona tәriflәr deyir. Elә bir şey yoxdur ki, hәmd ilә Ona tәrif demәsin, lakin siz onların tәrifini anlamazsınız. Hәqiqәtәn, O, Hәlimdir, Bağışlayandır.**[1]

Mücahid (Allah ona rəhmət etsin) demişdir: “Hər bir şey, istər diri, istər ölü, istərsə də cansız, Allahı tərif edər və onların həmdləri belədir: “Allah Pak və Müqəddəsdir, Allaha həmd olsun!”[2]

Əl-Əzhəri (Allah ona rəhmət etsin) “Tərif etmək” kəlməsinin mənası haqqında belə demişdir: “Onun ümumi mənası budur ki, Allahu Təalə Özünə bənzər, Onun əksi və ya bərabərində olan şərikdən uzaqdır”.[3]

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: “Onu *təsbih* etmək əmri, Onu bütün nöqsanlardan və bütün pisliklərdən və nöqsanlardan təmizləmək və Onun həmd edilən tərifəlayiq sifətlərini təsdiq etməkdən ibarətdir. Bu isə Onu paklaşdırmağı, həmd-sənasını, ucalığını və təkliyini tələb edir".[4]

Uca Allah buyurur:

وَلَقَدۡ ءَاتَيۡنَا دَاوُۥدَ مِنَّا فَضۡلٗاۖ يَٰجِبَالُ أَوِّبِي مَعَهُۥ وَٱلطَّيۡرَۖ وَأَلَنَّا لَهُ ٱلۡحَدِيدَ

---

[1] "əl-İsra" surəsi 44-cü ayə.
[2] “Məalim ət-tənzil”, 2/685.
[3] “Təhhib əl-luğə”, 3/449.
[4] Daqaik ət-təfsir, 5/95.

**Biz Davuda Özümüzdən bir lütf bəxş etdik (və buyurduq:) “Ey dağlar və quşlar! Onunla birlikdə (Allahın şəninə) təriflər deyin!” Biz dəmiri onun üçün yumşaltdıq.**[1]

Uca Allah həmçinin buyurur:

ٱصْبِرْ عَلَىٰ مَا يَقُولُونَ وَٱذْكُرْ عَبْدَنَا دَاوُۥدَ ذَا ٱلْأَيْدِ ۖ إِنَّهُۥٓ أَوَّابٌ ﴿١٧﴾ إِنَّا سَخَّرْنَا ٱلْجِبَالَ مَعَهُۥ
يُسَبِّحْنَ بِٱلْعَشِىِّ وَٱلْإِشْرَاقِ ﴿١٨﴾ وَٱلطَّيْرَ مَحْشُورَةً ۖ كُلٌّ لَّهُۥٓ أَوَّابٌ ﴿١٩﴾

**Onların dediklərinə səbr et və qüdrətli qulumuz Davudu yadına sal! O, daim (Allaha) üz tutardı. Biz, dağları ona ram etmişdik. Onlar axşam çağı və səhər onunla birlikdə (Allahın şəninə) təriflər deyirdilər.Biz, quşları da, toplum halda (ona ram etmişdik). Hamısı daima (Allaha) üz tutardılar.**[2]

Rəvayət edilir ki, Abdullah ibn Məsud (Allah ondan razı olsun) belə demişdir: “Biz möcüzələri (Allahın qüdrət nişanələrini) lütf (*bərəkət*) hesab edirdik, siz isə möcüzələri, insanları qorxutmaq üçün səbəb hesab edirdiniz. Bir dəfə biz Allah Rəsulu ﷺ ilə yolda olarkən, (özümüzə götürdüyümüz) su azaldı, və peyğəmbər ﷺ buyurdu: ***“Yerdə qalmış bütün suları gətirin”***, və ona içində az miqdarda su olan bir qab gətirdilər. Bundan sonra peyğəmbər ﷺ əlini bu qabın içinə salıb dedi: ***“Mübarək suya tələsin, lütf isə Allahdandır!”*** — və mən Allah Rəsulunun ﷺ barmaqlarının arasından suyun qaynayıb, çıxdığını gördüm. Və biz dəfələrlə Peyğəmbərin ﷺ yediyi yeməyin, Allahı tərif etdiyini eşitmişik”. [3]

Rəvayət edilir ki, Əbu Hureyrə (Allah ondan razı olsun) demişdir: «Mən, Allah Rəsulunun ﷺ belə dediyini eşitdim: ***“(Bir dəfə), peyğəmbərlərdən birini, qarışqa dişlədi və o, qarışqa yuvasını yandırmağı əmr etdi və Allah ona belə vəhy etdi: “Səni qarışqa dişlədi deyə, Allahın şəninə təriflər deyən, bir ümməti yandırdınmı?”»*** [4]

---

[1] "Səba" surəsi, 10-cu ayə.
[2] “Sad” surəsi, 17-19-cu ayələr.
[3] Əl-Buxari 3579.
[4] Əl-Buxari 3019, Muslim 2241.

# 50. Pak və Müqəddəs olan Allah, tövhid üzərində olduqlarına görə və Ona qarşı ixlasda etinasızlıq və təkəbbür göstərmədiklərinə görə öz mələklərini tərifləyir

Uca Allah buyurur:

يُنَزِّلُ ٱلۡمَلَٰٓئِكَةَ بِٱلرُّوحِ مِنۡ أَمۡرِهِۦ عَلَىٰ مَن يَشَآءُ مِنۡ عِبَادِهِۦٓ أَنۡ أَنذِرُوٓاْ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّآ أَنَا۠ فَٱتَّقُونِ

(Allah) Öz hökmü ilə, qullarından istədiyi kimsəyə, mələkləri vəhylə göndərib, buyurur: "(Qullarımı) qorxudub, xəbərdar edin ki, Məndən başqa ilah yoxdur. Məndən qorxun![1]

Böyük alim, əs-Sidi (Allah ona rəhmət etsin) demişdir: "Allah, mələkləri vəhy ilə göndərir və onun sayəsində məxluqların qəlbləri, əsl həyata başlayırlar. Allah, onu ancaq, peyğəmbərlik yükünü daşımağa layiq olan və onun öhdəsindən gələ bilən, qullara nazil etmişdir. Bütün peyğəmbərlərin, dəvətinin mahiyyəti və əsası, Uca Allahı tanımaq və Onun əzəmətli sifətləri ilə Onu təkləşdirməkdir. O sifətlər ki, yalnız Onu ilahiləşdirməyi və şəriki olmayan, tək Ona ibadət etməyin vacibliyinə şəhadət edir. Bununla O, Kitabı nazil etdi və elçilər göndərdi. Bütün şəriətlər, buna dəvət edib, təşviq edib, və ona qarşı mübarizə aparanlara qarşı, mübarizə aparıblar".[2]

Həmçinin Uca Allah buyurur:

إِنَّ ٱلَّذِينَ عِندَ رَبِّكَ لَا يَسۡتَكۡبِرُونَ عَنۡ عِبَادَتِهِۦ وَيُسَبِّحُونَهُۥ وَلَهُۥ يَسۡجُدُونَ۩

[1] "ən-Nəhl" surəsi, 2-ci ayə.

[2] Təysir əl-Kərim ər-Rəhman, səh. 435 bəzi dəyişikliklərlə.

**Rəbbinin dərgahında olan (mələklər), Ona ibadət etməkdə təkəbbürlük göstərmir, Onu təriflәyir və yalnız Ona səcdə edirlər.**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: “Allah burada, onları ibadət və itaətdə nümunə kimi qeyd etmişdir. Ona görə də, bu ayəni oxuyarkən səcdə etmək vacibdir, çünki Allah onların səcdə etmələrini qeyd etmişdir”.[2]

Və şübhə yoxdur ki, möhtərəm mələklər, Allahın ən böyük şəhadətində, şahidlik verməklə şərəfləndirdiyi kəslərdəndirlər, necə ki, Uca Allahın kəlamında deyilir:

شَهِدَ ٱللَّهُ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا هُوَ وَٱلۡمَلَٰٓئِكَةُ وَأُوْلُواْ ٱلۡعِلۡمِ قَآئِمَۢا بِٱلۡقِسۡطِۚ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡعَزِيزُ ٱلۡحَكِيمُ

**Allah, Özündən başqa tanrının olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də (şahidlik etdilər). (Allah əbədi olaraq) ədalətli olmaqdadır. Ondan başqa ilah yoxdur, Qüdrətlidir, Müdrikdir.**[3]

---

[1] əl-Əraf surəsi, 206-cı ayə.
[2] Təfsir əl-Quran əl-Əzım, 3/539.
[3] “Ali-İmran” surəsi, 18-ci ayə.

# 51. Allah, tövhid tərəfdarlarına, dünya həyatında qələbə və yardım, əzəmət və izzət, düz yola hidayət, asan olana tərəf yüngülləşdirmə, vəziyyətlərin islahı, sözdə və əməldə xeyirə yönəltməyi təmin etmişdir[1]

Uca Allah buyurur:

وَٱلَّذِينَ جَٰهَدُواْ فِينَا لَنَهۡدِيَنَّهُمۡ سُبُلَنَاۚ وَإِنَّ ٱللَّهَ لَمَعَ ٱلۡمُحۡسِنِينَ

**Uğrumuzda cihad edənləri mütləq Öz yolumuza yönəldəcəyik. Şübhəsiz ki, Allah xeyirxah əməl sahibləriləndir.**[2]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) demişdir: “Biz onlara haqqa, düz yola, yəni Allahın dininə çatmaqda, şübhəsiz ki, kömək edəcəyik, – bu isə, Allahın Muhəmməd ﷺ ilə göndərdiyi İslamdır. Və həqiqətən Allah, Öz məxluqlarından yaxşı işlər görən və Peyğəmbərin ﷺ Allahdan gətirdiyinin doğruluğunu, ona kömək və Onun düşmənləri üzərində qələbə verməsini təsdiq edərək, *şirk* tərəfdarları ilə, Onun yolunda vuruşanlarla birlikdə olacaq".[3]

Həmçinin Uca Allah buyurur:

وَعَدَ ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُواْ مِنكُمۡ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ لَيَسۡتَخۡلِفَنَّهُمۡ فِى ٱلۡأَرۡضِ كَمَا

---

[1] Əl-qavl əs-sədid fi məkasid ət-tövhid, səh.25.
[2] "əl-Ənkəbut" surəsi, 69-cu ayə.
[3] “Cami əl-bəyan” 21/15.

ٱسْتَخْلَفَ ٱلَّذِينَ مِن قَبْلِهِمْ وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ ٱلَّذِى ٱرْتَضَىٰ لَهُمْ وَلَيُبَدِّلَنَّهُم مِّنۢ بَعْدِ
خَوْفِهِمْ أَمْنًا ۚ يَعْبُدُونَنِى لَا يُشْرِكُونَ بِى شَيْـًٔا ۚ وَمَن كَفَرَ بَعْدَ ذَٰلِكَ فَأُو۟لَـٰٓئِكَ هُمُ ٱلْفَـٰسِقُونَ

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlki insanları, varislər etdiyi kimi, onları da yer üzünün varisləri edəcək. Allah mütləq, Özünün onlar üçün bəyəndiyi dinini, onlara yaşamağı bəxş edəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər — məhz onlar fasiqlərdir.**[1]

Əs-Sidi (Allah ona rəhmət etsin) demişdir: “Bu, Allahın vədlərindəndir ki, doğruluğu və həqiqəti asanlıqla təsdiq edilə bilər. O iman gətirib, saleh əməllər edən müsəlmanlara vəd etmişdir ki, onlar yer üzünün varisləri olacaqlar və orada hökm edəcəklər. Onlar həmçinin Allahın razı olduğu və bütün dinlərə qalib gələcək olan, İslam dinini də təbliğ edə biləcəklər. Allah müsəlmanları bu dinlə şərəfləndirmiş, onlara qəlbləri və bədənləri ilə bu dinə əməl etmək imkanı vermişdir və bu hal müsəlmanların üstünlüyünə və Allahın onlara qarşı mərhəmətinə dəlalət edir. Möminlər, yalnız Allahın dinini qəbul etmirlər, onlar həm də onu başqa insanlar arasında təbliğ edirlər, kafirlər və başqa dinlərə mənsub olanlar isə, alçaldılmış və məğlub olaraq qalacaqlar. Bununla yanaşı, Allah müsəlmanlara qorxu yaşadıqdan sonra, onlara sülh və əmin-amanlıq verəcəyini vəd etmişdir. Vaxt var idi ki, möminlər İslam dinini açıq-aşkar təbliğ edə bilmirdilər, çünki müsəlmanların sayı, kafirlərdən qat-qat az idi və kafirlər onlara ağrılı əzablar verirdilər. Dünyanın hər yerindən gələn, Allahın düşmənləri birləşərək, müsəlmanlara qarşı çıxdılar. Allah bu əzəmətli vədini, bəndələrinə məhz bu çətin dövrdə nazil etdi. O dövrdə heç kimin ağlına belə gəlməzdi ki, müsəlmanlar yer üzündə hökmranlıq edəcəklər, ölkələr və xalqlar üzərində hökmranlıq edəcəklər, İslam dininin göstərişlərini, açıq şəkildə yerinə yetirəcəklər, əmin-amanlıq və sülh içində yaşayacaqlar, Allaha şərik qoşmadan, Allahdan başqa heç kəsdən qorxmadan ibadət edəcəklər. Lakin müsəlmanların ilk nəsilləri, öz imanlarını və saleh əməllərini tərk etmədilər və düşmənlərinə qalib gəldilər. Və buna görə də, Allah onlara bütün ölkələr və xalqlar üzərində hakimlik bəxş etdi, bunun sayəsində, müsəlmanlar şərqdə və qərbdə torpaqları fəth etdilər, yer üzündə sülh və əmin-amanlıq bərqərar etdilər və Rəbbinin dinini açıq şəkildə həyata keçirə bildilər. Həqiqətən də bu,

[1] "ən-Nur" surəsi, 55-ci ayə.

Allahın möcüzəli nişanələrindən biri idi və indi də belədir. Müsəlmanlar hər dəfə imana və saleh əməllərə üz tutduqları zaman, Allahın vədinin yerinə yetməsinə şahid olurlar. Və qiyamət günü gələnə qədər də belə davam edəcək. Müsəlmanlar öz imanlarına və saleh əməllərinə laqeyd yanaşan kimi, Allah kafir və münafiqlərin onlara qalib gəlməsinə və bir müddət onlara hakim olmasına icazə verər".[1]

Allahu Təalənın tövhidini təcəssüm etdirənlər üçün, təhlükəsizlik və əmin-amanlığa nail olmağın, bu nadir nümunələrindən, məşhur tarixçi, Şeyx Osman ibn Abdullah ibn Bəşər dövlət başçısı-islahatçı Əbdüləziz ibn Muhəmməd Əli Sa' (Allah ona rəhmət etsin) dövrü haqqında yazıb və qeyd edib ki, İmam Əbdüləzizin dövründə, yollar təhlükəsiz olmuşdular. Yəməndən, İtihamədən, Hicazın düzənlərindən, Bəsrədən, Bəhreyndən, Omandan, Şamdan, xarici şəhərlərdən və İraqdan həcci yerinə yetirmək üçün, səyyahlar gəlməyə başladılar, sonra isə heçnədən qorxmadan, öz vətənlərinə qayıdırdılar. Ərəblərin cahiliyyət dövründəki, adət-ənənələri canlandıraraq, yollarda insanlardan vergilər, rüsumlar, hədiyyələr aldıqları kimi, daha onlardan heç kəs heçnə almırdı. Bütün bunlar yox oldu, Allaha həmd olsun, və hətta bəzi işçilər olurdu ki, uzaq şəhərlərdən, onlara hədiyyə və zəkat gələndə, onlar oğrulardan və başqa insanlardan qorxmayaraq, içərisində dirhəmlər olan çantalardan, çadırları üçün bərkidici düzəldirdilər. Heyvandarlıq və meyvə yetişdirilirdi, bütün şəhərlərdə təhlükəsizlik yaradıldı. Ömər ibn Xəttabın (Allah ondan razı olsun) dövründən başqa, Ərəbistan yarımadasında, belə bir şey baş verməmişdir. Şübhə yoxdur ki, bu, Şeyx (Allah ona rəhmət etsin) tərəfindən yayılan saleh sələflərin (*sələf*) əqidələrinin təcəssümünün izlərindəndir.[2]

Burada, böyük alim, Şeyx Muhəmməd Təqiyuddin əl-Hilali əl-Məğribi əl-Hüseyninin (Allah ona rəhmət etsin) saleh hökmdar Məcid ibn Muqid haqqında, dediklərini xatırlatmaq yerinə düşər: "O, bizə öz gözlərimizlə gördüyümüz, təcrübəni öyrətdi – yəni qələbənin *tövhidlə*, məğlubiyyətin isə *şirklə* əlaqəli olduğunu. Biz özümüz də, Allah bizə düz yol bəxş etməmişdən əvvəl, minlərlə at və silahlarımızla tövhid tərəfdarlarına qarşı döyüşməyə hazırlaşırdıq. Onlardan 300-400 nəfər bizə tərəf gəlirdi və biz onların sayının az olduğunu görüb, onların kökünü kəsməyi çox istəyirdik.

---

[1] "Təysir əl-Kərim ər-Rəhman", səh. 573.

[2] Bax "İnvan əl-məcd fi tarixi Necd", 1/268–269.

Lakin onlar uca səslə: “*Lə ilahə illəllah*” (Allahdan başqa ibadətə layiq olan haqq ilah yoxdur) deyib bizə hücum etdikdə, bizim sıralarımız parçalandı, məğlub oldu və biz heç nəyə fikir vermədən qaçırdıq”.[1]

Uca Allah, bu söylədiklərində doğru idi:

وَمَا ٱلنَّصۡرُ إِلَّا مِنۡ عِندِ ٱللَّهِ ٱلۡعَزِيزِ ٱلۡحَكِيمِ

**...kömək ancaq Qüdrətli və Müdrik Allahdandır.**[2]

Uca Allah həmçinin buyurur:

حَتَّىٰٓ إِذَا ٱسۡتَيۡـَٔسَ ٱلرُّسُلُ وَظَنُّوٓاْ أَنَّهُمۡ قَدۡ كُذِبُواْ جَآءَهُمۡ نَصۡرُنَا فَنُجِّيَ مَن نَّشَآءُۖ وَلَا يُرَدُّ بَأۡسُنَا عَنِ ٱلۡقَوۡمِ ٱلۡمُجۡرِمِينَ

**Elçilər (hər dəfə) ümidlərini itirdikdə və özlərinin yalançı hesab edildiklərini güman etdikdə,köməyimiz onlara gəlir və dilədiyimiz kəs də nicat tapırdı. Günahkar tayfadan, əzabımız əsla dəf olunmaz.**[3]

Pak və Müqəddəs olan Allah həmçinin buyurur:

إِنَّا لَنَنصُرُ رُسُلَنَا وَٱلَّذِينَ ءَامَنُواْ فِي ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا وَيَوۡمَ يَقُومُ ٱلۡأَشۡهَٰدُ

**Şübhəsiz ki, Biz Öz elçilərimizə və möminlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət verəcəyi gün yardım edəcəyik.**[4]

Əbu əd-Dərdadan (Allah ondan razı olsun) rəvayət edilir ki, o belə demişdir: “Mənim sevimli dostum, Allahın ona salavatı və salamı olsun, mənə vəsiyyət etdi: ***“Allaha heç bir şeyi şərik qoşma, hətta səni kəssələr və ya yandırsalar belə. Fərz namazı bilərəkdən tərk etmə, çünki namazını qəsdən tərk***

[1] “Əd-də’va ila-Llahi fi əkər müxtəlif”, səh. 234–235.
[2] “Ali-İmran” surəsi, 126-cı ayə.
[3] "Yusuf" surəsi, 110-cu ayə.
[4] “Ğafir” surəsi, 51-ci ayə.

*edən, Allahın himayəsindən çıxmışdır. Şərab içmə, çünki o, bütün pisliklərin açarıdır”.*[1]

[1] İbn Macə 4034, Şeyx əl-Albani hədisi səhih adlandırmışdır.

# 52. Allah tövhid əhlini və möminləri bu dünyanın və axirətdə əbədi həyatın şərindən qoruyar, onlara gözəl həyat və orada əmin-amanlıq və Öz zikri ilə salamatlıq bəxş edər[1]

Uca Allah buyurur:

إِنَّ ٱللَّهَ يُدَٰفِعُ عَنِ ٱلَّذِينَ ءَامَنُوٓا۟ۗ إِنَّ ٱللَّهَ لَا يُحِبُّ كُلَّ خَوَّانٍ كَفُورٍ

**Şübhəsiz ki, Allah iman gətirənləri mühafizə edir. Həqiqətən, Allah heç bir nankor xaini sevmir.**[2]

Bu, Allahu Təalənın, gənc insanı qoruduğuna da aiddir, xəndək sahiblərinin rəvayətində gəldiyi kimi. Bir gənc, padşahın qarşısında dayanaraq ona Allahın tövhidini qəbul etməyi əmr etdi. Padşah isə əmr etdi ki, bu gənci dağdan aşağı atsınlar, gənc isə: “Allahım! Məni onlardan istədiyin kimi qurtar”. Bu zaman dağ silkələndi və ondan başqa hamı düşdü. Sonra padşah onu dənizə atmağı əmr etdi və o dedi: “Allahım! Məni onlardan istədiyin kimi qurtar”. Bu zaman gəmi batdı və onlar boğuldular. Gənc padşahın yanına piyada gəldi ... və hədisin sonuna qədər.[3]

Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) demişdir: «*Sələflərdən* biri qardaşına yazdı: “Daha sonra: Əgər Allah səninlədirsə, kimdən qorxursan? Əgər Allah sənə qarşıdırsa, kimə arxalana bilərsən? Salam olsun sənə"»[4].

---

[1] “Əl-kaul əs-sədid fi məkasid ət-tövhid”, səh. 25.

[2] "əl-Həcc" surəsi 38-ci ayə.

[3] Muslim 3005.

[4] “Məcmu rəsail hafiz İbn Rəcəb” 3/113. "Nurul-iktisad fi mishkati vəsyyati ən-nəbiyyi صلى الله عليه وسلم li-bni 'Abbas".

Şeyxül-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) Uca Allahın **«Bizim elçi göndərdiyimiz, qullarımız haqqında bu Sözümüz əzəldən deyilmişdi»**[1] kəlamı haqqında demişdir: "Hərdən, bəzi insanlar üçün, bu aydın deyil və onlar deyirlər ki: "Peyğəmbərlərdən bəziləri öldürüldü, bəs onlara necə kömək olundu?" Və cavabında belə deyilir: "Əgər ölüm, dinin və onun tərəfdarlarının əzəmətinə görə idisə, bu ölüm, yardımın tamlığındandır. Ölüm, hər halda gələcək və əgər insan ölümü ilə axirətdə səadət tapacaqsa, yardımın həddi budur. Peyğəmbərimizin ﷺ başına gəldiyi kimi – onun səhabələrindən bir dəstə şəhid oldular və ən böyük şərəfə ucaldılar. Sağ qalanlar isə əzəmət və qələbə qazandılar. Səhabələr, kafirlərə dedilər: «***Peyğəmbərimiz bizə buyurdu ki, bizdən kim öldürülərsə, Cənnətə daxil olar, sağ qalan isə sizin ağanız olar***»".[2]

Və əgər o, bu yolda şəhid olarsa, zəfərin tamlığından və yoldaşlarının qələbəsindən olar. Buna həmçinin Muslimin, bir gənc haqqında nəql etdiyi hədis də işarə edir.[3] Bu gənc, rahibin dininə tabe olub, sehrbazın dinini tərk etdikdə, kafirlər dəfələrlə onu öldürmək istəyirdilər, lakin gənc onlara deyir ki, ancaq o halda öləcək ki, əgər padşah desə: "Bu oğlanın Rəbbi olan, Allahın adı ilə" və sonra da ona ox atsa. O öldürüldüyü zaman, bütün xalq ona iman gətirdi və bu onun dininin qələbəsi idi.[4]

---

[1] "əs-Saffat" surəsi 171-ci ayə.
[2] Əl-Buxari 3159.
[3] Muslim 3005.
[4] İxtiyarət Şeyxul-İslam İbn Teymiyyə, Hafiz İbn Əbdülhədi, səh. 70.

## 53. Tövhid, insanı məxluqların əsarətindən, onlara bağlılıqdan, onlardan qorxmaqdan, onlara ümid bəsləməkdən, onlar üçün əməllər etməkdən azad edir — və bu azadlıq, əsl əzəmət və ülvi şərəfdir[1]

Uca Allah buyurur:

وَٱذۡكُرُوٓاْ إِذۡ أَنتُمۡ قَلِيلٞ مُّسۡتَضۡعَفُونَ فِي ٱلۡأَرۡضِ تَخَافُونَ أَن يَتَخَطَّفَكُمُ ٱلنَّاسُ فَـَٔاوَىٰكُمۡ وَأَيَّدَكُم بِنَصۡرِهِۦ وَرَزَقَكُم مِّنَ ٱلطَّيِّبَٰتِ لَعَلَّكُمۡ تَشۡكُرُونَ

Yadınıza salın ki, bir zaman siz az idiniz, yer üzündə zəif sayılırdınız; (kafir) adamların sizi ələ keçirəcəyindən qorxurdunuz. (Allah) sizə sığınacaq verdi, Öz köməyi ilə sizi qüvvətləndirdi və sizə pak ruzilərdən verdi ki, bəlkə şükür edəsiniz.[2]

Qatadə ibn Diəmə əs-Sudusi (Allah ona rəhmət etsin) demişdir: "Bu bölgənin ərəbləri, xalq arasında ən zəlil, həyat səviyyəsi baxımından ən bədbəxt, qarınları ən ac, dərisi ən açıq olan və açıq aşkar azğınlıq içində idilər. Onlar, farsların və romalıların yanına gedib alçaldıcı şəkildə ehtiyaclarını istəyirdilər. Allaha and olsun ki, onların torpaqlarında, onlara paxıllıq edən yox idi. Onların diriləri bədbəxt yaşayırdılar, ölüləri isə cəhənnəmə atılırdı. Başqaları onları məhv edərkən, onlar başqalarını məhv edə bilməzdilər. Allaha and olsun ki, o vaxt yer üzündə yaşayan, elə bir qəbilə yox idi ki, onların vəziyyəti, ərəblərdən daha pis olsun. Allah, İslamı bəxş edənə və onun vasitəsilə, onların ölkədəki mövqelərini möhkəmləndirib, ərazilərini genişləndirənə qədər belə oldu. Onlar, xalqlar arasında padşahlar oldular. Allah, sizin gördüklərinizi, məhz İslam vasitəsilə vermişdir. Allaha verdiyi nemətlərə görə şükür edin, çünkü sizin Rəbbiniz nemət verəndir, şükrü sevəndir və şükür edənlərin ruzisini artırar".[3]

---

[1] "Əl-qavl əs-sədid fi məkasid ət-tövhid" səh 24.
[2] "əl-Ənfal" surəsi, 26-cı ayə.
[3] Təfsir əl-Quran əl-Əzım, 4/40.

Və böyük alim İbn Qeyyim “Nuniyyə” əsərində belə deyərək doğru demişdir:

*Onlar, Kimin üçün yaradıldıqlarının qulluğundan qaçdılar*

*Və ona görə də, nəfslərinin və şeytanın qulu olmaqla imtahana çəkildilər*.[1]

[1] Şərh Nuniyə İbn əl-Qeyyim, 2/466.

## 54. Tövhidə dəvət edən şəxs — elm əsasında Allaha dəvət edən kəsdir

Uca Allah buyurur:

قُلْ هَٰذِهِۦ سَبِيلِيٓ أَدْعُوٓاْ إِلَى ٱللَّهِۚ عَلَىٰ بَصِيرَةٍ أَنَا۠ وَمَنِ ٱتَّبَعَنِيۖ وَسُبْحَٰنَ ٱللَّهِ وَمَآ أَنَا۠ مِنَ ٱلْمُشْرِكِينَ

**De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, (insanları) Allaha tərəf çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm".**[1]

İmam ibn Cərir ət-Təbəri (Allah ona rəhmət etsin) demişdir: "De ki, ey Muhəmməd, bu mənim dəvət etdiyim dəvətimdir. Və mənim getdiyim yol isə, başqa tanrılara və bütlərə deyil, Allahın tövhidinə, Ona ixlaslı ibadət etməyə dəvətdir, həmçinin Ona təslim olmaq və Ona itaətsizliyi tərk etməkdir. Bu mənim yolum və mənim dəvətimdir".[2]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Uca Allah, insanlara və cinlərə göndərilmiş, Öz qulu və elçisinə buyurur ki, insanlara bildirsin ki, bu Allahın yolu, üsulu və sünnəsidir — bu da insanları Tək olan, şəriki olmayan, Allahdan başqa, ibadətə layiq, məbud olmadığına şəhadət etməyə dəvətdir. Və o, Allaha dəvəti anlayış, yəqinlik və dəlil əsasında edirdi. Elçiyə tabe olan hər kəs elm, yəqinlik və şəriət və əqli dəlillər əsasında Allah Rəsulunun çağırdığı şeyə dəvət etməlidir".[3]

---

[1] "Yusuf" surəsi, 108-ci ayə.
[2] Cami əl-bəyan, 13/79.
[3] Təfsir əl-Quran əl-Əzım, 4/422.

## 55. Tövhid — Uca Allahdan qorxmanın səbəbidir

Uca Allah buyurur:

إِنَّمَا يَخْشَى ٱللَّهَ مِنْ عِبَادِهِ ٱلْعُلَمَٰٓؤُاْ ۗ إِنَّ ٱللَّهَ عَزِيزٌ غَفُورٌ

**Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar. Həqiqətən, Allah Qüdrətlidir, Bağışlayandır.**[1]

Əhməd ibn Saleh əl-Əntəqi (Allah ona rəhmət etsin) demişdir: "Allahdan ən çox qorxan, Onu ən yaxşı tanıyandır".[2]

Böyük alim İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: "*Şirk* ədalətsizliyə və pisliyə aparır, ixlas və tövhid isə, tövhid tərəfdarlarını bunlardan uzaqlaşdırır. Ona görə də, hər dəfə qəlbdə tövhid zəiflədikdə, *şirk* isə çoxaldıqda pisliklər də çoxalırlar, bütlərə bağlılıq və onlara məhəbbət artır".[3]

Allahı tanımaq, Onun hökmranlığı (*ər-rububiyyə*), ibadət haqqı (*əl-uluhiyyə*), ad və sifətləri (*əl-əsmai vəs-sifat*) məsələlərində, tövhiddən başqa mümkün deyil. Ona görə də, tərbiyəçi alimlərin (*rabbanilərin*) Allah qorxusundan böyük və çoxlu payı olmuşdur.

---

[1] "Fatir" surəsi, 28-ci ayə.
[2] Bəqyə ət-talib fi tarixi Xələb, 2/850.
[3] Əl-Fəvaid, səh. 117 bəzi dəyişikliklərlə.

## 56. Tövhid — qulun düz yolda möhkəm olmasının əsasıdır

TəkAllahlılıq (*tövhid*) — qulun düz yolda, möhkəm olmasının əsasını təşkil edir, və Uca Allahın təkliyi olmadan, hər hansısa bir yol — mahiyyət etibarilə təhrif olunma və düz yoldan sapmadır.

Uca Allah buyurur:

إِنَّ ٱلَّذِينَ قَالُوا۟ رَبُّنَا ٱللَّهُ ثُمَّ ٱسْتَقَـٰمُوا۟ تَتَنَزَّلُ عَلَيْهِمُ ٱلْمَلَـٰٓئِكَةُ أَلَّا تَخَافُوا۟ وَلَا تَحْزَنُوا۟ وَأَبْشِرُوا۟ بِٱلْجَنَّةِ ٱلَّتِى كُنتُمْ تُوعَدُونَ

**Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutan kəslərə, mələklər nazil olub (deyirlər:) "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!** [1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) demişdir: «**Həqiqətən də: "Rəbbimiz Tək olan, şəriki olmayan Allahdır deyənlərə"**, və onlar başqa tanrılara və Allaha bərabər tutulanlarla əlaqələrinin olmadığını göstərdilər. "**... sonra düz yol tutan kəslərə...**" və Allahın tövhidi ilə *şirki* qarışdırmadılar».[2]

Həmçinin İmam ət-Təbəri (Allah ona rəhmət etsin), Əbu Bəkr əs-Siddiqdən (Allah ondan razı olsun), onun sözlərini rəvayət edir: "Bunlar Allaha heç bir şeyi şərik qoşmayanlardırlar".[3]

Həmçinin, Mücahid və İkrimədən Uca Allahın **"...sonra düz yol tutan"** kəlamı ilə bağlı rəvayət olunur: «Yəni "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) üzərində dayanan».[4]

Uca Allah buyurur:

إِنَّ ٱلَّذِينَ قَالُوا۟ رَبُّنَا ٱللَّهُ ثُمَّ ٱسْتَقَـٰمُوا۟ فَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

---

[1] "Fussilət" surəsi, 30-cu ayə.

[2] Cami əl-Bəyan, 24/114.

[3] Əvvəlki qeyd.

[4] Əvvəlki qeyd, 24/115.

**Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutanlara, heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.[1]**

Həmçinin Pak və Müqəddəs olan Allah buyurur:

وَأَنَّ هَٰذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ ۖ وَلَا تَتَّبِعُوا السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَن سَبِيلِهِ ۚ ذَٰلِكُمْ
وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ

**Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, (o yollar) sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz.[2]**

Böyük alim İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: “Doğru yol – biz onu qısaca qeyd edəcəyik. Həqiqətən də, bunun insanlar tərəfindən izahı da, onun keyfiyyətlərinə və bu məsələ ilə bağlı olanlara uyğun şərhi də fərqlidir. Lakin onun mahiyyəti birdir və bu, Allahın Öz bəndələri üçün razı olduğu, onları Özünə doğru aparan yoludur və ondan başqa, Ona aparan yol yoxdur. Öz elçilərinin dilləri ilə bəyan etdiyi və bəndələrini Ona tərəf aparan yoldan başqa, bütün başqa yollar, Onun bəndələrinə bağlıdır. Bu, Onun ibadətdə Təkliyidir, Onun peyğəmbərini, itaətdə təkləşdirməkdir, Allaha ibadət etməkdə heç kəsi Ona şərik qoşmadan, Onun Rəsuluna itaətdə şərik qoşmadan, yalnız tövhidə və elçiyə tabe olmağı saxlamaqdır.

(Və onun sözlərindən əvvəl:) və “doğru yol” necə təfsir olunsa da, o təfsir bu iki əsasa daxil olur. Onun mahiyyəti budur ki, insan gərək Allahı bütün qəlbi ilə sevsin və bütün səyləri ilə Onu razı salsın. Və insanın qəlbində Allahdan başqa məhəbbətlə canlanan digər yer qalmasın. Onun razı qaldığı şeylərdən başqa, heç bir arzusu olmasın insanın.

Birincisi: Allahdan başqa, ibadətə layiq, məbud olmadığına şəhadət verməklə əldə edilir.

İkincisi: Muhəmmədin — Allahın Rəsulu olduğuna şəhadət verməklə əldə edilir. Bu, doğru yol və haqq dindir. Bu haqqı bilmək və ona uyğun

[1] "əl-Əhqaf" surəsi, 13-cü ayə.
[2] "əl-Ənam" surəsi, 153-cü ayə.

davranmaqdır. Bu, Allahın Öz elçilərinə göndərdiklərini öyrənmək və ona riayət etməkdir.[1]

Süfyan ibn Abdullah əs-Səqafinin (Allah ondan razı olsun) belə dediyi rəvayət olunur: «Bir dəfə peyğəmbərdən ﷺ xahiş etdim: "Ey Allahın Rəsulu, mənə İslam haqqında elə sözlər de ki, (bundan sonra) onun haqqında daha başqa heç kəsdən soruşmayım". O dedi: "De: "Mən Allaha iman gətirdim" və sonra doğru yolda sabit qal"».[2]

Əl-Qadi ʻİyad (Allah ona rəhmət etsin) demişdir: "Yəni, Allahı Təkləşdirin və Ona iman gətirin, sonra bu yol üzərində sabit qalın. Allahın tövhidindən dönməyin, Ona heç bir şeyi şərik qoşmayın, bu yolda ölənə qədər Ona itaət etməyi özünüzə vacib bilin..." [3]

---

[1] Bədai əl-Fəvaid, 2/452-453.
[2] Muslim 38.
[3] İqmal əl-müəllim bi-fəvaid Muslim, 1/275.

## 57. Tövhid tərəfdarları — həqiqətən imanın şirinliyini dadmış şəxslərdirlər

Abbas ibn Abdülmuttalibdən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ belə demişdir: ***"İmanın dadını, Rəbb olaraq Allahdan, din olaraq İslamdan, elçi olaraq Muhəmməddən razı olan kəs hiss edər"***. [1]

Əbul-Abbas əl-Qurtubi (Allah ona rəhmət etsin) demişdir: Bu ifadə, ürəyi rahat olmuş, imanını həyata keçirmiş möminin, tapdığı şeyin göstəricisidir.

Bu isə — onun köksünün açılması, Allahu Təalənın elmi və Rəsulunun elmi ilə nurlanmasıdır, Allahu Təalənın ona İslam nemətini verməsi və insanların ən yaxşısı olan, Muhəmmədin ümmətinin yolu ilə getməyə, hidayət etməsi ilə, ona olan mərhəmətini bilməsidir. Allah ona, imana və möminlərə qarşı sevgi, küfrə və kafirlərə qarşı nifrət bəxş etmişdir, onu onların pis əməllərindən və pis hallarından xilas etmişdir. Və əgər o, bu lütflərə nəzər salıb, təfərrüatları ilə təfəkkür etsə, qəlbi sevinc və səadətdən coşar, şəfəq və nurla dolar və onun üçün bundan daha şirin, heç bir şey olmaz və onun üçün bundan şərəfli məqam olmaz! Uca Allahdan diləyirik ki, başlanğıcda bizə bəxş etdiyi kimi, bu vəziyyətimizdə də bizə davamiyyət və kamillik nəsib etsin".[2]

Möminlər üçün də belədir — onlar imanın şirinliyinin əsl mahiyyətini, onlara lütfü bəxş edənə vəsf etməkdə hiss edirdilər, və onlar başqa heç kəsə şükür etmirlər və Ondan başqa heç bir rəbb istəmirlər.

Xəbər verilir ki, Zeyd ibn Xalid əl-Cuhani (Allah ondan razı olsun) demişdir: «Hüdeybiyyədə, gecə yağan yağışdan sonra, Peyğəmbər ﷺ bizimlə sübh namazını qıldı, namazı bitirdikdən sonra, üzünü camaata çevirib soruşdu: ***"Rəbbinizin nə dediyini bilirsinizmi?"*** Onlar cavab verdilər: "Allah və Rəsulu (bunu) daha yaxşı bilir". Peyğəmbər ﷺ dedi: "Allah buyurdu: ***"Bu səhər qullarımın bir qismi mömin, digər qismi isə kafir oldu. "Yağış bizə Allahın rəhməti və mərhəməti sayəsində endi" – deyən şəxslər, onlar Mənə iman gətirmiş, ulduzları inkar etmişdirlər, "Yagış bizə filan və filan ulduza görə nazil olmuşdur"***

---

[1] Muslim 34.
[2] Əl-Mufham limə üşkilə min talhis Muslim, əl-Qurtubi, 1/210.

*deyənlərə gəldikdə isə, onlar, Mənə küfr etmiş və ulduzlara iman gətirmişdilər”*».
[1]

[1] Əl-Buxari 845, Muslim 71.

# 58. Tövhid imanın ən yüksək təzahürüdür

Tövhid — əzəmətli yer tutan, Allahın uca Kəlamıdır. Onun mövqeyi ucadır və heç bir şey onunla müqayisə edilə bilməz.

Uca Allah buyurur:

وَجَعَلَ كَلِمَةَ ٱلَّذِينَ كَفَرُواْ ٱلسُّفْلَىٰۗ وَكَلِمَةُ ٱللَّهِ هِيَ ٱلْعُلْيَاۗ وَٱللَّهُ عَزِيزٌ حَكِيمٌ

**...Allah kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir.**[1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) ibn Abbasdan (Allah ondan razı olsun) bir isnadla belə demişdir: "**Allah kafirlərin sözünü alçaltdı** – bu, Allaha *şərik* qoşmaqdır; **Allahın sözü ucadır** – bu isə "*Lə iləhə illəllah*" (Allahdan başqa, ibadətə layiq haqq ilah yoxdur)".[2]

Əbu Hureyrənin (Allah ondan razı olsun) sözlərindən rəvayət edilir ki, Allah Rəsulu ﷺ buyurdu: ***"İman yetmişdən çox (yaxud: ... altmış) şöbədən ibarətdir ki, onların ən üstünü "Lə iləhə illəLah" kəlmələrinin deyilməsidir, ən kiçiki isə, insanlara zərər verə biləcək şeyləri aradan qaldırmaqdır, həya da imanın şöbələrindəndir".***[3]

Tövhid — şöbələrin ən üstünüdür, yəni din onun üzərində qurulmuşdur, tövhid onun bünövrəsi və əsasıdır. Təməl üzərində qurulan dindən başqa din yoxdur, necə ki, dayaq-bünövrə üzərində tikilən binalardan başqa bina olmadığı kimi.

Necə ki, deyiblər:

*Dayaq olmadan ev tikilmir,*

*Sütunları yerə köklənmədən, heç bir dayaq da olmur.*[4]

---

[1] "Tövbə" surəsi, 40-cı 40.
[2] Camiul-Bəyan 10/137, Təfsir əl-Quran əl-Əzım  4/155.
[3] Muslim 35, əl-Buxari 9.
[4] İbn Hibban "Ravdul-'uqal", səh. 270.

## 59. Səhabələrin (Allah onlardan razı olsun) etiqad məsələlərində, ixtilaf etməmələri, onun əhəmiyyətinə və ona nə qədər incəliklə yanaşdıqlarına dəlildir

Böyük və Qüdrətli Rəbbimiz, bizə yalnız möminlərin yolu ilə getməyi və onların yolundan dönməməyi əmr etmişdir. Və heç bir şübhə yoxdur ki, Allah Rəsulunun ﷺ səhabələri (Allah onlardan razı olsun) möminlərin başçılarıdırlar.

Uca Allah buyurur:

وَمَن يُشَاقِقِ ٱلرَّسُولَ مِنۢ بَعْدِ مَا تَبَيَّنَ لَهُ ٱلْهُدَىٰ وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ ٱلْمُؤْمِنِينَ نُوَلِّهِۦ مَا تَوَلَّىٰ وَنُصْلِهِۦ جَهَنَّمَ ۖ وَسَآءَتْ مَصِيرًا

**Hər kəs doğru yol ona bəlli olduqdan sonra, Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir.**[1]

Bu bölmədə, digər inandırıcı dəlillər də var, bunlar arasında aşağıdakılardır:

**Birincisi: etiqad məsələlərində, ixtilaflar qəbuledilməzdirlər!**

Əksinə, əqidənin ixtilafına düşmüş şəxs, nifrətə layiqdir. Peyğəmbərdən ﷺ rəvayət olunur ki, o belə buyurdu: ***"Həqiqətən, sizdən əvvəlkilər, suallarının çoxluğu və peyğəmbərləri ilə ixtilafları ilə məhv olmuşdular".***[2]

---

[1] "ən-Nisa" surəsi, 115-ci ayə.
[2] Əl-Buxari 7288, Muslim 1337.

Ziddiyyətlərin ən böyüyü, hər şeyin əsasını təşkil edən, *əqidə* məsələlərindəki ziddiyyətdir və onda olan ziddiyyət əhəmiyyətsiz bir şey deyil.

**İkincisi: əqidə məsələlərində ixtilafların icazəli olması, sünnət əhli ilə bidətçi məzhəblər arasındakı fərqi aradan qaldırır.**

**Üçüncüsü: Allahu Taalənın Kitabında etiqad məsələlərində, ixtilafın icazəli olması fikrinin, əsassız olduğuna çoxlu dəlillər vardır.** Bunlardan Uca Allahın, bu sözləridirlər:

وَٱلسَّٰبِقُونَ ٱلۡأَوَّلُونَ مِنَ ٱلۡمُهَٰجِرِينَ وَٱلۡأَنصَارِ وَٱلَّذِينَ ٱتَّبَعُوهُم بِإِحۡسَٰنٖ رَّضِيَ ٱللَّهُ عَنۡهُمۡ وَرَضُواْ عَنۡهُ وَأَعَدَّ لَهُمۡ جَنَّٰتٖ تَجۡرِي تَحۡتَهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَآ أَبَدٗاۚ ذَٰلِكَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ

**Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. (Allah) onlar üçün (ağacları) altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur.**[1]

Şeyxülislam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Allah Öz rizası üçün, ilk nəsillərə ehsan etməyi şərt etməmiş və eyni zamanda onlara tabe olanlar üçün də bu şərti qoymuşdur".[2]

Uca Allah buyurur:

فَإِنۡ ءَامَنُواْ بِمِثۡلِ مَآ ءَامَنتُم بِهِۦ فَقَدِ ٱهۡتَدَواْۖ وَّإِن تَوَلَّوۡاْ فَإِنَّمَا هُمۡ فِي شِقَاقٖۖ فَسَيَكۡفِيكَهُمُ ٱللَّهُۚ وَهُوَ ٱلسَّمِيعُ ٱلۡعَلِيمُ

**Əgər onlar da, siz iman gətirdiyinizə iman gətirsələr, doğru yola yönəlmiş olarlar. Yox, əgər üz döndərsələr, mütləq ixtilafa düşmüş olarlar. Onlardan (qorunmaq üçün) Allah sənə kifayət edər. O, Eşidəndir, Biləndir!**[3]

---

[1] "Tövbə" surəsi, 100-cü ayə.
[2] Əs-sarimul-məslul, səh. 572.
[3] "əl-Bəqərə" surəsi, 137-ci ayə.

Sübhan olan Allah, onlardan və onların yollarından razı qaldı, rifahı və düz yolu, onların mənhəclərinə sadiq qalmaqla əlaqələndirdi, onların izi ilə getməklə və onların yolu ilə addımlamaqla. Pak və Müqəddəs olan Allah buyurur:

ٱلۡيَوۡمَ أَكۡمَلۡتُ لَكُمۡ دِينَكُمۡ وَأَتۡمَمۡتُ عَلَيۡكُمۡ نِعۡمَتِي وَرَضِيتُ لَكُمُ ٱلۡإِسۡلَٰمَ دِينٗاۚ

**Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim.**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: “Onlar üçün, dinlərini tamamladı və artıq onlar üçün əlavə edilməsinə ehtiyac yoxdur. Allah onu kamil etdi və onda heç bir nöqsana yol vermədi və ondan razıdır və heç vaxt ondan narazı olmaz".[2]

**Dördüncüsü: Rəsulullahın ﷺ sünnəsində gələn, əqidə məsələlərində səhabələr arasında ixtilafın olmamasına dəlalət edən şeylər.**

Hədisdə deyilir ki, Peyğəmbər ﷺ tez-tez başını yuxarı qaldırıb deyərdi: ***«Ulduzlar səmaların mühafizəçiləridir və ulduzlar yox olduqda, səmalara vəd edilənlər baş verəcəkdir. Mən səhabələrimin mühafizəçisiyəm, və mən bu dünyadan getdiyim zaman, mənim səhabələrimə vəd olunan şey baş verəcəkdir. Mənim səhabələrim ümmətimin mühafizəçisidir və onlar bu dünyadan köçdükləri zaman, mənim ümmətim ona vəd edilənə düşəcəkdir».***[3]

Onlar (Allah onlardan razı olsun) — bu ümmətin təhlükəsizliyinin təminatçısıdırlar və onların arasında heç bir bidət, azğınlıq və pozulmuş əqidə yox idi — Allah onları qorudu.

Beşincisi: səhabələrin özlərinin şahidliyi.

İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət olunur ki, xavaricilər ilə Harurda görüşdükləri zaman, Əli İbn əbu Talibə (Allah ondan razı olsun) qarşı çıxmaq istədikləri zaman, İbn Abbasa dedilər: "Səni bizə gətirən nədir?" İbn

[1] "Maidə" surəsi, 3-cü ayə.
[2] Təfsir əl-Quran əl-Əzım, 2/14.
[3] Muslim 2531.

Abbas cavab verdi: «Mən sizə Rəsulullahın ﷺ səhabələrindən gəlmişəm, sizin aranızda isə onlardan heç biri yoxdur! Və həmçinin Allah Rəsulunun ﷺ əmisi oğlundan gəlmişəm. Quran onlara nazil edilmişdir və onlar onun təfsirini daha yaxşı bilirlər...» [1].

Həmçinin, Əbu Əbdürrəhman Abdullah ibn Məsuddan (Allah ondan razı olsun) rəvayət edir ki, o məsciddə xırda daşlar ilə, say tutaraq, camaat ilə birgə, Allahı zikr edən, dairələrin əleyhinə dəlil gətirərək belə rəvayət edir: "Peyğəmbərinizin ﷺ bir çox səhabələri, aranızda olduğu halda, onun (peyğəmbərin ﷺ) paltarı hələ köhnəlməmiş, qab-qacağı qırılmadığı halda, siz necə də tez həlakə meyl etdiniz. Siz, canım əlində Olana and olsun ki, siz ya yolunuz Muhəmmədin ﷺ dinindən daha doğru olan bir dindəsiniz, ya da zəlalət qapılarını açmısınız!"[2]

Bu əsərin rəvayətçisi Amr ibn Sələmə (Allah ona rəhmət etsin) dedi: "Və biz onların əksəriyyətinin Nəhrəvan döyüşü günü xavaricilərin tərəfində, bizə qarşı vuruşduqlarını gördük".[3]

İbn Məsud (Allah ondan razı olsun) onlara dəlil gətirdi ki, Peyğəmbərin ﷺ səhabələri, onlarla birlikdə idilər, lakin buna baxmayaraq onlar, səhabələrdən məlumat soruşmurdular və onlara tərəf qayıtmırdılar, və o həmçinin onlara dəlil olaraq getirdi ki, onlar peyğəmbərlik dövrünə yaxın dövrdə idilər. Peyğəmbərin ﷺ səhabələrinin, onların yanında olmadığına dəlalət edənlərdən, Amr ibn Sələmənin, yuxarıda qeyd etdiyimiz sözləri, həmçinin İbn Abbasın (Allah onlardan razı olsun) sözlərindən zikr edilənlər: "... sizin aranızda isə onlardan heç biri yoxdur."

Buna görə də, İbn Məsud (Allah ondan razı olsun) səhabələrin (Allah onlardan razı olsun) haqqları barəsində belə demişdir: "Hər kim, digər kiməsə tabe olarsa, qoy ölənlərin ardınca getsin, çünki həqiqətən dirilər nifaqdan (*fitnədən*) amanda deyillər. Bunlar, Allaha and olsun ki, bu ümmətin ən yaxşıları və qəlbləri ən təqvalı olan, ən dərin elm sahibləri olan və ən az qəliz sözləri olan, Muhəmmədin ﷺ səhabələridirlər. Allah onları, Öz Peyğəmbərinə səhabə və Onun dinini bərqərar etmək üçün seçdi.

[1] Əl-Həkim 2703, İbn Əbdülbərr "Cami əl-bəyan əl-ilm və fədlih"də 1834, İbn Kəsir "əl-Bidayə və ən-nihay", 7/280-281-də onu etibarlı adlandırmışdır.
[2] Əd-Dərimi 210.
[3] Əd-Dərimi 100.

Onların fəzilətindən xəbərdar olun, addımları ilə gedin, onların xüsusiyyətlərində və dinlərində olan şeylərə bacardığınız qədər əməl edin, çünki onlar həqiqətən də düz yolda idilər". [1]

Huzeyfə ibn əl-Yəman (Allah ondan razı olsun) demişdir: "Allahın səhabələrinin, etmədiyi heç bir ibadəti etməyin. Həqiqətən, birinci olan, sonrakilərə söz saxlamadı (yəni öz fikrini bildirməyə yer qoymadı) və ey buranın sakinləri, Allahdan qorxun və sizdən əvvəlkilərin yolu ilə gedin".[2]

Buna görə də, böyük alim əs-Səfərini (Allah ona rəhmət etsin) demişdir: Ümmətlər arasında, bəsirətə və müdrikliyə ən çox layiq olanlar – qəlbləri ən təmiz və təqvalı olanlar, ən dərin elm sahibləri, ən düz yolu rəhbər tutmuş və halları ən yaxşı olanlardırlar. Şübhəsiz ki, yaxşı olan hər şey, doğru, hikmətli, bütün elm və şərəfli olan hər şey, bizə birinci nəsil və qrupdan məlum olunur və gəlib bizə çatır və onlara da etibar edilir. Onlar doğru yolun mənbəyindən, elm nəql edənlərdir".[3]

**Altıncısı: Muhəmmədin ﷺ səhabələrinin, səhih etiqadları haqqında tabiinlərin şəhadəti.**

Ömər ibn Əbdüləzizdən (Allah ona rəhmət etsin) rəvayət olunur ki, ondan təqdir haqqında soruşana belə dedi: «İnsanların razı qaldıqları ilə kifayətlən, çünki onların elm və bəsirətləri var idi. Onlar çox şeyi düzgün dərk etmək qabiliyyətinə malik idilər və gördükləri səadətə (nemətə) daha yaxın idilər. Onlar, doğru yolda idilər, onlardan sonra baş verənlərə gəlincə, bunu onların yolu ilə getməyənlər edirdilər. Sünnəyə əməl edənlər öndədirlər, çünki onlar qədər (tale) haqqında kifayət qədər danışmış və onu elə təsvir etmişlər ki, başqa heç nəyə ehtiyac qalmamışdır. Az ilə kifayətlənənlər isə, nöqsanlara yol verirlər, həddi aşanları isə üzüntü gözləyir. Bəziləri xətalara yol verir, bəziləri isə həddi aşır, sünnənin tərəfdarları isə bu və onun arasında "qızıl orta"-ya sadiq qalaraq, ifratdan çəkinərək düz yolda oldular...»[4].

---

[1] İbn Əbdülbərr "Camiul-ilm və fədlih"də 1810, Əbu Nuaym "əl-Hilya"da oxşar sözlərlə 1/305.

[2] Əbu Davud əz-Zühddə 280, Əbu Şama əl-Baisdə səh. 15.

[3] Ləvami əl-ənuar əl-bəhiyyə, 2/380. 4) Əbu Davud 4612.

[4] Əbu Davud 4612

Buna görə də, tabiinlər, imanlarını islah etmək və bilmədiklərini soruşmaq üçün, Allah Rəsulunun ﷺ səhabələrinin yanına qayıtmağa çox can atırdılar.

Səhih Müslimdən gələn bir hədisin əvvəlində Yəhya ibn Yəmər belə demişdir: "Bəsrədə qədərdən (taledən) ilk danışan Məbəd əl-Cuhani idi. O zaman mən və Humeyd ibn Əbdürrəhman əl-Himyari həcc və ya ümrəyə getdik və dedik: "Kaş biz Rəsulullahın ﷺ bəzi səhabələri ilə rastlaşsaydıq və onlardan qədər (tale) məsələsində nə dediklərini soruşsaydıq." Və bizə Abdullah ibn Ömər ibn Xəttabı, məscidə girərkən qarşılamaq üçün *tövfiq* (Allahın köməyi) verildi".[1]

Şərik ibn Şihabdan (Allah ondan razı olsun) rəvayət edilir ki, o demişdir: "Mən Rəsulullahın ﷺ səhabələrindən birini görmək istəyirdim ki, mənə xəvariclərdən xəbər versin" və sonra dedi: "Mən Əbu Bərzə (Allah ondan razı olsun) ilə görüşdüm və bu barədə ona danışdım".[2]

Tabiinlərin "Rəsulullahın ﷺ səhabələrindən olan" sözlərinə bir qeyd: onlar bütün səhabələrin (Allah onlardan razı olsun) düzgün etiqadını bildikləri üçün səhabələrdən heç birini xüsusi olaraq ayırmadıqlarına işarə edirlər.

İbn əd-Deyləmi deyir: «Ubey ibn Kəbin yanına gəldim və ona dedim: "Mənim ürəyim qədər (tale) barədə nəsə narahatdır... Mənə bir şey danış, bəlkə Allah onu mənim qəlbimdən çıxarar". O dedi: "Əgər Allah göylərin və yerin əhlinə əzab versəydi, bu, Onun tərəfindən haqsızlıq və ya zülm olmazdı, və əgər Allah onlara rəhm etsəydi, rəhməti onların əməllərindən artıq olardı və əgər siz Allah yolunda, Uhud dağı böyüklüyündə qızıl xərcləsəniz, siz qədərə inanmayınca, Allah sizdən onu qəbul etməz. Bilin ki, başınıza gələnlər, sizdən yan keçə bilməz, sizdən yan keçən isə, sizin başınıza gələ bilməz. Əgər buna iman etmədən ölsəniz, Cəhənnəmə düşərsiz". Sonra mən, Abdullah ibn Məsudun yanına gəldim, o da mənə buna bənzər bir şey dedi. Sonra mən, Huzeyfə ibn əl-Yəmanın yanına gəldim və o da mənə buna bənzər bir şey dedi.

---

[1] Muslim 1.
[2] Əhməd 19804, əl-Hakim 2694.

Daha sonra Zeyd ibn Sabitin yanına gəldim və oda mənə Peyğəmbərdən ﷺ buna bənzər bir şeyi çatdırdı...». [1]

**Yeddinci: müsəlman alimlərinin şahidliyi və həmfikir olmaları.**

Əbu əl-Vəfa ibn ‘Akil əl-Hənbəli (Allah ona rəhmət etsin) fəlsəfəyə dalmaq haqqında, dəlil gətirərək demişdir: “Mən təsdiq edirəm ki, səhabələr öldülər və fəlsəfi monada və aksidensiya haqqında xəbərsiz idilər. Onlar kimi olmaq istəyirsənsə, ol. Amma əgər filosofların yolunu, Əbu Bəkr və Ömərin yolundan daha xeyirli hesab edirsənsə, sənin zənn etdiyin şey necədə pisdir!"[2]

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) səhabələrin böyük fiqh məsələlərində, xüsusilə etiqad məsələlərində ixtilafda olmadıqlarına dair yekdil rəy *(icma')* haqqında danışdı və dedi: "Həmçinin də *fiqh*, həqiqətən, bunda onlardan bəzilərinin bilmədiyi məsələlərdə ixtilaflar var idi, lakin bu sadəcə incə məsələlərdə ixtilaf idi. Böyük suallara gəlincə, onlar bu barədə ixtilaf etməyiblər. Səhabələrin özləri bu məsələlərin bəziləri üzərində mübahisə edirdilər, lakin etiqad məsələlərində, eləcə də Allaha tərəf aparan yolda ixtilaf etmədilər. O yol ki, Allahın təqvalı və Ona yaxın olan *övliyalarını* Allaha tərəf aparacaq.

Həmçinin o (Allah ona rəhmət etsin) demişdir: “İmam Əbu Abdullah Muhəmməd ibn Xafif (Allah ona rəhmət etsin) “Etiqad ət-tövhid bi-isbatul-əsmai və əs-sifat” adlandırdığı kitabında belə demişdir: “Mühacirlər və ənsarlar, Uca və Böyük olan Allahın tövhidində, Allahın ad və sifətlərini və təqdirini (alın yazısını) bilməkdə həmfikir idilər; onlar eyni (bir) söz və açıq şəriət üzərində idilər. Onlar Allah Rəsulundan ﷺ belə rəvayət edənlərdirlər ki, Peyğəmbər ﷺ belə buyurmuşdu: ***“Siz mənim sünnəmə tabe olmalısız...”*** və hədisin sonuna qədər. Həmçinin ***“Allah, bidət gətirənə lənət etdi”*** hədisi. Səhabələr yekdil idilər və onlar o kəslərdirlər ki, bizə onlardan öyrənmək əmr edilmişdir, çünkü onlar, Allaha həmd olsun ki, tövhid məsələsində ixtilafda deyildilər, həmçinin dinin əsasları məsələsində – Onun ad və sifətləri məsələsində. Bundan fərqli olaraq, xırda məsələlərdə ixtilafda idilər. Və əgər onların arasında ixtilaf olsaydı, bizə başqa ixtilaflar haqqında nəql olunduğu

[1] Əbu Davud 4699.
[2] Təlbis əl-İblis, səh. 83.

kimi, bu barədə də nəql olunardı. Bu yekdillik, onların arasında xüsusi və ümumi şəkildə quruldu ki, bu ən yaxşı şəkildə ona tabe olan tabiinlərə də keçdi. Bu yekdillik həmçinin, məşhur alimlər arasında yaranmışdır. Bu, nəsildən-nəsilə ötürülürdü, çünki əsas sayılan şeylərdə ixtilafların olmasını, onlar küfr hesab edirdilər". [1]

Bəzi insanların bəzi məsələlərlə bağlı ixtilafın yaranmasının aydın olmamasını hesab etdiklərinə gəldikdə isə, məsələn: Rəsulullahın, Rəbbi olan Allahı, mirac gecəsində gördüyü məsələsi kimi, alimlər buna qismən belə cavab vermişlər:

İmam İbn Xuzeymə (Allah ona rəhmət etsin) demişdir: "Bizim qiblə tərəfdarları olan səhabələr, tabiinlər və tabi-tabiinlər, eləcə də onlardan sonra gələnlər və zəmanəmizin alimlərinə kimi olanlar ixtilaf və şübhə etmirdilər ki, bütün möminlər Qiyamət günü öz Yaradanını, öz gözləri ilə görəcəklər. Lakin elm adamları ixtilafa düşdülər — Peyğəmbər ﷺ ölüm gəlməmişdən əvvəl, Böyük və Qüdrətli olan Yaradanı görmüşdürmü? Amma onlar bütün möminlərin Qiyamət günü öz Yaradanını, öz gözləri ilə görəcəkləri mövzusunda ixtilafda deyildilər, və bu iki məsələni anlayın və səhv etməyin, əks halda azmış olarsınız".[2]

Böyük alim İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: "Səhabələr möminlərin ağası və iman baxımından cəmiyyətin ən yaxşıları olmalarına baxmayaraq, şəriət hökmlərinin bir çox məsələsində ixtilaf edirdilər. Lakin onlar, Allaha həmd olsun, Allahın adları, sifətləri və əməlləri ilə bağlı heç bir məsələdə ixtilaf etmirdilər, əksinə, hər biri Quran və Sünnədə nəql olunanları təsdiq edirdilər. Allahın ad və sifətləri barəsində, onların birincisindən sonuncusuna qədər yekdilliyi, hansı ki, onlar bu ad və sifətləri *təvil* etmədilər, təhrif etmədilər, sözlərinin yerini dəyişdirmədilər, bunların heç birini batil hesab etmədilər, ona bənzərini gətirmədilər. Onlar bütün bunları nə əvvəl, nə də axırda etmədilər. Onların heç biri deməmişdir ki: "Bunun mənasını, əsl mahiyyətindən dəyişmək və *məcazi* mənada dərk etmək lazımdır. Lakin onlar bunu qəbul edib, itaət edirdilər, bunu iman və ucalıqla qəbul edirdilər və bütün bunlar, onların bir əmri və bir yolu idi. Onlar açıq-aydın dəlil olmadan, Quranı hissələrə bölən, bir hissəsini təsdiq edən, digər hissəsini inkar edən, nəfsi

[1] Məcmu əl-fətava, 5/71.
[2] Kitab ət-Tövhid, İbn Xuzeymə, 2/548.

həvəs və bidət ardıcılları kimi davranmırdılar, halbuki o inkar edənlər, təsdiq etdiklərini təsdiqlədikləri kimi, inkar etdiklərini təsdiq etməyə məcbur idilər”.[1]

Buna görə də, Şeyxul İslam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: “Beləliklə səhabələr, Peyğəmbərin ﷺ öz Rəbbini *əl-isra və əl-mirac* (gecə səfəri və mirac) gecəsində görüb-görməməsi mövzusunda ixtilaf etdilər. Və bir məsələdə yekdil fikir var ki, Peyğəmbərin ﷺ Rəbbini gördüyünü iddia edən şəxs — qəlb ilə görməyi nəzərdə tuturdu, inkar edən isə gözlə görməyi nəzərdə tuturdu, və hər iki rəy bir-biri ilə ziddiyyət təşkil etmir"[2].

İmam İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: “Osman ibn Səid əd-Darimi “Cəhmilərin təkzibi” adlı kitabında, səhabələrin, Peyğəmbərin ﷺ mirac gecəsində, Rəbbini görmədiyi fikrində yekdilliyi haqqında danışmışdır. Onlardan bəziləri İbn Abbası (Allah ondan və atasından razı olsun) bu icmadan çıxardılar. Şeyximiz — İbn Teymiyyə — demişdir: "Əslində bu, ixtilaf deyil, çünki, doğrudan da, İbn Abbas deməyib ki, Peyğəmbər ﷺ Allahı öz gözləri ilə görüb".[3]

Böyük alim əş-Şatibi (Allah ona rəhmət etsin) demişdir: “Həqiqətən, səhabələrin (Allah onlardan razı olsun) dövründən, bizim dövrümüzə qədər *ictihad*[4] məsələlərində ixtilaf olmuşdur”.[5]

Böyük alim, əl-Məqrizi (Allah ona rəhmət etsin) səhabələrin (Allah onlardan razı olsun) mövqeyini və Böyük və Qüdrətli olan, Allahın sifətlərinə yanaşma yollarını, təsvir etmişdir: “Hər kim peyğəmbərin ﷺ, yazılmış hədisləri haqqında düşünsə və saleh öndərlərin (*sələfilərin*) əsərləri üzərində dayanarsa, o adam bilər ki, nəsillərinin və saylarının fərqli olmasına baxmayaraq, səhabələrdən (Allah onlardan razı olsun) gələn rəvayətlərdə, səhih və ya səhih olmayan isnad ilə, nəql edilməyib ki, onlar Pak və Müqəddəs Rəbb Özünü Qurani-Kərimdə və peyğəmbəri Məhəmmədin ﷺ dili ilə vəsf etdiyi, bir şeyin mənasını, Allah Rəsulundan ﷺ soruşsunlar. Əksinə, onlar

---

[1] "İlam əl-muvaqqiin" 1/83–84.
[2] Minhəc əs-Sünnə ən-Nəbəvi, 6/328.
[3] “İctima’ əl-cuyuşul-islami”, səh. 48.
[4] İctihad — Quran və Sünnədə birbaşa göstərilməyən, dini və hüquqi xarakterli məsələləri, müstəqil həll etmək hüququna malik olan, din üzrə mötəbər ekspertin fəaliyyətidir. Yalnız ərəb dilini mükəmməl bilən, Quranı və onun təfsirlərini əzbər bilən, Sünnəni və onun təfsirlərini yaxşı bilən və bir sıra digər tələblərə, cavab verən şəxslər ictihad edə bilərdilər.
[5] Əl-i’tisam, 3/161.

hamısı, bunun mənasını başa düşdülər və sifətlərdən danışmadılar. Onlar, sözləri eyni tərzdə çatdırdılar və bu tərzdə onlar (Allah onlardan razı olsun) Uca Allahın Öz Əzəməti haqqında, istər Üz, istər Əl və digər şeylər haqqında dediklərini təsdiq etdilər. Eyni zamanda, onlar (Allah onlardan razı olsun) Onun məxluqlara bənzərliyini inkar edirdilər və bənzətmə etmədən təsdiq etdilər və Onu məhrum etmədən təmizləyirdilər. Lakin onlardan heç kəs, Allahın ad və sifətlərinin heç birinin, təvilinə meyl etmədilər və onların hamısı, Allahın sifətlərinin gəldiyi kimi qalmasının lazım olduğunu düşünürdülər".[1]

Şeyximiz, böyük alim Əbdülmuhsin əl-Abbaddan (Allah onu qorusun) soruşdular: Səhabələrin etiqad məsələsində, ixtilaf etdiklərini söyləmək olarmı? O cavab verdi: “Səhabələr arasında xırda məsələlərdə ixtilaflar olub, etiqad məsələsində heç vaxt ixtilaf olmayıb. Əks halda, sünnə tərəfdarları ilə bidətçilər arasında nə fərq var?"[2]

Mən, ondan (Allah onu qorusun) həmçinin soruşdum ki: Səhabələrin etiqad məsələlərində ixtilafda olduqlarını söyləmək olarmı, məsələn, Peyğəmbərin ﷺ gecə səfərində və miracda Rəbbini görməsi, həmçinin ölülərin diriləri eşitməsi məsələsində?

Möhtərəm şeyx mənə belə cavab verdi: “Səhabələr etiqad məsələsində ixtilaf etməyiblər. Lakin Peyğəmbərin ﷺ Rəbbini əl isra və əl-mirac gecəsində görüb-görməməsi ilə bağlı onlardan nəql olunanlar, etiqad ixtilafı deyildir, çünki onlar Allahı qiyamət günü görəcəklərində həmfikirdirlər. Görmə təsdiq olunub və etiqad məsələsi budur. Peyğəmbərin ﷺ mirac gecəsində öz Rəbbini görüb-görməməsi ilə bağlı ixtilaflara gəlincə, bu məsələ etiqad ixtilafı deyil. Və daha doğrusu odur ki, Peyğəmbər ﷺ Rəbbini o vaxt görməmişdir. Ölülərin diriləri eşidib-eşitməməsinə gəlincə, bu barədə, səhabələr arasında ixtilaf olduğunu bilmirəm.

Bu məsələdə daha doğru olan fikir budur ki, biz Böyük və Qüdrətli Allahın və Onun Rəsulunun ﷺ təsdiq etdiyini təsdiq etməliyik, məsələn, dəfn mərasimindən sonra, mərhumun qəbrini tərk edənlərin ayaq səsini eşitməsi

[1] Əl-hitat və əl-əsar əl-Məqrizi, 2/356.
[2] Hicri təqvimlə 20/8/1423-cü ildə, şənbə günü Peyğəmbər məscidində "Sünən Əbu Davud" dərsi.

kimi. Biz həmçinin, Böyük və Qüdrətli Allahın və Rəsulunun ﷺ susduğu şeylərə də susmalıyıq".[1]

Həmçinin Şeyximiz, böyük alim Saleh ibn əl-Fövzan (Allah onu qorusun) demişdir: "İxtilaflar iki cürdür:

Birinci növ: etiqad ixtilafları. Bu, heç vaxt caiz deyildir, çünki düşmənçiliyə, nifrətə və birliyin parçalanmasına səbəb olur. Müsəlmanların eyni əqidədə olması vacibdir və bu, "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) əqidəsidir və bu inanc — sözdə, əməldə və əqidədə özünü göstərir. Etiqad məsələləri *tövqiyyədir* (yalnız Quran və Sünnə ilə təsbit edilmişdir) və bunlarda *ictihada*[2] yer yoxdur. Əgər belədirsə, onda burada parçalanmaya yer yoxdur. Etiqad — Quran və Sünnədən götürülür, rəy və ictihad əsasında qurulmur. Etiqad məsələsində ixtilaflar, qarşılıqlı nifrət və parçalanmaya səbəb olur, necə ki, cəhmiyələr, mötəzillər və əşərilər, eləcə də azğın qruplar arasında olduğu kimi, hansı ki, Peyğəmbər ﷺ onlar haqqında demişdir: ***"Bu ümmət yetmiş üç firqəyə bölünəcək, onların biri xaric, digərlərinin hamısı cəhənnəm odundadır."*** Səhabələr soruşdular: "Bunlar kimdirlər, ey Allahın Rəsulu?" O buyurdu: ***"Bunlar mənim və əshabımın yolunun üzərində olan kimsələrdirlər".*** İnsanlar Peyğəmbərin ﷺ və onun səhabələrinin olduqları yolun üzərindən başqa heç bir şey üzərində birləşməzlər".[3]

[1] Hicri təqvimlə 15/1/1424-cü ildə evində zöhr namazından sonra şeyximizə verilən suallar.
[2] Bax 166-cı səh.
[3] "Ət-tə'likat əl-möhtəsərə "ala mətn ət-Təhaviyyə", səh. 255–256.

Beləliklə, ey tövhid əhli olan qardaşım, Peyğəmbərin ﷺ səhabələrinin, dini etiqadlarındakı səy etmələri və buna necə bağlı qaldıqları və azı dişləri ilə necə tutunduqları, sənə aydın olur. Və buna heç bir şübhə yoxdur! Onlar, bilikləri, əməlləri və fəzilətləri ilə, ən yaxşı nəsildirlər. Onların yolu, şübhəsiz ki, öz əmin-amanlığı və hikməti ilə yeriyənlərin yoludur, Allah onlardan razı olsun və bizləri də onlarla birlikdə «İlliyyin»də toplasın”.[1]

[1] Şübhəsiz ki, bu mövzunun təfərrüatlı təhlili üçün, bir səbəb var və bu, özlərini elmə aid edənlər arasında, hətta insanlara əqidə öyrədənlərin, bir qismi arasında, yayılan bir şeydir – sanki səhabələr, əqidə məsələsində ixtilaf etmişlər, lakin qəlblərində ixtilaf etməmişlər və buna görə də onlara icazəli olan bizim üçün də icazəlidir. Onlar etiqad, dostluq və məsumluq məsələlərində səhlənkarlıq göstərmişlər, nəticədə isə əşərilər və digərləri kimi bəzi azğın məzhəbləri *Əhli-sünnə vəl-cəmaə* (sünnə və yekdillik, camaat tərəfdarları) sıralarına daxil etmişlər. İrəli getdikdən sonra geriyə dönməkdən, düz yola getdikdən sonra azmaqdan Ona sığındığımız kimi, köməksiz qalmaqdan da Allaha sığınırıq.

# 60. Şirk, şeytanı sevindirir, tövhid isə, onu qəzəbləndirir

Əbu Musa əl-Əşaridən rəvayət olunur ki, Rəsulullah ﷺ buyurdu: ***«Səhər açılanda, İblis öz qoşununu yola salır və deyir: "Bu gün bir müsəlmanı yoldan çıxaran şəxsə tac qoyacağam". (Qoşunları geri qayıdanda), onlardan biri cərgədən çıxıb, deyir: "Filankəs arvadını boşayana qədər mən ondan əl çəkmədim". İblis cavab verir: "Tezliklə o, yenidən evlənəcək". Sonra ikincisi çıxıb deyir: "Mən filankəs ata-anasına asi olana qədər ondan əl çəkmədim". İblis: "Tezliklə o, yenə də onlara yaxşılıq edəcək" deyə cavab verir. Sonra üçüncüsü çıxıb deyir: "O şirk edənə qədər, mən onu təqib etməyi dayandırmadım". Onda İblis deyir: "Sən, sən!" Sonra növbəti olan çıxıb deyir: "Mən filankəsi təqib etdim, o birini öldürənə qədər". Bunu eşidən İblis: "Sən, sən" deyir, sonra onun başına tac taxır"»***.[1]

Şübhə yoxdur ki, şirk insan öldürməkdən daha böyük günahdır, buna Uca Allahın bu kəlamı dəlildir: **"Fitnə [2] qətldən daha pisdir".**[3]

Uca Allah həmçinin buyurur:

وَقَٰتِلُوهُمْ حَتَّىٰ لَا تَكُونَ فِتْنَةٌ وَيَكُونَ ٱلدِّينُ لِلَّهِ ۖ فَإِنِ ٱنتَهَوْا۟ فَلَا عُدْوَٰنَ إِلَّا عَلَى ٱلظَّٰلِمِينَ

---

[1] İbn Hibban 6189, əl-Hakim 4/350. "Təhzib əl-kamal", 20/86.

[2] (Ya Rəsulum!) Səndən haram ay haqqında soruşurlar. [Bunlar dörd aydır: Zilqədə, Zilhiccə, Məhərrəm və Rəcəb.] – orada döyüş [o zaman döyüşmək olarmı]. (Onlara) de: "Orada döyüşmək, Allah yanında haramı pozmaq kimi, böyük günahdır, müşriklərin isə, insanlara əziyyət verib, qorxudaraq, onları Allah yolundan çəkindirmələri, Onu (Allahı) inkar etmələri və insanlara, günah etmək üçün haram olan məsciddən onları çəkindirmələri və orada yaşayanların [Allahın Rəsulu və mühacirlərin] oradan qovulması – haram ayda döyüşməkdənsə, Allah yanında daha çox günahdır: Çünki fitnə [şirk və küfr], haram ayda, adam öldürməkdən daha pisdir!" Onlar (kafirlər) sizi dininizdən döndərməyincə, sizinlə vuruşmaqdan əl çəkməyəcəklər, əgər bacarsalar [onlar heç vaxt bunu edə bilməzlər]. Əgər (ey möminlər) sizlərdən hər hansı biriniz, imanından çıxsa [kafir olarsa] və kafir olaraq ölsə, onların bu dünyada və əbədi həyatda əməlləri puç olar! Onlar Cəhənnəm sakinləridir və orada əbədi qalacaqlar! (Quran mənalarının tərcüməsi, Əbu Adil.) – *Redaktorun qeydləri*.

[3] "əl-Bəqərə" surəsi, 213-cü ayə.

Fitnə aradan qalxana qədər və din ancaq Allaha məxsus edilənədək onlarla vuruşun! Əgər son qoysalar, (bilin ki,) düşmənçilik ancaq zalımlara qarşı olur.[1]

İmam Əhməd ibn Hənbəl (Allah ona rəhm etsin) demişdir: "*Fitnə* (fitnə) — *şirkdir*".[2]

---

[1] "Bəqərə" surəsi 193-cü ayə.
[2] Əl-İbanə, İman kitabı, 1/260 (97).

## 61. Quranda, tövhid məsələsi istisna olmaqla, bütün sualların cavabı «de» kəlməsi ilə qeyd edilmişdir

Uca Allah buyurur:

وَإِذَا سَأَلَكَ عِبَادِى عَنِّى فَإِنِّى قَرِيبٌ ۖ أُجِيبُ دَعْوَةَ ٱلدَّاعِ إِذَا دَعَانِ ۖ فَلْيَسْتَجِيبُوا۟ لِى وَلْيُؤْمِنُوا۟ بِى لَعَلَّهُمْ يَرْشُدُونَ

**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib, Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər.**[1]

Əs-Suyuti (Allah ona rəhmət etsin) demişdir: "Əgər kimsə soruşsa ki, Allah nə üçün: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam"** dedi, halbuki adətən Quranda sualın cavabı «de» sözü ilə gəlir? Cavab veririk: Bu kəlmə, qulun Allahdan istəyərkən, ən şərəfli məqamda olduğunu və onunla Vəlisi (اَلْوَلِيّ) arasında heç bir vasitəçinin olmadığını bildirmək üçün deyilmişdir".[2]

Ona görə də Pak olan Allah buyurur:

وَمَنْ أَضَلُّ مِمَّن يَدْعُوا۟ مِن دُونِ ٱللَّهِ مَن لَّا يَسْتَجِيبُ لَهُۥٓ إِلَىٰ يَوْمِ ٱلْقِيَـٰمَةِ وَهُمْ عَن دُعَآئِهِمْ غَـٰفِلُونَ

**Allahı qoyub, Qiyamət gününədək özünə cavab verə bilməyən, əşyalara yalvaran kimsədən daha çox azmış kim ola bilər?!** [3]

---

[1] "əl-Bəqərə" surəsi, 186-cı ayə.
[2] Əl-ittifaq fi ʻulum əl-Quran, əl-Suyutə, 2/222-223.
[3] "əl-Əhqaf" surəsi 5-ci ayə.

Həmçinin Peyğəmbərdən ﷺ səhih olaraq, rəvayət olunur ki, o demişdir: ***“Dua ilə müraciət etmək — ibadətdir”***.[1] Duada Pak olan Allaha məhəbbətin, qorxunun və ümidin ifadəsi var və bu istinad — qəlbin ibadətidir.

Pak və Uca olan Allah, həmçinin peyğəmbərlərinin (Allahın onlara salavat və salamı olsun) dua edərkən mövqeyini bildirmişdir:

إِنَّهُمْ كَانُوا۟ يُسَٰرِعُونَ فِى ٱلْخَيْرَٰتِ وَيَدْعُونَنَا رَغَبًا وَرَهَبًا ۖ وَكَانُوا۟ لَنَا خَٰشِعِينَ

**Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti (qullar) idilər.**[2]

[1] Sünəni Əbi Davud 1479, Şeyx əl-Albani səhih adlandırmışdır.
[2] "əl-Ənbiya" surəsi 90-cı ayə.

# 62. Allahu Təaləyə olan imanı təzələmək əmri

Abdullah ibn Amrın (Allah ondan razı olsun) sözlərindən rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: **“Həqiqətən, libas köhnəldiyi kimi, iman da sizin daxilinizdə köhnəlir! Odur ki, Allahdan qəlblərinizdəki imanı təzələməsini istəyin”.**[1]

Şübhə yoxdur ki, onun (Allahın ona salavat və salamı olsun) *imanın* təzələnməsi üçün Allaha dua etməyə sövq etməsi, və Peyğəmbərin ﷺ *imanın* köhnəlməsi ilə bağlı vəsf etməsi, bəndəni ona daim diqqət etməyə sövq edir. Necə ki, insan öz paltarının təmizliyinə diqqət yetirir və onu çirkləndirdikdə məyus olur, eləcə də imanı təzə olmasına diqqət etməlidir.

Böyük alim İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir ki: “Tövhid — hər bir şeydən ən yüngül, ən təmiz və ən aydınıdır. Ən kiçik bir şey belə onu ləkələyə, çirkləndirə və ona təsir edə bilər. O, üzərində ən kiçik, çirkli izin görünə biləcəyi ağ paltar kimidir və ən kiçik, ləkənin də görünə biləcəyi, çox təmiz bir güzgü kimidir. Ona görə də, ötəri bir baxış, bir söz və gizli həvəs onu poza bilər.

Bununla imtahan olunan isə, tələsməli və tövhidlə bu izi silməlidir, əks halda o ləkə qüvvətlənib, onun üçün adi hala çevrilər və onu aradan qaldırmaq çətin olacaqdır".[2]

---

[1] Əl-Hakim 1/4.
[2] Əl-Fəvaid, səh. 282.

# 63. Azan — tövhidin bərqərar olması və onun həyata keçirilməsi üçün, tam kamil bir çağırışdır

*Azan* (namaza çağırış), qısa olmasına baxmayaraq, etiqad məsələlərini ehtiva edir. Beləliklə, *təkbir* [1] — Allahın varlığına və Onun əzəmət sifətlərinin, təsdiqinə dəlalət edir. İki şəhadət — ixlaslı (səmimi) tövhidi və Muhəmmədin ﷺ rəsulluğunu təsdiq edir və həmçinin *şirki* inkar edir. Qurtuluş çağırışı — qiyamət və haqq-hesab gününə işarə edir. Alimlər həmçinin qeyd ediblər ki, *azanın* böyük hikməti var və bunlardan — islam ayinlərinin və tövhid kəlmələrinin ifadəsi vardır.[2]

Uca Allah buyurur:

وَمَنْ أَحْسَنُ قَوْلًا مِّمَّن دَعَآ إِلَى ٱللَّهِ وَعَمِلَ صَٰلِحًا وَقَالَ إِنَّنِى مِنَ ٱلْمُسْلِمِينَ

**(İnsanları) Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!"– deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?** [3]

**"Allaha tərəf çağıran"** sözünün təfsiri haqqında deyilmişdir: "Bu, *müəzzindir*".[4]

Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) demişdir: "Tam kamil çağırış dedikdə, *azan* nəzərdə tutulur, çünki bu, ibadətlərin ən şərəfli olanına çağırışdır, yəni Allaha yaxın halda dayanmağa və gizli (ürəkdə) yalvarmağa çağırışdır. Ona görə də bu, cahillərin çağırışından fərqli olaraq, tam kamil bir çağırışdır, yəni naqis olmayan sözdür".[5]

---

[1] Təkbir — "Allahu Əkbər" (Allah böyükdür) kəlmələrinin tələffüzü.

[2] "Taysir əl-əllam şərh ‘umdətul-əhkam" Şeyx ‘Abdullah əl-Bəssam, qısaldılmış (1/137).

[3] "Fussilət" surəsi 33-cü ayə.

[4] Qeys ibn Əbi Həzim bunu İbn Cərirdən 24/118, İbn Kəsirdən Aişədən (Allah ondan razı olsun) və İbn Ömərdən (Allah ondan razı olsun) və İkrimədən 7/180 nəql etmişdir.

[5] Fəth əl-Bari, İbn Rəcəb, 3/465.

Hafiz İbn Həcər (Allah ona rəhmət etsin) demişdir: “Tam kamil çağırış dedikdə — tövhidə çağırış nəzərdə tutulur, Uca Allahın kəlamı kimi**: "Haqq çağırış yalnız Onadır".**[1] Həmçinin, tövhidə çağırış kamil çağırışdır, çünki şirk nöqsandır. İbn ət-Tin demişdir: “*Azan* kamilliklə vəsf edilmişdir, çünki onda ən mükəmməl olan "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) kəlmələri vardır.[2]

Ənəs ibn Malikin belə dediyi rəvayət edilir: «Allah Rəsulu ﷺ adətən, hər hansı bir qəbilədən olan insanlara, sübh vaxtı hücum edirdi. Hücumdan əvvəl azan eşitmək ümidi ilə dinləyir, azanı eşitsə hücum etməkdən çəkinir, əks halda hücum edirdi. Bir dəfə bir nəfərin “*Allahu Əkbər, Allahu Əkbər*” kəlməsini təkrarladığını eşidəndə, Allah Rəsulu ﷺ dedi***: “O, fitrətə (fitrəyə) uyğun olanı deyir”***. Sonra bu şəxs dedi: “Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur”, və Allah Rəsulu ﷺ ona: ***“Sən Cəhənnəmdən xilas oldun”*** dedi. İnsanlar ona baxdı, və məlum oldu ki, o adam, keçi otaran bir çoban idi».[3]

Həmçinin Peyğəmbərdən ﷺ rəvayət olunur ki, o belə buyurmuşdur: “O kəs ki, müəzzinin azanını eşidib: ***«Mən də şəhadət edirəm ki, şəriki olmayan, Allahdan başqa, ibadətə layiq haqq məbud yoxdur və şəhadət edirəm ki, Muhəmməd Onun qulu və elçisidir! Rəbb olaraq — Allahdan, elçi olaraq — Muhəmməddən, din olaraq — İslamdan razıyam” deyər, onun günahları bağışlanar*** [4]***»***.[5]

Cabir ibn Abdullah (Allah onlardan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ dedi: ***“Qiyamət günü mənim şəfaət haqqım, o kəsə çatar ki, azan sözlərini dinlədikdən sonra o deyər: "Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan***

---

[1] “ər-Rad” surəsi 14-cü ayə.
[2] Fəth əl-Bari, İbn Rəcəb, 2/112-113 ixtisar.
[3] Muslim 382.
[4] Bu sözlərin nə vaxt deyilməsi barədə alimlər ixtilaf etmişlər. İki məşhur rəy: “Həqiqətə ən yaxın olanı, iki şəhadətdən sonra deyilməsidir”. Əl-Buxarinin “Səhih”, 914-də rəvayət etdiyi, möminlərin əmiri Müaviyədən (Allah ondan razı olsun) nəql edilmişdir.
[5] Əbu Davud 525, ət-Tirmizi 210.

*Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin, tərifə layiq məqama çatdır."* [1]

[1] əl-Buxari 614.

## 64. Namaz — Allahu Təalənın tövhidinin qanunudur

Namaz — islamın ikinci sütunudur və islam, bu sütun üzərində dayanıb. Onun vasitəsilə, möminlər münafiqlərdən seçilirlər və namazı tərk edən küfrə düşür.

Cabir ibn Abdullahdan (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: «Mən, Peyğəmbərin ﷺ belə dediyini eşitdim: ***"Həqiqətən, insanla şirk və küfr arasında, namazı tərk etmək vardır"***».[1]

Namaz — Rəbbi ilə bəndə arasında əlaqədir, tövhid vasitəsilə və Allaha qul olmanın etirafı ilə. Uca Allah buyurur:

إِنَّنِيٓ أَنَا ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّآ أَنَا۠ فَٱعۡبُدۡنِي وَأَقِمِ ٱلصَّلَوٰةَ لِذِكۡرِيٓ

**Həqiqətən, Mən Allaham. Məndən başqa heç bir ilah yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!** [2]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) bu ayənin təfsirində belə buyurmuşdur: "Uca Allah buyurur: "Həqiqətən, mən ibadətə layiqəm, Məndən başqa heç kəs, ibadətə layiq deyildir. Məndən başqa, ibadətə layiq haqq, məbud yoxdur və buna görə də, Məndən başqa, heç kəsə ibadət etməyin. Məndən başqa, heç bir məbud yoxdur ki, ona olunan ibadət, doğru olsun. Mənə ibadətinizi, ixlaslı edin, ancaq Mənə ibadət edin. Və Mənim üçün namaz qılın, çünkü, həqiqətən, əgər namaza dursanız, Məni xatırlayacaqsınız".[3]

Ona görə həqiqətən də, tövhid — namazda əhəmiyyət kəsb edir, qılınan yerin təmizlənməsi ilə başlayaraq, namaz bitdikdən sonra edilən zikrlə bitirərək.

Uca Allah buyurur:

وَأَنَّ ٱلۡمَسَٰجِدَ لِلَّهِ فَلَا تَدۡعُواْ مَعَ ٱللَّهِ أَحَدٗا

---

[1] Muslim 246.
[2] "Ta ha" surəsi, 14-cü ayə.
[3] Cami əl-bəyan, 16/147.

**Şübhəsiz ki, məscidlər Allahındır. Allahdan başqa heç kəsə dua etməyin!**[1]

“Məscid” (المسجد) sözü səcdə edilən yerə deyilir[2], həmçinin ibadət üçün tikilən evlər, qulun bədən üzvləri üzərində yerə etdiyi səcdə[3], eləcə də səcdənin özü.[4]

Həmçinin Peyğəmbərdən ﷺ gələn bir hədisdə nəql olunur: “Allah o yəhudi və xaçpərəstlərə lənət etsin ki, peyğəmbərlərinin qəbirlərini ibadət yerinə çeviriblər!”[5]

Namaz qılan, namazına “Allahu Əkbər” kəlməsi ilə başlayır, Allahu Təalədən daha böyük heç kəs yoxdur. O, Böyükdür, Ucadır, Tək ibadətə layiq olandır və ondan başqa heç kəs ona layiq deyildir. Sonra namaz qılan, *istiftah duasında* (namazın əvvəlində edilən dua) tövhidi yerinə yetirməsi ilə namaza başlayır.

Aişədən (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: «Allahın Rəsulu ﷺ namaza başlayanda belə deyərdi: ***“Allahım! Sən Pak və Müqəddəssən. Sənə həmd olsun. Sənin adın mübarək, əzəmətin ucadır. Səndən başqa məbud yoxdur!”***»[6]

Həmçinin, bu zikr Əlinin (Allah ondan razı olsun) hədisində, başqa formada gəlmişdir: ***"Üzümü hənif [ixlasla Allaha ibadət edənlərdən] olaraq göyləri və yeri Yaradana çevirdim. Mən müşriklərdən deyiləm. Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür. Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanlardanam".***[7]

---

[1] "əl-Cinn" surəsi, 18-ci ayə.
[2] Cabir ibn Abdullahın (Allah ondan razı olsun) hədisində deyildiyi kimi: ***“Yer mənim üçün məscid və təmizlənmə vasitəsi edildi. Ümmətimdən hansı şəxs namazının vaxtı çatsa, onu qılsın...”*** hədisin sonuna qədər.
[3] İbn Abbasın (Allah ondan razı olsun) hədisində deyildiyi kimi: “***Mənə yeddi əza üzərində səcdə etmək əmr olundu...”*** hədisin sonuna qədər.
[4] İxtisarla “Məalim ət-tənzil” 4/485, “Zad əl-məsir” 8/382-383.
[5] Əl-Buxari 4441, Muslim 1187.
[6] İbn Macə 804, Muslim, Ömərin (Allah ondan razı olsun) əməlləri haqqında, 398.
[7] Muslim 771.

Sonra "Kitabın anası"-nı (*əl-Fatihə*) oxumalıdır və bu surənin içində, Allahu Təalənın tövhidinin, ucaldılması olduğunu əvvəl qeyd etmişik. Qul namazında, Allahu Təaləni həmd edib, təkcə Ondan istəyir.

Sonra o, namazını Allahu Təalənın tövhidi, ucalığı və Ondan başqa heç kimin haqqı olmayan, ibadət haqqının təsdiqi ilə bitirir. Bütün bunlar qəlbə Allahu Təalənın tövhidi haqqında xatırlatmadır, onun qəlbdə təsdiqi və şirkdən çəkindirməsidir.

Namazı bitirdikdən sonra isə, Allahu Təalənın tövhidini xatırladan və onun böyük əhəmiyyətini hiss etdirən *əzkərləri* (zikrləri) söyləmək lazımdır.

Muğirə ibn Şu'bədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ namazı bitirib, salam verdikdən sonra belə demişdir: ***"Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir! Allahım! Sənin verdiyinə mane olacaq, mane olduğunu da verəcək (bir kəs) yoxdur. Heç bir hörmət sahibinə, Sənin yanında hörməti fayda verməz"***.[1]

Əz-Zübeyr ibn əl-Avvamdan (Allah ondan razı olsun) rəvayət olunur ki, o, namazın sonunda, salam verdikdən sonra belə demişdir: ***"Allahdan başqa haqq məbud yoxdur, O Təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir! Qüdrət və güc yalnız Allahdadır! Allahdan başqa haqq məbud yoxdur. Biz yalnız Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif Onadır. Allahdan başqa haqq məbud yoxdur. Kafirlərə xoş gəlməsə də, biz dini yalnız Ona məxsus edirik!"*** [2] və deyirdi ki, Peyğəmbər hər namazdan sonra bu sözləri deyərdi.

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: ***«Hər kim on dəfə desə: "Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!" sübh namazını qıldıqdan sonra, Böyük və Qüdrətli Allah həmin adama bu sözləri yaxşı əməl kimi yazar, on pis əməlini silər və onu on dərəcə yüksəldər. O, İsmayıl övladlarından on qul azad edən şəxs kimi olar.***

---

[1] Muslim 1338.
[2] Muslim 1343.

*Əgər bu duanı axşam edərsə, buna bənzəri olar və bu onun üçün səhər açılana qədər şeytandan qorunma olar".*[1]

Əbu Umamə (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ buyurdu:***"Hər kim, hər səhər namazından sonra diz çökərək yüz dəfə "Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! Dirildir və öldürür. O hər şeyə Qadirdir" deyərsə, həmin adam yaxşı əməlləri ilə, yer üzündə insanların ən yaxşısı olar, yalnız eyni sayda və ya daha çox bunu deyən adam onunla eyni olar və ya üstün olar".*** [2]

---

[1] "Tarix"də "əl-Xətib" 12/389, 472, bax "əs-Səhihə" 113.
[2] Ət-Təbərani əl-Mu'cəm əl-kəbirdə 8/336, əs-Səhihə 2664.

# 65. Həcc və ümrə ibadəti, Allahu Təalənın tövhidi üzərində qurulub

Şübhəsiz ki, həcc və ümrə — Allahu Təalənın yerinə yetirilməsi əmr etdiyi ibadətlərin ən böyüyüdür. Həcc — İslamın beş sütunundan biridir və onun böyük dayağıdır. Həccdə, tövhidin bəyanı bir neçə yerdə gəlib, bunların arasında:

Uca Allahın kəlamı:

وَأَتِمُّوا۟ ٱلْحَجَّ وَٱلْعُمْرَةَ لِلَّهِ ۚ

**Allah üçün həcc və ümrəni tam yerinə yetirin.**[1]

Və həmçinin, Uca Allahın kəlamı:

وَلِلَّهِ عَلَى ٱلنَّاسِ حِجُّ ٱلْبَيْتِ مَنِ ٱسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا ۚ

**Evi (Kəbəni) ziyarət etmək üçün, ora gedən yolu qət etməyə gücü çatan hər kəsin, Allah qarşısında borcudur ki, ora getsin.**[2]

Bu iki ayə həcc və ümrənin, şəriki olmayan Allah üçün edildiyini açıq şəkildə göstərir.

Tam (günah işləmədən yerinə yetirilən) həccin təsvirində, onun Allahu Təalə rizası üçün yerinə yetirildiyi qeyd olunur. Əbu Hureyrənin (Allah ondan razı olsun) hədisində nəql olunur ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitdi: ***"Hər kim həcc ibadətini pis söz demədən, günah və nalayiq bir iş görmədən yerinə yetirərsə, anadan gəldiyi gündə olduğu kimi (pak halda) evinə qayıdar".***[3]

---

[1] "əl-Bəqərə" surəsi, 196-cı ayə.
[2] "Ali-İmran" surəsi, 97-ci ayə.
[3] əl-Buxari, 1521.

Bu, Ənəsdən (Allah ondan razı olsun) rəvayət edilən, həccdə Peyğəmbərin ﷺ belə dediyi ilə təsdiqlənir: ***“Allahım, bu həcc ziyarətini elə et ki, onda nə göstəriş (riya) nə də şöhrət arzusu olmasın!”*** [1]

Bu, Cabir ibn Abdullahın (Allah ondan razı olsun) Peyğəmbərin ﷺ həccinin təsvirində qeyd olunan hədisdə açıqlanır: “Peyğəmbər ﷺ tövhid vasitəsilə ehrama girdi: ***"Hüzurundayam, Allahım hüzurundayam! Hüzurundayam, Sənin şərikin yoxdur, hüzurundayam! Həmd Sənədir. Nemət və mülk Sənə məxsusdur. Sənin şərikin yoxdur!"*** [2]

Onun sözləri: ***“Budur, Sənin hüzurundayam və Sənin şərikin yoxdur!”*** — inkar və təsdiqdə “*Lə iləhə illəllah*” şəhadəti kimidir.

Böyük alim İbn Qeyyim (Allah ona rəhmət etsin) *təlbiyyə* kəlamlarında olan, böyük faydalardan bəhs edir:

«Doqquzuncu fayda budur ki, *təlbiyyə* sözləri — tövhidin şüarı, İbrahimin dini və həccin ruhu və məqsədidir. Üstəlik də bu, bütün ibadətin ruhu və ibadətlə əldə edilən məqsəddir və buna görə də təlbiyyə bu ibadətin açarıdır və onun vasitəsilə bu ibadətə daxil olunur.

Onuncu fayda – *təlbiyyədə* cənnətin açarları vardır, və bunlar islam qapılarıdır ki, ona oradan daxil olurlar. Bunlar ixlas kəlmələridir və Allaha, Onun heç bir şərikinin olmadığına şəhadət etməkdir».[3]

Müşriklər belə deyərək, təlbiyyə edirdilər: “Budur, Sənin hüzurundayıq, Allahım! Sənin heç bir şərikin yoxdur”, Peyğəmbər ﷺ onlara dedi: ***“Bəsdir, yetər!”***, lakin onlar davam edirdilər: "Yalnız sahib olduğun və onun sahib olduğu şeyə sahib olduğun şərikdən başqa".[4]

Buna görə də, Peyğəmbər ﷺ onlara, Allahu Təaləni təkləşdirənə qədər həcc etməyi qadağan etmişdir. Əbu Hureyrənin hədisində deyilir ki, Allah Rəsulu ﷺ Əbu Bəkrə (Allah ondan razı olsun) imamlıq olaraq təyin etdiyi vida həccində, Qurban bayramı günü, Əbu Bəkr, Əbu Hureyrəni və digərlərini, insanlara xəbər verməyə göndərdi ki, gələn ildən müşriklərin həcc ziyarətinə

---

[1] İbn Macə 2890, “əs-Səhihə” 2616.
[2] Muslim 2950.
[3] “Təhhib əs-sünən mə’a şərh ‘aunu əl-mə’bud”, 5/256.
[4] Muslim 1185.

icazə verilməyəcək və çılpaq vəziyyətdə Kəbəni təvaf etmələrinə də icazə verilməyəcək.[1]

Evin (Kəbənin) ətrafında təvaf – Allahın tövhidindəndir. Uca Allah buyurur: **"Bu evin Rəbbinə (Kəbənin sahibi Allaha) ibadət etsinlər!"** [2]

Həmçinin əl-Faruq Ömər ibn əl-Xəttabdan (Allah ondan razı olsun) rəvayət olunur ki, o, Qara daşı öpmək üçün ona yaxınlaşdı və onu öpməsinin hikmətini açıqlayaraq ucadan dedi: "Həqiqətən, mən bilirəm ki, sən (yalnız) bir daşsan, (özlüyündə) nə bir zərər, nə də xeyir verirsən və əgər mən Peyğəmbərin ﷺ səni öpdüyünü görməsəydim, səni öpməzdim!"[3]

İmam Təbəri (Allah ona rəhmət etsin) demişdir: "Ömər bunu ona görə söylədi ki, insanlar bütlərə sitayiş etməkdən imtina edərək İslamı yeni qəbul etmişdilər. Ömər qorxurdu ki, cahillər daş öpməyi ərəblərin cahiliyyət dövründə etdiyi kimi bəzi daşları ucaltmağı hesab etsinlər. Ömər öyrətmək istəyirdi ki, daşı öpən insanlar, bütlərə inandıqları kimi daşın öz-özlüyündə xeyir və ya zərər verə bilməsi üçün deyil, Rəsulullahın ﷺ əməllərinə əməl edirlər".[4]

Əl-Qadi Əbu əl-Valid əl-Baci (Allah ona rəhmət etsin) dedi: «Onun "Peyğəmbərin ﷺ səni öpdüyünü görməsəydim, səni öpməzdim" sözləri, daşın mahiyyətinə görə deyil, tərkibindəki mənaya görə öpülmədiyini və ucaldılmasını açıqlayır, lakin bu ona görədir ki, Peyğəmbər ﷺ bunu Uca Allaha təslim olmaq kimi qanuniləşdirmişdir».[5]

Hafiz İbn Həcər (Allah ona rəhmət etsin) demişdir: «Şeyximiz[6] "Şərh ət-Tirmizi"də demişdir:

[1] Əl-Buxari 1622, Əbu Davud 1946, ət-Tirmizi 871.
[2] "Qureyş" surəsi, 3-cü ayə.
[3] Əl-Buxari 1597, Muslim 1270.
[4] Hafiz İbn Həcər "əl-Fəth"də rəvayət etmişdir, 3/541.
[5] Əl-Müntəkə Şərh Muatta Malik, 2/360.
[6] Bu isə hafiz əl-İraqidir.

“Onda, yəni Ömərin (Allah ondan razı olsun) *əsərində*, şəriətdə dəlil olmayan bir şeyi öpməyin arzuolunmazlığı (qadağası) vardır”.[1]

**Qeyd.** Əbu Səid əl-Xudridən (Allah ondan razı olsun) əl-Hakim rəvayət edir ki, Ömər (Allah ondan razı olsun) bunu dedikdə, Əli ibn Əbu Talib (Allah ondan razı olsun) ona bu sözlərlə etiraz etdi: “Həqiqətən, o zərər və fayda gətirir” və qeyd etdi ki, Allahu Təalə Adəm nəslindən əhd-peyman alanda, onu bir kağıza yazdı və bu kağız parçasını daşa qoydu və Əli davam edərək dedi: “Mən Allah Rəsulunun ﷺ belə dediyini eşitdim: “Qiyamət günü, canlı dili olan Qara daş gətiriləcək, və o, ona toxunan hər kəs haqqında, tövhid əhlindən olmasına şəhadət verəcəkdir”. Lakin bu *əsər* (xəbər) möminlərin əmiri, Əli ibn Əbu Talibdən (Allah ondan razı olsun) səhih olaraq nəql olunmamışdır.

Hafiz İbn Həcər (Allah ona rəhmət etsin) demişdir: “Onun *isnadında* (rəvayətçilər silsiləsi) Əbu Harun əl-Abdi var və o, zəif bir rəvayətçidir”.[2] Həmçinin bir qrup elm sahibləri, onu yalan danışmaqda ittiham edərək, ondan nəql olunanı qəbul etmədilər.[3]

Buradan məlum olur ki, bu hədisin *isnadının* zəifliyi və məzəmmət edilmiş *əsərin mətni* (xəbərin məzmunu) səbəbindən, bu sözlər səhih olaraq, Əlidən nəql olunmamışdır. O ki qaldı Qara Daşın, haqqı ilə ona toxunana şəhadət edəcəyinə gəlincə, bu hədis, İbn Abbasın (Allah ondan razı olsun) hədisində rəvayət olunur, hansı ki, demişdir: “Allahın Rəsulu ﷺ Qara Daş haqqında belə buyurmuşdur: ***"Bu daş (Qara daş) Qiyamət günü görən gözləri və danışan dili olduğu halda mütləq gələcək və ona haqqı ilə (ibadət məqsədi ilə) toxunan (və ya öpən) hər bir kəsə şahidlik edəcək".*** [4]

---

[1] Fəth əl-Bari, 3/541.
[2] Fəth əl-Bari, 3/541.
[3] Bax, “Təhzib əl-kamal”, 21/232-236.
[4] Əhməd 2115, ət-Tirmizi 961, İbn Hibban 3711, 3712.

Həmçinin İbn Ömərdən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ belə demişdir: ***"Həqiqətən, Yəmənin küncünə və Qara Daşa toxunmaq günahları tamamilə silir"***.[1]

Həcc və ümrəni yerinə yetirənlər *təvafdan* sonra İbrahimin dayandığı yerə gedib, iki *rükət* namaz qılırlar, birincisində **"De, ey kafirlər"** surəsini oxuyurlar, ikincisində isə: **"De: O Allah birdir (heç bir şəriki yoxdur)"** surəsini. Bunlar, dini təmizləyən (*ixlas*) iki surədirlər, birincisi özünə əməldə tövhidi (*əl-əməli*), yəni tövhid *əl-uluhiyyəni* (ibadətdə) daxil edir, ikincisi isə elm və risalət (*əl-'ilmi və əl-xəbəri*) tövhidini yəni tövhid *ər-rububiyyəni* (hakimiyyətdə, hökmranlıqda) *və əl-əsmai və əs-sıfat* (adlar və sifətlər) tövhidini özünə daxil edir. Bütün bunlar, Uca Allaha, Onun Haram Evində təvaf edib, ona şərik qoşan kafirlərdən fərqli olaraq, insanların qəlblərində tövhidi gücləndirir!

Cabir ibn Abdullahdan (Allah ondan razı olsun) rəvayət olunur ki, o, öz hədisində belə demişdir: "Sonra o, yəni Allahın Rəsulu Muhəmməd ﷺ, İbrahimin dayandığı yerə yaxınlaşıb, oxudu **"İbrahimin durduğu yeri (özünüzə) namazgah edin!"**[2] və o, bu iki *rükətdə tövhid* [3] haqqında surəni **«De: "Ey kafirlər" oxudu»**.[4]

Sonra o, əs-Səfa və əl-Mərvə dağına getdi, Səfaya qalxmağa və *təkbir* deməyə, Allahı zikr etməyə başladı və dedi: ***"Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Allahdan başqa haqq məbud yoxdur, O təkdir. Allah vədini yerinə yetirdi, quluna kömək etdi və (düşmənlərdən olan) dəstələri tək Özü məğlub etdi!"***[5]

Həmçinin başqa, böyük əməllər və sözlər də vardır ki, onlarda şəriki olmayan, aləmlərin Rəbbi olan Allahın tövhidi ucalır.[6]

---

[1] Əhməd 5621, İbn Hibban 3698.
[2] Bəqərə surəsi, 125-ci ayə.
[3] Bu, İxlas surəsidir.
[4] Əbu Davud 1909.
[5] Muslim 1218.
[6] Əlavə fayda üçün baxın: Şeyx ustaz həkimimiz Əbdürrəzzək ibn Əbdülmuxsin əl-Bədr tərəfindən "Kitab durus ʻaqadiyyə mustafidə min əl-həcc".

# 66. Allahdan, əməllərdə xeyir istəmək, ancaq tövhidlə olur

Cabir ibn Abdullahdan (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ bizə (Quranın hər hansı bir surəsini öyrətdiyi kimi) bütün işlərdə, Allahdan xeyir istəməyi (*istixarə*) bizə öyrədərək, deyərdi: ***“Sizdən biriniz bir iş görmək istədikdə, fərz namazlarından əlavə, iki rükət namaz qılsın və desin: "Allahım! Səndən Öz elminlə mənə kömək etməyi və Öz qüdrətinlə mənə qüdrət verməyi diləyirəm. Səndən, Sənin böyük lütfünü diləyirəm. Sənin (hər şeyə) qüdrətin çatır, mənim isə qüdrətim çatmır, Sən (hər şeyi) bilirsən, mən isə bilmirəm. Qeybləri bilən Sənsən..."***, və beləcə hədisin sonuna qədər.[1]

Böyük alim, İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: Allahın Rəsulu ﷺ bu ümmət üçün, cahiliyyət dövrünün insanlarının etdikləri, quşlarla falçılığı, oxlarla falçılığı və sair buna bənzər olan, müşriklərin qardaşlarının, qədər (tale) haqqında məlumat almaq üçün, atdıqları püşkləri, bu dua ilə əvəz etdi. İstixarə duası isə, Pak Allahın varlığının təsdiqini, Onun kamil elm, qüdrət və istək kimi, kamillik sifətlərinin təsdiqini, eləcə də Onun hökmranlığını təsdiq etmək, işləri Ona həvalə etmək, Ondan kömək istəmək, Ona təvəkkül etmək, insanın özü özünə təvəkkül etməyini tərk etmək, Ondan başqasına güc və qüdrəti aid etməkdən imtina etmək, insanın özü üçün nəyin faydalı olduğunu bilməsində zəif, aciz olmasını etiraf etməsi, bunun üçün gücünün olmadığını etiraf etməsi və bunu istəməsi, və həmçinin bütün bunların hamısı, Yaradanı və ibadətə layiq olan, həqiqi İlahın əlində olmasını ehtiva edir”.[2]

---

[1] əl-Buxari 1162.

[2] Zad əl-məad, 2/404 müxtəsər.

## 67. Məclisləri tövhid kəlmələri ilə bağlamaq, Allaha həmd etmək və Onu nöqsanlardan uzaq tutmaq bəndə üçün kəffarədir

Tövhid — hər bir xeyirin başlanğıcı və sonun xoş ətridir, buna misal olaraq əvvəlində "Allah Böyükdür, Allah Böyükdür", sonra isə "Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur" kəlmələri olan — azandır. Və azanın sonu da həmçinin "Allah Böyükdür, Allah Böyükdür" və sonra "Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur". Məclislərin sonunda deyilənlər də buna oxşardır.

Rəsulullahdan ﷺ rəvayət olunur ki, o, məclislərə Allaha həmd və Onun tövhidi ilə başlayırdı, necə ki, məsələn*, xutbətul hacə* (ehtiyac xütbəsi) olduğu kimi. O, məclislərini də Allahın tövhidi ilə bitirirdi, məsələn, Abdullah ibn Amr ibn əl-Asın (Allah ondan razı olsun) hədisində Peyğəmbərin ﷺ dediyi kimi: ***«Kim məclisdən çıxarkən bu sözləri üç dəfə desə, məclisdə edilən günahları bağışlanar. Əgər bu sözlər xeyir və zikr məclisində söylənsələr, məktub möhürlədiyi kimi, bu məclisə də xeyir möhürü vurarlar. Bu sözlər bunlardır: "Allahım! Sən pak və müqəddəssən! Sənə həmd olsun! Mən şahidlik edirəm ki, Səndən başqa məbud yoxdur. Səndən bağışlama diləyir və Sənə tövbə edirəm!"»***.[1]

---

[1] Əbu Davud 4857, ət-Tirmizi 3433.

# 68. Səfeh o kəsdir ki, tövhiddən üz çevirir

Uca Allah buyurur:

وَمَن يَرْغَبُ عَن مِّلَّةِ إِبْرَٰهِـۧمَ إِلَّا مَن سَفِهَ نَفْسَهُۥ ۚ

**Səfeh olanlardan başqa, kim İbrahimin dinindən üz çevirər?** [1]

Həmçinin Uca Allah buyurur:

وَقَالُوا۟ كُونُوا۟ هُودًا أَوْ نَصَـٰرَىٰ تَهْتَدُوا۟ ۗ قُلْ بَلْ مِلَّةَ إِبْرَٰهِـۧمَ حَنِيفًا ۖ وَمَا كَانَ مِنَ ٱلْمُشْرِكِينَ

**Onlar dedilər: "Yəhudi və ya xaçpərəst olun ki, doğru yola yönələsiniz!" De: "Əksinə, (biz) hənif İbrahimin dinindəyik. O, müşriklərdən deyildi".** [2]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) İbrahimin (əleyhissalam) dini haqqında belə demişdir: «İbrahim özünü, tamamilə öz Rəbbinin tövhidinə həsr etdi, və bir göz qırpımında belə Ona şərik qoşmadı, Ondan başqa heç kəsə dua etmədi. O, Allahdan başqa ibadət ediləndən uzaq olduğunu göstərdi, bu işdə iştirak etmədiyini xalqına, hətta atasına da göstərdi. "...**Səfeh olanlardan başqa**", yəni azğınlıqdan ötrü haqqı tərk etdiyinə görə, bu dünyada düz yola yönəltmək və hidayət etmək üçün seçilmiş şəxsin yoluna zidd olduğu üçün... və həmçinin də onun yolunu və dinini tərk etdiyinə görə, və həmçinin zəlalət yolu ilə getdiyinə görə, və bundan böyük hansı səfehlik ola bilər? Yaxud bundan böyük hansı haqsızlıq ola bilər?"»[3]

Əbdürrəhman ibn Əbzdən (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: "Səhər açılanda, Peyğəmbər ﷺ deyirdi: ***«İslam fitrətində, ixlas kəlməsində, Peyğəmbərimiz Muhəmmədin səllallahu aleyhi və səlləm dinində,***

---

[1] "Bəqərə" surəsi, 130-cu ayə.
[2] "Bəqərə" surəsi, 135-ci ayə.
[3] "Təfsir əl-Quranul-Azim" 1/445.

***hənif [ixlasla Allaha ibadət edən] müsəlman olan və müşriklərdən olmayan atamız İbrahimin millətində olaraq səhərə çıxdıq!"»***[1]

Böyük alim İbn Əbi əl-'İzzul-Hənəfi (Allah ona rəhmət etsin) demişdir: "İbrahimin dini — tövhiddir, Muhəmmədin ﷺ dini isə — Allah tərəfindən söz, əməl və etiqad ilə çatdırılandır. İxlas sözü "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) şəhadətidir, İslamın *fitrəti* isə — Allahın bəndələrini onun üzərində yaratdığı şeydir, Onu sevmək, yalnız Ona (şəriki olmayana) ibadət etmək, bəndəlik və itaət göstərmək, Ona tabe olmaq, və Ona qayıtmaq üçündür. Bu, özəl olanların tövhididir".[2]

Nəfsinə qarşı səfehlik edən, onu zəlalətə sürükləmişdir və *şirk* xətasından daha pis xəta yoxdur, necə ki, Uca Allah buyurmuşdur: **«De: "Qoy ər-Rəhman azğınlıqda olan hər kəsə uzun müddət möhlət versin…»** [3]

İbn əl-Cövzi (Allah ona rəhmət etsin) demişdir: "Yəni küfrdə, tövhidə qarşı kor olaraq".[4]

---

[1] Əhməd 15360, ən-Nəsai 1/133, əs-Səhihə 2989.
[2] "Şərh ət-Tahaviyyə", 1/54.
[3] "Məryəm", surəsi 75-ci ayə.
[4] Zad əl-məsir, 5/259.

# 69. Tövhiddə səhv, yüngül bir şey deyil

Bunu aydınlaşdıran, Əbu Vaqid əl-Leysinin hədisidir, o deyib ki, Allah Rəsulu ﷺ, Huneynə qarşı hərbi yürüşə çıxdığı zaman, müşriklərin "Zatu ənvat" adlandırdıqları və silahlarını asdıqları, ağacın yanından keçərkən, səhabələr dedilər: "Ey Allahın Rəsulu ﷺ, bizə də onlarda olduğu kimi bir "Zətu ənvat" düzəlt". Peyğəmbər ﷺ buyurdu: ***"Allah Pakdır! Bu, Musanın qövmünün dediyi bu sözlərinə bənzəyir: "Onların tanrıları olduğu kimi, bizim üçün də bir tanrı düzəlt". Canım əlində olan Allaha and olsun ki, siz özünüzdən əvvəlkilərin yolu ilə gedirsiniz!"*** [1]

İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət olunur ki, bir nəfər Peyğəmbərə ﷺ dedi: "Allahın və sənin istədiyin kimi", Peyğəmbər ﷺ buna belə cavab verdi: ***"Sən məni Allaha bərabərmi etdin? (Demək lazımdır): "Tək Allahın istədiyi kimi".***[2]

Həmçinin bu məsələnin böyüklüyünə aydınlıq gətirən şeylərdən, Peyğəmbərin ﷺ belə dediyi hədis: ***"Allahdan başqasına and içən şəxs şirk etmişdir"***.[3] Həmçinin başqa bir rəvayətdə belə buyurulur: "***Allahdan başqasına and içilən, hər bir and — şirkdir".***[4]

Səhabələr, bunun təhlükəsini anlayırdılar. Belə ki, İbn Məsud (Allah ondan razı olsun) demişdir: "Mənim üçün yalandan Allaha and içmək, doğru olaraq, Allahdan başqasına and içməkdən daha sevimlidir".[5]

---

[1] ət-Tirmizi 2180.
[2] əl-Buxari, Ədəbu əl-mufrad, 783.
[3] Əhməd 5375, Əbu Davud 3251, ət-Tirmizi 1535.
[4] əl-Hakim 50, "Səhihul-Cami" 4567 "Uca Allah" sözü olmadan.
[5] Əbdürrəzzaq "Musənnəf"-ində 15929, İbn Əbi Şeybə "Musənnəf"-ində 12281, ət-Təbərani "əl-Kəbir"də 8903.

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) bu əsəri *şərh* edərək demişdir: "Çünki tövhidin xeyirxahlığı, doğru danışmağın xeyirxahlığından daha böyükdür, yalanın günahı isə *şirkin* günahından daha yüngüldür"[1]

Həmçinin bunlardan, Salman əl-Farisinin (Allah ondan razı olsun) hədisində, Rəsulullahın ﷺ belə dediyini nəql edir: ***"Bir nəfər milçək səbəbiylə Cəhənnəmə, digəri isə Cənnətə girdi"***. İnsanlar ondan soruşdular: "Bu necə oldu, ey Allahın Rəsulu?" O cavab verdi: ***"Bir dəfə iki nəfər, bütləri olan bir qəbilənin yanından keçirdi, o büt üçün bir şey qurban kəsilmədikcə heç kəsi onun yanından keçib getməyə qoymurdular. Onlar yolçulardan birinə dedilər: "Ona (bütə) hər hansı bir şeyi qurban gətir!" O dedi: "Mənim qurban verəcəyim heç nəyim yoxdur". Onlar cavab verdilər: "Heç olmasa bir milçək qurban gətir". Və o adam milçəyi büt üçün qurban gətirdi, və buna görə ona yol verdilər ki, gedə bilsin və bu əməl ilə o adam Cəhənnəm əhli oldu. Sonra ikincisinə dedilər: "Bütə hər hansısa bir qurban gətir". O cavab verdi: "Mən Böyük və Qüdrətli Allahdan başqa heç kəs üçün, heç bir qurban etmirəm", ondan sonra onun boynunu vurdular və o adam Cənnətə daxil oldu".***[2]

Şeyxul-islam Muhəmməd ibn Əbdulvəhhab (Allah ona rəhmət etsin) belə deyərək şərh etdi: "Bu, möminlərin qəlbində *şirkin* şiddətini bilmələrinə dələlət edir – necə ki, o şəxs edamların önündə necə səbir göstərdi və onların tələb etdikləri ilə razılaşmadı, baxmayaraq ki, onlar zahiri bir əməldən başqa bir şey tələb etmədilər".[3]

---

[1] Əl-müstədrək əl-fətava, 5/140.

[2] İbn Əbi Şeybə əl-Musənnəfdə Salmandan 7/642, Əhməd əl-Zuhddə səh. 15, əl-Hilya 1/203.

[3] "Kitab ət-tövhid" "Allahdan qeyrisinə qurban kəsmək haqqında nə gəlibsə" fəsli, onuncu sual.

# 70. Tövhid — uşaqlara öyrədilən və tərbiyə edilən ilk şeydir

Peyğəmbərimiz ﷺ, səhabələrinin qəlbində, tövhidi yetişdirmək üçün, böyük bir səy göstərmişdir. Bu səy, uşaqları da əhatə edirdi, çünki onlar gələcəyin bəhrələri və xəzinələridirlər. Biz artıq, Rəhmanın sevimlisi olan, İbrahim və Yəqub əleyhissəlamın, nəslinə etdiyi əhdi misal çəkdik. Buna bənzər həmçinin, saleh bəndə Loğmanın da oğluna verdiyi vəsiyyəti var ki, ona nəsihət verərək deyir:

يَٰبُنَيَّ لَا تُشۡرِكۡ بِٱللَّهِۖ إِنَّ ٱلشِّرۡكَ لَظُلۡمٌ عَظِيمٞ

«Oğlum! (Allaha) şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!» [1]

Bu haqda çoxlu hədislərdə işarələr vardır. Bunlardan, Peyğəmbərin ﷺ İbn Abbasa (Allah ondan və atasından razı olsun) vəsiyyəti ilə bağlı nəql olunanlar var ki, peyğəmbər ﷺ ona belə demişdir: ***"Ey oğlan, mən sənə bir neçə kəlmə öyrədəcəyəm: Allahı yad et ki, O da səni qorusun, Allahı yad et, və sən Onu öz qarşında taparsan. Əgər bir şey istəmək istəyirsənsə, Allahdan istə, əgər kömək diləmək istəyirsənsə, Allahdan dilə, və bil ki, əgər bütün insanlar sənin üçün, faydalı bir iş görmək üçün, bir araya gəlsələr, ancaq Allahın sənə təqdir etdiyində fayda verərlər, və əgər sənə zərər vermək üçün bir yerə toplansalar, ancaq Allahın sənə təqdir etdiyinə görə sənə zərər verərlər, çünki qələmlər artıq qaldırılıb və səhifələr quruyub".*** [2]

Həmçinin Müaviyə ibn əl-Həkam əs-Sulaminin (Allah ondan razı olsun) nəql olunan hədisində, o deyir: "Mənim Uhud və əl-Cəvvaniyyənin qarşısında, qoyunları otaran, cavan bir kölənm var idi. Bir gün gördüm ki, canavar ondan bir qoyun apardı. Mən də Adəm övladları kimi bir insanam. Mən də hamı kimi əsəbiləşə bilirəm. Elə oldu ki, mən onu vurdum. Rəsulullahın yanına gəldiyim zaman, bu əməli ağır hesab etdim və dedim: "Ey Allahın Rəsulu ﷺ! Onu azad

---

[1] "Loğman" surəsi 13-cü ayə.
[2] ət-Tirmizi 2516.

edimmi? O dedi: ***“Onu mənim yanıma gətir”***. Mən onunla birlikdə Peyğəmbərin ﷺ yanına gəldiyim zaman, Peyğəmbər ﷺ ondan soruşdu***: “Allah haradadır?”*** O dedi: *“Göydə”*. O soruşdu: ***“Bəs mən kiməm?”*** Qadın: *“Sən Allahın Rəsulusan”* deyə cavab verdi. O zaman o dedi: ***“Onu azad et, çünki o, mömindir”***.[1]

---

[1] Elm və ya onun bir hissəsinə, sahib olduqlarını iddia edənlərdən, bu yuxarıda qeyd olunan hədisin, "Mücadilə" surəsinin bir ayəsi ilə ləğv edildiyini söyləməyə cəsarətlənən insanları eşitdikdə, çox təəccüblənəcəksən: **"Məgər Allahın göylərdə və yerdə olan, hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən, elə bir xəlvəti söhbət yoxdur ki, (onların) dördüncüsü, və beş nəfərin də altıncısı Allah olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, (Allah) onların yanındadır. Sonra Qiyamət günü, onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir"**, eləcə də "əl-Hədid" surəsində bir ayə, **"O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Siz harada olsanız belə, O sizinlədir".** Və bu bədbəxt, heç bir halda hədislərdə ləğvin olmadığını bilmir, böyük alimlərin qeyd etdiyi kimi. Bunlardan böyük alim İbn Nuhas (Allah ona rəhmət etsin) demişdir: “Onlardan olanlar, belə deyirlər: “Ləğv — hədislər, əmrlər və qadağalar vasitəsilə olur”. Bunlar çox təhlükəli sözlərdir ki, küfrə səbəb ola bilərlər, çünki danışan: “Filankəs qalxdı” desə, sonra da: “Qalxmadı” desə və bütün bunlardan sonra da, belə davam edib desə ki: “Mən onu ləğv etdim." Bu halda o, yalançı sayılacaq”. Bax, Ən-Nasih və əl-Mənsuh 1/404-405, Nəvasih əl-Quran İbn əl-Cövzi 1/131-132, əl-İtqan fi ‘ulum əl-Quran 4/1437.

Hədislə, ayələr arasındakı birləşmə, çox açıqdır — hədis mahiyyət etibarilə, Allahın ucalığına işarə edir, ayələrdə isə deyilir ki, Pak olan Allahu Təalənın elmi, bizdən uca olması ilə yanaşı, bizi əhatə edir. O, ucalığı ilə yaxındır, yaxınlığı ilə ucadır və buna görə də İmam Əhməd (Allah ona rəhmət etsin) Mücadilə surəsinin ayəsi haqqında buyurur: “Onlar, yəni cəhmiyyələr dedilər ki, Allah bizimlədir, və içimizdədir! Biz cavab verəcəyik: Niyə hədisi, əvvəlində kəsdiniz, həqiqətən, Böyük və Qüdrətli olan Allah buyurdu: **"Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən?"** Sonra o buyurdu: **“Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, (onların) dördüncüsü, O olmasın”**, yəni Allah öz elmi ilə dördüncüsüdür. **“yaxud beşi arasında”**, yəni öz biliyi ilə. **"Altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – (Allah) onların yanındadır"**, yəni Öz elmi ilə. **"harada olursa olsunlar. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir"**: Allah bu ayədə xəbəri Öz elmi ilə başlamış və elmlə bitirmişdir. Bax: “Ər-rədu ‘ala əl-cəhmiyyə”, səh. 297, “Muxtasar əl-‘ulu” əz-Zəhəbi səh. 190, "İctima' əl-cuyuushul-islamiya" İbn əl-Qeyyim səh. 200.

Bu, hədisdə qeyd olunduğu kimi, Peyğəmbərimizin ﷺ cəriyəyə verdiyi sualdan nümunə götürərək, uşaqlara: “Allah haradadır?” sualının verilməsinin caiz və hətta arzuolunan olduğunu sübut edir.

Bu, digər böyük etiqad məsələlərində də, saleh sələflərin adəti olub. Buna bənzər, Malik ibn Ənəsdən (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: “Saleh sələflər, övladlarına Qurandan surələri öyrətdikləri kimi, Əbu Bəkr və Öməri (Allah onlardan razı olsun) sevməyi də öyrədirdilər”.[1]

Əbul-Həsən ət-Tənəfəsinin (Allah ona rəhmət etsin) Dəccal haqqında uzun bir hədis gətirdikdən sonra, qeyd etdiyi də buna bənzərdir: “Mən Əbdürrəhman əl-Maharibinin belə dediyini eşitdim: “Bu hədisi tərbiyəçilərə çatdırmaq lazımdır ki, onlar onu təhsil müəssisələrində uşaqlara öyrətsinlər”.[2]

Böyük alim İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: “Kim öz övladlarına fayda verəcək şeyləri öyrətməkdən səhlənkarlıq edər və onları elmsiz qoyarsa, uşaqlara qarşı ən pis rəftar etmiş olar.

Uşaqların çoxu valideynlərinin etinasızlığı, dində və sünnədəki vacibatlarını öyrənməyə boş buraxdıqları üçün fəsadlara uğramışlar. Valideynlər, onları uşaq ikən itirirlər və bu uşaqlar nə özlərinə, nə də qocaldıqda valideynlərinə fayda verməyəcəklər".[3]

Həmçinin o (Allah ona rəhmət etsin) demişdir: “Əgər dil açdıqları bir dövrdürsə, onları *“Lə iləhə illəllah, Muhəmmədun rəsulullah”* deməyə alışdırmaq lazımdır. Və onlara, qulaq asmaq üçün verilən ilk şey qoy bu olsun – bu, pak Allahın elmi və Onun tövhididir, və ərşin üzərindəki ən pak olan, Allah onlara baxır, sözlərini eşidir və harada olurlarsa olsunlar, O, onlarladır. Bənu İsrail övladlarına “Amanuil” adını tez-tez qoyurdular və bu sözün mənası – bizim İlah bizimlədir. Və buna görə də Allah üçün ən sevimli adlar, Abdullah

[1] “Şərh üsuli i’tikad əhlu sünnə” əl-Ləләqayi, 4/1313.
[2] İbn Macə 4077.
[3] Tuhfətu əl-məududi bi-əhkamul-məulud, İbn əl-Qeyyim, səh. 161.

və Abdurrəhmandır, çünki uşaq Allahın qulu olduğunu başa düşsə və dərk etsə, Allahın onun Rəbbi və himayədarı olduğunu anlayar".[1]

[1] Əvvəlki qeyd, səh. 164.

# 71. Ən böyük ixlas, tövhidi yerinə yetirməkdə, Uca Allah qarşısında olan, ixlasdır və yalnız Ona, Pak və Uca olan Allaha ibadət etməyi əmr etməkdir

Uca Allah buyurur:

لَّيْسَ عَلَى ٱلضُّعَفَآءِ وَلَا عَلَى ٱلْمَرْضَىٰ وَلَا عَلَى ٱلَّذِينَ لَا يَجِدُونَ مَا يُنفِقُونَ حَرَجٌ إِذَا نَصَحُوا۟ لِلَّهِ وَرَسُولِهِۦ ۚ مَا عَلَى ٱلْمُحْسِنِينَ مِن سَبِيلٍ ۚ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ

**Allaha və Onun Elçisinə sadiq qalacaqları təqdirdə acizlərə, xəstələrə və (döyüşdə) vuruşmağa vəsait tapa bilməyənlərə (evdə qalmaqda) heç bir günah yoxdur. Yaxşı işlər görənləri danlamağa əsas da yoxdur. Allah Bağışlayandır, Rəhmlidir.**[1]

Əl-Qurtubi (Allah ona rəhmət etsin) demişdir: «Böyük və Qüdrətli olan Allaha qarşı ixlas, Allahın təkliyinə ixlaslı olaraq inanmaqdır, Onu yalnız Onun ibadətə layiq olduğu ilə vəsf etmək, Onu hər bir nöqsandan uzaq tutmaq, Onun sevdiyi şeylərə səy etmək və Onu qəzəbləndirəcək şeylərdən uzaqlaşmaqdır. Rəsulullaha ﷺ qarşı ixlas isə, onun peyğəmbərliyinə iman, əmr və qadağalarda ona tabe olmaq, onun sevdiyi şeylərə məhəbbət göstərmək və düşmənçilik etdiyi şeylərə düşmənçilik etmək, ona hörmət etmək, onu və ailə üzvlərini sevmək, onun ölümündən sonra onun sünnətini öyrənməklə, dirçəltmək və ucaltmaqdır...» [2]

---

[1] "Tövbə" surəsi, 91-ci ayə.
[2] Əl-cəmi'li-əhkam əl-Quran, 8/208.

## 72. Böyük və Qüdrətli olan Allah, bizim üçün bir din olaraq, tövhiddən razıdır və başqasını istəmək icazəli deyildir

Uca Allah buyurur:

ٱلۡيَوۡمَ أَكۡمَلۡتُ لَكُمۡ دِينَكُمۡ وَأَتۡمَمۡتُ عَلَيۡكُمۡ نِعۡمَتِي وَرَضِيتُ لَكُمُ ٱلۡإِسۡلَٰمَ دِينٗاۚ

**Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim.**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) bu ayə haqqında belə demişdir: “Bu İslamdır. Allah Öz Peyğəmbərinə ﷺ və möminlərə xəbər verdi ki, dini onlar üçün tamamlamışdır və onlar bir daha ona əlavələr etməyə ehtiyac duymayacaqlar. Allah onu tamamlamışdır və orada heç bir nöqsan olmayacaq, ondan razıdır və heç vaxt bu dinə qarşı qəzəblənməyəcək".[2]

Və heç bir şübhə yoxdur ki, Allahu Təalənın bizim üçün razı qaldığı hər şeyin əvvəlində, Onun tövhidi dayanır, O, Böyük və Qüdrətlidir. Əbu Hureyrə (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurdu: ***“Həqiqətən, Allahu Təalə sizin üç şeyi etməyinizi istəyir, başqa üç şeyi isə etməyinizi istəmir: O, sizin yalnız Ona ibadət etməyinizi, Onunla yanaşı başqa heç bir şeyə ibadət etməməyinizi və hamınızın Allahın ipindən yapışmağınızı və ayrı düşməməyinizi istəyir, və sizin qeybətlə məşğul olmağınızı, çoxlu suallar verməyinizi və pulunuzu boş yerə sərf etməyinizi istəmir”***.[3]

---

[1] "Maidə" surəsi, 3-cü ayə.
[2] Təfsir əl-Quran əl-Əzım, 2/14.
[3] Muslim 1715.

# 73. Qəlblərin təmiz olması Tək Allahın tövhidi ilə əldə edilir

Allahu Təalənın hikməti tələb edir ki, Allahın tövhidi olmadan qəlblərin təmizlənməsi qeyri mümkündür, yəni bədənlərin su ilə dəstəmaz və qüsl vasitəsilə təmizləmədən pak olmadığı kimi. Buna görə də Allahu Təalə Öz Peyğəmbərinə ﷺ buyurdu: **"Geyimini təmiz saxla!"** [1] Səid ibn Cubeyr əd-Dəhhak dedi: "Yəni *şirkdən*".[2]

Böyük alim əs-Sidi (Allah ona rəhmət etsin) demişdir: "Ayəni elə təfsir etmək olar ki, bəlkə də burada geyim dedikdə bütün əməllər nəzərdə tutulur, təmizlik dedikdə isə ixlas, işləri tam şəkildə yerinə yetirmək və onları, əməlləri batil edən və ya korlayan, onları naqis edən şeylərdən – şirkdən, özünü göstərməkdən, riyadan, özünü aldatmaqdan, təkəbbürlükdən, səhlənkarlıqdan və qula ibadətdə çəkinməsi əmr olunan bu kimi şeylərdən təmizləmək nəzərdə tutulur".

Həmçinin Uca Allahın sözləri:

وَعَهِدْنَآ إِلَىٰٓ إِبْرَٰهِـۧمَ وَإِسْمَـٰعِيلَ أَن طَهِّرَا بَيْتِىَ لِلطَّآئِفِينَ وَٱلْعَـٰكِفِينَ وَٱلرُّكَّعِ ٱلسُّجُودِ

**Biz İbrahimə və İsmailə: "Evimi təvaf edənlər, etikafa girənlər, rüku və səcdə edənlər üçün təmizləyin!"– dedik.**[3]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: «Əbu Hatim (Allah ona rəhmət etsin) demişdir: "Ubeyd ibn Umeyr, Əbu Aliyə, Səid ibn Cubeyr, Mücahid, Ata və Qatadədən rəvayət edilmişdir: **"Evimi (Kəbəni) təmizləyin"**, yəni şirkdən *"Lə iləhə illə-Llah"* (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) vasitəsi ilə».[4]

[1] "Mudəssir" surəsi, 4-cü ayə.
[2] Zadül-Məsir İbn əl-Cövzi, 8/402.
[3] "Bəqərə" surəsi, 125-ci ayə.
[4] Təfsir əl-Quran əl-Əzım, 1/419. Bax, "Cami əl-bəyan", 1/539.

İmam Bəğavi (Allah ona rəhmət etsin) bu ayənin təfsirində buyurur: “Yəni onu tövhid üzərində qurun”.[1]

Həmçinin bunlardan Uca Allahın bu kəlamı:

وَوَيْلٌ لِّلْمُشْرِكِينَ ۝٦ ٱلَّذِينَ لَا يُؤْتُونَ ٱلزَّكَوٰةَ وَهُم بِٱلْءَاخِرَةِ هُمْ كَـٰفِرُونَ

**Vay müşriklərin halına! O kəslərin ki, zəkat vermir və axirəti inkar edirlər.**[2]

İmam Bəğavi, İbn Abbasdan nəql edir ki, o, **«zəkat verməyənlər»** ayəsinin kəlmələri haqqında belə demişdir: “O kəslər ki, *“Lə iləhə illə-Llah”* (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) deməzlər, bu da — nəfsin zəkatıdır. Ayənin mənası budur ki, onlar tövhid vasitəsi ilə, nəfslərini şirkdən təmizləmirlər".[3]

Uca Allah buyurur:

فِيهِ رِجَالٌ يُحِبُّونَ أَن يَتَطَهَّرُوا۟ ۚ وَٱللَّهُ يُحِبُّ ٱلْمُطَّهِّرِينَ

**Orada pak olmağı sevən kişilər vardır. Allah da pak olanları sevir.**[4]

Böyük alim Süleyman ibn Abdullah Əli əş-Şeyx (Allah ona rəhmət etsin) demişdir: “Yəni o kəslər ki, şirk çirkindən və murdar şeylərdən təmizləndikdən sonra murdarlıq və natəmizlikdən təmizlənirlər”.[5]

Bədənin paklığı ilə qəlbin paklığının bir-birinə bağlı olmasına, Ömər ibn Xəttabın (Allah ondan razı olsun) hədisi də dəlalət edir ki, Allah Rəsulu ﷺ buyurur: ***“Hər hansı bir müsəlman düzgün dəstəmaz alsa və sonra desə: “Şəhadət edirəm ki, Allahdan başqa, ibadətə layiq, haqq məbud yoxdur və şəhadət edirəm ki, Muhəmməd — Onun qulu və elçisidir. Allahım, məni tövbə edənlərdən et və məni paklananlardan et”, Cənnətin səkkiz qapısı onun üzünə mütləq açılar və o, ora istədiyi qapıdan girər”***.[6]

---

[1] “Məalim ət-tənzil”, 1/104.
[2] "Fussilət" surəsi, 6-7-ci ayələr.
[3] “Məalim ət-tənzil” 5/58, Təfsir əl-Quran əl-Əzım7/164.
[4] "Tövbə" surəsi, 108-ci ayə.
[5] Təysir əl-Əzizi əl-Həmid, 1/378.
[6] Ət-Tirmizi 55, İbn Macə 470, “əl-İrua” 96.

Həmçinin kafir, İslamı qəbul etdikdə, onun qüsl almasının və küfr saçını kəsməsinin vacibliyinə dəlalət edən işarələr gəlmişdir, eynən necə ki, onun sünnət olunması da qanuniləşdirilmişdir.

Qeys ibn Asimdən (Allah ondan razı olsun) rəvayət olunur ki, o İslamı qəbul edən zaman Peyğəmbər ﷺ su və sidr ilə qüsl almağı əmr etdi.[1]

[1] ət-Tirmizi 605.

## 74. Tövhid qəlblərdəki kin küdurəti aradan qaldırır

Zeyd ibn Sabit (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: ***"Üç xislət, möminin qəlbində kin qoymaz: Allah rizası üçün olan ixlaslı əməl, müsəlmanların hökmdarlarına səmimi münasibət və müsəlman cəmaata bağlılıq"***.[1]

İbn əl-Əsir (Allah ona rəhmət etsin) demişdir: "Bunun mənası budur ki, bu üç xüsusiyyət vasitəsilə qəlblər islah olur. Kim onlara əməl etsə, onun qəlbi xəyanətdən, fitnə-fəsaddan və pislikdən təmizlənər".[2]

Qəlbləri islah edən ən böyük şey, Allahu Təalənın tövhididir, çünki bu, insanı ədalətə alışdırır, haqsızlığın olmamasına, haqqı olan kəslərin haqqına hörmət etməyi öyrədir, qorxu hissi yaradır ki, Allahu Təalə onun sözlərini və əməllərini müşahidə edir. Bu vəziyyətdə olanın, qəlbi necə islah olmaz? Buna görə də, Peyğəmbər ﷺ tövhidlə başladı, çünki ondan sonra olan, tövhidin ardınca gələcək.

[1] Əhməd 16738, İbn Macə 230, İbn Hibban 67, əs-Səhihə 403.
[2] Ən-nihayət fi ğəribul-hədis, 3/381.

## 75. Tövhid — müsəlmanların birliyinin və həmrəyliyinin ən mühüm səbəbidir

Heç bir şübhə yoxdur ki, tövhid müsəlmanların birliyinin ən mühüm səbəbidir. Əgər onlar Tək olanı çağırıb, Tək olana ibadət edib, Tək olan Allaha tərəf yönəlsələr, o zaman məqsədin təkliyi, qəlblərin və bədənlərin birliyinin ən böyük səbəbi olacaq. Əgər onların yolları və əqidələri parçalansa, bu iş, ixtilaflara səbəb olar və gücləri zəifləyərək, gücləri dağılacaq, və onlar düşmənləri üçün asan ov və qiymətli bir tikə olacaqlar. Uca Allah buyurur:

وَلَا تَنَٰزَعُواْ فَتَفۡشَلُواْ وَتَذۡهَبَ رِيحُكُمۡۖ

**Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz.**[1]

Həmçinin Uca Allah buyurur:

وَٱعۡتَصِمُواْ بِحَبۡلِ ٱللَّهِ جَمِيعٗا وَلَا تَفَرَّقُواْۚ وَٱذۡكُرُواْ نِعۡمَتَ ٱللَّهِ عَلَيۡكُمۡ إِذۡ كُنتُمۡ أَعۡدَآءٗ
فَأَلَّفَ بَيۡنَ قُلُوبِكُمۡ فَأَصۡبَحۡتُم بِنِعۡمَتِهِۦٓ إِخۡوَٰنٗا وَكُنتُمۡ عَلَىٰ شَفَا حُفۡرَةٖ مِّنَ ٱلنَّارِ
فَأَنقَذَكُم مِّنۡهَاۗ كَذَٰلِكَ يُبَيِّنُ ٱللَّهُ لَكُمۡ ءَايَٰتِهِۦ لَعَلَّكُمۡ تَهۡتَدُونَ ﴿١٠٣﴾ وَلۡتَكُن مِّنكُمۡ
أُمَّةٞ يَدۡعُونَ إِلَى ٱلۡخَيۡرِ وَيَأۡمُرُونَ بِٱلۡمَعۡرُوفِ وَيَنۡهَوۡنَ عَنِ ٱلۡمُنكَرِۚ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡمُفۡلِحُونَ
﴿١٠٤﴾ وَلَا تَكُونُواْ كَٱلَّذِينَ تَفَرَّقُواْ وَٱخۡتَلَفُواْ مِنۢ بَعۡدِ مَا جَآءَهُمُ ٱلۡبَيِّنَٰتُۚ وَأُوْلَٰٓئِكَ لَهُمۡ
عَذَابٌ عَظِيمٞ ﴿١٠٥﴾

**Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz (bir-birinizə) düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində (bir-birinizlə) qardaş oldunuz. Siz, alovlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz.Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. Özlərinə aydın dəlillər gəldikdən**

---

[1] "əl-Ənfal" surəsi, 46-cı ayə.

**sonra, firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir.**[1]

Həmçinin Uca Allah buyurur:

مُنِيبِينَ إِلَيْهِ وَٱتَّقُوهُ وَأَقِيمُواْ ٱلصَّلَوٰةَ وَلَا تَكُونُواْ مِنَ ٱلْمُشْرِكِينَ ۝٣١ مِنَ ٱلَّذِينَ فَرَّقُواْ دِينَهُمْ وَكَانُواْ شِيَعًاۖ كُلُّ حِزْبِۢ بِمَا لَدَيْهِمْ فَرِحُونَ ۝٣٢

**Tövbə edərək Ona üz tutun, Ondan qorxun, namaz qılın və şərik qoşanlardan olmayın! O kəslərdən ki, öz dinini bölüb, firqələrə ayrıldılar. Hər firqə öz təriqətini (üstün bilib) sevinir.**[2]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) buyurur: “Onların hər bir zümrəsi və məzhəbi öz haqq dinlərini parçaladılar, bidətlər gətirdilər.**"Hər firqə öz təriqətini (üstün bilib) sevinir"**: *məzhəblərindən* möhkəm yapışdıqlarına sevinirlər. Onlar bundan məmnundurlar və inanırlar ki, həqiqət başqalarında deyil, onlarladır".[3]

Uca Allah buyurur: إِنَّ هَٰذِهِۦٓ أُمَّتُكُمْ أُمَّةً وَٰحِدَةً وَأَنَا۠ رَبُّكُمْ فَٱعْبُدُونِ

**Həqiqətən bu, vahid bir din olaraq sizin (hamınızın) dininizdir. Mən də sizin Rəbbinizəm. Elə isə Mənə ibadət edin!** [4]

Bir qrup Quran təfsirçiləri deyirlər: “Allahu Təalə peyğəmbərləri yad etdikdə belə buyurdu: “Onların hamısı tövhiddə birləşdilər – **“vahid bir din”**, yəni bir din, bu da — islamdır. “*Ümmət*” (الأمة) sözünün kökü — icmadır və bu, məqsədi bir olan qrupdur. Şəriət, öz tərəfdarlarının bir məqsəd uğrunda birləşmələri üçün vahid dinə çevrildi. **"Mən də sizin Rəbbinizəm. Elə isə Mənə ibadət edin!"** yəni sizin tək ilahınız, və buna görə də Məni ibadətdə təkləşdirin.[5]

---

[1] “Ali-İmran” surəsi, 103-105-ci ayələr.
[2] “Rum” surəsi, 31-32-ci ayələr.
[3] Əl-Cami'li-Əhkyam əl-Quran, 18/43.
[4] "əl-Ənbiya" surəsi, 92-ci ayə.
[5] Bax: “Cami əl-bəyan” 17/85, “Məalim ət-tənzil” 3/191, “Əl-cami li-əhkyam” əl-Quran” 11/296.

Uca Allah buyurur:

إِنَّمَا ٱلۡمُؤۡمِنُونَ إِخۡوَةٞ فَأَصۡلِحُواْ بَيۡنَ أَخَوَيۡكُمۡۚ وَٱتَّقُواْ ٱللَّهَ لَعَلَّكُمۡ تُرۡحَمُونَ

**Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə, qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin.**[1]

Böyük alim Əbdüllətif ibn Əbdürrəhman Əli əş-Şeyx (Allah ona rəhmət etsin) qeyd edərək demişdir: «Əgər din bir olarsa, Allaha və Onun Rəsuluna iman həyata keçirilərsə, yalnız tək Allaha ibadət edilərsə, Allaha şərik qoşulanlar və ya Allahdan başqa ibadət edilən, hər şey tərk edilərsə, o zaman din qardaşlığı özünü göstərər. İslam və müsəlmanların bir-birinə olan haqqlarından, Allah və Rəsulunun vacib etdiyi şeylər vacibdir. Onların arasında barışıq üçün səy etmək isə mütləqdir, necə ki, buna Uca Allahın bu sözləri işarə edir: **"Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın".** Lakin buradan belə anlaşılır ki, *imanın* yox olması ilə, qardaşlıq da yox olur. Allah bu anlayışı, Öz Kitabının bəzi yerlərində belə açıq şəkildə bildirmişdir:

لَّا تَجِدُ قَوۡمٗا يُؤۡمِنُونَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ يُوَآدُّونَ مَنۡ حَآدَّ ٱللَّهَ وَرَسُولَهُۥ

**Allaha və Axirət gününə iman gətirən, elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər.**[2]

Uca Allahın sözləri:

يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَتَّخِذُواْ عَدُوِّي وَعَدُوَّكُمۡ أَوۡلِيَآءَ

**Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın!** [3]

Və həmçinin Uca Allahın sözləri:

لَّا يَتَّخِذِ ٱلۡمُؤۡمِنُونَ ٱلۡكَٰفِرِينَ أَوۡلِيَآءَ مِن دُونِ ٱلۡمُؤۡمِنِينَۖ

**Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar!** [4]

---

[1] "Hucurat" surəsi, 10-cu ayə.
[2] "əl-Mucadilə" surəsi, 22-ci ayə.
[3] "Mumtəhənə" surəsi, 1-ci ayə.
[4] "Ali-İmran" surəsi, 28-ci ayə.

Və həmçinin Uca Allahın sözləri:

يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَتَّخِذُواْ ٱلَّذِينَ ٱتَّخَذُواْ دِينَكُمۡ هُزُوٗا وَلَعِبٗا مِّنَ ٱلَّذِينَ أُوتُواْ ٱلۡكِتَٰبَ مِن قَبۡلِكُمۡ وَٱلۡكُفَّارَ أَوۡلِيَآءَۚ

**Ey iman gətirənlər! Sizdən əvvəl Kitab verilənlərdən dininizi ələ salıb oyun-oyuncaq hesab edənləri və kafirləri (özünüzə) dost tutmayın.**[1]

Həmçinin Uca Allahın sözləri, bu sözlərlə başlayan:

بَرَآءَةٞ مِّنَ ٱللَّهِ وَرَسُولِهِۦٓ إِلَى ٱلَّذِينَ عَٰهَدتُّم مِّنَ ٱلۡمُشۡرِكِينَ

**Allah və Onun Elçisi tərəfindən əhd bağladığınız müşriklərə bir xəbərdarlıqdır.**

Və bu sözlərə qədər: وَإِن نَّكَثُوٓاْ أَيۡمَٰنَهُم مِّنۢ بَعۡدِ عَهۡدِهِمۡ

**Əgər kafir başçılar əhd bağladıqdan sonra andlarını pozub.**[2]

Və buna Quranda tez-tez rast gəlinir».[3]

Böyük alim Muhəmməd əl-Əmin əş-Şankitinin (Allah ona rəhmət etsin) dediyi nə qədər gözəldir: "Beləliklə, parçalanmışları birləşdirən, ixtilafda olanları barışdıran həqiqi vəhdət (birlik) "*Lə iləhə illə-Llah*" (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) şəhadətinə görədir. Məgər görmürsənmi ki, bu bağ bütün İslam ümmətini elə birləşdirir ki, o bütün bir bədən kimi olur. O bu ümməti, bir hissəsi digərini dəstəkləyən bir tikinti kimi edir və ərşi daşıyanların və onların ətrafındakıların qəlblərini yer üzündəki Adəm oğullarına meylli edir, onlar fərqli olsalarda. Uca Allah buyurur:

ٱلَّذِينَ يَحۡمِلُونَ ٱلۡعَرۡشَ وَمَنۡ حَوۡلَهُۥ يُسَبِّحُونَ بِحَمۡدِ رَبِّهِمۡ وَيُؤۡمِنُونَ بِهِۦ وَيَسۡتَغۡفِرُونَ لِلَّذِينَ ءَامَنُواْۖ رَبَّنَا وَسِعۡتَ كُلَّ شَيۡءٖ رَّحۡمَةٗ وَعِلۡمٗا فَٱغۡفِرۡ لِلَّذِينَ تَابُواْ وَٱتَّبَعُواْ سَبِيلَكَ وَقِهِمۡ عَذَابَ ٱلۡجَحِيمِ ۝٧ رَبَّنَا وَأَدۡخِلۡهُمۡ جَنَّٰتِ عَدۡنٍ ٱلَّتِي وَعَدتَّهُمۡ وَمَن صَلَحَ مِنۡ ءَابَآئِهِمۡ

[1] "Maidə" surəsi, 57-ci ayə.
[2] "ət-Tövbə" surəsi, 1-12-ci ayələr.
[3] Mənahic ət-təsisi və ət-təqdis, səh. 23.

وَأَزْوَٰجِهِمْ وَذُرِّيَّٰتِهِمْۚ إِنَّكَ أَنتَ ٱلْعَزِيزُ ٱلْحَكِيمُ ۝٨ وَقِهِمُ ٱلسَّيِّـَٔاتِۚ وَمَن تَقِ ٱلسَّيِّـَٔاتِ
يَوْمَئِذٍ فَقَدْ رَحِمْتَهُۥۚ وَذَٰلِكَ هُوَ ٱلْفَوْزُ ٱلْعَظِيمُ ۝٩

**Ərşi daşıyanlar və onun ətrafındakılar öz Rəbbinə həmd edərək onu tərifləyir, Ona iman gətirir və möminlər üçün də bağışlanma diləyirlər: "Ey Rəbbimiz! Sən mərhəmətin və elminlə hər şeyi əhatə edirsən. Tövbə edib Sənin yolunla gedənləri bağışla, onları Cəhənnəm əzabından xilas et! Ey Rəbbimiz! Onları da, onların atalarından, zövcələrindən və nəsillərindən olan əməlisalehləri də onlara vəd etdiyin Ədn bağlarına daxil et. Həqiqətən, Sən Qüdrətlisən, Müdriksən. Onları günahlarının cəzasını çəkməkdən azad et. O gün Sən kimi günahlarının cəzasını çəkməkdən azad etsən, ona rəhm etmiş olarsan. Məhz bu, böyük uğurdur.**[1]

Uca Allah ərşi daşıyan mələkləri və onun ətrafında olanları yer üzündəki Adəm övladları ilə birləşdirən əlaqəyə işarə etdi ki, mələklər bu böyük dua ilə onlar üçün dua edirlər və həqiqətən də bu əlaqə, Böyük və Qüdrətli olan Allaha imandır...

Ümumiyyətlə, müsəlmanlar arasında heç bir ixtilaf yoxdur ki, yer əhlini bir-birinə bağlayan, yer əhlini səma əhli ilə birləşdirən əlaqə, *"Lə iləhə illəllah"* (Allahdan başqa, ibadətə layiq haqq, ilah yoxdur) vasitəsilə olan rabitədir və başqa bir şey üzərində birləşməyə çağırmaq caiz deyildir.[2]

---

[1] "Ğafir" surəsi, 7-9-cu ayələr.
[2] Ədva' əl-bəyan, 3/447-448, ixtisarla.

# 76. Uca Allaha, Ondan başqasına ibadət edilən yerdə, ibadət edən şəxsə qarşı şiddətli təhdid olunması, tövhidin həyata keçirilməsinin vacibliyinə dəlildir

Allahdan qeyrisinə ibadət edilən yerdə, hətta rükn və fərzlərin yerinə yetirilməsi baxımından edilən ibadətlər, düzgün olsalar da belə, onların qəbul olunmaması, tövhidin vacibliyinə və onu həyata keçirməyin vacibliyinə dəlildir.

Sabit ibn əd-Dəhhakdan (Allah ondan razı olsun) rəvayət olunur ki, bir nəfər Buvanda bir neçə dəvə kəsməyi nəzir etdi. O, Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Həqiqətən, mən Buvanda dəvələr kəsmək üçün nəzir etmişəm”. Peyğəmbər ﷺ soruşdu: “***Cahiliyyət dövründə orada bütə sitayiş ediblər?”*** İnsanlar dedilər: "Yox". O soruşdu: ***“Cahiliyyət dövründə orada bütpərəst bayramlar keçirilib?”*** Onlar dedilər: "Yox". Sonra Allah Rəsulu ﷺ buyurdu: ***“Nəzirini yerinə yetir. Şübhəsiz ki, Allaha asi olan və Adəm oğlunun malik olmadığı şeylərlə əlaqəli olan, nəzirə riayət etmək lazım deyil”***.[1]

Buna görə də Şeyxul-islam Muhəmməd ibn Əbdülvəhhab (Allah ona rəhmət etsin) bu hədislə bağlı olan fəslə “Allahdan başqasına qurban kəsilən yerdə, Allah rizası üçün qurban kəsilməz” adı vermişdir.

Onun (Allah ona rəhmət etsin) sözləri buna bənzəyir: “Saleh bir insanın, qəbrinin yanında, Allaha ibadət edən şəxsə gələn şiddətli bir təhdid haqqında fəsil – bəs insanın özünə ibadət edənə nə demək olar?"

[1] Əbu Davud 3313, “ət-Talxisu əl-xabir” 4/180

Bu sual, şirkə aparan yolların bağlanması, fəslində qeyd olunanlara daxildir. Lakin mən tövhidin sözdə, əməldə, məkanda və zamanda əhəmiyyətini bir daha qeyd etmək üçün bu fəsli yazdım.

## 77. Allahın ən gözəl adlarını və ən yüksək sifətlərini təhrif etməklə, mənasını inkar etməklə, bənzətməklə və ya "necə?" sualını verməklə — bu, tövhiddən kənara çıxma və küfrdür

Uca Allah buyurur:

وَلِلَّهِ ٱلۡأَسۡمَآءُ ٱلۡحُسۡنَىٰ فَٱدۡعُوهُ بِهَاۖ وَذَرُواْ ٱلَّذِينَ يُلۡحِدُونَ فِيٓ أَسۡمَٰٓئِهِۦۚ سَيُجۡزَوۡنَ مَا كَانُواْ يَعۡمَلُونَ

Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar.[1]

Uca Allah həmçinin buyurur:

ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَۖ لَهُ ٱلۡأَسۡمَآءُ ٱلۡحُسۡنَىٰ

Allah – Ondan başqa ilah olmayandır. Ən gözəl adlar təkcə Ona xasdır![2]

Hafiz İbn Rəcəb əl-Hənbəli (Allah ona rəhmət etsin) demişdir: “Onun ad və sifətlərini bilmək, elmin ən şərəflisidir”.[3]

---

[1] "Əraf" surəsi, 180-ci ayə.
[2] "Ta ha" surəsi, 8-ci ayə.
[3] “Əhkam əl-Quran” İbn əl-Ərəbi, 2/993.

«Faydalı elm, qulun Rəbbi haqqında öyrəndiyi elm və Ona dəlalət edən şeylərdirlər ki, qul Allahı tanısın, Onu təkləşdirsin, Ona yaxınlaşmaqda səy etsin, Ondan çəkinsin və sanki Onu görürmüş kimi Ona ibadət etsin».[1]

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: “Quranda Allahın adları, sifətləri və əməlləri cənnətdə yemək, içmək və evlilik münasibətlərinin ləzzətlərindən daha çox zikr edilmişdir. Allahın adlarını və sifətlərini xatırladan ayələr məqam baxımından, axirət haqqındakı ayələrindən daha yüksəkdirlər. Quranda ən böyük ayə, bunu ehtiva edən "əl-Kursi" ayəsidir. Müslimin, Peyğəmbərdən ﷺ rəvayət etdiyi səhih hədisdə rəvayət edildiyi kimi, o, Ubey ibn Kə'bə (Allah ondan razı olsun) dedi: ***“Ey Əbul-Münzir, bilirsənmi ki, Allahın kitabında hansı ayə ən əzəmətlidir?”*** O dedi: «Bu o ayədir ki, orada deyilir: **"Allah, Ondan başqa ilah yoxdur, (əbədi) Yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur"».**[2] Bundan sonra, Peyğəmbər ﷺ əlini onun sinəsinə vuraraq dedi: ***“Elmdə xoşbəxt olasan, ey Əbul-Münzir!”*** [3]

Quranın ən yaxşı surəsi isə, “Kitabın anası” surəsidir, necə ki, Əbu Səid əl-Məalinin (Allah ondan razı olsun) “Səhih”də [4] nəql etdiyi hədisdə bildirilir ki, Peyğəmbər ﷺ Əbu Səidə demişdir ki, Tövratda, İncildə, Zəburda buna bənzər bir şey nazil olunmayıb. Bunlar təkrarlanan yeddi ayə və ona verilən böyük Qurandır ki, orada Allahın adları və sifətləri axirətdən daha çox zikr edilirlər.

“Səhih”də peyğəmbərdən ﷺ rəvayət edilir ki, **“De: “O Allah Təkdir!"** surəsi Quranın üçdə birinə bərabərdir. Və “Səhih”də rəvayət olunur ki, Peyğəmbər ﷺ onu oxuyan və “Həqiqətən, mən onu sevirəm, çünki bu, Rəhmanın sifətləri haqqındadır” deyən şəxsi Allahın da onu sevdiyini bildirərək

---

[1] “Fədl ‘ilm əl-Sələf ‘ala ‘ilm əl-Xələf”, səh. 67.
[2] "Bəqərə" surəsi 255-ci ayə.
[3] Muslim 1885.
[4] “Səhih”də rəvayət edilən Əbu Səid əl-Məalinin hədisinin sözləri: “Peyğəmbər ﷺ mənə dedi: “Məsciddən çıxmazdan əvvəl, Quranın surələrinin ən böyüyü olan, surəni mütləq sənə öyrədəcəm...” və 4474 nömrəli hədisin sonuna qədər. Şeyxülislamın istinad etdiyi hədisin formasına gəlincə, İmam Əhmədin Müsnədində Əbu Hureyrənin (Allah ondan razı olsun) 13/310 (8682) hədisindən səhih isnadla verilmişdir.

sevindirmişdir, və Pak və Uca olan Allahın sifətlərini zikr etməyi sevənləri, sevdiyini izah etdi, və bu — geniş bir qapıdır".[1]

Həmçinin Allahın ad və sifətləri məsələsində, sapmalar arasında, onların təhrif edilməsi də vardır.

İmam İbn Qeyyim (Allah ona rəhmət etsin) bunun bir neçə növünü qeyd etdi və buyurdu: "Onların birincisi: bütlərə, Allahın adları verildiyi zaman, necə ki, Əl-Lat الإلهلية və əl-'Uzza —العزيز adlarından əmələ gəlməsi kimi.

İkincisi: Allah, Əzəmətinə yaraşmayan bir şəkildə çağırıldıqda. Necə ki, xristianlar ona ata deyirlər, filosoflar isə Allahı "Absolyut" — بذاته موجبا adlandırırlar.

Üçüncüsü: Allahı, Onun Uca və Pak olunduğu şeylə vəsf etmək, məsələn, yəhudilərdən ən pislərinin Allahın yoxsul olduğuna dair sözləri və ya məxluqları yaratdıqdan sonra dincəldiyi sözləri kimi.

Dördüncüsü: Allahın adlarının mənasını inkar etmək və onların həqiqi mahiyyətini inkar etmək, məsələn, cəhmiyyələrin və onların tərəfdarlarının Allahın adları haqqında: "Həqiqətən, bunlar ancaq sifət və məna daşımayan sözlərdirlər" demələri kimi.

Beşincisi: Allahın sifətlərini, məxluqatın təsvirləri ilə müqayisə etmək.

Allah, Onu müqayisə edənlərin, Onun haqqında dediklərindən daha Ucadır".[2]

Uca Allah buyurur:

وَمَا قَدَرُواْ ٱللَّهَ حَقَّ قَدْرِهِۦ وَٱلْأَرْضُ جَمِيعًا قَبْضَتُهُۥ يَوْمَ ٱلْقِيَٰمَةِ وَٱلسَّمَٰوَٰتُ مَطْوِيَّٰتُۢ بِيَمِينِهِۦۚ سُبْحَٰنَهُۥ وَتَعَٰلَىٰ عَمَّا يُشْرِكُونَ

**Onlar Allahı layiqincə qiymətləndirmədilər. Halbuki Qiyamət günü yer bütünlüklə Onun Ovcunda olacaq, göylər isə Onun Əli ilə büküləcəkdir. O, pakdır, müqəddəsdir və onların (Ona) qoşduqları şəriklərdən ucadır.**[3]

---

[1] "Dar-ət-ta'arud", 5/310–312.

[2] "Bədai'ul-fəvaid", 1/298–299 ixtisarla. Bu maraqlı və faydalı kitabda ad və sifətlərlə bağlı iyirmi qayda və fayda var ki, elm tələb edənlər onları öyrənsinlər.

[3] "əz-Zumər" surəsi, 67-ci ayə.

## 78. Tövhid — dəvət edilən xeyir işlərin ən böyüyüdür, necə ki, şirk qadağan olunan və məzəmmət edilən işlərin ən pisidir

Uca Allah buyurur:

وَلۡتَكُن مِّنكُمۡ أُمَّةٌ يَدۡعُونَ إِلَى ٱلۡخَيۡرِ وَيَأۡمُرُونَ بِٱلۡمَعۡرُوفِ وَيَنۡهَوۡنَ عَنِ ٱلۡمُنكَرِۚ
وَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡمُفۡلِحُونَ

Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır.[1]

Uca Allah buyurur:

كُنتُمۡ خَيۡرَ أُمَّةٍ أُخۡرِجَتۡ لِلنَّاسِ تَأۡمُرُونَ بِٱلۡمَعۡرُوفِ وَتَنۡهَوۡنَ عَنِ ٱلۡمُنكَرِ وَتُؤۡمِنُونَ بِٱللَّهِۗ
وَلَوۡ ءَامَنَ أَهۡلُ ٱلۡكِتَٰبِ لَكَانَ خَيۡرًا لَّهُمۚ مِّنۡهُمُ ٱلۡمُؤۡمِنُونَ وَأَكۡثَرُهُمُ ٱلۡفَٰسِقُونَ

Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə (haqq yolunu) azmış fasiqlərdir.[2]

İbn Abbasın (Allah ondan razı olsun) sözlərindən: *“Lə iləhə illəllah* (Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur) xeyir işlərin ən böyüyüdür, məzəmmət edilən işlərin ən pisi isə Allaha şərik qoşmaqdır".[3]

---

[1] "Ali İmran" surəsi, 104-cü ayə.
[2] "Ali İmran" surəsi, 110-cu ayə.
[3] İmam ət-Təbəri İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edir. “Cami əl-bəyan” 4/45 bəzi dəyişikliklərlə.

Bu ona görədir ki, tövhidə dəvətin və şirki pisləməyin nəticəsi, böyük bir xeyirdir, bunlardan bəzilərini daha əvvəl qeyd etmişik. Və Allahu Taalənın **“Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın”** [1] kəlamı bu iki böyük təməli özündə toplayır.

Böyük alim Muhəmməd ibn Əbdüllətif Əli əş-Şeyx (Allah ona rəhmət etsin) demişdir: “Xeyir işlərin ən böyüyü — tövhid və ona uyğun əməllər etməkdir, onu öyrənmək və ona uyğun əqidə qurmaq, onun vacib əmrlərini və rüknlərini yerinə yetirmək, ona dəvət etmək və insanlara öyüd-nəsihət vermək, ona zidd olanları, onu inkar edənləri və ya tövhidə zidd olan bir dini təbliğ edənləri məzəmmət etməkdir, hansı ki, məzəmmət edilən işlərin ən böyüyüdür, yəni şirk və küfr, eləcə də Allahdan qeyrisinə ibadət etmək”.[2]

[1] "Ən-Nisa" surəsi, 36-cı ayə.
[2] “Əd-durar əs-saniyyə”, 14/311.

# 79. Tövhid kəlmələri — «ən möhkəm dəstəkdir»

Uca Allah buyurur:

لَآ إِكۡرَاهَ فِي ٱلدِّينِۖ قَد تَّبَيَّنَ ٱلرُّشۡدُ مِنَ ٱلۡغَيِّۚ فَمَن يَكۡفُرۡ بِٱلطَّٰغُوتِ وَيُؤۡمِنۢ بِٱللَّهِ فَقَدِ ٱسۡتَمۡسَكَ بِٱلۡعُرۡوَةِ ٱلۡوُثۡقَىٰ لَا ٱنفِصَامَ لَهَاۗ وَٱللَّهُ سَمِيعٌ عَلِيمٌ

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol, azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib, Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir.**[1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) Səid ibn Cubeyrdən (Allah ondan razı olsun) nəql etmişdir: **"ən möhkəm dəstəkdən yapışmış olar"** — bu, "*Lə iləhə illəllah*"-dır (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur)", və həmçinin əd-Dəhhakdan buna bənzər bir şey nəql etmişdir.[2]

Həmçinin İmam ət-Təbəri (Allah ona rəhmət etsin) bu ayənin sonu haqqında buyurmuşdur: "Allah — tək Allaha iman gətirənlərin imanını Eşidəndir, o kəslər ki, Allahın təkliyini təsdiq etdikdə *tağutu* inkar edir, Ona şərik qoşulan şeylərdən və Allahdan başqa ibadət edilən bütlərdən uzaqdırlar. Allah — Biləndir: Allahın *tövhidinə* iman gətirənlərin möhkəmliyi, onların qəlblərində Onun hökmranlığına olan ixlas haqqında və möminlərin qəlblərində başqa məbudlardan, bütlərdən və *tağutlardan* imtina etməkdən gizli qalan şeylər və Onun yaratdığı hər bir nəfsin gizlətdiyi şeylər haqqında. Heç bir şey Ondan gizli qalmayacaqdır ki, Qiyamət günü hər kəsə dilinin danışdığına və nəfsinin gizlətdiyinə görə mükafat verəcəkdir: yaxşıya – yaxşı, pisə – pis".[3]

---

[1] "əl-Bəqərə" surəsi, 256-cı ayə.
[2] "Cami əl-bəyan", 3/20.
[3] Əvvəlki qeyd, 3/21.

## 80. Tövhiddən möhkəm yapışmaq — bütün xeyirlərin əsasıdır

Uca Allah buyurur:

إِلَّا ٱلَّذِينَ تَابُواْ وَأَصۡلَحُواْ وَٱعۡتَصَمُواْ بِٱللَّهِ وَأَخۡلَصُواْ دِينَهُمۡ لِلَّهِ فَأُوْلَٰٓئِكَ مَعَ ٱلۡمُؤۡمِنِينَۖ
وَسَوۡفَ يُؤۡتِ ٱللَّهُ ٱلۡمُؤۡمِنِينَ أَجۡرًا عَظِيمٗا ١٤٦ مَّا يَفۡعَلُ ٱللَّهُ بِعَذَابِكُمۡ إِن شَكَرۡتُمۡ وَءَامَنتُمۡۚ
وَكَانَ ٱللَّهُ شَاكِرًا عَلِيمٗا ١٤٧

**Tövbə edənlər, (əməllərini) islah edənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini Allaha məxsus edənlər istisnadır. Bunlar möminlərlə birgə olacaqlar. Möminlərə isə Allah böyük mükafat verəcəkdir. Şükür etsəniz və iman gətirsəniz, sizə əzab vermək Allahın nəyinə gərəkdir? Allah (itaətkar qullarına) təşəkkür edəndir, Biləndir.**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: “Yəni göstərişi, ixlas ilə əvəz edəcəklər. O zaman, az da olsa saleh əməllər onlara kömək edər”.[2]

İmam İbn əl-Cövzi (Allah ona rəhmət etsin) demişdir: “İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edilmişdir ki, şükür deyərkən tövhid nəzərdə tutulur”.[3]

Həmçinin Uca Allah buyurur:

فَأَمَّا ٱلَّذِينَ ءَامَنُواْ بِٱللَّهِ وَٱعۡتَصَمُواْ بِهِۦ فَسَيُدۡخِلُهُمۡ فِي رَحۡمَةٖ مِّنۡهُ وَفَضۡلٖ وَيَهۡدِيهِمۡ إِلَيۡهِ
صِرَٰطٗا مُّسۡتَقِيمٗا ١٧٥

**Allaha iman gətirən və Ondan möhkəm yapışan şəxsləri isə (Allah) Öz rəhməti və lütfünə qovuşduracaq və onları Özünə tərəf (gedən) düz yola yönəldəcəkdir.**[4]

---

[1] "ən-Nisa" surəsi, 146-147-ci ayələr.
[2] Təfsir əl-Quran əl-Əzım, 2/442.
[3] “Zad əl-məsir”, 2/236.
[4] "Ən-Nisa" surəsi, 175-ci ayə.

İbn Kəsir dedi: “Yəni bütün işlərində, ibadəti və Allaha təvəkkülü birləşdirdilər”.[1]

Böyük və qüdrətli olan Allaha, ancaq Ona tövhid əsasında bağlana biləcəyinə və dinin sütunlarının, bundan başqa heç bir şey üzərində qurulmadığına, Allah Rəsulunun ﷺ sözləri işarə edir: Həqiqətən, Allahu Təalə sizin, üç şeyi etməyinizi istəyir, başqa üç şeyi etməyinizi isə istəmir: O, istəyir ki, siz yalnız Ona ibadət edəsiniz, Onunla yanaşı başqa heç bir şeyə ibadət etməyəsiniz və hamınız Allahın ipindən yapışasınız və parçalanmayasınız...”, hədis yuxarıda qeyd edilmişdir.[2]

Tövhid — Allahın möhkəm ipidir, Onun düz yoludur və ona əməl edən salamat olar, kim onu tərk edərsə, məğlub olar.

---

[1] “Təfsir əl-Quranul-Əzim”, 2/481.

[2] Daha əvvəl, fəsildə qeyd edilmişdir: “Böyük və Qüdrətli Allah, bizim üçün bir din olaraq, tövhiddən razıdır və başqasını istəmək, bizə icazəli deyildir”.

## 81. Tövhid kəlmələri — Allahın Kitabında qeyd olunan əhddir

Uca Allah buyurur:

لَّا يَمْلِكُونَ ٱلشَّفَٰعَةَ إِلَّا مَنِ ٱتَّخَذَ عِندَ ٱلرَّحْمَٰنِ عَهْدًا

**Ər-Rəhmandan əhd almış kəslərdən başqaları, şəfaət etməyə qadir olmazlar.**[1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edir ki, o demişdir: “Əhd — Allahdan başqa, ibadətə layiq, haqq ilah olmadığına şəhadət etmək, öz güc və qüdrətinə deyil, yalnız Allahın verdiyi güc və qüdrətə ümid bağlamaq, Allahdan başqa heç kəsə təvəkkül etməməkdir”.[2]

İbn əl-Cövzi (Allah ona rəhmət etsin) demişdir: “Bu məzmunda əhd, Allahın tövhidi və Ona imandır”.[3]

Uca Allah buyurur: أَمِ ٱتَّخَذَ عِندَ ٱلرَّحْمَٰنِ عَهْدًا

**...yoxsa ər-Rəhmandan vədə almışdır?** [4]

İbn əl-Cövzi (Allah ona rəhmət etsin) demişdir: «İbn Abbas (Allah ondan razı olsun) bu ayə haqqında belə demişdir: “Yəni, yaxud *“Lə iləhə illəllah”* (Allahdan başqa ibadətə layiq olan haqq ilah yoxdur) demişdir ki, Allah onun vasitəsilə ona rəhm etsin”».[5]

---

[1] "Məryəm" surəsi, 87-ci ayə.
[2] “Cami’ul-bəyan” 16/128, “Məalim ət-tənzil” 3/108, “Təfsir əl-Quran əl-‘Əzim” 5/265.
[3] “Zad əl-məsir”, 5/264.
[4] "Məryəm" surəsi 78-ci ayə.
[5] “Zad əl-məsir”, 5/261.

## 82. Tövhid kəlmələri — “ən yaxşı” kəlmələrdirlər

Uca Allah buyurur:

فَأَمَّا مَنْ أَعْطَىٰ وَٱتَّقَىٰ ﴿٥﴾ وَصَدَّقَ بِٱلْحُسْنَىٰ ﴿٦﴾ فَسَنُيَسِّرُهُۥ لِلْيُسْرَىٰ ﴿٧﴾

**Kim (haqqını) verir və (Allahdan) qorxursa, və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə, Biz onu, ən asan olana nail edəcəyik.**[1]

İbn əl-Cövzi (Allah ona rəhmət etsin) İbn Abbasdan (Allah ondan razı olsun) və əd-Dəhhakdan rəvayət edir ki, bu ayədə “ən gözəl olanı” sözünün mənası “*Lə iləhə illəllah*”-dır (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur).[2]

Böyük alim əs-Sidi (Allah ona rəhmət etsin) demişdir: "Yəni, “*Lə iləhə illəllah*”-a və bütün dini inanclardan ona işarə edən hər şeyə və bundan irəli gələn, Əbədi dünyadaki mükafata iman gətirir".[3]

---

[1] "Leyl" surəsi, 5-7-ci ayələr.
[2] “Zad əl-məsir”, 8/149.
[3] “Taysir əl-Kərim ər-Rəhman”, səh. 927.

## 83. Tövhid kəlmələri — «haqqa şəhadətdir»

Uca Allah buyurur:

وَلَا يَمْلِكُ ٱلَّذِينَ يَدْعُونَ مِن دُونِهِ ٱلشَّفَٰعَةَ إِلَّا مَن شَهِدَ بِٱلْحَقِّ وَهُمْ يَعْلَمُونَ

**(Müşriklərin) Onu qoyub yalvardıqları (tanrılar) şəfaət verə bilməzlər. (Mənasını) bilərək, haqqa şəhadət verənlər isə istisnadır.**[1]

İmam əl-Bəğavi (Allah ona rəhmət etsin) demişdir: «Haqqa şəhadət dedikdə, "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) — tövhid kəlmələri nəzərdə tutulur».[2]

İbn əl-Cövzi (Allah ona rəhmət etsin) demişdir: "Bu, onların şəhadət verməläridir "*Lə iləhə illəllah*", və bu da *ixlas* sözləridirlər. "**Mənasını bilərək**", şəhadət etmələri, yəni dillərinin şəhadət etdiyi şeylər haqqında qəlbləri ilə şəhadət etmələri, və bu da, bir çoxlarının *məzhəbidir*".[3]

[1] "Zuxruf" surəsi, 86-cı ayə.
[2] "Məalim ət-tənzil", 4/109.
[3] "Zad əl-məsir", 7/334 kiçik dəyişikliklərlə. Bax, Taysir əl-Kərim ər-Rəhman, səh. 771.

## 84. Tövhid kəlmələri — «Ən xeyirli və ən çox artan əməllərdirlər və qul azad edilməsinə bərabər olan və şeytandan qoruyan əməllərdirlər»

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: ***«Hər kim, gündə yüz dəfə, "Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!" desə, on qul azad edən şəxsin savabı qədər, savab qazanar, və ona yüz xeyir əməl yazılar, əvvəl yazılmış yüz pis əməli silinər və o gün axşama qədər onu şeytandan qoruyar, və ondan daha çoxunu edəcək şəxsdən başqa, heç kim onun etdiyindən daha yaxşı bir şey edə bilməz»***.[1]

Bunlardan həmçinin, Ömər ibn Xəttabdan (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: «Allahın Rəsulu ﷺ demişdir: "Kim bazara daxil olarkən, bu duanı: "Allahdan başqa ibadətə və itaətə layiq, haqq məbud yoxdur. O, Tək və şəriksizdir, mülk və həmd Onundur, O, həyat verəndir və alandır, O, Diridir, ölmür. Bütün xeyir Onun əlindədir, O, hər şeyə qadirdir" — deyərsə, Allah onun üçün min savab yazar, min günahını silər və onun üçün cənnətdə ev tikər"».[2]

[1] Əl-Buxari 6403, Muslim 2691.
[2] Ət-Tirmizi 3428, İbn Macə 2235, əd-Darimi 2017, əl-Münziri "ət-Tərğib və ət-tərhib"də 1694, Şeyx əl-Albani hədisi yaxşı adlandırmışdır.

## 85. Tövhid kəlmələri — «möhkəm sözdür»

Uca Allah buyurur:

يُثَبِّتُ ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُوا۟ بِٱلْقَوْلِ ٱلثَّابِتِ فِى ٱلْحَيَوٰةِ ٱلدُّنْيَا وَفِى ٱلْـَٔاخِرَةِ ۖ وَيُضِلُّ ٱللَّهُ ٱلظَّٰلِمِينَ ۚ وَيَفْعَلُ ٱللَّهُ مَا يَشَآءُ

**Allah, iman gətirənləri, dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər.**[1]

Taus ibn Kaysandan (Allah ona rəhmət etsin) rəvayət olunur ki, o demişdir: **"Allah iman gətirənləri dünya həyatında da möhkəm sözlə sabit saxlayar"** — bu, "*Lə iləhə illəllah*"-dır (Allahdan başqa ibadətə layiq məbud yoxdur) "**axirətdə də**" — yəni qəbirdə".[2]

İbn əl-Cövzi (Allah ona rəhmət etsin) demişdir: "Yəni onları, haqq yolunda möhkəm sözlə sabit saxlayır və bu, "*Lə iləhə illəllah*" şəhadətidir".[3]

---

[1] "İbrahim" surəsi, 27-ci ayə.
[2] Təfsir əl-Quran əl-Əzım, 4/502.
[3] "Zad əl-məsir", 7/361.

## 86. Tövhid kəlmələri — «təqva sözləridirlər»

Uca Allah buyurur:

فَأَنزَلَ ٱللَّهُ سَكِينَتَهُۥ عَلَىٰ رَسُولِهِۦ وَعَلَى ٱلۡمُؤۡمِنِينَ وَأَلۡزَمَهُمۡ كَلِمَةَ ٱلتَّقۡوَىٰ وَكَانُوٓاْ أَحَقَّ بِهَا وَأَهۡلَهَاۚ وَكَانَ ٱللَّهُ بِكُلِّ شَيۡءٍ عَلِيمٗا

**... Allah Öz Elçisinə və möminlərə (mənəvi) rahatlıq nazil etdi və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir.**[1]

Osman ibn Əffandan (Allah ondan razı olsun) rəvayət edilir: "Mən, Allah Rəsulunun ﷺ belə dediyini eşitdim: **"Həqiqətən, mən bəzi kəlmələr bilirəm və qullardan kim onları ürəkdən desə, şübhəsiz ki, Cəhənnəm ona haram olar"**. Bu zaman Ömər ibn Xəttab (Allah ondan razı olsun) Osman ibn Əffana dedi: "Mən bu kəlmələri sənə deyəcəm. Bu, Mübarək və Uca Allahın qulu Muhəmməd ﷺ və onun səhabələrinə vacib etdiyi, ixlas kəlmələridirlər. Bu peyğəmbərin ﷺ əmisi, Əbu Talibin vəfat anında, ona israrla təkrar etdiyi təqva sözləridirlər: "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) şəhadəti".[2]

İmam Təbəri (Allah ona rəhmət etsin) Əli, İbn Məsud, İbn Abbas (Allah onlardan razı olsun) Amr ibn Meymuna, Mücahid, Qatadə, İbn Zeyd, əd-Dəhhak, ‘Ata və əl-Xurasanidən rəvayət edir ki, onlar dedilər ki, **"və onlara təqva sözünü vacib buyurdu"** – bu "*Lə iləhə illəllah*"-dır".[3]

---

[1] "əl-Fəth" surəsi, 26 ayə

[2] Əhməd 447, əl-Hakim 1/351

[3] "Cami əl-bəyan" 26/104–105, "Məalim ət-tənzil" 4/189, "Zad əl-məsir" 7/441, Təfsir əl-Quran əl-Əzım7/ 345, "Tafsir əl-Kərim ər-Rəhman" səh. 795.

# 87. Tövhid kəlmələri — doğruluğun həddidir

Uca Allah buyurur:

يَوْمَ يَقُومُ ٱلرُّوحُ وَٱلْمَلَٰٓئِكَةُ صَفًّا ۖ لَّا يَتَكَلَّمُونَ إِلَّا مَنْ أَذِنَ لَهُ ٱلرَّحْمَٰنُ وَقَالَ صَوَابًا

**Ruh (Cəbrail) və mələklər, səf-səf duracağı gün, Mərhəmətli (Allahın) izin verdiyi kimsələrdən və doğru (söz) deyənlərdən başqa, heç kəs danışmayacaq.**[1]

İmam Təbəri (Allah ona rəhmət etsin) İbn Abbasdan (Allah ondan razı olsun) bu ayənin təfsirində, belə dediyini nəql etmişdir: "*Lə iləhə illəllah*" şəhadətinə görə, Rəbbin icazə verdiyi kəslər istisna olmaqla və bu, doğruluğun (kamalın) həddidir".

Həmçinin İmam ət-Təbəri (Allah ona rəhmət etsin) bunu, İkrimə və Əbu Salehdən də nəql etmişdir.

---

[1] "Ən-Nəbə" surəsi, 38-ci ayə.

# 88. Tövhid kəlmələri — «haqqa çağırış»dır

Uca Allah buyurur:

لَهُۥ دَعۡوَةُ ٱلۡحَقِّۚ وَٱلَّذِينَ يَدۡعُونَ مِن دُونِهِۦ لَا يَسۡتَجِيبُونَ لَهُم بِشَيۡءٍ إِلَّا كَبَٰسِطِ كَفَّيۡهِ
إِلَى ٱلۡمَآءِ لِيَبۡلُغَ فَاهُ وَمَا هُوَ بِبَٰلِغِهِۦۚ وَمَا دُعَآءُ ٱلۡكَٰفِرِينَ إِلَّا فِي ضَلَٰلٖ

**Həqiqi dua, yalnız Ona edilər. Ondan başqa dua etdikləri, onların duasını heç cür qəbul edə bilməz. Onların halı ağzına su gəlsin deyə iki ovcunu suya açan, ancaq suyun gəlib çatmadığı kimsənin halına bənzəyir. Kafirlərin duası ancaq zəlalətdədir (düzgün istiqamətə yönəlməmişdir).**[1]

Əli (Allah ondan razı olsun) demişdir: «**“Haqq çağırış yalnız Onadır”** – bu tövhiddir».[2]

İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət olunur ki, o demişdir: «Bu, “*Lə iləhə illəllah*” (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) şəhadətidir».[3]

Pak olan Allah Haqqdır, və Ona tərəf çağıran da haqqa çağırmış olar. Uca Allah buyurur:

يَوۡمَئِذٖ يُوَفِّيهِمُ ٱللَّهُ دِينَهُمُ ٱلۡحَقَّ وَيَعۡلَمُونَ أَنَّ ٱللَّهَ هُوَ ٱلۡحَقُّ ٱلۡمُبِينُ

**O gün Allah onlara, özlərinə layiq cəzanı tam verəcək və onlar Allahın Aydın, Haqq olduğunu biləcəklər.**[4]

---

[1] “Rad” surəsi, 14-cü ayə.

[2] “Cami əl-bəyan”, 13/128.

[3] Əvvəlki haşiyə, həmçinin bax “Məalim ət-tənzil” 2/520, “Zadul-masir” 4/317, “Təfsir əl-Quran əl-‘Əzim” 4/445.

[4] "ən-Nur" surəsi, 25-ci ayə.

## 89. Allahdan başqa, ibadətə layiq, məbud olmadığına şəhadət — «xalis dindir»

Uca Allah buyurur:

أَلَا لِلَّهِ ٱلدِّينُ ٱلْخَالِصُ ۚ وَٱلَّذِينَ ٱتَّخَذُوا۟ مِن دُونِهِۦٓ أَوْلِيَآءَ مَا نَعْبُدُهُمْ إِلَّا لِيُقَرِّبُونَآ إِلَى ٱللَّهِ زُلْفَىٰٓ إِنَّ ٱللَّهَ يَحْكُمُ بَيْنَهُمْ فِى مَا هُمْ فِيهِ يَخْتَلِفُونَ ۗ إِنَّ ٱللَّهَ لَا يَهْدِى مَنْ هُوَ كَـٰذِبٌ كَفَّارٌ

**Bil ki, xalis din (sırf ibadət, təmiz itaət) ancaq Allaha məxsusdur. Allahı qoyub, (bütləri) özlərinə dost tutanlar: "Biz onlara, yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!" (deyirlər). Şübhəsiz ki, Allah ixtilafda olduqları məsələlər barəsində, (qiyamət günü) onların arasında hökm edəcəkdir. Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz!**[1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) Qatadədən (Allah ona rəhmət etsin) əvvəl öz isnadı ilə buyurmuşdur ki, **"Doğrusu, xalis (əsl) din, ancaq Allaha məxsusdur"** kəlməsi "*Lə iləhə illəllah*" (Allahdan başqa, ibadətə layiq, ilah yoxdur) şəhadətidir".[2]

İbn əl-Cövzi (Allah ona rəhmət etsin) demişdir: "Yəni *şirkdən* (Allaha şərik qoşmaqdan) təmizlənmiş və bundan başqa, heç bir şey, Allahın əmr etdiyi din deyildir".[3]

---

[1] "Zumər" surəsi, 3-cü ayə.
[2] "Cami əl-bəyan", 23/190.
[3] "Zad əl-məsir", 7/161.

## 90. Tövhid kəlmələrinə görə, göylər elə açılır ki, onlar Rəhman, Böyük və Qüdrətli olan Allahın Ərşinə çatırlar

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Rəsulullah ﷺ belə buyurdu: ***«Allahın hansı bir qulu, ixlasla "Lə iləhə illəllah" (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) desə, səmanın qapıları, bu sözlər üçün mütləq elə açılarlar ki, o sözlər Allahın Ərşinə çatarlar, əgər bu sözləri deyən şəxs, böyük günahlardan çəkinərsə».***[1]

Hafiz İbn Rəcəb (Allah ona rəhmət etsin) demişdir: «Əbu Umamə dedi: "Allahın qullarından kim "*Lə ilahə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) kəlmələrini desə, heç bir şey, onların Allahın Ərşinə çatmasına mane olmaz"».[2]

[1] ət-Tirmizi 3590, ən-Nəsai əl-Kubra 10601, Şeyx əl-Albani hədisi səhih adlandırmışdır.
[2] "Kəlimət əl-ixlas", 3/79.

## 91. «Lə iləhə illəllah» şəhadətini gətirən şəxs pak (təmiz) qəlbə sahibdir

Uca Allah buyurur:

وَإِنَّ مِن شِيعَتِهِۦ لَإِبۡرَٰهِيمَ ﴿٨٣﴾ إِذۡ جَآءَ رَبَّهُۥ بِقَلۡبٍ سَلِيمٍ ﴿٨٤﴾

**Həqiqətən, İbrahim onun ardıcıllarından idi. Bir zaman o, öz Rəbbinin yanına pak bir qəlblə gəldi.**[1]

İbn Abbas (Allah ondan razı olsun) demişdir: "Yəni "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) şəhadəti ilə".[2]

Əl-Həsən (Allah ona rəhmət etsin) demişdir: Bu "Şirkdən uzaq (təmiz)" qəlbdir.[3]

Və necə ola bilər ki, tövhid əhli, sağlam (pak) qəlbə malik olmasın?

Pak və Uca Rəbb belə buyurur:

مَن جَآءَ بِٱلۡحَسَنَةِ فَلَهُۥ خَيۡرٞ مِّنۡهَا وَهُم مِّن فَزَعٖ يَوۡمَئِذٍ ءَامِنُونَ

**Hər kim yaxşı əməllə gəlsə, ona daha yaxşısı (Cənnət) verilər. Onlar o gün dəhşətli qorxu hissindən uzaq olarlar**.[4]

Həmçinin Uca Allah buyurur:

هَلۡ جَزَآءُ ٱلۡإِحۡسَٰنِ إِلَّا ٱلۡإِحۡسَٰنُ

**Yaxşılığın əvəzi ancaq yaxşılıq deyildirmi?** [5]

Mükafat əmələ bərabərdir: və hər kim Allahın haqqını nöqsanlardan və onu pozan hər şeydən qorumuş olarsa, Allah onun qəlbini, həm bu dünyada, hidayət edərək və azdırmayaraq, həm də əbədi dünyada, onu xilas edərək qoruyar, və sonunu xeyirli edər və onu rüsvay etməz.

---

[1] "Saffat" surəsi, 83-84-cü ayələr.
[2] Təfsir əl-Quran əl-Əzım, 7/23.
[3] Əvvəlki qeydə baxın.
[4] "Ən-Nəml" surəsi, 89-cu ayə.
[5] "Rahmən" surəsi, 60-cı ayə.

# 92. Tövhidə yönləndirmək, «gözəl kəlamlara» yönləndirməkdir

Uca Allah buyurur:

وَهُدُوٓاْ إِلَى ٱلطَّيِّبِ مِنَ ٱلۡقَوۡلِ وَهُدُوٓاْ إِلَىٰ صِرَٰطِ ٱلۡحَمِيدِ

**Onlar, gözəl kəlamlar öyrənməyə nail olmuş və Tərifəlayiq (Allahın) yoluna yönəldilmişlər.**[1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) **"Onlar gözəl kəlamlar öyrənməyə nail olmuş"** sözləri haqqında belə demişdir: "Rəbbi onları bu dünyada "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) şəhadətinə yönləndirmişdir".[2]

İbn Abbas (Allah ondan razı olsun) **"Onlar gözəl kəlamlar öyrənməyə nail olmuş"** sözləri haqqında demişdir: "Bu, "*Lə iləhə illəllah*"dır. İbn Zeyd (Allah ona rəhmət etsin) əlavə etdi: "...və "Allah Böyükdür, Allaha həmd olsun və Allah Pakdır".[3]

Allahu Təalə, tövhidi gözəl bir söz kimi vəsf etmişdir, kökləri möhkəm, budaqları göyə çatan gözəl bir ağac kimi və Allahın izni ilə bunun açıqlaması gələcəkdir.

---

[1] "Həcc" surəsi, 24-cü ayə.
[2] "Cami əl-bəyan", 17/136.
[3] Bax "Cami' əl-bəyan" 17/136, "Məalim ət-tənzil" 3/210, Təfsir əl-Quran əl-Əzım5/408.

## 93. Tövhid kəlmələri «uca sifətdir»

Uca Allah buyurur:

لِلَّذِينَ لَا يُؤْمِنُونَ بِٱلْـَٔاخِرَةِ مَثَلُ ٱلسَّوْءِ ۖ وَلِلَّهِ ٱلْمَثَلُ ٱلْأَعْلَىٰ ۚ وَهُوَ ٱلْعَزِيزُ ٱلْحَكِيمُ

**Yaramaz sifət, axirətə inanmayanlara xasdır. Ən Uca sifət isə, Allaha məxsusdur. O, Qüdrətlidir, Müdrikdir.**[1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) öz isnadı ilə, İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət edir ki, o belə demişdir: **"Yaramaz sifət"** — oddur, "**ən uca sifət"** isə "*Lə iləhə illəllah*" (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) şəhadətidir".[2]

Qatadə (Allah ona rəhmət etsin) belə demişdir: Bu "*Lə iləhə illəllah*" şəhadətidir. Həmçinin, ondan nəql olunur: "Bu, ixlas və tövhiddir".[3]

[1] "ən-Nəhl" surəsi, 60-cı ayə.
[2] "Cami'ul-bəyan" 14/124, "əl-Cami' li-əhkamul-Quran" 10/106.
[3] "Cami əl-bəyan", 14/124.

# 94. Din ancaq tövhid yolu ilə bərqərar olur

Uca Allah buyurur:

مَا تَعْبُدُونَ مِن دُونِهِۦٓ إِلَّآ أَسْمَآءً سَمَّيْتُمُوهَآ أَنتُمْ وَءَابَآؤُكُم مَّآ أَنزَلَ ٱللَّهُ بِهَا مِن سُلْطَٰنٍۚ
إِنِ ٱلْحُكْمُ إِلَّا لِلَّهِ أَمَرَ أَلَّا تَعْبُدُوٓا۟ إِلَّآ إِيَّاهُۚ ذَٰلِكَ ٱلدِّينُ ٱلْقَيِّمُ وَلَٰكِنَّ أَكْثَرَ ٱلنَّاسِ لَا
يَعْلَمُونَ

**Ondan başqa ibadət etdikləriniz, sizin və atalarınızın adlandırdığınız adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. O əmr etmişdir ki, yalnız Ona ibadət edəsiniz. Doğru din budur, lakin insanların çoxu (bunu) bilmir.**[1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) buyurur: **"Doğru din budur"** – mənim sizi Allahla yanaşı heç bir bütlərə ibadət etməməyə, həmçinin Uca Allaha ibadətdə ixlaslı olmağa çağırdığım budur. Bu, heç bir sapma olmayan, doğru dindir və heç bir şübhə olmayan həqiqətdir. Lakin Allaha şərik qoşanlar bundan xəbərsizdirlər və onun mahiyyətini bilmirlər”.[2]

Həmçinin İbn əl-Cövzi (Allah ona rəhmət etsin) demişdir: **“Doğru din budur”**, yəni düzgün olandır və bu, tövhidə dəlalət edir”.[3]

Həmçinin Uca Allah buyurur:

نَّ هَٰذَا ٱلْقُرْءَانَ يَهْدِى لِلَّتِى هِىَ أَقْوَمُ وَيُبَشِّرُ ٱلْمُؤْمِنِينَ ٱلَّذِينَ يَعْمَلُونَ ٱلصَّٰلِحَٰتِ أَنَّ
لَهُمْ أَجْرًا كَبِيرًا

**Həqiqətən, bu Quran (insanları) ən doğru yola yönəldir və yaxşı işlər görən möminlərə, özləri üçün böyük mükafat olacağı ilə müjdə verir.**[4]

---

[1] "Yusuf" surəsi, 49-cı ayə.
[2] “Cami’ul-bəyan” 12/220 və bax Təfsir əl-Quran əl-Əzım 4/390.
[3] “Zad əl-məsir”, 4/226.
[4] "İsra" surəsi 9-cu ayə.

İmam əl-Bəğavi (Allah ona rəhmət etsin) demişdir: “Yəni ən doğru yola. Və deyildi: “Ən ədalətli söz “*Lə iləhə illəllah*” (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) şəhadətidir”.[1]

Və “*Lə iləhə illəllah*” — bütün xeyirlərin açarı və doğru hər şeyin yoludur, necə ki, bu ayə haqqında imam Qurtubi (Allah ona rəhmət etsin) belə deyərək qeyd etmişdir: “Yəni, ən ağıllı, ən ədalətli və ən düzgün yoldur, və bu, Allahın tövhidi və Onun elçilərinə imandır”.[2]

---

[1] “Məalim ət-tənzil”, 2/671.
[2] “Cami li-əhkyam əl-Quran”, 10/197.

## 95. Tövhidin, Quran qissələri ilə təsdiqi

Uca və Pak Allah, Öz Kitabında, peyğəmbərlər və onların qövmləri arasında, baş vermiş tövhid məsələsi ilə bağlı, çoxlu dialoq və mübahisələrdən bəhs etmişdir.

Bu, çox geniş bir fəsildir, çünki elçilərin göndərilməsində məqsəd, qeyd edildiyi kimi, tövhidə dəvət və tövhid üçün *fitrətin*, ağlın və şəriətin dəlillərini çatdırmaq idi.

Və bunlardan da, Allahu Təalənın yer əhlinə göndərdiyi ilk elçisi — Nuh peyğəmbəri (aleyhi salləm) zikr etməsidir. Uca Allah buyurur:

وَلَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَىٰ قَوْمِهِۦ فَقَالَ يَٰقَوْمِ ٱعْبُدُوا۟ ٱللَّهَ مَا لَكُم مِّنْ إِلَٰهٍ غَيْرُهُۥٓ ۚ أَفَلَا تَتَّقُونَ

**Həqiqətən, Biz Nuhu öz qövmünə elçi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin! Sizin Ondan başqa heç bir ilahınız yoxdur. Məgər qorxmursunuz?"** [1]

Uca Allah, İbrahim əleyhissalam haqqında da belə buyurmuşdur:

قَالَ أَفَرَءَيْتُم مَّا كُنتُمْ تَعْبُدُونَ ﴿٧٥﴾ أَنتُمْ وَءَابَآؤُكُمُ ٱلْأَقْدَمُونَ ﴿٧٦﴾ فَإِنَّهُمْ عَدُوٌّ لِّىٓ إِلَّا رَبَّ ٱلْعَٰلَمِينَ ﴿٧٧﴾ ٱلَّذِى خَلَقَنِى فَهُوَ يَهْدِينِ ﴿٧٨﴾ وَٱلَّذِى هُوَ يُطْعِمُنِى وَيَسْقِينِ ﴿٧٩﴾ وَإِذَا مَرِضْتُ فَهُوَ يَشْفِينِ ﴿٨٠﴾ وَٱلَّذِى يُمِيتُنِى ثُمَّ يُحْيِينِ ﴿٨١﴾ وَٱلَّذِىٓ أَطْمَعُ أَن يَغْفِرَ لِى خَطِيٓـَٔتِى يَوْمَ ٱلدِّينِ ﴿٨٢﴾

**O dedi: "Siz nəyə ibadət etdiyinizi görürsünüzmü – həm siz, həm də ulu babalarınız? Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir. O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir, O Rəbb ki, məni yedirdir və içirdir, O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir, O Rəbb ki,**

[1] "Muminun" surəsi, 23-cü ayə.

**məni öldürəcək, sonra dirildəcəkdir, O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram".[1]**

Həmçinin, Uca Allah, Hud əleyhissalam haqqında belə buyurmuşdur:

وَإِلَىٰ عَادٍ أَخَاهُمْ هُودًا ۚ قَالَ يَٰقَوْمِ ٱعْبُدُوا۟ ٱللَّهَ مَا لَكُم مِّنْ إِلَٰهٍ غَيْرُهُۥٓ ۖ إِنْ أَنتُمْ إِلَّا مُفْتَرُونَ

**Ad qövmünə də qardaşları Hudu (göndərdik). O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ilahınız yoxdur. Siz ancaq iftira yaxırsınız”.[2]**

Uca Allah Saleh (əleyhissalam) haqqında buyurur:

وَإِلَىٰ مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا ۗ قَالَ يَٰقَوْمِ ٱعْبُدُوا۟ ٱللَّهَ مَا لَكُم مِّنْ إِلَٰهٍ غَيْرُهُۥ ۖ

**Mədyən qövmünə də qardaşları Şueybi (göndərdik). O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ilahınız yoxdur”.[3]**

Uca Rəbbimiz, Öz Müqəddəs Kitabında, bizə önəmli bir əhvalat danışır və bu əhvalat izah edir ki, tərifəlayiq nəticə və xoşbəxt həyat, qulun öz Pak və Uca Yaradanının tövhidi olmadan əldə edilə bilməz. Həmçinin, bədbəxtlik və zərər, heç kimin başına gəlməz, ancaq Pak olan Allaha şərik qoşanlardan başqa. Uca Allah buyurur:

وَٱضْرِبْ لَهُم مَّثَلًا رَّجُلَيْنِ جَعَلْنَا لِأَحَدِهِمَا جَنَّتَيْنِ مِنْ أَعْنَٰبٍ وَحَفَفْنَٰهُمَا بِنَخْلٍ وَجَعَلْنَا
بَيْنَهُمَا زَرْعًا ﴿٣٢﴾ كِلْتَا ٱلْجَنَّتَيْنِ ءَاتَتْ أُكُلَهَا وَلَمْ تَظْلِم مِّنْهُ شَيْـًٔا ۚ وَفَجَّرْنَا خِلَٰلَهُمَا نَهَرًا
﴿٣٣﴾ وَكَانَ لَهُۥ ثَمَرٌ فَقَالَ لِصَٰحِبِهِۦ وَهُوَ يُحَاوِرُهُۥٓ أَنَا۠ أَكْثَرُ مِنكَ مَالًا وَأَعَزُّ نَفَرًا ﴿٣٤﴾ وَدَخَلَ
جَنَّتَهُۥ وَهُوَ ظَالِمٌ لِّنَفْسِهِۦ قَالَ مَآ أَظُنُّ أَن تَبِيدَ هَٰذِهِۦٓ أَبَدًا ﴿٣٥﴾ وَمَآ أَظُنُّ ٱلسَّاعَةَ قَآئِمَةً
وَلَئِن رُّدِدتُّ إِلَىٰ رَبِّى لَأَجِدَنَّ خَيْرًا مِّنْهَا مُنقَلَبًا ﴿٣٦﴾ قَالَ لَهُۥ صَاحِبُهُۥ وَهُوَ يُحَاوِرُهُۥٓ
أَكَفَرْتَ بِٱلَّذِى خَلَقَكَ مِن تُرَابٍ ثُمَّ مِن نُّطْفَةٍ ثُمَّ سَوَّىٰكَ رَجُلًا ﴿٣٧﴾ لَّٰكِنَّا۠ هُوَ ٱللَّهُ رَبِّى
وَلَآ أُشْرِكُ بِرَبِّىٓ أَحَدًا ﴿٣٨﴾ وَلَوْلَآ إِذْ دَخَلْتَ جَنَّتَكَ قُلْتَ مَا شَآءَ ٱللَّهُ لَا قُوَّةَ إِلَّا بِٱللَّهِ ۚ إِن
تَرَنِ أَنَا۠ أَقَلَّ مِنكَ مَالًا وَوَلَدًا ﴿٣٩﴾ فَعَسَىٰ رَبِّىٓ أَن يُؤْتِيَنِ خَيْرًا مِّن جَنَّتِكَ وَيُرْسِلَ عَلَيْهَا

[1] “Şuəra” surəsi, 75-82-ci ayələr.
[2] "Hud" surəsi, 50-ci ayə.
[3] "Əraf" surəsi, 85-ci ayə.

حُسۡبَانٗا مِّنَ ٱلسَّمَآءِ فَتُصۡبِحَ صَعِيدٗا زَلَقًا ﴿٤٠﴾ أَوۡ يُصۡبِحَ مَآؤُهَا غَوۡرٗا فَلَن تَسۡتَطِيعَ لَهُۥ
طَلَبٗا ﴿٤١﴾ وَأُحِيطَ بِثَمَرِهِۦ فَأَصۡبَحَ يُقَلِّبُ كَفَّيۡهِ عَلَىٰ مَآ أَنفَقَ فِيهَا وَهِيَ خَاوِيَةٌ عَلَىٰ عُرُوشِهَا
وَيَقُولُ يَٰلَيۡتَنِي لَمۡ أُشۡرِكۡ بِرَبِّيٓ أَحَدٗا ﴿٤٢﴾

Onlara iki kişinin (əhvalatını) misal çək. Bunların birinə, iki üzüm bağı verib, onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq. Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq. Onun (başqa) sərvəti də var idi. O öz (mömin) yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!" — dedi. O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin dərgahına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış (Rəbbini) inkarmı edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman: "Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!" — deməli deyildinmi? Əgər var — dövlətcə və övladca məni özündən kasıb sayırsansa, ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, (sənin bağına) isə göydən bir bəla göndərsin və o, hamar bir yerə dönsün. Yaxud suyu çəkilib getsin və bir də onu axtarıb tapa bilməyəsən!" Beləcə, onun (bağının) məhsulu bir anda məhv edildi. O, (bağını belə görüb) ora qoyduğu xərcə görə (peşmançılıq çəkməyə) və əllərini bir-birinə vurmağa başladı. Bağın talvarları belə darmadağın olub yerə yıxılmışdı. O dedi: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!" [1]

İmam Qurtubi (Allah ona rəhmət etsin) Uca Allahın Kəlamları haqqında belə buyurmuşdur: **"Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!"** yəni "kaş ki, Allahın mənə bəxş etdiyi nemətlərin, Allahın qüdrəti ilə gəldiklərini etiraf etsəydim və Onu inkar etməsəydim". Bu, artıq fayda gətirməyən bir peşmançılıqdır".[2]

Burada ayələri məhdud şəkildə, dəlil olaraq vermək istəmədim, sadəcə bir misal çəkmək istədim. Pak olan Allah nə elçi, nə də peyğəmbər olmayan, tövhid əhli haqqında, başqa hekayətlər qeyd etmişdir. Bunlardan mağara

[1] "əl-Kəhf" surəsi, 32-52-ci ayələr.
[2] "Əl-Cami'li-əhkamul-Quran", 10/355.

əhlinin əhvalatı, Xəndək hekayəsi, Loğman və oğlunun əhvalatı, firon ailəsindən olan möminlərin əhvalatı, fironun arvadı Asiyanın əhvalatı və digər hekayələrdir.

## 96. Tövhidin Qurandan qissələr (əhvalatlar) ilə təsdiqi

Pak və Uca olan Allah, Öz tərəfindən bir rəhmət, eləcə də məxluqlara bir öyüd olaraq, mənalarını insanların dərrakəsinə yaxınlaşdırmaq istəyərək, Qurani-Kərimdə bir neçə qissəni misal çəkmişdir.

Uca Allah buyurur:

وَتِلْكَ ٱلْأَمْثَٰلُ نَضْرِبُهَا لِلنَّاسِ ۖ وَمَا يَعْقِلُهَآ إِلَّا ٱلْعَٰلِمُونَ

**Biz insanlar üçün belə məsəllər çəkirik. Onları isə ancaq (həqiqəti) dərk edən adamlar anlayarlar.**[1]

Böyük alim İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: "Həqiqətən, ruhlar (nəfslər) özlərinə bənzər və oxşar olan şeylərə qarşı tam rəğbət bəsləyir, amma yadlıqdan, təklikdən və onlara bənzəməyən bir şeydən isə qorxurlar. Qurandakı məsəllərdə ruhun (nəfsin) istəkləri vardır və bu doğru məsəllərin, nədən ötrü çəkildiyi nəfs tərəfindən tez və rahat qəbul edilir və heç kim bu həqiqəti inkar etmir. Və hər dəfə, məsəl çəkiləndə, insan ordakı mənalara daha yaxşı fikir verir, çünki məsələ mənalara işarə edir və onları sanki əkinin üzərində cücərmiş, sonra qüvvətlənmiş, qalınlaşmış və gövdəsi üzərində dik durmuş bir toxum kimi yetişdirir. Bu, əqlin, onun mahiyyətinin və bəhrələrinin özəlliyidir" [2].

Allahu Təalə, tövhid haqqında qissələri (məsəlləri), əlavə diqqət və izahatla vurğulamışdır, çünki elçilərin göndərilməsində və Kitabların nazil edilməsində məqsəd tövhiddir. Və bu misallar da, daha sonra aşağıda qeyd olunacaqlar.

1. Uca Allahın kəlamları:

أَلَمْ تَرَ كَيْفَ ضَرَبَ ٱللَّهُ مَثَلًا كَلِمَةً طَيِّبَةً كَشَجَرَةٍ طَيِّبَةٍ أَصْلُهَا ثَابِتٌ وَفَرْعُهَا فِى ٱلسَّمَآءِ
﴿٢٤﴾ تُؤْتِىٓ أُكُلَهَا كُلَّ حِينٍۭ بِإِذْنِ رَبِّهَا ۗ وَيَضْرِبُ ٱللَّهُ ٱلْأَمْثَالَ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ ﴿٢٥﴾
وَمَثَلُ كَلِمَةٍ خَبِيثَةٍ كَشَجَرَةٍ خَبِيثَةٍ ٱجْتُثَّتْ مِن فَوْقِ ٱلْأَرْضِ مَا لَهَا مِن قَرَارٍ ﴿٢٦﴾

[1] "Ənkəbut" surəsi, 43-cü ayə.
[2] "İlam əl-muvəqqiin", 1/306.

**Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (lə ilahə illəllah) kökü (yerdə) möhkəm olan, budaqları isə göyə yüksələn, gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə, öz bəhrəsini hər zaman verir. Allah, insanlar üçün misallar çəkir ki, bəlkə düşünüb, ibrət alsınlar. Pis söz isə, yerdən qoparılmış və artıq kökü üstə dura bilməyən, pis bir ağaca bənzəyir.**[1]

Böyük alim İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: «**Gözəl söz** — "*Lə iləhə illəllah*" (Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur) şəhadətidir. Bütün aşkar və gizli yaxşı əməllər onun bəhrəsidir və Allahın razı olduğu hər bir yaxşılıq, bu sözün bəhrəsidir.

Və bu ağac heç vaxt, xeyir əməllər şəklində bar verməyi kəsməz, bu şəhadətin qəlbdə möhkəmlənməsinə, qəlbin ona olan sevgisinə, bəndənin onda olan ixlasına, mahiyyətini bilməsinə, haqqının yerinə yetirilməsinə və ona lazım olan qayğısına uyğun olaraq. Kimin qəlbində həqiqətən bu söz möhkəmlənər və qəlbi onu qəbul edər, o şəxs Allahın dininə bağlı olar. Çünki, bu dindən daha yaxşısı yoxdur və qəlbinin yalnız Allaha həsr edilməli olduğunu bilər, ilahiləşdirmənin mahiyyətini öyrənər və o şəxsin dili buna şəhadət verər, bədən üzvləri isə bunu təsdiq edərlər, o şəxs Allahdan başqa, hər şeyi inkar edər, *Lə iləhə illəllah* sözünün mahiyyətini bilər və onun vacib etdiyi şeyləri anlayar. Və onun qəlbi, bu inkar və təsdiqdə, dili ilə razılaşar, bədən üzvlərini, təkliyinə şəhadət etdiyi varlığa tabe edər, Rəbbinin yolu ilə itaətlə gedərək, o yoldan ayrılmadan, qarşılığında başqa bir şey istəmədən, necə ki, qəlbə yaraşmaz ki, başqa ibadət obyektini istəsin. Və heç bir şübhə yoxdur ki, belə bir dildən, belə bir qəlbdən gələn söz, Uca Rəbbə yüksələn, xeyir əməllər şəklində, öz bəhrəsini verməyi dayandırmaz».[2]

Ayədə qeyd olunan**, pis ağaca** gəlincə, o — *şirk* ağacıdır — onun möhkəm kökləri və budaqları yoxdur və onu yer üzündən qoparmaq mümkündür, çünki onun möhkəmliyi yoxdur. Böyük alim, İbn Qeyyim (Allah ona rəhmət etsin) bu ayəyə gözəl sözlərlə şərh etmişdir və onlar *şirkə* aparan bütün yolları, kökündən qoparırlar. Bu ayə belədir:

قُلِ ٱدْعُوا۟ ٱلَّذِينَ زَعَمْتُم مِّن دُونِ ٱللَّهِ لَا يَمْلِكُونَ مِثْقَالَ ذَرَّةٍ فِى ٱلسَّمَٰوَٰتِ وَلَا فِى ٱلْأَرْضِ وَمَا لَهُمْ فِيهِمَا مِن شِرْكٍ وَمَا لَهُۥ مِنْهُم مِّن ظَهِيرٍ

---

[1] "İbrahim" surəsi, 24-26-cı ayələr.
[2] "İlam əl-muvəqqiin", 1/225–226 bəzi dəyişikliklərlə.

**De: «Allahdan başqa məbud saydıqlarınızı çağırın». Onlar nə göylərdə və nə də yerdə, zərrə qədərcə olan bir şeyə də sahib deyillər. Onların (göylərin və yerin yaradılışında) heç bir şərikliyi yoxdur və onlardan, Allaha yardımçı olanı da yoxdur. Onun qarşısında, izin verdiyi kəslərdən başqa, heç kimin şəfaəti fayda verməz.**[1]

O dedi: "Bir düşünün, bu ayə müşriklərin *şirkə* düşdükləri hər bir yolları necə kəsdi və bu yolları ən yaxşı və hikmətli şəkildə bağladı. Həqiqətən, qul ibadət etdiyi şeydən, faydalanacağına ümid etdiyi üçün, onunla əlaqə qurur, əks halda ondan fayda ümid etməsə, qəlbini ona bağlamazdı. Beləliklə, məbud (ibadət olunan) mütləq ona ibadət edənə fayda verəcək səbəblərə malik olmalıdır, sahib olmalı və ya sahiblikdə şərik, ya köməkçi, ya da ona şəfaət edə biləcək nəcib, hörmətli şəxs olmalıdır. Əgər bu dörd sualın hamısı, hər tərəfdən inkar edilərsə, o zaman şərik qoşulmanın səbəbləri, aradan qalxarlar və onun bünövrəsi aradan qalxar. Pak olan Allah, göylərdə və yerdə, ən kiçik zərrəyə belə, bu ilahların sahib olduqlarını inkar edir. O zaman müşrik kəs deyə bilər ki: "Bizim ibadət etdiyimiz, mülkə şərikdir", lakin Allah isə onun iştirakını inkar edir. O zaman, müşrik deyə bilər ki: "Bəlkə o, köməkçi və ya vəzirdir", lakin Allah buyurmuşdur: **"Onun, onların arasında heç bir köməkçisi yoxdur"**. Bu zaman, şəfaətdən başqa bir şey qalmayacaq, lakin Allah bunu da inkar edərək, buyurur ki, "Onun izni olmadan, Onun yanında heç kəs şəfaət edə bilməyəcək".

2. Uca Allah buyurub:

وَيَعْبُدُونَ مِن دُونِ ٱللَّهِ مَا لَا يَمْلِكُ لَهُمْ رِزْقًا مِّنَ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ شَيْـًٔا وَلَا يَسْتَطِيعُونَ
﴿٧٣﴾ فَلَا تَضْرِبُوا۟ لِلَّهِ ٱلْأَمْثَالَ ۚ إِنَّ ٱللَّهَ يَعْلَمُ وَأَنتُمْ لَا تَعْلَمُونَ ﴿٧٤﴾ ۞ ضَرَبَ ٱللَّهُ مَثَلًا عَبْدًا
مَّمْلُوكًا لَّا يَقْدِرُ عَلَىٰ شَىْءٍ وَمَن رَّزَقْنَٰهُ مِنَّا رِزْقًا حَسَنًا فَهُوَ يُنفِقُ مِنْهُ سِرًّا وَجَهْرًا ۖ هَلْ
يَسْتَوُۥنَ ۚ ٱلْحَمْدُ لِلَّهِ ۚ بَلْ أَكْثَرُهُمْ لَا يَعْلَمُونَ ﴿٧٥﴾ وَضَرَبَ ٱللَّهُ مَثَلًا رَّجُلَيْنِ أَحَدُهُمَآ
أَبْكَمُ لَا يَقْدِرُ عَلَىٰ شَىْءٍ وَهُوَ كَلٌّ عَلَىٰ مَوْلَىٰهُ أَيْنَمَا يُوَجِّههُّ لَا يَأْتِ بِخَيْرٍ هَلْ يَسْتَوِى هُوَ
وَمَن يَأْمُرُ بِٱلْعَدْلِ وَهُوَ عَلَىٰ صِرَٰطٍ مُّسْتَقِيمٍ ﴿٧٦﴾

[1] "Səba" surəsi, 22-ci ayə.

**Onlar (müşriklər) Allahı qoyub göylərdən və yerdən onlara heç bir ruzi verə bilməyən və buna əsla gücləri çatmayanlara (bütlərə) ibadət edirlər? Ona görə də heç bir şeyi Allaha bənzətməyin (şərik qoşmayın)! Şübhəsiz ki, Allah hər şeyi bilir, siz isə bilməzsiniz. Allah, heç bir şeyə gücü çatmayan və başqasının malı olan bir qul və verdiyimiz gözəl ruzidən həm gizli, həm də aşkar infaq edən (azad) bir kimsəni misal gətirdi. Heç onlar eyni ola bilərlərmi? Həmd Allaha məxsusdur. Lakin onların əksəriyyəti bunu bilməz. Allah iki nəfəri də misal gətirdi; onlardan biri laldır, heç bir şey bacarmır və ağası üçün bir yükdür. Ağası onu hara göndərsə, bir xeyir gətirməz. O və doğru yolda olub ədaləti əmr edən kimsə eyni ola bilərmi?** [1]

Mücahid (Allah ona rəhmət etsin) demişdir: “Allah bu məsəli və ondan sonra digərini, Özü və Ondan başqa məbudlar haqqında, misal olaraq gətirmişdir”.[2]

3. Uca Allah buyurub:

حُنَفَآءَ لِلَّهِ غَيْرَ مُشْرِكِينَ بِهِۦۚ وَمَن يُشْرِكْ بِٱللَّهِ فَكَأَنَّمَا خَرَّ مِنَ ٱلسَّمَآءِ فَتَخْطَفُهُ ٱلطَّيْرُ أَوْ تَهْوِى بِهِ ٱلرِّيحُ فِى مَكَانٍ سَحِيقٍ

**Ancaq tək Allaha ibadət edənlərdən və Ona şərik qoşmayanlardan olun! Kim Allaha şərik qoşsa, sanki o, göydən düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar.**[3]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) demişdir: “Bu, Allaha şərik qoşanların, Rəbbindən uzaqlığına və onların həqiqəti bilməkdən uzaqlığına, bir

[1] "Nəhl" surəsi, 73-76-cı ayələr.
[2] “Cami əl-bəyan”, 14/149.
[3] "Həcc" surəsi, 31-ci ayə.

misaldır – göydən yerə düşənin uzaqlığı kimi, ya da göydə quşların alıb, apardığı birinin ölümü kimi”.[1]

4. Uca Allah buyurub:

يَٰٓأَيُّهَا ٱلنَّاسُ ضُرِبَ مَثَلٞ فَٱسۡتَمِعُواْ لَهُۥٓۚ إِنَّ ٱلَّذِينَ تَدۡعُونَ مِن دُونِ ٱللَّهِ لَن يَخۡلُقُواْ ذُبَابٗا وَلَوِ ٱجۡتَمَعُواْ لَهُۥۖ وَإِن يَسۡلُبۡهُمُ ٱلذُّبَابُ شَيۡـٔٗا لَّا يَسۡتَنقِذُوهُ مِنۡهُۚ ضَعُفَ ٱلطَّالِبُ وَٱلۡمَطۡلُوبُ ٧٣ مَا قَدَرُواْ ٱللَّهَ حَقَّ قَدۡرِهِۦٓۚ إِنَّ ٱللَّهَ لَقَوِيٌّ عَزِيزٌ ٧٤

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz, bir milçək belə yarada bilməzlər, hətta bunun üçün, bir yerə yığışsalar belə. Əgər milçək, onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. (Bunu etmək) istəyən də aciz qalar, istənilən də! Onlar, Allahı lazımınca qiymətləndirmədilər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir!** [2]

Böyük alim İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: “Hər bir bəndə, bu misalı, qəlbi ilə dinləməli və onun üzərində, lazımi qaydada düşünməlidir. Bu misal, onun qəlbindən, şirkin özəyini qoparır. Və bu, ona görədir ki, məbud (ibadət olunan obyekt), ibadət edənə, kömək edəcək bir şey yarada bilməkdən və ya onu zərər verən şeylərdən xilas etməkdən, daha aşağı mövqedədir. Müşriklərin, Allahdan başqa ibadət etdikləri məbudlar, bir milçəyi belə yaratmağa qadir deyillər, hətta onlar hamısı, onu yaratmaq üçün bir yerə toplaşsalar belə — bəs o zaman milçəkdən daha böyük olan şeyi necə? Əgər milçək, onların əllərində olandan bir şeyi alsa, onlar ondan intiqam almağa qadir deyillər, istər ətir və ya başqa bir şey olsun, onu ondan ala bilmirlər. Onlar, heç həşəratların ən zəifi olan, milçəyi bələ yaratmağa qadir deyillər, ondan intiqam ala bilmirlər və milçəyin onlardan aldıqlarını geri qaytara bilmirlər. Və bu cür ilahlardan daha zəif bir şey yoxdur və bu milçəkdən daha zəif bir şey yoxdur. Ağıllı bir insan, Allahdan başqasına, yəni onlara ibadət etməyi necə yaxşı hesab edə bilər?”[3]

---

1 “Cami əl-bəyan”, 17/155.
2 "Həcc" surəsi, 73-74-cü ayələr.
3 “İlam əl-muvəqqiin”, 1/235–236.

5. Uca Allah buyurub:

مَثَلُ ٱلَّذِينَ ٱتَّخَذُواْ مِن دُونِ ٱللَّهِ أَوْلِيَآءَ كَمَثَلِ ٱلْعَنكَبُوتِ ٱتَّخَذَتْ بَيْتًاۖ وَإِنَّ أَوْهَنَ ٱلْبُيُوتِ لَبَيْتُ ٱلْعَنكَبُوتِۚ لَوْ كَانُواْ يَعْلَمُونَ

**Allahdan başqasını özlərinə dost tutanların aqibəti, özünə yuva qurmuş hörümçəyin məsəlinə bənzəyir. Yuvaların ən zəifi isə, əlbəttə ki, hörümçək yuvasıdır. Kaş ki, biləydilər!** [1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: “Allahu Təalə, müşriklərə özləri üçün Allahdan başqa ilahlar qəbul etdikləri haqqında misal çəkir. Onlar, həmin ilahlardan kömək və ruzi umarlar, sıxıntıda onlardan yapışırlar. Amma əslində, o ilahlar zəiflikləri və cılızlıqları ilə, hörümçək yuvasına bənzəyirlər. Müşriklərin öz məbudlarından yapışmaları isə, hörümçək torundan yapışan kimsəyə bənzəyir, çünki onun tutacaq heç bir şeyi yoxdur və bu heç bir şəkildə ona kömək edə bilməz. Əgər onlar öz vəziyyətlərini bilsəydilər, heç vaxt özlərinə, Allahdan başqa köməkçi götürməzdilər”.[2]

6. Uca Allah buyurub:

ضَرَبَ لَكُم مَّثَلًا مِّنْ أَنفُسِكُمْۖ هَل لَّكُم مِّن مَّا مَلَكَتْ أَيْمَٰنُكُم مِّن شُرَكَآءَ فِي مَا رَزَقْنَٰكُمْ فَأَنتُمْ فِيهِ سَوَآءٌ تَخَافُونَهُمْ كَخِيفَتِكُمْ أَنفُسَكُمْۚ كَذَٰلِكَ نُفَصِّلُ ٱلْأٓيَٰتِ لِقَوْمٍ يَعْقِلُونَ

**O, sizə özünüzdən bir məsəl çəkdi; sahib olduğunuz kölələr içərisində, sizə verdiyimiz nemətlərdə, sizinlə bərabər, eyni hüquqa malik olan, özünüzdən çəkindiyiniz kimi, onlardan da çəkindiyiniz şərikləriniz varmı? Biz, ayələri düşünüb, daşınan insanlar üçün belə müfəssəl izah edirik.**[3]

Şeyxul-islam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: «Pak olan Allah, bu misalla aydınlaşdırmışdır ki, azad insan, qulunu şərik götürərək, özünə bərabər tutmaq istəmir, buyurur: **"O, sizə özünüzdən bir məsəl çəkdi; sahib olduğunuz kölələr içərisində, sizə verdiyimiz nemətlərdə, sizinlə bərabər,**

---

[1] “əl-Ənkəbut” surəsi, 41-ci ayə

[2] Təfsir əl-Quran əl-Əzım, 6/279.

[3] "ər-Rum" surəsi, 28-ci ayə.

**eyni hüquqa malik olan..."** və azad insanlar, öz qullarından, bir-birlərindən qorxduqları kimi qorxmurlar. Əgər sizlərdən bəziləri, öz qullarını, özlərinə şərik qoşmaqdan razı deyillərsə, bəs siz necə sizə şəriklər qoşmağa razılaşırsınız?»[1]

7. Uca Allah buyurub:

وَمَثَلُ ٱلَّذِينَ كَفَرُواْ كَمَثَلِ ٱلَّذِى يَنْعِقُ بِمَا لَا يَسْمَعُ إِلَّا دُعَآءً وَنِدَآءً ۚ صُمٌّۢ بُكْمٌ عُمْىٌ فَهُمْ لَا يَعْقِلُونَ

**Kafirlərin məsəli, çığırtı və bağırtıdan başqa bir şey anlamayanları (heyvanları), haylayanın (çobanın) məsəlinə bənzəyir. Onlar kar, lal və kordurlar, (haqqı) anlamazlar.**[2]

Böyük alim, İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: “Bu, mal-qaranın və digər heyvanların üstünə qışqıran barəsində çəkilən məsələdir. Və deyilir ki, qışqıran şəxs — bütlərə ibadət edən, onlardan kömək diləyən kəsdir, büt isə — dua ediləndir və kafirin bütdən kömək diləmə halı, bir kimsənin qışqırdığında, eşidilmədiyini nəzərə alaraq, qışqıranın vəziyyətinə bənzəyir”.[3]

8. Uca Allah buyurub:

فَمَن يُرِدِ ٱللَّهُ أَن يَهْدِيَهُۥ يَشْرَحْ صَدْرَهُۥ لِلْإِسْلَٰمِ ۖ وَمَن يُرِدْ أَن يُضِلَّهُۥ يَجْعَلْ صَدْرَهُۥ ضَيِّقًا حَرَجًا كَأَنَّمَا يَصَّعَّدُ فِى ٱلسَّمَآءِ ۚ كَذَٰلِكَ يَجْعَلُ ٱللَّهُ ٱلرِّجْسَ عَلَى ٱلَّذِينَ لَا يُؤْمِنُونَ

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə rəzalətə salar.**[4]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) öz isnadı ilə, İbn Cüreycəyə (Allah ona rəhmət etsin) qədər nəql edir ki, o belə demişdir: **"Allah, kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar"** — yəni *“Lə iləhə illəllah”* (Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur) vasitəsilə, bu şəhadət üçün

[1] “Məcmuʻul-fətava”, 1/156.
[2] "Bəqərə" surəsi, 171-ci ayə.
[3] “İlam əl-muvəqqiin”, 1/230.
[4] "əl-Ənam" surəsi, 125-ci ayə.

yer açır. **"...kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər"**, – yəni *"Lə iləhə illəllah"* kəlmələrinə qarşı onun köksünü elə daraldır və sıxır ki, bu sözlər köksünə daxil ola bilmir. Sanki bunun ağırlığından göyə çıxırmış kimidir".[1]

Pak və Uca olan Allah, tövhid əhli ilə, müşrik arasındakı böyük fərqi və onların bərabər olmadığını belə deyərək, açıq şəkildə bildirmişdir:

قُلْ مَن رَّبُّ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ قُلِ ٱللَّهُ ۚ قُلْ أَفَٱتَّخَذْتُم مِّن دُونِهِۦٓ أَوْلِيَآءَ لَا يَمْلِكُونَ لِأَنفُسِهِمْ نَفْعًا وَلَا ضَرًّا ۚ قُلْ هَلْ يَسْتَوِى ٱلْأَعْمَىٰ وَٱلْبَصِيرُ أَمْ هَلْ تَسْتَوِى ٱلظُّلُمَٰتُ وَٱلنُّورُ ۗ أَمْ جَعَلُوا۟ لِلَّهِ شُرَكَآءَ خَلَقُوا۟ كَخَلْقِهِۦ فَتَشَٰبَهَ ٱلْخَلْقُ عَلَيْهِمْ ۚ قُلِ ٱللَّهُ خَٰلِقُ كُلِّ شَىْءٍ وَهُوَ ٱلْوَٰحِدُ ٱلْقَهَّٰرُ

**De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allahdır!" De: "Siz Onu qoyub, özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə dost tutursunuz?" De: "Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?" Yoxsa onlar Allaha, Onun yaratdığı kimi, yaradan şəriklər tapdılar və (bu) yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allahdır. O Təkdir, (hər şeyə) Qalib gələndir.**[2]

Şeyxülislam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Allah möminə — diriləri, görəni, eşidəni, işığı və kölgənin sərinliyini, amma kafirə isə — ölüləri, korları, karları, zülmətləri və şiddətli istini misal çəkdi".[3]

---

[1] "Cami əl-bəyan", 8/27–30.
[2] "ər-Rad" surəsi, 16-cı ayə.
[3] "Məcmu'ul-fətava", 14/54.

## 97. Allahın tövhidini, təsdiq etməyənlərlə, əlaqəli olmadığını göstərməyin və onlar ilə əlaqəni kəsməyin vacibliyi

Allahu Təalə Yusif peyğəmbərin (əleyhissalam) dili ilə buyurub:

إِنِّي تَرَكْتُ مِلَّةَ قَوْمٍ لَّا يُؤْمِنُونَ بِٱللَّهِ وَهُم بِٱلْءَاخِرَةِ هُمْ كَٰفِرُونَ ﴿٣٧﴾ وَٱتَّبَعْتُ مِلَّةَ ءَابَآءِيٓ إِبْرَٰهِيمَ وَإِسْحَٰقَ وَيَعْقُوبَ ۚ مَا كَانَ لَنَآ أَن نُّشْرِكَ بِٱللَّهِ مِن شَىْءٍ ۚ ذَٰلِكَ مِن فَضْلِ ٱللَّهِ عَلَيْنَا وَعَلَى ٱلنَّاسِ وَلَٰكِنَّ أَكْثَرَ ٱلنَّاسِ لَا يَشْكُرُونَ ﴿٣٨﴾

**Mən, Allaha iman gətirməyən, özləri də axirəti inkar edən, adamların dinindən uzaqlaşmışam. Mən, atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Hər hansı bir şeyi, Allaha şərik qoşmaq, bizə yaraşmaz. Bu, Allahın bizə və (bütün) insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir.**[1]

İmam ət-Təbəri (Allah ona rəhmət etsin) bu ayə haqqında buyurur: "Həqiqətən, mən Uca Allaha iman gətirməyənlərin və Onun təkliyini təsdiq etməyənlərin, dinindən uzağam və mən müşriklərin dininə deyil, atalarımın dininə tabe oldum. İbadət və itaətdə Allaha şərik qoşmağımız bizə icazəli deyil, əksinə, ilahlıq və ibadətdə, Onu təkləşdirmək bizə vacibdir. Bu, bizə onu nemət olaraq verən, Allahın rəhmətindəndir. Bu, həmçinin Allahın, insanlara olan mərhəmətindəndir, çünki O, insanlara Öz tövhidinə və Ona itaət etməyə dəvətçiləri göndərmişdir”.[2]

Allahu Taələ, İbrahim (əleyhissalam) haqqında belə buyurmuşdur:

قَدْ كَانَتْ لَكُمْ أُسْوَةٌ حَسَنَةٌ فِيٓ إِبْرَٰهِيمَ وَٱلَّذِينَ مَعَهُۥٓ إِذْ قَالُوا۟ لِقَوْمِهِمْ إِنَّا بُرَءَٰٓؤُا۟ مِنكُمْ

---

[1] "Yusuf" surəsi, 37-38-ci ayələr.

[2] “Cami əl-bəyan”, 12/217–218 bəzi ixtisarlarla. Bax: “Təfsir əl-Quran əl-Əzim” 4/389, “Məalim ət-tənzil” 2/462.

وَمِمَّا تَعْبُدُونَ مِن دُونِ ٱللَّهِ كَفَرْنَا بِكُمْ وَبَدَا بَيْنَنَا وَبَيْنَكُمُ ٱلْعَدَٰوَةُ وَٱلْبَغْضَآءُ أَبَدًا حَتَّىٰ تُؤْمِنُوا۟ بِٱللَّهِ وَحْدَهُۥٓ

**İbrahim və onunla birlikdə olanlarda, sizin üçün, gözəl bir nümunə vardır. Onlar, öz qövmünə dedilər: "Həqiqətən biz, sizdən və sizin, Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz, bir olan Allaha iman gətirincəyə qədər, bizimlə sizin aranızda, daim ədavət və nifrət olacaqdır!"**[1]

Hafiz İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: «Allahu Təalə, kafirlərə qarşı sərt olmaq, düşmənçilik etmək, onlardan uzaqlaşmaq və onlara qarışmamağı əmr etdiyi mömin bəndələrinə buyurmuşdur: **"İbrahim və onunla birlikdə olanlarda, sizin üçün, gözəl bir nümunə vardır"**, yəni ona iman gətirən, ardıcılları. **«Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz, sizdən uzağıq"…»**, yəni biz sizin dininizdən və yolunuzdan uzağıq, **"Siz bir olan, Allaha iman gətirənə qədər, bizimlə sizin aranızda, daim ədavət və nifrət olacaqdır"**, yəni öz küfrünüzün içində qaldığınız halda, aramızda düşmənçilik və nifrət yaranmışdır və siz tövhidə gəlib, tək olan və şəriki olmayan Allaha ibadət etməyə başlayana qədər, Ona şərik qoşduğunuz bütlərə və heykəllərə ibadət etməyi tərk edənə qədər, biz sizə qarışmayacağımızı və narazılığımızı bildiririk».[2]

---

[1] "Mumtəhənə" surəsi, 4-cü ayə.
[2] Təfsir əl-Quran əl-Əzim, 8/87.

## 98. Tövhid tərəfdarları, Peyğəmbərin ﷺ Hovuzuna ən layiq olanlardırlar

Əsma (bint Əbu Bəkr) (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurdu*: «Mən, hovuzun* (kövsərin) *yanında olduğum zaman, yanıma gələnləri gözləyəcəm. Amma, Allaha and olsun ki, bəzi insanları məndən uzaqlaşdıracaqlar. O zaman, mən deyəcəyəm: "Ey Rəbbim! Məndən və ümmətimdən!" lakin Allah buyuracaq: "Sən onların, səndən sonra nə etdiklərini bilmirsən, çünki onlar dindən üz döndərirdilər»*. [1]

Başqa bir rəvayətdə (hədisin nəqli versiyasında) deyilir: ***"Sənin ölümündən sonra, onlar sənin dinini tərk etdilər!"***[2]

Həmçinin başqa bir rəvayətdə Peyğəmbərin ﷺ belə dediyi deyilir: ***"Məndən sonra*** (dini) ***dəyişənlər, uzaq olsunlar"***.[3]

Tövhid tərəfdarları, əvəz etmədilər və dəyişmədilər, lakin onların şüarı belə idi:

رَّبَّنَآ إِنَّنَا سَمِعۡنَا مُنَادِيٗا يُنَادِي لِلۡإِيمَٰنِ أَنۡ ءَامِنُواْ بِرَبِّكُمۡ فَـَٔامَنَّاۚ

**Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!"– deyə imana çağıran, bir kimsənin çağırışını eşidib iman gətirdik".**[4]

Böyük alim, İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: «İnsanların böyük susuzluq günü, Hovuzun yanına gəlişi və ordan içmələri, Peyğəmbərin ﷺ sünnəsinə gəlmələri (tabe olmaları) kimidir. Kim, bu dünyada sünnəyə tərəf gəlsə, ondan içsə və doyarsa, həmin o şəxs, Hovuza gələcək, ondan içəcək və doyacaq».[5]

Böyük alim, əs-Səfəri (Allah ona rəhmət etsin) [dinini] dəyişdirən hər kəsin, hovuzdan qovulacağını açıqlayaraq, belə demişdir: "Beləliklə, hovuzdan

---

[1] Əl-Buxari 7048, Muslim 5973.
[2] Əl-Buxari 6587.
[3] Əl-Buxari 7050, Muslim 5969.
[4] "Ali-İmran" surəsi, 193-cü ayə.
[5] "Əl-ictima' əl-cuyuşi əl-islami", səh. 85.

qovulanlar: Allaha və Onun elçisinə yalan söyləyənlərdirlər. Misal üçün rafizilər, xəvariclər və başqa azmış bidət tərəfdarları, həmçinin sərhədlərini aşan zalımlar, haqsızlıqlarında, zülmlərində və həqiqəti məhv etməkdə həddi aşanlar, eləcə də haramları yerinə yetirərək məhv olmaq uçurumuna düşənlər və açıq-aşkar günah edənlər".[1]

[1] "Lyəvami'u əl-ənuar" 2/197.

# 99. Tövhid tərəfdarlarının öz ölüləri üçün şəfaəti

Biz qeyd etdik ki, şəfaətin iki əsası var — bu, şəfaət edənə Allahu Təalənın icazəsi və şəfaət edilən üçün Onun razılığıdır. Və Pak olan Allah isə, qeyd olunduğu kimi, yalnız tövhid tərəfdarlarından razıdır.[1]

Həmçinin tövhid tərəfdarlarının (özlərindən olan) ölülərə şəfaət etmələrinə dəlalət edən şey, səhih olaraq çatdırılmışdır və bu, Allahın rəhmətidir ki, onu bəndələrindən istədiyinə bəxş edir.

İbn Abbasın (Allah ondan və atasından razı olsun) belə dediyi rəvayət olunur: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: ***"Ölmüş hər hansı müsəlman bir kişinin, cənazə namazını, Allaha şərik qoşmayan qırx kişi qılarsa, Allahu Təalə onları, onun üçün şəfaətçi edər"***.[2]

---

[1] Bax "Tövhid tərəfdarları, Peyğəmbərin ﷺ şəfaətinə başqalarından daha layiqdirlər" fəslində qeyd olunanlara.

[2] Muslim 948.

## 100. Tövhid üzərində ölüm — xeyirli sonluğa işarədir

Şübhəsiz ki, İslam fitrətində, ixlas kəlməsində və Peyğəmbərimizin ﷺ dinində olan ölüm, ən böyük rəhmətlərdəndir. Allahın, doğru yola yönəltdiyi şəxs hidayətə qovuşar, Allahın yardımdan məhrum etdiyi şəxs isə köməksiz qalar.

Uca Allah buyurur:

يُثَبِّتُ ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُوا۟ بِٱلْقَوْلِ ٱلثَّابِتِ فِى ٱلْحَيَوٰةِ ٱلدُّنْيَا وَفِى ٱلْـَٔاخِرَةِ ۖ وَيُضِلُّ ٱللَّهُ ٱلظَّـٰلِمِينَ ۚ وَيَفْعَلُ ٱللَّهُ مَا يَشَآءُ

**Allah, iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər.**[1]

Muaz ibn Cəbəldən (Allah ondan razı olsun) səhih olaraq rəvayət olunur ki, Allah Rəsulu ﷺ buyurdu: **"Dünya həyatında son sözü "Lə iləhə illəllah" (Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur) olan kəs Cənnətə daxil olar"**.[2]

Böyük alim İbn Əbi əl-İzz (Allah ona rəhmət etsin) demişdir: «İnsanı islama daxil edən ilk şey — tövhiddir, və bu dünyanı tərk edərkən, apardıqları son şeydir».[3]

Rəvayət edilir ki, Ömər (Allah ondan razı olsun) Peyğəmbərin ﷺ vəfatından sonra, Təlhə ibn Ubeydullahın yanından keçərkən dedi: "Sənə nə olub, niyə kədərlisən? Əminin oğlunun (yəni Əbu Bəkrin – redaktorun qeydi) hakim olmasından məyussanmı?" O cavab verdi: "Xeyr, amma mən Rəsulullahın belə dediyini eşitdim: ***"Həqiqətən mən, kəlmələr bilirəm ki, kim onları ölümdən əvvəl desə, onlar onun əməl dəftərində nur olarlar və şübhəsiz, onun bədəni və ruhu ölümdən əvvəl bu sözlərin rəhmətini tapar".*** Və mən Rəsulullahdan, onun vəfatına qədər bu barədə soruşmadım". Ömər dedi: "Mən bu sözləri bilirəm, bu, Peyğəmbərin ﷺ əmisindən eşitmək istədiyidir.

---

[1] "İbrahim" surəsi, 27-ci ayə.
[2] Əbu Davud 1316.
[3] "Şərh ət-təhaviyyə" 1/23.

Əgər Peyğəmbər ﷺ bu sözlərdən daha yaxşı, nicat üçün söz bilsəydi, şübhəsiz ki, onları tələffüz etməyi ona əmr edərdi”.[1]

Həmçinin, başqa bir rivayətdə (versiyada) deyilir: «***“Hər kim ölümdən əvvəl bu sözləri desə, Allah bu sözlər ilə, onun rəngini nurlandırar və kədərini uzaq edər”.*** Ömər dedi: “Həqiqətən, mən bu sözlərin, nə olduğunu bilirəm!” Təlhə dedi: “Bu hansı sözlərdir?” Ömər dedi: “Peyğəmbərin ﷺ əmisi ölüm ayağında olarkən, əmisinə buyurduğu “*Lə iləhə illəllah*” (Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur) kəlməsindən daha böyük bir söz bilirsənmi?” Təlhə dedi: “Doğru deyirsən, Allaha and olsun ki, bunlar məhz bu sözlərdir”».[2]

Böyük alim, İbn Qeyyim (Allah ona rəhmət etsin) demişdir: “Həqiqətən, ölümdən əvvəl “*Lə iləhə illəllah*” şəhadəti, günahların bağışlanması və onlardan qurtulması üçün, böyük səbəbdir, çünki bu kəlmə — ona əmin olan, mənasını bilən bir qul tərəfindən deyilən şəhadətdir. Onun nəfsi həvəsləri artıq soyuyublar, asi nəfsi itaətsizlik və günah işlətdikdən sonra, yumşalmış və təslim olmuş, üz döndərdikdən sonra Allaha tərəf yönəlmiş, itaətsizlik göstərdikdən sonra zəlil olmuşdur. Onun nəfsindən, dünyaya bağlılıq və onun nemətlərinə olan həvəs gedib və o nəfs öz Rəbbi, Yaradanı və Hamisi qarşısında, tam şəkildə təslim olub. Onun nəfsi, ən çox Allahın mərhəmətinə, bağışlamasına və rəhmətinə ümid edir. O nəfs, şirk səbəblərini tərk edərək, tövhidi batil edən işləri tərk edərək, xalis tövhidi təzahür edib. O nəfsi məşğul edən höcətləşmələr bitdilər və onun bütün səyləri, ölümün ona yaxınlaşdığına əmin olması üzərində cəmləşdilər. Qul tamamilə üzünü Allaha çevirib, qəlbini və ruhunu Ona tərəf yönəldib və ölümünün qeydinə qalıb.

Onun ruhu zahirdə və batində yalnız Ona, Tək Olan Allaha təslim olub, zahiri və batini bir olub və o, səmimi qəlbdən “*Lə iləhə illəllah*” (Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur) deyib və onun Rəbbinə dönüşü yaxınlaşıb. Onun böyük həvəslərinin alovu sönüb, qəlbi Əbədi Həyatla dolub-daşır, gözünün önündə axirət həyatı görünür, dünya həyatı isə onun arxasında qalıb. Bu şəhadət, doğru və səmimi olub, onun zahiri — daxili ilə, gizlisi isə aşkarı ilə bir olub. Əgər insan sağlığında belə şəhadət versəydi, dünya və onun əhli ona yad olardılar, və o, insanlardan və hər şeydən Allaha tərəf qaçardı. Lakin o, şəhadəti gətirərkən, hərislik ilə dolu qəlblə, həyata olan sevgisi ilə etdi, amma onun nəfsi, Allaha tərəf yönəlməyən arzular və istəklər ilə dolu idi. Əgər

---

[1] İbn Macə 3795.
[2] Əhməd 1384, 1386, əl-Hakim 1/350, 351.

o, ölümdən əvvəl, azad olduğu kimi azad olsaydı, onun istəkləri və həyatı tam başqa cür olardı və heyvani həyatdan fərqli olardı”.[1]

Həmçinin “*Lə iləhə illəllah*” şəhadətinə aid olan incəliklərdən — o əhvalatdır ki, Əbu Zura ər-Raziyə (Allah ona rəhmət etsin) ölüm gəldiyi zaman, onun yanında olan Əbu Hatim, Muhəmməd ibn Müslim, əl-Münzir ibn Şazan və bir qrup alimlər var idilər və ona, peyğəmbərin ﷺ bu sözlərini xatırlatmaq istəyirdilər: ***“Ölmək üzrə olanlara “Lə iləhə illəllah” kəlməsini təlqin edin”***.[2] Lakin onlar, Əbu Zuraya hörmət etdikləri üçün, bunu xatırlatmaqdan utandılar və dedilər: “Gəlin hədisi xatırlayaq”. Onlar öz *isnadlarını* (hədislərin nəqli yollarını) zikr etdilər və hədisi qeyd etmədilər, daha sonra isə susdular. Və Əbu Zura danışmağa başladı: "Bündar rəvayət etdi ki, Əbu Asim bizə Əbdülhəmid ibn Cəfərdən, Saleh ibn Əbi Qəribdən, Kəsiri ibn Murratu əl-Hədrimidən rəvayət etmişdir ki, Muaz ibn Cəbəl (Allah ondan razı olsun) belə demişdir: «Rəsulullah ﷺ buyurdu: “***O kəs ki, kimin axırıncı sözü “Lə iləhə illəllah" olarsa”***» və bu an Abu Zur'anın ruhu çıxdı.[3]

**Qeyd!** Həqiqətən, “*Lə iləhə illəllah*” kəlməsini, möminlərə ölümdən sonra deyil, ölümə yaxın olduqları zaman, təlqin etmək lazımdır. Muaz ibn Cəbəldən (Allah ondan razı olsun) rəvayət olunur ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) belə buyurdu: ***“Qəlbində əminliklə “Lə iləhə illəllah, Muhəmmədən rəsulullah”-a şəhadət edərək, ölən nəfs, şübhəsiz ki, Allah tərəfindən bağışlanar”***.[4]

Allahım, həqiqətən, biz Səndən, Sənin gözəl adların və əzəmətli sifətlərin və ən böyük adınla diləyirik ki, bizi, ailəmizi və bizim üzərimizdə haqqı olanları, tövhid və sünnə üzərində yaşat, bizim və onların ömrümüzün sonunu tövhid və sünnə üzərində sonlandır və bu dünyada son sözümüz “*Lə iləhə illəllah*” olsun. Allahım, Sənin təkliyinə şəhadət verən və peyğəmbərinin elçiliyinə şəhadət verən və bunun üzərində dünyasını dəyişən, müsəlmanlara rəhmət et və onları bağışla. Və biz onların getdiyi yerə, getdiyimiz zaman, bizə rəhm et.

---

[1] Əl-Fəvaid, səh. 86–87 müxtəsər
[2] Muslim 918
[3] “Təhzibul-kamal” 19/101, “Siyar a’ləm ən-nubələ” 13/85.
[4] İbn Macə 3796.

# YEKUN

Rəhməti ilə, xeyir əməlləri tamamlayan Allaha həmd olsun, Peyğəmbərimizə, onun ailəsinə və bütün səhabələrinə salavat və salam olsun. Və mənim məhdud biliyim və zəif cəsarətim ilə, tərtib etməyim üçün Allah tərəfindən asanlaşdırılan, bu qısa xülasədən sonra, aşağıdakıları deyirəm və bu işdə Allahdan kömək diləyirəm:

« Allah rızası üçün düşmənçilik edən və Allah rizası üçün dostluq edən, tövhidə zidd olan şirki pisləyən, Allahın rəsulları vasitəsilə gələn tövhidin mahiyyətini öyrənmiş şəxs üçün, Allahın bu rəhmətinə görə, Allaha şükür etməsi vacibdir. Və xüsusilə də, Quranda qeyd olunan, peyğəmbərlərə iman etməyən ümmətlərin hekayələri, bu ümmətlərin başına gələnlər haqqında, Peyğəmbərin ﷺ verdiyi xəbərlər — şirk və azğınlıq haqqında və Peyğəmbərin ﷺ dəvətinin əvvəlində, onun başına gələnlər haqqında düşünmək lazımdır. Tövhidin dəyərini bilib, ona layiqincə diqqət yetirən, onu sevən və ona sevinən, ona uyğun əməllərə bağlanan və onu daim xatırlayan şəxs üçün, bu rəhmət nə qədər gözəl və böyükdür. **"Mən ancaq Allahın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam"**»[1].[2]

---

[1] "Hud" surəsi, ayə 88.

[2] "Əd-durar əs-saniyyə" Əbdüllətif ibn Əbdürrəhman Əli əş-Şeyxin sözlərindən, 12/314.

İmanı və tövhidi dərk edən, onların hüdudlarını tam dərk edə bilən kimsə üçün, Allah və Rəsulu tərəfindən böyük anlayış qapıları açılar və bunu bəzi bilikli insanlardan başqa, heç kəs başa düşməz. Bu haqda fikirləş, o zaman insanların çoxunun laqeyd qaldığı sirləri, Allah sənə görməyə imkan verəcək.[1]

Və bu deyilənlər necə də gözəldir:

*Ey səhər elm tələb etməyə gedən kəs,*

*Hər bir elm — rəsulun elminin quludur.*

*Təməlləri düzəltmək üçün, qolları (şöbələri) öyrənərək,*

*Təməllərin özülünə necə də laqeydlik göstərdin!* [2]

Və bundan əvvəl deyilmişdi: "Dəlili tərk edən, düz yoldan çıxmışdır və Rəsulullahın gətirdiyindən başqa, heç bir dəlil yoxdur”.[3]

Ya Allah, Ey Rəbbimiz və Ağamız, Yaradanımız, biz Sənin tövhidinlə, Sənə yaxınlaşırıq, Sən Paksan, Sənin heç bir şərikin yoxdur, bizim üçün Səndən başqa, heç bir ilah yoxdur və həmçinin bizim əzəmətli Peyğəmbərimizə ﷺ olan sevgimizə və tabe olmağımıza görə, Sənə yaxınlaşırıq ki, bizi hər cür xeyirli işlərə yönəldəsən, bizə rəhm edəsən, bizi, valideynlərimizi, şeyxlərimizi, ailələrimizi və övladlarımızı bağışlayasan. **“Ey Rəbbimiz! (bunu) bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən!"** [4] Düzgün olan Allahdan olub, amma fərqli olan isə məndən və şeytandan olub və Allah və Onun Rəsulunun isə bunlar ilə əlaqəsi yoxdur.

Bu zəif və kiçik bir səydir, **"Mən ancaq bacardığım qədər islah etmək istəyirəm. Mən ancaq Allahın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam".**[5] Allahın salavat və salamı olsun Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və sahabələrinə və Qiyamət gününə qədər çox saylı salamlar olsun onlara.

---

[1] “Misbah əz-zilal” ‘Abdullatif ibn ‘Əbdürrəhman Əli əş-Şeyx, səh. 136.
[2] “Şərh ət-təhaviyyə”, 1/18.
[3] “Miftəh dar əs-səadət”, İbn əl-Qeyyim, 1/304.
[4] "Bəqərə" surəsi, 127-ci ayə.
[5] "Hud" surəsi, 88-ci ayə.

# MÜNDƏRİCAT

ÖN SÖZ ....................................................................................................3

GİRİŞ ....................................................................................................10

Tövhidin vacib olduğunu bilməyin faydaları ..........................................10

Ərəb dilində və şəriətdə «tövhid» sözünün tərifi ...................................12

Tövhidin növləri ....................................................................................14

Tövhidin "Lə iləhə illəllah" sözlərinin mənası .........................................18

«Lə iləhə illəllah» şəhadətinin şərtləri ....................................................20

TÖVHİDİN FƏZİLƏTLƏRİ ........................................................................31

1. Tövhid — Allahın, Adəm (aleyhi salləm) övladlarını yaratmazdan əvvəl, onlardan aldığı ilk əhddir ....................................................................31

2. Tövhid — yeni doğulan uşağın, fitrətində olan ilk şeydir və o, şirkdən əvvəl gəlir ..........................................................................................33

3. Tövhid, Allahın "ən-Ni'am" surəsində, rəhmətlər sırasında qeyd etdiyi, ilk rəhmətdir və bu, ən böyük rəhmətlərdən biridir..................................38

4. Tövhid — islamın birinci sütunu və ən böyük dayağıdır ........................40

5. Tövhid, Rəsulullahın ﷺ və ondan əvvəlki bütün digər elçilərin, başladıqları ilk əmr olub və onların risalətində məqsəd də bu idi ............41

6. Tövhid — mükəlləflərin birinci vəzifəsidir ...........................................45

7. Tövhid — qulun mütləq öyrənməli olduğu, biliklərin birincisidir və onun haqqında cahil olmağa icazə verilmir ........................................................47
8. Tövhid — Allahu Təalənın kitabında — ilk əmrdir, şirkin qadağan edilməsi isə — ilk qadağadır .........................................................................50
9. Quranın ilk və ən əzəmətli surəsi, üç növ tövhidi özündə ehtiva edir...52
10. Tövhid — qulun günü başlayarkən ilk etdiyi və günü bitərkən son etdiyi şeydir .................................................................................................53
11. Quldan qəbrində soruşulacaq ilk şey — tövhiddir..............................55
12. Tövhid — insanların yaranma qayəsidir ..............................................56
13. Tövhid - Allahın bəndələri üzərində haqqıdır ....................................57
14. Tövhid — ümumiyyətlə elmin ən şərəflisidir.......................................58
15. Tövhid əhlindən yetmiş min nəfər, sorğu-sualsız və cəzalanmadan Cənnətə daxil olacaqlar .........................................................................59
16. Tövhid — cənnətə daxil olmaq üçün əsasdır.......................................60
17. Tövhid əhli cəhənnəm üçün haramdır.................................................62
18. Tövhid vasitəsilə günahlar bağışlanır..................................................65
19. "Lə iləhə illəllah" tövhid kəlmələri, Allahdan başqasına and içən şəxs üçün kəffarədirlər.........................................................................................69
20. Tövhid kəlmələri «Lə iləhə illəllah» — yaxşı əməllərin ən üstünüdür, necə ki, şirk pis əməllərin ən pisi olduğu kimi ...........................................71
21. Tövhid kəlmələri «Lə iləhə illəllah» göylərdən və yerdən ağırdırlar....74
22. Tövhid vasitəsilə bu dünyada və əbədi dünyada tam əmin-amanlıq əldə edilir.........................................................................................................76
23. Tövhid, qorxu və qəm-qüssədən qurtulmağa səbəbdir.......................81
24. Tövhid əhli, Peyğəmbərin ﷺ şəfaəti sayəsində, ən xoşbəxtlərdən olacaq .....................................................................................................84
25. «Lə iləhə illəllah» tövhid kəlməsi — «gözəl sözdür» və firavan həyatın səbəbidir.................................................................................................85
26. Tövhid səbəbiylə, qan və namus haram olur və Tövhid vasitəsilə insan islamı qəbul edir ......................................................................................87
27. Peyğəmbərin ﷺ, hicrətdən on üç il əvvəl, Məkkədə və Allahu Təalə onun canını alana qədər Mədinədə tövhid dəvəti ...................................89

28. Allah tövhid səbəbiylə insanı şeytandan qoruyur................................91
29. Tövhid məsələlərində, şeytanın vəsvəsələri haqqında danışmamaq — iman saflığındandır.......................................................................................92
30. Tövhid, insanı şeytanın vəsvəsələrindən uzaqlaşdırır ..........................93
31. Allahın kitabındakı hər bir ayə, tövhidə dəlalət edir............................94
32. Allaha edilən ən yaxşı zikr və dua — tövhiddir ...................................95
33. Tövhid vasitəsilə təvəssül — Allahu Təaləya yaxınlaşmağın ən böyük yollarından biridir .........................................................................................97
34. Bütün peyğəmbərlər tövhidə dəvət ediblər......................................100
35. Tövhid — peyğəmbərlərin (aleyhimusəlləm) öz nəsillərinə olan vəsiyyətidir ..........................................................................................101
36. Allah əvvəlki ümmətləri tövhiddən uzaqlaşdıqları üçün həlak etdi....102
37. «əl-Kursi» ayəsi, Qurandakı ayələrin ən yaxşısıdır o, tövhidin müxtəlif növlərinə işarə edir.........................................................................................103
38. Tövhid — Böyük və Qüdrətli olan Allahın, sevgisinə ən böyük səbəbdir.........................................................................................105
39. Əməllər yalnız Allahın tövhidi ilə qəbul olunurlar ............................106
40. Allah tövhid əhlinin qəlbini açır və onu Öz düz yoluna yönəldir, müşrikin halı isə bunun əksinədir..........................................................108
41. Tövhid — Peyğəmbərin ﷺ vəsiyyətidir .......................................109
42. Tövhid kəlmələri İbrahim əleyhissələmın özündən sonrakı nəsli arasında qalan kəlmələrdir....................................................................111
43. Peyğəmbərlərin və salehlərin şirkə düşmək qorxusu, tövhidin vacibliyinə və bu qorxunun başqaları üçün vacib olduğuna dəlildir.........112
44. İnsanların əksəriyyətinin, tövhidlə bağlı yanlış anlayışı və ona riayət etməmələri, onun qayğısına qalmağın vacibliyinə dəlalət edir................116
45. Peyğəmbərimiz ﷺ tövhidə əməl etməyə beyət etdi....................126
46. Şirk kiçik olsa da, onu Allah bağışlamır ............................................128
47. Şirki qadağan edən, ona gedən yolları və vasitələri bağlayan bütün ayələr və hədislər, tövhidin vacibliyinə dəlalət edirlər...........................129
48. Bir quşun, tövhidin qeydinə qalması, tövhidin vacibliyinə və onun qayğısını çəkməyin vacibliyinə dəlalət edir ............................................135

49. Mövcud olan hər şey, Uca Allahı təkləşdirir, şəriki olmayan Tək olan Allahı təsbih edir ........................................................................ 137

50. Pak və Müqəddəs olan Allah, tövhid üzərində olduqlarına görə və Ona qarşı ixlasda etinasızlıq və təkəbbür göstərmədiklərinə görə öz mələklərini tərifləyir ........................................................................ 139

51. Allah, tövhid tərəfdarlarına, dünya həyatında qələbə və yardım, əzəmət və izzət, düz yola hidayət, asan olana tərəf yüngülləşdirmə, vəziyyətlərin islahı, sözdə və əməldə xeyirə yönəltməyi təmin etmişdir 141

52. Allah tövhid əhlini və möminləri bu dünyanın və axirətdə əbədi həyatın şərindən qoruyar, onlara gözəl həyat və orada əmin-amanlıq və Öz zikri ilə salamatlıq bəxş edər ........................................................................ 146

53. Tövhid, insanı məxluqların əsarətindən, onlara bağlılıqdan, onlardan qorxmaqdan, onlara ümid bəsləməkdən, onlar üçün əməllər etməkdən azad edir — və bu azadlıq, əsl əzəmət və ülvi şərəfdir .......................... 148

54. Tövhidə dəvət edən şəxs — elm əsasında Allaha dəvət edən kəsdir 150

55. Tövhid — Uca Allahdan qorxmanın səbəbidir ................................. 151

56. Tövhid — qulun düz yolda möhkəm olmasının əsasıdır ................... 152

57. Tövhid tərəfdarları — həqiqətən imanın şirinliyini dadmış şəxslərdirlər........................................................................ 155

58. Tövhid imanın ən yüksək təzahürüdür ............................................ 157

59. Səhabələrin (Allah onlardan razı olsun) etiqad məsələlərində, ixtilaf etməmələri, onun əhəmiyyətinə və ona nə qədər incəliklə yanaşdıqlarına dəlildir ........................................................................ 158

60. Şirk, şeytanı sevindirir, tövhid isə, onu qəzəbləndirir...................... 170

61. Quranda, tövhid məsələsi istisna olmaqla, bütün sualların cavabı «de» kəlməsi ilə qeyd edilmişdir ........................................................................ 172

62. Allahu Təaləyə olan imanı təzələmək əmri..................................... 174

63. Azan — tövhidin bərqərar olması və onun həyata keçirilməsi üçün, tam kamil bir çağırışdır ........................................................................ 175

64. Namaz — Allahu Təalənın tövhidinin qanunudur ............................ 178

65. Həcc və ümrə ibadəti, Allahu Təalənın tövhidi üzərində qurulub ... 182

66. Allahdan, əməllərdə xeyir istəmək, ancaq tövhidlə olur ................. 187

67. Məclisləri tövhid kəlmələri ilə bağlamaq, Allaha həmd etmək və Onu nöqsanlardan uzaq tutmaq bəndə üçün kəffarədir ................................188
68. Səfeh o kəsdir ki, tövhiddən üz çevirir.............................................189
69. Tövhiddə səhv, yüngül bir şey deyil.................................................191
70. Tövhid — uşaqlara öyrədilən və tərbiyə edilən ilk şeydir..................193
71. Ən böyük ixlas, tövhidi yerinə yetirməkdə, Uca Allah qarşısında olan, ixlasdır və yalnız Ona, Pak və Uca olan Allaha ibadət etməyi əmr etməkdir .........................................................................197
72. Böyük və Qüdrətli olan Allah, bizim üçün bir din olaraq, tövhiddən razıdır və başqasını istəmək icazəli deyildir...........................................198
73. Qəlblərin təmiz olması Tək Allahın tövhidi ilə əldə edilir .................199
74. Tövhid qəlblərdəki kin küdurəti aradan qaldırır...............................202
75. Tövhid — müsəlmanların birliyinin və həmrəyliyinin ən mühüm səbəbidir...............................................................................................203
76. Uca Allaha, Ondan başqasına ibadət edilən yerdə, ibadət edən şəxsə qarşı şiddətli təhdid olunması, tövhidin həyata keçirilməsinin vacibliyinə dəlildir...................................................................................................208
77. Allahın ən gözəl adlarını və ən yüksək sifətlərini təhrif etməklə, mənasını inkar etməklə, bənzətməklə və ya "necə?" sualını verməklə — bu, tövhiddən kənara çıxma və küfrdür .................................................210
78. Tövhid — dəvət edilən xeyir işlərin ən böyüyüdür, necə ki, şirk qadağan olunan və məzəmmət edilən işlərin ən pisidir........................213
79. Tövhid kəlmələri — «ən möhkəm dəstəkdir» ...................................215
80. Tövhiddən möhkəm yapışmaq — bütün xeyirlərin əsasıdır.............216
81. Tövhid kəlmələri — Allahın Kitabında qeyd olunan əhddir ...............218
82. Tövhid kəlmələri — “ən yaxşı” kəlmələrdirlər..................................219
83. Tövhid kəlmələri — «haqqa şəhadətdir» .........................................220
84. Tövhid kəlmələri — «Ən xeyirli və ən çox artan əməllərdirlər və qul azad edilməsinə bərabər olan və şeytandan qoruyan əməllərdirlər».....221
85. Tövhid kəlmələri — «möhkəm sözdür» ............................................222
86. Tövhid kəlmələri — «təqva sözləridirlər» .........................................223
87. Tövhid kəlmələri — doğruluğun həddidir ........................................224

88. Tövhid kəlmələri — «haqqa çağırış»dır ............................................ 225
89. Allahdan başqa, ibadətə layiq, məbud olmadığına şəhadət — «xalis dindir» ........................................................................................ 226
90. Tövhid kəlmələrinə görə, göylər elə açılır ki, onlar Rəhman, Böyük və Qüdrətli olan Allahın Ərşinə çatırlar ...................................................... 227
91. «Lə iləhə illəllah» şəhadətini gətirən şəxs pak (təmiz) qəlbə sahibdir ........................................................................ 228
92. Tövhidə yönləndirmək, «gözəl kəlamlara» yönləndirməkdir ............ 229
93. Tövhid kəlmələri «uca sifətdir» ........................................................ 230
94. Din ancaq tövhid yolu ilə bərqərar olur ........................................... 231
95. Tövhidin, Quran qissələri ilə təsdiqi ................................................. 233
96. Tövhidin Qurandan qissələr (əhvalatlar) ilə təsdiqi ......................... 237
97. Allahın tövhidini, təsdiq etməyənlərlə, əlaqəli olmadığını göstərməyin və onlar ilə əlaqəni kəsməyin vacibliyi.................................................... 245
98. Tövhid tərəfdarları, Peyğəmbərin ﷺ Hovuzuna ən layiq olanlardırlar........................................................................ 247
99. Tövhid tərəfdarlarının öz ölüləri üçün şəfaəti ................................. 249
100. Tövhid üzərində ölüm — xeyirli sonluğa işarədir ........................... 250

**YEKUN**......................................................................................**253**

## QEYDLƏR ÜÇÜN

# المجموع المفيد

## في بيان

# أهمية التوحيد

### ١٠٠ فائدة لأهمية التوحيد

باللغة الروسية

الطبعة الأولى

تأليف

عبد الرحمن بن محمد بن عبد الله العميسان

غفر الله له ولوالديه ومشايخه وجميع المسلمين